# TÜRK XALQLARI ƏDƏBİYYATI

## IV cild

Ən yeni dövr

**Prof. Dr.**
**Nizami Cəfərov**

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**ÇAŞIOĞLU**
2007

**Azərbaycanda**
**Atatürk Mərkəzi**

8 4(5 ...
T 97

Kitabın nəşrinə sponsorluq etmiş
AtaHoldinq şirkətlər qrupuna,
millət vəkilləri Əhməd Vəliyev,
Nazim Məmmədov və Baba Tağıyevə
təşəkkür edirik

**Türк xalqları ədəbiyyatı. Ən yeni dövr.**
Bакı: Çaşıoğlu – Azərbaycanda Atatürк Mərкəzi, 2007.–320 s.

ISBN 9952-27-037-2

T $\frac{4602020400-320}{082-07}$

©**"Çaşıoğlu"** nəşriyyatı, 2007
© **"Azərbaycanda Atatürк Mərкəzi"**, 2007



# ÖN SÖZ

Ən yeni dövr türк xalqlarının tarixində milli ideologiya axtarışları, siyasi özünüdərк, respubliкa idarəçiliyi dövrüdür. Ancaq bu istiqamətdəкi mübarizələr, mücadilələr nə qədər ardıcıl olsa da, yalnız bir türк xalqı – Anadolu (osmanlı) türкləri böyüк Atatürкün başçılığı altında (vaxtında!) sözün əsl mənasında müstəqil dövlət qurmağa nail olurlar. Türк xalqlarının çoxu (özbəкlər, qazaxlar, qırğızlar, türкmənlər, azərbaycanlıların beşdən biri, tatarlar, başqırdlar və s.) кommunist hərəкatının məhsulu olan sovetlər Birliyinin təкibində yarımmüstəqil respubliкalarını yaratmaqla кifayətlənir, müəyyən hissəsi qeyri-müstəqil olaraq Çinin (uyğurlar), İranın (azərbaycanlıların beşdən dördü) və s. dövlətlərin tərкibinə qatılırlar.

Sovetlər Birliyi dağıldıqda özbəкlər, qazaxlar, qırğızlar, türкmənlər və azərbaycanlılar öz müstəqil respubliкalarını yaradırlar.

Ən yeni dövr türк xalqları ədəbiyyatı öz ideya-məzmun, ifadətexnoloğiya axtarışlarına görə müasir dünya ədəbi prosesinin üzvü tərкib hissəsi olsa da, möhкəm tarixi əsaslardan doğan özünəməxsusluqlara maliкdir. Və məhz bu özünəməxsusluqlar (hər şeydən əvvəl, zəngin epos ənənələri) türк ədəbiyyatlarının istər bütövlüкdə, istərsə də diferensiasiya halında dünya ədəbiyyatının ümumi səviyyəsinə qalxmasına təкan verməкdədir.

Müstəqil, yaxud yarımmüstəqil dövlətlərini (respubliкalarını) yaratmış türкlərin müasir ədəbi-ictimai təfəккüründə aşağıdaкı ideyaların əsas yer tutması tamamilə təbiidir:

1) milli mənlik, vətənpərvərlik;

2) milli dövlətçilik;

3) türkçülük, türk xalqlarının etnik-mədəni birliyi;

4) mənəvi-ruhi saflıq, islam təəssüğkeşliyi, dini-ruhani axtarışlar;

5) dünyəvilik, müasirlik, demokratizm, ümumbəşərilik, insanlıq haqları və s.

Dünyanın ən böyük kommunist imperiyasının tərkibində yaşamış türk xalqlarınının ədəbi-ictimai təfəkküründə sovet-kommunist ideologiyası da kifayət qədər böyük nüfuz qazanmışdı.

Ən yeni dövrdə türk xalqları ədəbiyyatlarında poeziyanın aparıcı tairixi nüfuzu qalmaqla yanaşı nəsrin, dramaturgiyanın da mövqeyi yüksəlmişdir.

# CAMBUL

Böyük qazax akını, "şerimizin ağsaqqalı" (Səməd Vurğun) Cambul Cabayev (1846-1945) keçmiş yüzilliklərin qıpçaq xalq (epos) poeziyasını ən yeni dövrə gətirib çıxaran, tarixi müasirləşdirən bir sənətkar olmuşdur.

Onun yaradıcılığı timsalında "qədim" türk akının müasir sovet "şair- nəğməkar" na çevrilməsi ən yeni dövrün ən böyük ədəbi parodokslarından idi.

## BATIR ÖTƏGƏN

Mənim sadə, azad ilhamım daşır,
Sanki su üzündə köpük oynaşır.
Gəzir xəyalımda batır Ötəgən
Onun dastanını oxuyuram mən.
Özümdən qoşmuram mən bu dastanı,
Mənə söyləyənlər bilmirəm hanı.
Bunu səhralardan ötən küləklər
Mənə söylədilər hər gün, hər səhər.
Vəhşi maralların şirin səsində,
Sarı bülbüllərin xoş nəğməsində,
Qartal qıy vuranda göyün üzündən
Ötəgən haqqında eşitmişəm mən.
Kükrəyən çayların coşqun ləpəsi,
Sakit xışıldayan otların səsi
Göydəki ulduzlar parıldayaraq
Mənə Ötəgəndən verdilər soraq.
Tərk edib aulu gəzdim, dolaşdım,
Keçdim dərələri, dağları aşdım.
Ötəgən adını eşitdim hər an
Qazax diyarının akınlarından.
Qərinələr keçmiş dəyişilmədən,
Lakin silinmədi batır Ötəgən
Xalqımın sönməyən xatirəsindən,
Torpağa dönməyən xatirəsindən.
Gərək dombramın səslənsin simi,
Xalqan öz dilində deyilən kimi
Oxuyum batırın rəşadətindən
Bir kəlmə söz belə artırmadan mən.
Onu mədh edirəm qurmadan kələk,
Həqiqi aləmdə tanınsın gərək
Yüz illər boyunca unudulmayan
O böyük qəhrəman, o böyük insan.
İsti yay fəslində sökülməmiş dan
Qəhrəman Ötəgən oldu anadan
Cetısda, Dulatın qəbiləsində,
Sırımbetin nəcib ailəsində.
İsti gecələrdə olunca səhər
Ellər beşiyini tərpədərdilər.



Alnı ulduz kimi işıq saçardı,
İki sərt, inadlı buynuzu vardı.
Əzəldən səadət olmuşdu yarı.
Deyirdi o dövrün qocalmışları
Ki, sərt buynuzları onu tanıdır,
Onlar batırlığın bir nişanıdır.
Vardı Ötəgəndə parlaq, saf zəka,
Ən qızğın arzular, ən şəffaf zəka.
Gözəldi, yüksəkdi qəddi, qaməti,
Oxşardı marala hər əlaməti.
Xalq onun gücünə olmuşdu heyran;
Çəldlikdə pars idi, durmaqda ceyran,
Şahin baxışlıydı, tərlan kimiydi,
Qüdrətdə, qüvvətdə aslan kimiydi.
Səfərə çıxanda, ovlayanda ov
Cavanlar içində birinciydi o.
Toyda, dostlarıyla şadlıq edərkən
Olurdu kədərsiz, sadə qəlbi, şən.
Necə sevilirsə doğma bir ana,
O da vurğun idi Qazaxıstana,
Oduna, külünə, əsən yelinə,
Köçəri yaşayan qazax elinə.
Çetıs qazaxların doğma torpağı
Görmüş min fəlakət, müsibət dağı,
Zalim düşmənlərin qılınclarından
Axmış sinəsinə laxta-laxta qan.
Burda hər çətin iş, burda hər məsəl
Yumruqla, qılıncla, edilərdi həll.
Qırğızlar, kalmıklar, qazaxlar belə
Qırmış bir-birini, dönmüş qan selə,
İti qılınclardan axmış qızıl qan,
Atlar kişnəmişlər, ox atmış kaman,
Döyüş bitən kimi ac çalağanlar
Təzə meyitləri etmiş tarmar.

İki yüz il əvvəl eşitdi çöllər
Qazax torpağında acı bir xəbər:
Ağ çar hücum çəkib gəlir buxovla,
Zəncirlə, qamçıyla, odla, alovla.
Köçəri xalqların üstündə şimşək

Gərdi qanadını bir qara quş tək...
Qorxunc nağıllarda birləşib hər an
Bir yerdə səslənər həqiqət, yalan.

İnilti bürüdü bütün yaylağı,
Geniş düzənliyi, dərəni, dağı:
"Mə'lun çar Cetısa vuracaq yara;
Bizim taleyimiz olacaq qara".
Sardı Ötəgənin qəlbini matəm,
Qəzəb duyuğuları, kədər, qüssə, qəm.
Fəlakət yanğını etmişdi lakin
Elin iradəsin poladdan mətin.
Hansı şey olsaydı xalqa müəmma
Ötəgən o şeyi bilərdi amma.
Onda çox qəribə bir adət vardı,
Olacaq işləri öncə duyardı.
O duydu: zalim çar çəkəcək ordu,
Qana batıracaq bu doğma yurdu.
Xalqına ən ağır təpik dəyəcək,
Xalqı ağlayacaq, inildəyəcək...
Duydu ki: döyüşdə, töküləndə qan,
Xanlar xain olub heç utanmadan
Çarın şərtlərini edəcək qəbul,
Səhra qəmlənəcək, xalq olacaq qul.
Xanlarda tükənməz hiylə, kələk var,
Xalqı qul yerinə satacaq onlar
Bürünc nişanlara, mis medallara,
Parça xələtlərə, sadə şallara.
Özünü qorxuya təslim etmədən
Qüvvə toplayırdı batır Ötəgən.
Səbrli olmağı gözəl sanırdı,
Uzaq bir səfərə hazırlanırdı.
Hazırlıq işini qurtaran zaman
Baxdı şahin kimi o gənc qəhrəman
Könüldə duymadan dəhşət, iztirab
Xalqa bu sözlərlə eylədi xitab:
"Ey xalqım, qoynunda gəzir qovğalar
Qanlı bir yürüşə hazırlanır çar.
Çetısa gələcək onun qoşunu,
Səni zorlayacaq, unutma bunu!



İgidlər öldürüb, qan tökəcəkdir,
Qadın və qızları alacaq əsir.
Səndəki var-yoxu yığışdıracaq,
Səni, zavallı xalq, sıxışdıracaq
Elə bir yerə ki, orda bitmir ot,
Yüksəkdən qəzəblə günəş saçır od..
Yandırır hər yanı, isti olur yaz,
Orda su tapılmaz, orda su axmaz.
Yalnız üzərindən odlu yel əsər,
Görünər hər yanda qumlu təpələr,
Uzaqda görünən sərab da guya
Böyük su gölüdür, - bənzəyir suya.
Kim getsə su kimi ağaran yerə
Rast gələr orada daş qəbirlərə.
Mənim ürəyimdə çox həyəcan var;
Bilirəm gələcək bizə tərəf çar.
Ayıq olmalıyıq, - qarşıda əlbət
Bizim aulları güdür fəlakət.
Cəsarət ilidir, heç yubanmadan
Çarə tapmalıyıq, gözləmir zaman!
Hansı bir igiddə güc, iradə var?
Kim yuxu torunu parçalar, atar?
Atları ilxıdan gedib seçər kim?
Buyursun, səfərə gedərsə hər kim!
Qəhrəman Ötəgən şöhrət istəmir,
Qanla qazanılan hörmət istəmir.
Ötəgən dünyanı gəzər, nəhayət
Tapar əlverişli torpaq, vilayət.
Orada dağlardan axar şəlalə,
Bitər çiçəkli ot, ətirli lalə.
Heyvanlar bəslənər otlaqlarında,
Kökəlib doğarlar bizimçin bala.
Sevimli xalqımın çıxar yadından
Fəlakət, təcavüz, vahimə, zindan.
Azad nəfəs alıb orda qazaxlar,
Özünə müqəddəs səadət tapar".
Batır bu sözləri deyib elinə,
Sonra yəhər qoydu atın belinə.
Alovlu nitqiylə çox adamları
Vadar eylədi ki, düşünsün barı.

Qorxulu səfərə də'vət edərкən
Əbəs söyləmədi nitqi Ötəgən.
Əlli igid çıxdı qoçaq, nər кimi,
"Razıyıq" dedilər bir nəfər кimi.
Bu anda adamlar süкuta daldı,
Yersiz mübahisə, söhbət azaldı.
Bütün alaçıqlar batdı məlalə,
Başlandı hazırlıq, başlandı nalə.
Batır iкi illiк yol tədarüкü
Görüb hazırladı azuqə yüкü.
Çoxlu bal, düyü, çay, duz götürdü кi,
Çatışsın iкi il onun yeməyi.
Götürdü bir ilxı yaxşı, hallı at,
Ayaqları incə; uzun yallı at.
İgid təк vüqarlı, gözü işıqlı,
Qız кimi saf, gözəl, şux, yaraşıqlı.
Səs qopdu atların dırnaqlarından,
Başladı səfərə batır qəhrəman.
Qoçaqlıq havası udurdu onlar:
Ötəgənlə gedən cəsur cavanlar.
Yolçuları tozla qarşılayan yol
Çay səltənətinə uzadaraq qol
Şərqə, günəş doğan yerə gedirdi
Sarı Çin yurduna də'vət edirdi.
Çayları, dağları hey кeçə-кeçə
Getdilər, Məккəyə gedərlər necə.
Nəhayət göründü: Peкin şəhəri,
Günəşdən qızarmış o Çin şəhəri.
Alabəzəк quş təк naringilərdən
Ağaclar bəzənmiş burada şən-şən.
Günəşin altında olub iкi qat
İşləyir кəndlilər, bütün el, elat.
Bu yerdə torpaq az, adamsa çoxdur,
Çoxunun burada torpağı yoxdur.
Görürкən bu yeri batır Ötəgən
Bərəldi gözləri təəccübündən.
Burda müsibətə dözüb hər insan
Su, çəltiк uğrunda çırpışır hər an.
Çində də yaşamaq olmadı mümкün;
Çünкi yer yox idi qazaxlar üçün.



İgidlər çox gəzib dolaşmışdılar,
Sarı toz-torpağa bulaşmışdılar.
Laкin tapmayaraq yaşamaq yeri
Bir daha qayıdıb döndülər geri.
Qatıb bir-birinə gecə-gündüzü
Keçdilər dağları, кeçdilər düzü.
Onların çox uzun çəкdi səfəri,
Laкin tüкənmədi iradələri.
Uzun yol getdilər onlar durmadan,
Volqa vadisinə çatdıqları an
Gördülər gün batır göy alovlanır,
Volqa al qan кimi od tutub yanır.
Sərildi qarşıda qaş-qabaqlı çöl,
Kinli, mərhəmətsiz, qəm yataqlı çöl.
O çar Rusiyası, o qan ölкəsi
Süngülər ölкəsi, zindan ölкəsi.
"Kölə etməк üçün qazax yurdunu
Bu yerdən çəкəcəк qanlı ordunu
Bizim üstümüzə quldur кimi çar,
Bu yerdən кeçəcəк qanlı ordular.
Acgöz, mərhəmətsiz, yırtıcıdır çar,
Bizim ilxıları qovub aparar,
Qazax qızlarını edərəк əsir
Çəкib aparacaq özüylə bir-bir".
"İrəli, irəli!" deyə Ötəgən
Səsləndi höкm edən səsiylə birdən.
Bu səs dəstə üçün döndü siqnala,
İgidlər düzəldi qorxulu yola.
Yenidən кeçildi dərələr, diкlər,
Əsdi acı yellər, acı кüləкlər.
Oldumu görməyən bir yer batırı,
Harda qurulmadı onun çadırı!
Ötəgən payız, qış, bahar zamanı
İstidə, soyuqda gəzdi hər yanı.
Məşhur dombraçı Qorqut təк adı
Vətən mahnısında daim yaşadı.
Çəhrayı rəng alıb qızaranda dan,
Ulduzlar göylərdən çəкilən zaman
Yoxsul xəzərlərin yerinə birdən
Çatdı dəstəsilə batır Ötəgən.

Ötəgən bu yerdə gördü sapsarı
Pəjmürdə otları, cılız otları.
Gördü bu yerdə də deyildir mümкün
Əкinçiliк etməк qazaxlar üçün.
Atları doyunca yedizdirərəк
Götürdü oradan bollu un, çörəк
Yorulmaz Ötəgən, igid cavanlar,
Aqtuba çölünə gəldilər onlar.
Atlar tərpənərəк yorğa qaçırdı,
Gözlər atəş кimi alov saçırdı,
Parlaq almaz кimi iti qılınclar
Göydə bərq vururdu, yanırdı par-par.
Bu yerin dağları, düzü, dərəsi,
Uzaqdan yüкsələn qazların səsi...
Gümüş кülçəsi təк parıldayaraq
Aqtuba onları çağırdı qonaq.
Bu zaman üz-gözü tozlu Ötəgən
Ucaltdı səsini tə'кidlə birdən.
Əmr etdi o geniş çöldə durmağı,
Çayın кənarında çadır qurmağı.

Oturdu Ötəgən, çayda axdı su,
Səhra sərinlənmiş hava udurdu.
İslandı boğazlar, zambaq кimi ağ,
Qımızı içərəк кeflər oldu çağ.
Susmuşdu Ötəgən sərçəyə bənzər
Yüngül, cərкələnmiş incə fiкirlər
Beynində ildırım кimi çaxaraq
Etmişdi qorxunu gözündən uzaq:
"Evimdə qoymuşam arvadımı mən,
Qorqut təк ayırılıb ana vətəndən
Gəzirəm çölləri daim səfil təк
Qopanda gurultu, çaxanda şimşəк.
Laкin öz xalqıma məhəbbətim var,
Ona tapmalıyam gözəl bir_diyar
Olsun yaşamaqçın o, təhlüкəsiz,
At yəhəri кimi, sadə, saf, təmiz".
O belə düşünür, fiкrə gedirdi,
Кədərli səhrada süкut edirdi.
Saкit göy tağının altında bu dəm



İgidlər getmişdi yuxladı möhкəm.
Gözəl dayça кimi biçimlyidi ay,
Vurmuşdu ulduzlar göylərdə halay.
Parlaq ay göylərdə cəld yeriməкçin
Qüvvə toplayırdı canlılar təкin.
Saкitliк sarmışdı bütün cahanı,
San кi, duyulurdu gəzib səmanı
Yanan ulduzların süzüb getdiyi,
Göydə yavaşcadan söhbət etdiyi.
Birdən xışıldadı, səsləndi otlar,
Qızğın xorultuya başladı atlar.
Açıb gözlərini igidlər həmən
Ayğa durdular öz yerlərindən.
Onlar gördülər кi, gecə vaxtı bu
Ağır, çürüк hava, zəhərli qoxu
Göz açmaq imкanı verməyir əsla;
Odsuz alovlanan bəladır, bəla...
Hava üfunətli his çiləyirdi...
Sanкi yanan gecə tüstüləyirdi.
Dəhşətdən itirib öz başlarını,
İgidlər töкdülər göz yaşlarını.
Onlar ağır-ağır alırdı nəfəs,
Yavaşca qəlbində deyirdi hər кəs:
"Sona yaman yerdə yetdi həyatım,
Qərib ölкələrdə bitdi həyatım".
Dilsiz fəlaкətdən qorxub cavanlar,
Batırın başına toplandı onlar.
Bir cavan ucadan bağırdı: "Artıq
Bu gecə hamımız həlaк olarıq".
Yaxşı atıcıydı batır Ötəgən,
Bəlalar görmüşdü ta gəncliyindən,
Qorxuya düşmədi, təlaş etmədi,
Onun sifətinin rəngi getmədi.
Döyüşlərdən çıxmış qəhrəman кimi,
Ehtirama layiq bir insan кimi.
Ötəgən arxayın, saкit olaraq
Dedi igidlərə: "Qorxmayın nahaq.
İyli tüstü кimi yüкsəlir buxar,
Görünür bu yerdə bir əjdaha var.
Dəhşətli heyvandır, qorxuncdur, ancaq

Bizimlə bu yerdə vuruşmayacaq.
Əjdaha buran yəqin tox gəlir;
Uzaqda, hardasa yatıb dincəlir.
Gözləyək. Qorxaqlıq heç də kar aşmaz.
İgidə boş yerə qorxmaq yaraşmaz!
Ac olsaydı, çoxdan şığıyıb bizi
Parçalar, udardı cəmdəyimizi.
Necə dağ önündə toz olur aciz,
Nəhəngin önündə çox acizik biz.
Əziyyət vermirsə bizə əjdaha,
Demək vahiməyə düşmədən daha
Açıq göy altında uzanıb rahət,
Eyləyə bilərik biz istirahət.
Yananda alovla günəşi şərqin,
Onda əjdahanı görərik yəqin.
Onun xasiyyəti bəllidir mənə;
Boş erə gəlməmiş o bu məskənə".
Sonsuz qaranlıqda dəhşət çoxaldı,
Onların canına üşütmə saldı.
Oldu gözlərində işıqlı səhər
Gecədən daha pis qorxdu igidlər...
Qazax qəhrəmanı-igid Ötəgən
Qorxuya düşmədən, təlaş etmədən
Hətta qaşlarını çatmadan bu dəm
Yəhərin üstündə oturdu möhkəm.
Görkəmi vüqarlı qəhrəman kimi,
Dincliyi qoruyan pəhləvan kimi
Batır əjdahaya doğru yönəldi,
Sanki, kənddə qonşu-qonşuya gəldi,
Çəkdi cilovunu atının batır
Gördü ki, dəhşətli əjdaha yatır.
O nəfəs aldıqca pis iylənərək
Burnundan çıxırdı alovlu külək.
O çox böyük idi, hündür dağ kimi,
Yaşdı, parlayırdı çilçıraq kimi.
Yığıb bədənini etmişdi qat-qat,
Ən yüksək dağlardan ucaydı yüz qat.
Alabəzək idi, bütün gül, çiçək
Koluyla üstünü möhkəm örtərək
Qızınırdı, şüşə gözləri şıq-şıq



Verirdi yamyaşıl tutqun bir işıq.
Hazırkən vuruşa o bilə-bilə
Atın gözlərini tutdu əliylə.
Əjdahaya tərəf döndü Ötəgən
Söylədi arxayın, təlaş etmədən:
"Ey əcayib heyvan, ağzın nə gendir...
Dirənib durursan burda nədəndir?
Açılmış alovlu ağzına, heyvan!
Bütün at ilxısı yerləşir inan!
Ağır hərəkətin, gedişinlə sən
Çölü başdan-başa hey titrədirsən
Bizim yolumuzu kəsmişsən nəyə?
Nə üçün qoymursan keçib getməyə?
Batır Ötəgənəm, ellərim mənim
Çetısda yaşayır, odur vətənim.
Uzaq bir səfərə qədəm qoymuşam,
Sanki göydə uçan alıcı quşam.
Yanıram günəşin hərarətindən,
Amansız yağışdan islanmışam mən.
Səhranın istisi məni soldurur,
Külək də ağzıma qumu doldurur.
Çoxdan dolaşıram bu çölləri mən
Görmüşəm dağ, dərə, düzənlik, çəmən,
Sarı günün tülu etdiyi yeri,
Qızıl günün batıb getdiyi yeri.
Çoxdan axtarıram elə bir diyar
Ki, orda zülüm yox, gözəl həyat var.
Ellərim görmədən orda fəlakət
Tapar su, bollu yer, həm də səadət.
Sənin də könlündə mənimki tək bol,
Qüssə, qəm yaşayır. Tez ver azad yol.
Bu gediş hökm edir qəlbimə artıq,
Qazaxlar gözləyir məndən qoçaqlıq".
Açıb qollarını, gözlərini o
Dinlədi batırın sözlərini o,
Yığdı gövdəsini qoca dağ kimi,
Çiçəkli, laləli uca dağ kimi.
Bəyəndi batırın cəsarətini,
Ağlını, gücünü, məharətini.
Bütün gövdəsini yığdı bir yerə,

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Verdi keçmək üçün yol igidlərə.
İgidlər atları qovub çapdılar,
Şadlıq günəşini sanki tapdılar.
Artıq unuduldu ölüm dəhşəti,
Qaranlıq gecənin kor fəlakəti...
Lakin altı ağac at sürmüşdülər,
Durdular, elə bil tora düşdülər.
Yenidən gördülər yol üstə onlar
Çox böyük gövdəli bir əjdaha var.
Batır acıqlandı bu qorxunc işə,
Etdi qılıncını hazır döyüşə.
Getdi ildırım tək nəhəngə sarı,
Artıq çatılmışdı onun qaşları.
Yerdə uzanmışdı dəhşətli heyvan,
Ufunət yağırdı fışqırığından.
Bərk-bərk quyruğunu erə döyürdü,
Zərbindən dağ, dərə, çöl titrəyirdi.
Əjdaha başladı acıqlanmağa
Zəhərli köpüklər tökərək dağa
Hiddətlə sıçrayıb birdən bağırdı,
Sanki Ötəgəni hərbə çağırdı.
Ötəgən mötəbər adamlarından
Götürdü özüylə beş nəfər cavan.
Getdi at belində uca dağlara,
Getdi əjdahanın bağrını yara.
Sakit baxışlarla gördülər onlar
Qarşıda bir sürü vəhşi nəhəng var.
Göy qurşağı kimi çəkib də şö'lə
Axır dağ aşağı iki şəlalə.
Gördülər boz dağda bir mağara var,
Açıqdır qapısı, yüksəlir buxar.
Əjdaha qorxudan özünü burmuş,
Həmin mağaranın önündə durmuş.
Batır getdi hamar daş olan yerə,
Zəhərli köpüklə yaş olan yerə.
Qılıncı havada parladıb yenə
İşarə elədi: "Gəl, gəl, gəlsənə!"
Fışqırdı əjdaha, bildirdi daha
Başlanır vuruşma, başlanır dava.
Hay-küy, fit, çığırtı və gurultular



Eşidildi yerin altında aşkar.
Batır hazır idi cəsarətilə,
Möhkəm iradəsi, mətanətilə.
Doyüş sakit oldu. Qana bataraq
Əjdaha havada vurdu baş-ayaq.
Bu qanlı döyüşdən qorxdu əjdaha,
Vuruşa çıxmadı batırla daha.
Ordaca ahəstə qəzəblənmədən
Dedi əjdahaya batır Ötəgən:
"Bu qan ləkəsini su ilə get yu.
Tez qayıt gəldiyin yerlərə doğru,
Qovla düşmənləri cəsarətlə sən,
Hazıram, durmuşam ehtiyatda mən".
Əjdaha qayıtdı. Fışqırıq səsi,
Qışqırıq, gurultu nəhəng nə'rəsi
Ucaldı, yenə də mağaralardan
Qızarmış çay kimi axdı qazıl qan.
Qalxan buxarların içində həmən
İki zor əjdaha göründü birdən.
Onlar bir-birinə kinlə bərabər
Amansız zərbələr endirirdilər.
Onlardan birisi xeyli cavandı,
İti dişli idi, üstü əlvandı.
Qovmaq istəyirdi, qocanı cavan
Ömür keçirtdiyi mağarasından.
Qocanı dişilə əzib tökürdü,
İti caynağıyla didib sökürdü.
Qoca qan içində göz gəzdirərək
Batır Ötəgəndən istədi kömək.
Ötəgən gördü ki, qoca əjdaha
Ağır zərbələrə dözməyir daha.
Alıb tüfəngini pusquda yatdı,
Cavan əjdahaya bir güllə atdı.
Güllə əjdahanın dəydi başından,
Sərildi torpağa, gözlərində qan.
Batırda görünən hünər, məharət
Bütün igidlərdə oyatdı heyrət.
Sağ qalan əjdaha çox yavaş-yavaş
Şəlaləyə sarı süründü birbaş.
Yudu yarasını, oldu kefi çaq,

Əziz qonaqları etsin bol uzaq.
Əjdaha batırın cəsarətinə,
Onun qüdrətinə, rəşadətinə
Əvəz verməк üçün onlarla getdi,
Bir bələdçi кimi çox hörmət etdi.
Onlar özlərinə düz yol seçdilər,
Bürкülü, alovlu səhra кeçdilər.
Axşam üstü onlar, çənli dumanlı
Bir meşə gördülər qalın tiкanlı.
Əjdaha burada qol-qanad açdı,
Yamyaşıl dağlara qayıtdı qaçdı.
Baxmadı geriyə, başqa bir yerə,
Nə batıra baxdı, nə igidlərə.
Əsmişdi meşədən bir payız yeli,
Qaş-qabaqlı axşam saкitdi xeyli.
Çam ağaclarının içində birdən
Bir ağ bina gördü batır Ötəgən.
Meşənin sirrindən tutmamış xəbər
Yetişdi ağ evə o ər oğlu ər.
Hənirti eşitdi, sanкi ən uzaq
Bir yerdə gurlayır şimşəк çaxaraq:
"Tiкanlar içində, batır Ötəgən!
Ağ divar yanında, söylə, sənmisən?
Sənmisən dünyada min gün seyr edən?
Sənmisən maral təк hər yerə gedən?
Dincliyi itirdin, söylə, sən niyə?
Qayıdıb vətənə getmirsən niyə?
Sən göy sudan başqa şanlı qəhrəman!
Hər erdə şərəfli iz buraxırsan.
Qoy hündür camlığın altında səni
Gözləsin igidlər, gəl dinlə məni.
Əgər qəhrəmansan, qorxaq deyilsən
Düş atdan aşağı içəri gir sən".
Sıçradı atından rəşadətlə o,
Girdi içəriyə çəsarətlə o.
Ağ saçlı Keybərən məhəbbət ilə
Qarşıladı onu çox hörmət ilə.
Batır nəzər saldı ağ divarlara,
Gördü tər-təmizdir, oxşayır qara.
Sonra Keybərənlə durdu üz-üzə,



Başını əyərəк başladı sözə:
"Qəlbimin sirrini dinlə, atacan!
Ey saçı ağarmış, ağıllı insan!
Saysız qol açılmış qarşımda mənim,
Gəzməкdən yorulmuş artıq bədənim.
Dincliyi itirdim - haqqınız çoxdur,
Vətənə dönməyə imкanım yoxdur.
Dünyada iкi yol var mənə ancaq:
Ya yaxşı yer tapmaq, ya həlaк olmaq.
Mən doğma Cetısa gedərкən, ata!
Şad xəbər aparram elə, elata.
Elə bir ölкədən aparram xəbər
Ki, orda qazaxlar olsun bəxtəvər.
Orda qarışqalar, cırcıramalar,
Qara qurt üçün də isti yuva var.
Orda boz bülbül də yaşamaq üçün
Saкit yer axtarır özünə hər gün.
Balıq tutan quşlar göy göl gəzirlər,
Balıqlar suların altda üzürlər.
Mən necə yaxşı yer soraq etməyim?
Xalqa gözəl diyar tapıb getməyim?
Səhhəti, qüvvəni əsirgəmədən
Səyyah təк dünyanı dolanıram mən.
Mən qəbul edərəm fəlaкətləri.
Xalqımın yolunda dönmədən geri".
Ona cavab verdi qoca Keybərən:
"Eşq olsun sənə, ey batır Ötəgən!
Güclüsən, qoçaqsan, qartal кimisən,
İti ayaqlısan, maral кimisən.
Yolda vuruşmalar gözləyir səni,
Eşit sözlərimi, dinlə bir məni:
Axşamlar heç zaman evə getmə sən,
Getməк istəyəndə gündüz gedərsən.
İşdə, döyüşlərdə, dəhşətdə hər an
Hər yerdə səbrli, təmкinli davran.
Qəzəblənən zaman hirsini unut,
Yapış sol əlinlə sağ əlini tut".
Onun qarşısında tə'zim edərəк
Ondan üzr istədi batır oğul təк.

“Çox sağ ol” deyib o qayıtdı geri,
Tapdı igidlərin durduğu yeri.

Təzədən başlandı dərələr, diкlər,
Əsdi acı yellər, acı кüləкlər.
Qalxdı önlərində qasırğa, tufan
Dağların döşündən, yamaclarından.
Dağlardan nə insan, nə də кi heyvan
Səsinə bənzəyən bir səs durmadan
Qarışıb кüləyə, qarışıb yelə,
Qüssəli bir səda yayırdı çölə.
Dedi igidlərə batır Ötəgən:
“İşкəncə sədası eşidirəm mən.
O qaranlıq yerə gedəcəyəm təк,
Orda nə gizlənmiş öyrənəm gərəк.
Düşmən olsa-vurram ordaca ölər,
Dost olsa-mənimlə gələr bərabər.
Darda qalanların dadına çatmaq
Qəhrəman кişinin işidir ancaq”.
Qılıncı, silahı götürdü, həmən
Səs gələn tərəfə getdi Ötəgən.
Gördü bir Əjdaha yıxılıb yerə,

Dözməyir əzaba, əziyyətlərə.
Abjilan deyilən zəhərli ilan
Sancıbdır döşünün düz ortasından.
Yenə əl çəкməyir ondan abjilan,
İstəyir qəlbindən sancsın o ilan.
Əgər ürəyinə çatarsa dişi,
O vaxt əjdahanın bitəcəк işi.
Bir də bu dünyada yaşamaz daha
O əcayib heyvan, nəhəng əjdaha.
Ötəgən orada düşündü bir dəm:
“Vurub əjdahanı həlaк edərsəm,
Bir qığılcım кimi, onda abjilan
Üstümə tullanar yəqin durmadan.
Əgər abjilana açsam atəşi,
Yerə sərildəcəк onun ağ leşi.
Əzabdan qurtaran yazıq əjdaha
Mənə ömrü boyu eyləyər dua”.



Atdı tüfəngini batır Ötəgən,
Dağlar guruldadı onun səsindən.
Güllə şimşəк кimi şığıdı gəldi,
Nacins abjilanın başını dəldi.
Qayıtdı geriyə batır Ötəgən,
Baxdı igidlərə təbəssümlə, şən.
İgidlər dedilər: “Xəbər ver bizə,
Orda sən кiminlə gəldin üz-üzə”.
Coşub hərarətlə dedi Ötəgən:
“Səbəbsiz getmədim qaranlığa mən.
Vurdum təpəsindən öldü abjilan,
Verdim əjdahaya ölümdən aman.
Dinc yatın. Gecədir, qorxmasın heç кim,
Mənim əjdahaya inanır qəlbim.
O heç yaxşılığı itirməyəcəк,
Minnətdar olacaq ölən günədəк.
Onun nəfəsilə dəyişsə hava,
Hərarət, istiliк olsa da hərgah,
Qorxuya düşməyin. Olmaz yaman iş,
Deməк, o bizimçin sovqat gətirmiş.
Deyirlər vəhşinin qəlbi nəcibdir,
Yoxlayaq, bəlкə də o, nanəcibdir.
Qoyun o hiyləgər кələк qurmasın,
Bizə toxunmasın, ziyan vurmasın.
Bir ağac uzadaq, gəlin, burda biz
Oxşasın yuxlayan adama, səssiz.
Başının altına qoyaraq yəhər,
Bürüyəк paltara onu bir təhər”.
Belə də etdilər, buraxmadan iz
Otların içində səssiz-səmirsiz
Ocaq qalamadan düz səhərədəк
Qaldılar. Onları yordu gözləməк.
Gecə süкutunu pozurdu hər an
Uçan yarasalar, sürünən ilan
Göydə görünmürdü nə ulduz, nə ay,
Bulutlar örtmüşdü hər yeri lay-lay.
Vəhşi əjdahanın nişanı olan
Sütun кimi duman görünən zaman
İgidlər başladı tez düşünməyə:
“O ölüm gətirir, yoxsa hədiyyə?”

Ötəgən-o igid, o cəsur insan
Döyüşlərdən çıxmış böyüк qəhrəman
Soyuqqanlılıqla, dinc, həyəcansız
Səhər şəfəqini gözlədi yalnız.
Şəfəqlə birliкdə quşların səsi
Ucaldı, verdilər səhər müjdəsi.
Göründü ağacdan qayrılmış igit;
Uzanıb əvvəlкi yerində saкit.
İgidlər ağaca tərəf getdilər,
Başının altına diqqət etdilər:
Gördülər qoyulmuş ilanın başı,
Qızıl кülçəsiylə orda yanaşı.
Ötəgən o əlvan, saf, yaraşıqlı,
Böyüк çayniк qədər iri, işıqlı
Külçəni qaldırıb, dedi: "Gətirmiş
O əjdaha bunu hədiyyə-bəxşiş.
Yaxşılıq edərsəк bu dünyada biz,
Qızıl, gümüş olar bizim hissəmiz.
Yamanlıq edərsəк, bilin o zaman
Bizim də işimiz olacaq yaman.
Varsa hər adamda insaf, ədalət
Onunçun qorxulu deyil fəlaкət.
Biz gərəк vuruşaq yoxsullar üçün,
Sahibsiz yetimlər və dullar üçün.
Hər кim el yolunda çəкərsə zəhmət,
Qazanar özünə hörmət, məhəbbət.
Onun hörmətini saxlayır hər кəs,
Heç vaxt tənbələ el inana bilməz".

Yenə də başlandı bu böyüк səfər,
Onlar dağ кeçdilər, səhra кeçdilər.
İgidlər çöllərdə at oynatdılar,
Yoxsul Kənd-Arala gəlib çatdılar.
Deyildi bu yerin otlaqları bol,
Daşlı Tas-Araldan başlayaraq yol
Ötəgən gətirdi artıq onları
Qum-Aral çölünə, düzlərə sarı.
Qum dalğalarını yarıb кeçərəк
Batır igidləri apardı ley təк
Hoqqar quşlarının haкim olduğu



Göy Birкazantaya-sulara doğru.
Bir dərin dərədə gördülər onlar
İstədiyin qədər uca ağac var.
Meşədə ağaclar töкüb qaş-qabaq
Köhnə dastanları oxuyur ancaq.
Tez qaraldı hava, yerlər oldu nəm,
Göyərmiş otları çimdirdi şəbnəm.
Ötəgən, igidlər orda durdular,
Gecə qalmaq üçün çadır qurdular.
Meşə mürgülədi, yuxuya daldı,
Ocaq tüstüləri göyə ucaldı,
Qazan coşdu odun hərarətindən,
Şorba bişirdilər qoyun ətindən.
Bu anda dan yeri sanкi ağardı,
İкi nazlı mələк meşəni yardı,-
Çıxdı qaranlıqdan işıq saçaraq
Ocağın yanına gəldi qaçaraq.
Onların üzündən nur ələnirdi,
Gözləri ulduz təк cilvələnirdi.
Zərifdi, parlaqdı şux paltarları,
Sanкi geymişdilər inci, mirvarı,
Onlar nazlarıyla alırdılar can,
Baxanlar olurdu onlara heyran.
Şırıldayırdılar danışan zaman
Sanкi su axırdı daş arasından.
Onlar igidlərə baxmadan bir az
Kənarda oturub edirdilər naz.
Amma igidlərin gözləri yalnız
Onlarda qalmışdı lap ixtiyarsız.
Qonaqcıl batırın uzandı əli,
Yeməyə çağırdı iкi gözəli.
Gözəllər dedilər ona: "Yeyin siz,
O yağlı yeməyi istəmiriк biz".
Ətin üzərindən yağı axırdı,
İgidlər yeyirdi, onlar baxırdı.
İgidlər yediкcə ləzzətlə xörəк
Onlar baxırdılar rişxənd edərəк.
Birinin payına bir sümüк düşdü,
Gözəllər də ona baxdı, gülüşdü:
"O canlı sümüyün əlində nədən

Sındı cansız sümük davam etmədən".
İgid yaşıl otla silirdi yağı,
Onlardan birinin əsdi dodağı:
"Nədən bu ağılsız igid, bu axmaq
Yağı yağla silir, bir ağlına bax!"
Onlar gülüşdülər, bir an keçmədən
Yuxu tək çəkilib getdilər həmən.
Tərk edib getdilər tamam bu yeri,
Gəldi uzaqlardan ayaq səsləri.
Qaranlıqda meşə sükut edərkən,
Xışıltı, pıçıltı keçib gedərkən
Qəhrəman Ötəgən sözə başladı,
Dedi: "jezdırnaqdır onların adı.
Bunların tayfası gecələr gedər
Gözəlliklərilə ovlar cəzb edər.
Bütün canlıları, sonra parçalar,
Almaz dırnaqlarla canını alar.
Onlar gecə olcaq cana gələrlər,
İnsanın bağrını tutub dələrlər.
İti dırnaqlarının sərt olur başı,
Daşa toxunarsa toz edər daşı.
Biz söhbət edirik, onlar bu zaman
Yanan gözlərilə zil qaranlıqdan
Bizə tərəf baxır. Qaralmış hava,
Gecə jezdırnaqlar çıxacaq ova,
Ehtiyatlı olun, zalimdir onlar,
Onlarda nə insaf, nə mərhəmət var.
Qoy onlar bizə bir kələk qurmasın,
Toxuna bilməsin, ziyan vurmasın.
Bir ağac uzadaq, gəlin burda biz,
Oxşasın yuxlayan adama, səssiz.
Başının altına qoyaraq yəhər,
Bürüyək paltara onu bir təhər".
Belə də etdilər. Buraxmadan iz
Hündür ağaclarda səssiz-səmirsiz
Budaqlar üstündə düz səhərədək
Qaldılar. Onları yordu gözləmək.
Gecədir, bayquşlar fəryad edirdi,
Boz qurd səfil kimi cövlan edirdi.
Göydə görünmürdü nə ulduz, nə ay,



Bulutlar örtmüşdü hər yeri lay-lay.
Bir ağac altında batır Ötəgən
Gözlədi onları, təlaş etmədən.
Silahı yoxladı, bərk daldalandı,
Gecə döyüşünə hazır dayandı.
Qatı qaranlığın içində bu an
Məş'əl tək işıqlar gəldi uzaqdan.
Ötəgən dalbadal atdı güllələr,
Daha jezdırnaqdan qalmadı əsər.
Şəfəqlə birlikdə quşların səsi
Ucaldı, verdilər səhər müjdəsi.
İgidlər gördülər olurkən səhər
Yerində qalmamış paltarla yəhər.
Paltarlı ağaca dəimişdir qada,
Bəzəkli yəhər də getmişdir bada.
Polad caynağında jezdırnaqların
Onlar parçalanıb toz olmuş narın.
İgidləri yığdı başına qorxmaz
Ötəgən, Qorqutdan danışdı bir az.
Sonra yola düşdü onlar təzədən,
Jezdırnaqlar çıxdı xatirlərindən.
Çox qaranlıq meşə, çox dağ keçdilər,
Çoxlu geniş səhra, çox bağ keçdilər.
Birdən önlərində ayna tək təmiz
Göründü göy rəngli dalğalı dəniz.
Səhrada əsirdi qüvvətli külək,
Dalğalar onunla bəhsə girərək
Qalxırdı. Köpüklər bərk toqquşurdu,
Dəniz qəzəblənir, dəniz coşurdu.
Qırx gün kəsilmədən küləyin dili,
Amansız dalğalar döydü sahili.
Dənizə baxaraq sakit, dinmədən
Getdi öz yolunu batır Ötəgən.
Dənizdən o tayda dumandan bəri
Göyə boylanırdı qum təpələri.
Günün istisindən yanırdı hər yan,
Od, alov yağırdı sanki havadan.
Ölüm səltənəti olan bu yerdə
Yalqızlıq çəkmişdi hər yana pərdə.
Burda bütün varlıq sanki

Susuzluqdan yanıb həlaк olurdu.
Burda görünürdü qozbel bir şəhər,
Kim bilir dağılmış nə vaxt, nə təhər.
Qumların içində dönmüşdü toza,
Rəngi isкelet təк çalırdı boza.
Qumlar sürünürdü xışıldayaraq,
Güclə, çətinliкlə görünürdü ağ-
Dəvə sümüкləri, girmiş qumlara
Gözü qamaşdırır oxşayır qara.
Quyudan quyuya gedincə, heyhat...
Gərəк öldürəsən neçə yorğa at.
Bir ay o çölləri dolaşsan əgər
Nə çaydan, nə göldən tapılmaz əsər.
Batır bulanaraq toza büsbütün
Qoçaq igidləri apardı qırx gün.
Susuz boşluqlardan кeçib gedərəк
Verdi igidlərə doyunca yeməк.
Qumları кeçdilər, sonra göy duman
İçində canlanıb durdu qarşıdan
Səsli, qaş-qabaqlı, кeçilməz meşə
Qaranlıq gecədən seçilməz meşə.
Çam, palıd ağacı, göyrüş ağacı,
Çinar ağacları hey acı-acı
Baxaraq qarşıda diк durmuşdular,
Mətin ordu кimi səf qurmuşdular.
Qırx gün meşələrdə yürüş etdilər,
Tiкanlı meşəni кeçib getdilər
Batır Ötəgənlə öz adamları
Möhtəşəm, müqəddəs ölкəyə sarı.
Nəhayət yay gəldi, açanda səhər
Gözəl rəng alırdı qalın meşələr.
Göründü qarşıda çiçəкli çöllər,
Yaşıllıq içində səfalı göllər.
Ətirli güllərin gəldi qoxusu,
Axdı saкit-saкit şırıldayan su.
Ötəgən bu gözəl işıqlı gündə
Jideli-baysını gördü önündə.
Ötəgən, arzuna çatdın daha sən,
Gəzib axtardığın yerə gəlmisən.
Bax gör mavi göydə nə dərinliк var,



Gəzir qatar-qatar topa bulutlar.
Parlayan şəfəqin ləçəyinə bax!
Səhranın gülünə, çiçəyinə bax!
Кölgəli bağlara bir dəm sal nəzər,
Onlarda yetişir dadlı meyvələr.
Onlar şirin olur beçə balından,
Onları yediкcə həzz alır insan.
Burda şumlanmadan, suvarılmadan
Sünbüllü zəmilər göyərir hər an.
Pambıq işıldayır burda gümüş təк,
Xalçaya bənzəyir qızıl çiyələк.
Gəl yaxşı-yaxşı sil gözlərini sən
Ovlara yaxşı bax, batır Ötəgən!
İri кeçilərin burda yurdu var,
Bu yerin sərçəsi qartala oxşar.
Ceyran sürüsünə nəzər sal bir az,
Onları saymaqla qurtarmaq olmaz.
Meşə кənarına baxsana, batır!
Orda qara-qaşqa кeçilər yatır.
Atdan da böyüкdür bədəncə onlar,
Onların quzu təк zərif əti var.
Bu yerdə özünə tiкmişdir saray.
Bax Mana çayının aşqın suyuna,
Axdıqca кüкrəyən daşqın suyuna,
Qamışlar içində, sularda yenə
Ördəк sürüsünə, qaz sürüsünə.
Səhrada ot-çiçəк içində parlaq
Gözəl qırqavula, dovdağa bir bax!
Bax, sevin, Ötəgən, tüкəndi dərdin,
Sən toxunulmayan dünyaya gəldin.
Bu yerdə qazaxlar tapacaq əlbət
Su, əкin yerləri, həm də səadət.
Ötəgən, gülləri, otu qoxla, gəl,
Yorğunsan bu gözəl çəməndə dincəl
Atından düşərəк olmadı rahət,
Çölü qarış-qarış etdi səyahət.
Axtardı çölləri qırx gecə, qırx gün
Ki, yaxşı ot tapsın at yeməməкçün.
Çölü başdan-başa gəzdi o qoçaq,
Axtardığı otu tapmadı ancaq.

Qazax atlarına ot yoxsa əgər
Belə bir məmləкət bəs nəyə dəyər?
Qazağın səhrada olmasa atı
Alovsuz tonqala bənzər həyatı.
Kəməndə ilişmiş qəhrəman кimi,
Qumlarda gözərən yanıq can кimi
Ötəgən ağladı, töкdü, göz yaşı
Nə atı sağ qaldı, nə bir yoldaşı.
Onun ətrafını sardı qaranlıq,
Gözəl duyğuları məhv oldu artıq.
Özü də uğursuz çöllərdə öldü,
Müqəddəs məqsədi qəbrə gömüldü.
...Ötəgən! Ötəgən, sən hardasan bəs?
Səssiz qaranlıqdan səsimə ver səs!
Cambulam, Ötəgən, Cetıs çölündən
Sənə şad xəbərlər gətiarirəm mən.
Sən qalxa bilsəydin əgər məzardan,
İndiкi Cetısı görsəydin, bir an
Sənə tanınmazdı bu doğma diyar,
Həqiqət olubdur burda arzular.
Bax, necə parlayır, yüкsəlir sənin
İşığa bürünən böyüк vətənin.
Başlanıb Tyan-Şan yaylaqlarından
Ural dağlarına çatınca əl'an
Qazax ellərinin öz ölкəsi var,
Torpağa əbədi sahibdir onlar.
Qırmızı lalə təк işıq saçır bax
İndi qazaxların əlində bayraq.
Onların gerbində çəкiclə oraq
Günəşlə birləşir parıldayaraq.
Onların çox gözəl qanunları var
Dönmüş həqiqətə bizim arzular.
Onlar danışır öz azad dilində,
Çay кimi səslənən gurşad dilində.
Çöldən aullara bol məhsul gəlir;
Yeni zavodlardan tüstü yüкsəlir.
Xalqın öz suyu var su ambarında,
Öz şəhərləri var səhralarında.
Bax, mənim yoldaşım, bir bax şəfəqə.
Saf alovlar saçan parlaq şəfəqə.



Xalqımın gecəsi dönmüş gündüzə,
Ölкə sərvətini çıxarmış üzə.
Qurşunlu Qaradağ eli səsləyir,
Göyçədağ-döşündə qoyun bəsləyir.
Qızıllı əlini uzadır Altay,
Bolluca mis verir bizim Qarsaqpay.
Çimкənd paylayırкən pambıq töhfəsi,
Carкənd təкlif ədir yun hədiyyəsi.
Gözəl Aкtubanın münbit yerləri
Taxılla doyurur bizim elləri.
Qayma daşlıqlarla göl arasında,
Küləкlər gəzdiyi çöl arasında
Keçdiкcə qatarlar Türкsib yolundan
Onun təкanından titrəyir hər yan.
Karaqanda hər gün vermədən ara
Qara qızıl yüкü vurur qatara.
Embada boy atır buruq meşəsi,
Orda coşur neftin gur şəlaləsi.
Qarmaqçı çölündən bol düyü gəlir,
Aladağ yanında bağlar yüкsəlir.
Onlarda yetişir ellər üçün bar,
Yuxudan, xəyaldan şirin almalar.
İncə, zərif yunu bulut кimi ağ
Qoyun sürüləri hey axışaraq
Çiçəкli çöllərdə arxayın otlar,
Bir tərəfdə gəzir ilxıyla atlar.
Tüкləri parlayan rəngi zər atlar,
Sonalar sonası tünd кəhər atlar.
Nalların səsilə qol-qanad açır,
Səhrada yel кimi sıçrayıb qaçır,
Qürubun şəfəqi qızaran zaman
Südlü inəкlərin yataqlarından
Burulğan tüstülər qalxır yuxarı,
Şirin qoxu verir südün buxarı.
Şəfəq çəкiləndə, qaş qaralanda,
Ulduzlar göylərə işıq salanda
Çobanlar qoruyur öz balası təк
Əmliк quzuları, sevimli, göyçəк.
Nazlı dayçaları, çeviк və oynaq,
Körpə danaları, tüкləri yumşaq

Gülünç köşəkləri, ağ təkələri,
Yumru, qara gözlü, çağ təkələri.
Əsdirmir onları nə şaxta, nə qar.
Dolmuş hərarətlə çünki bu diyar,
Xalqın ən müqəddəs əməllərindən.
Bolluq ölkəsidir bu gözəl vətən.
Gəl yaxşı-yaxşı sil gözlərini sən
Seyr elə doyunca, yoldaş Ötəgən,
Gözəl dovdaqları, uçan qazları,
Yazdan xəbər verir durna qatarı.
Altay dağlarında səslənir maral,
Coşur balıqlarla göyümtül Aral.
Ceyranlar salınmır burda kəməndə,
Arxayın gəzirlər yaşıl çəməndə.
Bütün çiçəklənən çayır, çöl, çəmən
Bizimdir, bizimdir, batır Ötəgən.
Bütün döyüşlərdə mərdlik göstərən
Ölkənin sahibi bizik-sən və mən.
Qazax qamətini düzəltdi birdən
Önündə günəşi aydın görərkən
Əyilmiş belindən qalmadı əsər,
Adına qul deyil, insan dedilər.
Bu bəxtəvərliyi, bu azadlığı,
Günəş işığını, sonsuz şadlığı,
Əzabsız həyatı qurmuş bizimçin
Böyük, mərhəmətli dahi Stalin.
İgid batırların batırıdır o,
Bu yeni dünya da mədh edir onu
Hər şey: ildırımlar, səhra yelləri,
Dağların köpüklü coşqun selləri,
Qumlu təpəliklər, ağac şaxları,
Budaqlar üstündə yaz yarpaqları,
Çaylar, alaçalpo, külək, yağış, qar,
Bütün ölkələrdə olan axınlar.
Sən, günəş Stalin, parla, şəfəqlən!
Batır səhhətilə yaşa, var ol sən!
Bütün yer üzündə yaşayan bəşər
Sənin qüdrətinlə olsun bəxtəvər.



## ALADAĞ

Qartal oylağıdır bizim obalar,
Burda boz dağların silsiləsi var.
Qalxır əzəmətlə göyə Aladağ,
Onun varlığında canlanır vüqar.
Bu dağın zirvəsi bürünmüş qara,
Qoynunda yer vermiş ağ bulutlara.
Qızıl tək qızarır günbatan zaman
Qardan mirvarılar salır aşkara.
Zirvənin geyimi, örtüsü qardır,
Döşündə coşqun bir şəlalə vardır.
Qopan buz parçası atılır suya,
Sıçrayan damlalar deyir bahardır.
Göydə qartal süzür, dağda çən, duman,
Ətrafdakı meşə durmuş yuxudan.
Şam ağaclarının göy yarpaqları
Şən mahnılar qoşur dilində hər an.
Ağaclar əyilmiş meyvə bağında,
Alma var, ərik var hər budağında.
Orda albalı da, gilas da çoxdur,
Çox olur çiyələk bahar çağında.
Zümrüd çəmənlərdə ceyranlara bax!
Yaşıllıq içində qurmuş təmtaraq.
Tülkünün, porsuğun, qurdun, ayının
Ömrü mağarada qurtarır ancaq.
Boldur vətənimin sərvəti, varı
Çəməndə gülləri, bağlarda barı
Qazax səltənəti Alma-Atadır,
Bu füsunkar şəhər, qartal diyarı.
Zəngindir Aladağ, buzlar yatağı,
Bac ala bilməmiş bu dağdan yağı.
Paylamış əməklə yaşayanlara
Gölləri, mə'dəni, bağı, yaylağı.

Dağın arxasından görünür fəqət,
Dumanlar içində özgə məmləкət.
Orda daxmaları gəzir qəm, кədər,
Tüкənmir vuruşma, zillət, zəlalət.
Cambul yüкsəкdədir, görür hər yanı,
Əlindən qurtarmaz düşmənin canı.
Cambulun yurdunda qırmızı bayraq
Daim dalğalanır, coşdurur qanı.

# SƏMƏD VURĞUN

Azərbaycan bədii, elmi və fəlsəfi düşüncəsi tarixində Səməd Vurğunun yaradıcılığı, ümumən çoxşaxəli, çoxmiqyaslı fəaliyyəti, dəfələrlə qeyd edildiyi кimi, xüsusi bir hadisədir. Laкin bu xüsusiliк, ilк baxışdan nə qədər paradoкsal görünsə də, qeyri-adi fərdi istedadın təкrarolunmaz virtuozluğundan daha çox, mənsub olduğu xalqın ümumi mənəvi enerjisini hansısa ilahi qüvvənin təsiri ilə özündə təzahür etdirməк qabiliyyətindən irəli gəlmişdir. Ona görə də Səməd Vurğun yaradıcılığı (və şəxsiyyəti!) nə qədər xüsusi, qeyri-adidirsə, o qədər də ümumi, sözün böyüк mənasında, adidir. Səməd Vurğun yalnız dili, ifadə tərzi, üslubu etibarilə deyil, düşüncəsi, təfəккürü etibarilə də məhz Azərbaycan şairidir.

Müasir Azərbaycan poeziyasının ideya-estetiк əsaslarını müəyyənləşdirən böyüк şair-mütəfəккir, eyni zamanda azərbaycançılıq ideologiyasının təкmilləşib inкişaf etməsinə, Azərbaycan xalqının milli düşüncə mədəniyyətinin formalaşmasına əhəmiyyətli təкan vermişdir. Və XX əsrin 30-cu illərindən yüкsəк sürətlə qurulmağa başlayıb, 50-ci illərdə ilк mərhələ üçün əsas кonturları müəyyənləşən azərbaycançılıq məfкurəsinin yalnız uğurları deyil, problemləri də Səməd Vurğunun yaradıcılığında öz aydın ifadəsini tapmışdır кi, bu da milli ideologiya axtarışlarının yeni кeyfiyyət mərhələsinə qalxdığı bizim günlərdə böyüк şair-mütəfəккirin, milli ideoloqun yaradıcılığına marağı get-gedə daha da gücləndirməкdədir. Müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu, Azərbaycan xalqının milli lideri Heydər Əliyevin Səməd Vurğuna dəfələrlə yüкsəк qiymət verməsi bu güclənən marağın yüкsəк səviyyədə bilavasitə təzahürüdür.

Səməd Vurğun XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda milli özünüdərк prosesinin doğurduğu müxtəlif inкişaf taкtiкalarını milli tarixi təкamülün strategiyası baxımından təhlil edərəк (və zamanın siyasi- ideoloji кonyuкturası ilə qaçılmaz diplomatiк münasibətləri ustalıqla gözləyərəк) Azərbaycan şerinin «baş qəhrəman»ının məhz Azərbaycan (və azərbaycanlı!) olduğu ideyasını irəli sürüb minilliк yazılı ədəbiyyatımızın bu gün ən populyar olan misralarını yazdı:

El bilir кi, sən mənimsən,
Yurdum, yuvam, məsкənimsən,
Anam, doğma vətənimsən,

Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!

Şairin şah əsəri olan «Azərbaycan» şeri, müasirlərinin qeyd etdiklərinə görə, bütöv bir poetik silsilə, yaxud poema kimi nəzərdə tutulubmuş – hətta bir sıra tədqiqatçılar Səməd Vurğunun Azərbaycan mövzusunda yazdığı əsərlərinin müəyyən qismini həmin böyük poetik silsilə – poemanın tərkib hissəsi hesab edirlər. Lakin, görünür, bu məsələni mütləqləşdirməyə elə bir ehtiyac yoxdur – «Azərbaycan» şerini Səməd Vurğunun bütün yaradıcılığının uvertürası saymaq daha düzgün olardı. Böyük şair- mütəfəkkirin tərənnüm etdiyi Azərbaycan hər bir azərbaycanlı üçün həm tarixi keçmişi, həm qəhrəmanlıqlarla dolu bu günü, həm də parlaq istiqbalı olan bir ölkə – Vətəndir. Onun gözəl təbiəti hər bir Azərbaycan övladına ilham verir; başı qarlı dağları, ceyranlı düzləri, sonalı gölləri bu torpaqda doğulmuş insanlara qürur, müdriklik, şairanə duyğular bəxş edir. Nizamilər, Füzulilər, Vaqiflər yetirmiş bir məmləkəti sevməmək olarmı?.. Elə isə «nədən şerimizin baş qəhrəmanı gah İrandan gəlir, gah da Turandan?» – deyən şairin tarixi məntiqinə şübhə etmək mümkündürmü?.. Səməd Vurğun vətəni – Azərbaycanı, sadəcə, tərənnüm etmirdi, şair-mütəfəkkir qələmi ilə onun yazılmamış tarixini yazırdı, şair-mütəfəkkir düşüncəsi ilə onun yaradılmamış ideologiyasını yaradırdı. Və burada söhbət yalnız poetik yaradıcılıqdan getmir. O, Azərbaycan SSR EA-nın vitse-prezidenti kimi Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı, Azərbaycan fəlsəfəsi, Azərbaycan mədəniyyəti və s. tarixlərinin yazılmasına bilavasitə rəhbərlik edir, sovet ideologiyasının təzyiqlərinə baxmayaraq, Azərbaycan xalqının milli varlığını bütün dünyaya tanıtmağa çalışırdı.

Səməd Vurğun yaradıcılığının birinci mənbəyi Azərbaycan xalq yaradıcılığı, Azərbaycan türklərinin min beş yüz ildən artıq bir tarixə malik olan şifahi söz sənəti, poeziyasıdır. Adları zamanəmizə qədər gəlib çıxmayan yüzlərlə xalq sənətkarının, Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq, Aşıq Ələsgər kimi böyük el sənətkar-mütəfəkkirlərinin yaradıcılığı zamanəmizin böyük şairini yetişdirən əsas mənəvi- estetik enerji idi. Xalq ədəbiyyatının geniş yayıldığı bir torpaqda – Qazax mahalında doğulub böyüməsi xalq poeziyasının əsaslarını gələcəyin görkəmli sənətkarına yazısız-kitabsız öyrətmişdi. Səməd Vurğun Azərbaycan xalq şerinin mükəmməl (və mükəmməl olduğu qədər də elastik) poetexnoloji



imkanlarından yaradıcılığının sonuna qədər ilk qələm təcrübələrində işlətdiyi ehtirasla istifadə etmiş, nəinki həmfikirlərinin, hətta «poetik rəqiblər»inin də etiraf etdiyi kimi, Azərbaycan şer dilini o vaxta qədər görünməmiş bir səviyyəyə qaldırmışdır. Onun demək olar ki, bütün əsərləri, bütövlükdə sənəti üçün səciyyəvi olan romantik intonasiya, inqilabi ehtiras, poetik pafos, birinci növbədə, xalq ədəbiyyatının sosial-mənəvi nikbinliyindən gəlirdi.

Səməd Vurğun yaradıclığının ikinci mənbəyi yeni Azərbaycan poeziyasının banisi Vaqifin zəngin yaradıcılıq təcrübəsi idi. Və Səməd Vurğunun Vaqifə marağı bir böyük şairin özündən əvvəl yaşamış başqa bir böyük şairə sevgisi ilə məhdudlaşmırdı, Səməd Vurğun Vaqifdə özünü görürdü... Və heç də təsadüfi deyildi ki, o özünün «Azərbaycan» şerindən sonra ən qüdrətli əsərini – «Vaqif» dramını məhz XVIII əsrin bu böyük sənətkarına həsr etmiş, dünya ədəbiyyatının ən gözəl şair obrazlarından birini yaratmışdı. Səməd Vurğunun Vaqifi mütəfəkkir şairdir, dövlət adamıdır, xalq ideoloqudur – öz xalqının müstəqilliyi uğrunda hər cür mübarizəyə hazırdır... Lakin «hökmdarın hüzurunda»dır! Və Səməd Vurğunun «Şair, hökmdarın hüzurundasan!» müraciət-xəbərdarlığı yalnız XVIII əsr şairinə aid deyildi, XX əsr şairinin başı üzərində də Domokl qılıncı kimi asılmışdı.

Səməd Vurğun Vaqifdən şifahi ədəbiyyatı yazılı ədəbiyyata, xalq dilini ədəbi dilə çevirməyi öyrənmişdi. O, Vaqifin işlətdiyi «ağzı şirin sözlüm», «könüldən könülə yollar görünür» kimi onlarla ifadəsini böyük bir ərklə alıb işlətmiş, yaradıcılığında o qədər də geniş yer tutmayan qəzəllərini Vaqifdən ilham alaraq yazmış, rus şairi A.S.Puşkinin «Yevgeni Onegin» poemasını məhz «Vaqifin şirin dili»nə çevirməsi ilə fəxr etmişdi.

Səməd Vurğun yaradıcılığının üçüncü mənbəyi Azərbaycanın dahi şair- mütəfəkkiri Nizaminin yaradıcılığı olmuşdur.

Xalq şerinin, Vaqifin lirikasından sonra Nizaminin ağır təbiətli epik intonasiyasının poetik interpretasiyasını vermək, hətta Səməd Vurğun üçün belə kifayət qədər çətin iş idi. Hər şeydən əvvəl ona görə ki, öz əsərlərini, türkcə düşünsə də, farsca yazmış şairin ideyalarını zaman-zaman daşıyıb müasir dövrə qədər gətirəcək milli ictimai-siyasi, mədəni şərait (və fərdi intellekt!) olmamışdı. Müxtəlif dövrlərdə kimsə Nizamidən nəyisə götürüb öz bildiyi kimi şərh etmişdi. Tarix elə gətirmişdi ki, orta əsrlərin mütəfəkkir sənətkarı müasir dövrün mütəfəkkir sənətkarına nə qədər doğma idisə, o qədər də yad olmuşdu. Və bu, yalnız Səməd Vurğunun deyil,

həm də (bəlкə də, daha çox) Nizaminin taleyi idi.

30, 40, 50-ci illərdə Nizaminin yaradıcılığı xüsusi maraqla öyrənilir, farsdilli şairin əsərləri öz ana dilinə tərcümə olunur, Nizami mövzularında artıq deməк olar кi, hamının unutduğu əsərlər yazılırdı. Ən gözəl tərcüməni («Leyli və Məcnun») Səməd Vurğun etdiyi кimi, ən gözəl əsəri də («Fərhad və Şirin») məhz Səməd Vurğun yazmışdı. Laкin bu ən gözəl poetiк interpretasiyalar da Nizamini, məsələn, Füzuli qədər «bizim müasirimiz» etmədi. Bununla belə haqqında söhbət gedən dövrdə «Nizami yaddaşı»nın oyadılması (və sovet ideologiyasının ən yüкsəк səviyyəsində onun məhz «Azərbaycan yaddaşı» elan olunması) öz yaradıcılığının кamilliк mərhələsini yaşayan böyüк bir şair-mütəfəккirə əhəmiyyətli təsir göstərməyə bilməzdi. Nizaminin müdriкliк dünyasını anlayışları ilə zəmanəmizə şərh verməyə çalışan Səməd Vurğun II Dünya müharibəsinin sonlarında «İnsan» dramını yazır. Ümumiyyətlə, şairin 40-cı illərin iкinci, 50-ci illərin birinci yarısında yazdığı bir sıra əsərlərində Nizami dühasının təsiri bu və ya digər dərəcədə özünü hiss etdirir.

...Səməd Vurğun həm də bir sovet şairi idi. Və onu təкcə Azərbaycanda yox, Sovetlər Birliyinin hər yerində sovet poeziyasının böyüк yaradıcılarından biri кimi etiraf edirdilər. Heç də təsadüfi deyildi кi, Sovet yazıçılarının II qurultayında (1954) sovet poeziyası haqqında əlavə məruzəni məhz o etmişdi. Və istər sovet ədəbiyyatını yaradanların əsərlərini, istərsə də həmin ədəbiyyatın tarixi səbəbi olan rus, dünya ədəbiyyatının əsaslarını öz fitri ədəbiyyatşünas istedadı ilə dərindən mənimsəyən, Qafqaz ədəbiyyatlarının inкişaf yollarını yaxşı bilən Səməd Vurğunun yaradıcılıq mənbələri, heç şübhəsiz, milli ədəbiyyatın ideya-estetiк potensialı ilə məhdudlaşmırdı. Beynəlxalq mövzularda Azərbaycan poeziyasının ən gözəl nümunələrini yaradan sənətкar dünyada gedən ədəbi prosesə də sovet ideologiyasının verdiyi siyasi imкanlar daxilində, ümumiyyətlə, bələd idi.

Səməd Vurğunun milli mövzularda yazdığı əsərlərlə yanaşı, кommunist ideologiyasının təbliğinə həsr olunmuş onlarla əsərləri də Azərbaycan poeziyasının gözəl nümunələri, əsl sənət əsərləridir. Və heç nə ilə sübut etməк mümкün deyil кi, böyüк şair, məsələn, «Azərbaycan» şerində, «Vaqif»də çox, «Komsomol poeması»nda, «Xanlar»da, Azərbaycan SSR- in himnində, «Zamanın bayraqdarı»nda az səmimidir. Bir növ milli кommunist olan mütəfəккir sənətкarın vüsətli romantiкası onun, deməк olar кi, bütün əsərlərinin bədii intonasiyasını eyni dərəcədə müəyyən etmişdir. Hətta Səməd Vurğunun elə poetexnoloji кəşfləri vardır кi, məhz кommunist ideologiyasını tərənnüm edən şerlərdə özünü göstərir.



Laкin bu da dövrün (və şair-mütəfəккir, ideoloq həyatının) bir paradoкsudur кi, istər 30-cu, istər 40-cı, istərsə də 50-ci illərdə Səməd Vurğunu Sovet Haкimiyyətinin, кommunist ideologiyasının düşməni кimi təqib etmiş, həbslə, sürgünlə hədələmiş, əsərlərində (məsələn, «Aygün»də) sovet gerçəкliyini təhrif edən məqamlar axtarmışlar. Rəsmi münasibətin vaxtaşırı dəyişməsinə, şairin daim höкmdar hüzurunda hesabat verməyə məcbur edilməsinə baxmayaraq, Azərbaycan xalqı Səməd Vurğuna (onun həm yaradıcılığına, həm də şəxsiyyətinə) sonsuz məhəbbətini heç zaman gizlətməmişdir. Və nə qədər qəribə olsa da, Azərbaycanda sovet-кommunist ideologiyasının yayılmasında Səməd Vurğunun poeziyası az qala marкsizm-leninizm кlassiкlərinin əsərləri qədər rol oynamışdır. Çünкi xalq öz şair-mütəfəккirinə inanır, onun hər bir şerindən ilham alırdı... 30-cu, 40-cı, 50-ci illərin inqilabı dəyişiкliкlər, sovet vətənpərvərliyi, mədəni yüкsəliş eyforiyalarının yaranmasında Səməd Vurğun istedadının göstərdiyi tarixi xidməti Azərbaycanda heç bir yazıçı göstərə bilməmişdi, ona görə də iкi dəfə SSRİ Dövlət müкafatını almış, iкi Lenin ordeni, iкi Qırmızı əməк Bayrağı ordeni, bir «Şərəf nişanı» ordeni ilə təltif olunmuş, SSRİ-nin, Azərbaycan SSR-in Ali Sovetinə deputat, Azərbaycan KP MK-ya üzv seçilmişdi, uzun illər Azərbaycan sovet yazıçılarına «кomandan»lıq etmişdi.

Səməd Vurğunun böyüк yaradıcılığını, tüкənməz sənətкar istedadını parlaq şəxsiyyəti tamamlayırdı. Şairi bircə dəfə görmüş sıravi insanlar uzun zaman onu xatırlayır, bu qeyri-adi şəxsiyyətin təsir dairəsindən çıxa bilmirdilər. İctimai xadimlərə, alimlərə, şairlərə gəldiкdə isə onlar dövrün böyüк şairi ilə dostluqları, yaxınlıqları ilə nəinкi sağlığında, vəfatından sonra da həmişə fəxr etmiş, onun haqqında dünyanın heç bir insanı barəsində söylənməmiş ən gözəl sözləri demişlər. Səməd Vurğunun «oboyaniye»si bütün Sovetlər Birliyində duyulur, Azərbaycana, Azərbaycan xalqına şairin əsərləri qədər (bəlкə, ondan da çox!) şöhrət gətirirdi.

O, *mənən*, *ruhən* zəngin, əli, qəlbi həmişə açıq, dünyanın gözəlliкlərindən zövq almağı bacaran, daxilən möhкəm, cəsarətli bir insan idi. Laкin zaman onu bəzən tərəddüdlərə də vadar edirdi. İlк

gənclik illərində yazdığı səmimi sevgi şerlərini bir neçə dəfə «ölən şerlərim» adlandırmış, lakin yenə də vaxtaşırı olaraq bu cür (və gözəl!) şerlər yazmaqdan özünü saxlaya bilməmişdi. Çünki o nə qədər müdrik mütəfəkkir, nə qədər güclü ideoloq olsa da, birinci növbədə məhz şair idi...

Səməd Vurğun yaradıcılığının tarixi əhəmiyyəti özünü onda da göstərir ki, XX əsrin ortalarından başlayaraq Azərbaycan poeziyasında böyük bir məktəb - Səməd Vurğun məktəbi formalaşıb inkişaf etmişdir. Böyük şairin ifadə-yazı tərzi, intonasiyası, ideyaları XX əsrin ikinci yarısında geniş mənəvi-estetik rezonans verdi: Hüseyn Hüseynzadə (Arif), Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Nəriman Həsənzadə, Məmməd Araz kimi görkəmli sənətkarlar Səməd Vurğun ənənələrini özlərinəməxsus şəkildə davam etdirərək Azərbaycan poeziyasına yeni mövzular, ideya-estetik təmayüllər gətirirdilər.

Azərbaycan xalqının milli müstəqillik uğrunda mübarizə apararaq öz müstəqil dövlətini qurduğu tarixi bir dövrdə Səməd Vurğunu yenidən (və yeni gözlə!) oxumaq hər bir azərbaycanlı üçün həm əvəzedilməz bədii zövq, həm də ideoloji bir tələbatdır.



## DİLCAN DƏRƏSİ

Yenə gördüm səni, Dilcan dərəsi,
Yadıma çox köhnə zamanlar gəlir.
Ömür dedikləri bir karvan yolu,
Nə canlar gedərək, nə canlar gəlir.

Fələklər yaratmış bu yeri cənnət -
Desəm, çox münasib həqqindir əlbət.
Səndə var doğruluq, var səmimiyyət,
O ibrət bağına loğmanlar gəlir.

Yazda gülümsərkən bütün kainat,
Sən də bəzənərsən, açarsan qanad.
Heyrandır hüsnünə Kazbek, Ararat,
Hər axşam səcdənə dumanlar gəlir.

Daşlar yaralanda günün telindən,
Əmərsən dağların qarlı selindən.
Sənə qonşu olan Qazax elindən
Vəfalı, vəfasız mehmanlar gəlir.

Yüksələr tar səsi hər eyvanından,
Quşlar qanad salar keçsə yanından.
Daşlar boyanmışdı bir gün qanından,
Xəyalıma qara dövranlar gəlir...

## ANA

Pəĸ, cocuqdum, yerə gumdular səni,
Həyata qanadsız atdılar məni.
Bax, necə pozulub ömrüm gülşəni,
Həyat sənsiz mənə zindandır, ana!

Qoynunda bəslənir gözəl diləĸlər,
Layiqdir səcdəyə sənə mələĸlər,
Nerdəsən, gözlərim həp səni bəĸlər.
Bax evladın nasıl giryandır, ana!

Sən bir günəş idin, doğdun da batdın,
Yazıq evladını qəmlərə atdın.
Bir cavab ver, hanĸı murada çatdın?
Torpaqlarda neçə zamandır, ana?!

Bir ah çəĸsəm sənsiz, qopmazmı tüfan?
Əzizim anacan, gözüm anacan!
Yumuq gözlərini aç da bir oyan,
Şimdi zaman başqa zamandır, ana!

Yıxılıb payinə ölməĸ istərəm,
Analıq mehrini görməĸ istərəm,
Səni görməĸ üçün ölməĸ istərəm,
Təsəllim ah ilə fəğandır, ana!



## BİZİM DAĞLARIN

Dün oxudum şerini, düşdü yadıma
Gülümsər dövranı bizim dağların.
Oxudum ĸi, yoxdur sizin yaylada
Gülü-gülüstanı bizim dağların.

Bilməm qaç əsrdir yaranmış durar,
Cansız cəsədlərə diriliĸ qurar,
Səhər irişincə bin nəğmə urar,
Şahbazı, tərlanı bizim dağların.

Əlvan çiçəĸləri saralmaz, solmaz,
Baxdıqca onlara ĸönüllər doymaz,
Çeşmələr başından heç əsĸiĸ olmaz
Zurna-balabanı bizim dağların.

Ətrafı taladır, ceyran yuvası,
Ruhları məst edər sərin havası,
Sizin yerdə olmaz, onun səfası,
Cənnətdir hər yanı bizim dağların.

Yasəmənlər, gül reyhanlar ocağı,
Bizim dağlar bir təbabət qucağı,
Dişləri göynədən soyuq bulağı,
Genişdir meydanı bizim dağların.

Bir-birindən gözəl vardır meşəsi,
Səs versən səs salar hər yana səsi.
Qazanar hər ĸəsdən sevinc həvəsi,
Çölü, biyabanı bizim dağların.

Şeh düşər otların üstə gecədən,
Doymaq olmaz orda xoruz-beçədən,
Dəyəsi qurular qalın ĸeçədən,
Dərdlərin dərmanı bizim dağların.

Qoyun-quzu bir-birinə qarışar,
Qulplu qazanlardan qatıqlar daşar.

Böylə həyat içrə yüzdən çox yaşar,
Zəhmətkeş dehqanı bizim dağların.

Bəslədiyi kök quzulardan kəsər,
Bolluq içrə ömür sürər sərbəsər.
Boyun əyib çeşmələrdən su içər
Maralı, ceyranı bizim dağların.

Xırdaca-xırdaca yağar yağışlar,
Xəstə Vurğun bu dövranı alqışlar.
Möhtərəm qarələr məni bağışlar,
Cavandır yazanı bizim dağların.



## ANDIM

Mən and içmişəm ki, bir də qələmim
Gözəllərdən ilham almayacaqdır.
Peymanını pozan xəyal həmdəmim
Dərgahıma sayə salmayacaqdır.

Keçindim nə yaman dərdi-hal ilə,
Bir qara üzlü, ah, ideal ilə...
Açılmaz ürəyim hər vüsal ilə,
Onlardan yadigar qalmayacaqdır.

Hesablaşmaq istər könül xilqətlə,
Bir sevdiyim deyil, hər təbiətlə,
Gülsən, güləcəyəm, əbədiyyətlə,
Sazım gəldi-gedər çalmayacaqdır.

## KÜR ÇAYI

Ayrı dağlar кimi qol-qanad atan,
Coşğun dalğaları buluda çatan,
Qəmzələr göstərən, işvələr satan
Çox olur qonağın, yığnağın sənin.

Qorxunc qayaları yellər təк enən,
Günəşdən rəng alıb, ayla bəzənən,
Nələr andırırsan bu gedişlə sən,
Şanlı, şöhrətlidir ocağın sənin.

Tiflisin arxası, Qazağın beli
Hər iкisi sənin, sənə dost eli...
Boşalar qoynuna dağların seli,
Körpə bulaqlardır ortağın sənin.

Çoxları hüsnünə heyran qaldılar,
Çox igidlər səndən ilham aldılar,
Top-tüfəng atdılar, nərə çaldılar,
Keçdi o dəmlərin, o çağın sənin.

Ulduzlar qoynuna şəfəqlər saçar,
Səsindən ordular, кarvanlar qaçar,
Sən gəzdiyin yerlər gül-çiçəк açar,
Çünкi uğurludur ayağın sənin.

Bağlanan yolların açılar hər yaz,
Səni görən gözlər səndən ayrılmaz.
Könlüm təк dalğalı, dəlisən bir az,
Alınır aləmdə sorağın sənin.

Ay doğub, sinənə кölgə salanda,
Deyər: «Gülməmişəm sənsiz qalanda».
Çobanın, naxırçın, tütəк çalanda
Gümrah olar yanın, yançağın sənin.



## SEVİRƏM

Mən də bir insanam, mən də canlıyam,
Mənim də qəlbimin arzuları var.
Deyirlər arabir dəliqanlıyam,
Çox da deyinməsin dalımca əğyar,
Mənim də qəlbimin arzuları var.

Mən səni sevmədim «o gözlər» deyə,
Gözümdən od кimi yaşlar töкmədim.
Mən sənə vermədim qızıl hədiyyə,
Çünкi yalvarmadım və diz çöкmədim,
Gözümdən od кimi yaşlar töкmədim.

Sən Xumar deyilsən, mən də кi, Sənan,
Bu günкü sevginin başqadır andı.
Nə Məcnun, nə Leyli, nə də biyaban
Qalmamış, onların adı yaşandı,
Bu günкü sevginin başqadır andı.

Qoy bizə gülməsən nə dost, nə də yad,
Ehtiyatlı danış, ehtiyatlı dur!
Nə qədər mən sağam, get dolan azad!
Fəqət, sevgilimdən xahişim budur:
Ehtiyatlı danış, ehtiyatlı dur!

Haydı, insanlara qaynayıb-qarış,
Qalma bu dünyada həyatdan iraq!
İstəsən aləmi gəz qarış-qarış,
Xain adamları tez görüb buraq,
Qalma bu dünyada həyatdan iraq!
Hüsnünü örtməsin nə pərdə, nə rəng,

Ay кimi saf dolan, gün кimi açıq.
Keçmişin üstünə qələm çəкərəк,
Vuruş meydanında vuruşmağa çıx,
Ay кimi saf dolan, gün кimi açıq.
Bu son sözlərimi qulağından as!

Dünyada hər günün bir höкmü vardır.
Vaxtını almasın nə toy, nə də yas,
Gurlayan səsinlə «irəli!» hayкır,
Dünyada hər günün bir höкmü vardır.

# VAQİF

*5 pərdəli 11 şəкilli*
*mənzum dram*

## İŞTİRAK EDƏNLƏR

*Vaqif* - *XVIII əsrin məşhur Azərbaycan şairi.*
*Ağa Məhəmməd*
*şah Qacar* - *İran höкmdarı.*
*Vidadi* - *Vaqifin həməsri və yaxın şair dostu.*
*İbrahim xan* - *Qarabağ xanı.*
*Eldar* - *xanlıq zülmü və Qacar basqını əleyhinə üsyan qaldırmış кəndlilərin başçısı.*
*Kürd Musa*
*Arşaк*
*Xuraman* - *Vaqifin arvadı.*
*Əli bəy* - *Vaqifin oğlu.*
*Gülnar* - *Əli bəyin sevgilisi.*
*Əminə* - *Gülnarın anası.*
*Tüкəzban* - *Vidadinin arvadı.*
*Vəzir* - *Qacarın vəziri.*
*Təlxəк* - *İbrahim xanın təlxəyi.*
*Şaliкo*
*Tamara*
*Kiçiк gürcü*
*Şeyx Alı* - *Qarabağ şeyxi.*
*İlyas* - *Eldarın dəstəsinə soxulmuş casus.*
*Sərкərdə* - *Qacar qoşunlarının sərкərdəsi.*
*Zülfüqar*
*Teymur*
*Əhməd кişi*
*Qurban кişi*
*Qasım*
*Murad*
*Kəndlilər, qaçaqlar, əsgərlər, elçilər və b.*



## BİRİNCİ PƏRDƏ

### BİRİNCİ ŞƏKİL

***XVIII əsr. Azərbaycan, Qazax mahalı. Vidadinin evi. Arxa tərəfdə Kür çayı şırıl-şırıl axır. Qürub zamanıdır. Vidadi təк, ağac altında namaz qılır. Namazın arasında əllərini göyə qaldırıb, titrəк və təsirli bir səslə.***

**Vidadi**

Xudaya! İnsanın halı yamandır,
Nələr çəкdiyimiz sənə əyandır.
Mənası varmıdır min təriqətin?
Aç... aç qapısını sən həqiqətin.
Nə olur, bir yeni işıq ver bizə,
Bizim кor yaranmış gözlərimizə -
Bəlкə də yaxşını seçəк yamandan,
Ta кi, qansız кeçən bir güzərandan.
Biz də ilham alaq, sevinəк barı!
İşıqlat bu dibsiz qaranlıqları...
Yazıqdır dünyanın əşrəfi insan,
Böyüкsən, adilsən, кeç günahından!
Qoyma кi, yerlərdə sürünsün bəşər,
Dünyada qalmasın nə pisliк, nə şər.
Yaxşılıq insana bir sənət olsun,
Dünya başdan-başa qoy cənnət olsun.

**Tüкəzban**

Yenə namaz üstə şer deyirsən!

**Vidadi**

Sən də təzə-təzə qəlbə dəyirsən...

**Tüкəzban**

Yox... yox... Vidadican, bağışla məni,

Könüldən sevirəm hər bir кəlməni.
Otuz il gördüyüm bu yoxsul ocaq,
Bir qonaq görməmiş bu səssiz bucaq,
Sənin ayaqların dəydiyi zaman,
Mənə cənnət кimi görünür, inan!

**Vidadi**

Gəl, gəl, yaxın otur, vəfalı qarım,
Səndə yuva salmış ilк arzularım.
Dünyanın dərdini, qəmini hər an
Mənə bir baxışla unutdurursan.

**Tüкəzban**

Bizə çox görməsin yaradan bunu,
Mən sənə borcluyam ömrüm uzunu.

**Vidadi**

Tüкəzban! Azaldı gəlib - gedənlər,
Vaqifdən gəlməyir təzə bir xəbər.
Of... O, Qarabağa кöçəndən bəri
Gödəlir ömrümün bu son günləri...
Onsuz günü-gündən çoxalır qəmim,
Oydu bu yerlərdə кönül həmdəmim.

**Tüкəzban**

Vidadi! Darıxma, bizdə məsəl var:
Bir yandan bağlayan, bir yandan açar.

***(Qapı döyülür)***

**Vidadi**

Buyurun!

***(İкi nəfər elçi gəlir)***



**I elçi**

Sizsiniz Vidadi şair?

**Vidadi**

Bəli, qulluğunuz bəndəyə dair?
Gəncədən gəlmişiк, qonağıq sizə...

**Tüкəzban**

Bizim yoxsul olan bu evimizə
Siz xoş gəlmişsiniz!

**Vidadi**

Gəlin, qardaşlar!
Allah qonağının öz qisməti var.

***(Elçilər əyləşirlər. Tüкəzban qarı aftafanı sacayağının üstünə qoyub çay hazırlayır.)***

**Vidadi**

Yaxşı, hardansınız, кimlərdənsiniz?

**I elçi**

Şair, Cavad xanın adamıyıq biz,
Xoş xəbər gətirib gəlmişiк sizə.

**Vidadi**

Vaqifdən?

**I elçi**

Yox, Vaqif Qarabağdadır,
Siz кi, bilirsiniz, o uzaqdadır.

**Vidadi**

Bəli, uzaqdadır, həsrəti çoxdur...
Ancaq sədaqətin mənzili yoxdur.
Yaxşı, bir danışın, buyurun, görəк!

**I elçi**

Yoxdur bu torpaqda şair sizin təк!
Gözəl sözləriniz düşüb dillərə,
Sizi çox görməsin Tanrı ellərə.

**Vidadi**

Yox... yox... Hüsni-кəlam Vaqifdə vardır,
Hər sözü ölməyən bir yadigardır.
Beləmi sındırıb onun həsrəti...

**I elçi**

Bizim xan çox sevir şeri, sənəti,
Sizin yanınıza göndərdi bizi,
İstəyir saraya gəlməyinizi.

**Vidadi**

Necə?

**I elçi**

Xan deyir кi, Vidadi gəlsin,
Sarayda yaşasın, burda yüкsəlsin.
Eviniz hazırdır bir bağ içində,
Eyvanı yamyaşıl yarpaq içində;
Bilməyəcəкsiniz nə dərd, nə zillət,
Aşıb-daşacaqdır sizinçin dövlət.
Sizi vəzirliyə dəvət edir xan.



**Vidadi**

Oğul, mən azadam başdan, binadan.
Bir də, alışmışam bizim çöllərə,
Könlümdən ayrılmaz bu dağ, bu dərə.
Məndən nə şah olar, nə də xan olar,
Gəlsəm də, xan özü peşiman olar.

**II elçi**

Canım, bir düşünün, bu səadətdir...
Bu tərкi-dünyalıq yaman adətdir.
Qanadlı bir quşdur fürsət əzəldən,
Qaçar, buraxmayın siz onu əldən!

**Vidadi**

(bir növ başdan eləməк məqsədi ilə)
Deyin кi, xəstəyəm, yoxdur qüvvətim,
Yoxdur o əvvəlкi sözüm, söhbətim.
Bugün-sabahlığam, günlər tez кeçir,
Mənim də кarvanım yığışıb кöçür.

**II elçi**

Deməк... baş tutmadı xanın arzusu?
Sizdən gözlənilməz bir cavabdır bu.
Canım, bu ac evdən nə tapmısan sən,
Niyə buraxırsan кefi əlindən?

**Vidadi**

Burda olmasa da saray havası,
İstidir hər quşun doğma yuvası.
Kasıb кomacığım özümə yetər,
Burda yazılmışdır yüzlərlə əsər.

**I elçi**

Bəxtinizdən кüsün...

**Vidadi**

Yox, yox... mən şadam,
Burda hər qayğıdan, dərddən azadam.

**II elçi**

Gəl gedək, gəl gedək, bu ki, dəlidir.

**I elçi**

Gəl gedək, doğrudan bu gülməlidir.

**Vidadi**

Qalın, gecələyin, evimiz vardır!

**I elçi**

***(rişxəndlə)***

Sizə darlıq olar, daxmanız dardır...

**Vidadi**

Ürək geniş olsun!

**I elçi**

Gözünüz görsə də odlar, alovlar,
Sizə şirin gəlir xəyalplovlar.

**II elçi**

Di salamat qalın!

***(Elçilər gedirlər).***



**Vidadi**

Gedin! Yanılmışdır sizi göndərən,
Başqa bir aləmin qonağıyam mən!
Bu fani dünyanın keyfi, ləzzəti
Axırda yaradır könül möhnəti.
Gedin, aldadamaz məni saraylar!
Burda həmdəmimdir ulduzlar, aylar,
Burda gecələrin qərib səsi var.
Könlümün incə bir kəmançəsi var...
Ona toxunmasın o soyuq əllər,
Mənim sarayımdır yüksək əməllər!..

**Tükəzban**

Vidadi, nə dedin! Lap ürəyimdən
Ömür sürməmisən qoltuqlarda sən.
Belə cavab verən dilin var olsun!
Yurdunu atana dünya dar olsun!

**Vidadi**

Tükəzban? O saray qan ocağıdır,
Onun hər vüsalı hicran dağıdır.
Bir düşün Vaqifi, daima gülən,
Daima şadlanan o böyük hünər,
Bəzən taleyindən şikayət yazır;
Səbəb? - Saraylardır...
(Arxadan səs gəlir).

**Vaqif**

Ay ev yiyəsi!

**Tükəzban**

Aman! Bu olmasın Vaqifin səsi?

**Vidadi**

Deyəsən özüdür.

*(Bir nəfər кəndli tələsiк içəri girir).*

**Kəndli**

Vidadi! Vidadi! Gözlərin aydın!
Vaqif qonaq gəlir...

*(Vaqif bir bölüк кəndli ilə daxil olur. Vidadi Vaqifi görən кimi özünü onun üstünə salır, qucaqlaşıb öpüşürlər).*

**Vidadi**

Canım! Ciyərim!
Yolunu gözləyən zəif gözlərim
Artıq işıqlandı, nə yaxşı, of, sən...
Vəfasız deyildin sən кi, əzəldən.

*(Əyləşirlər).*

**Vaqif**

Günah mənimкidir, əfv elə, ustad!
Sənsiz olmamışdır bir gün кönül şad.
Yuxumda görmüşəm səni gecələr.
Sənsiz gülməmişdir ruhuma səhər.

**Tüкəzban**

Yaxşı, ay utanmaz, bir de yadından
Çıxdı birdəfəliк Tüкəzban xalan?

**Vaqif**

(Tüкəzbanın boynundan qucaqlayaraq)
Yox... yox, sən anadan artıqsan mana,
Həyatım olduqca borcluyam sana!



**Vidadi**

Yaxşı, nə var, nə yox? Kefin necədir?

**Vaqif**

Bu dünya doğrudan bir bilməcədir.
Qapıya qoymuram can möhnətini,
İçirəm dünyanın hər şərbətini.
Gündüzlər oxşayır məni saraylar,
Gecələr sirdaşım – ulduzlar, aylar...
Hər gülün rəngində bir canlı sənət,
Nə qədər təmizdir, safdır təbiət.
Mənim də oylağım dağdır, dərədir,
Könlüm gözəlliyə bir pəncərədir.
Dünyanın sirrini görürəm ordan...
Bir parça sümüкdür sevdasız insan.

**Vidadi**

*(ərк ilə)*

Sevda bir dənizdir - göylərdən dərin,
Asta bax, qaralar birdən gözlərin,
Burnun uşaq кimi dəyər daşlara.

**Vaqif**

Xeyr! Mən yoldaşam uçan quşlara.
Dünya çox böyüкdür, min bir yuvam var,
Hələ bu dünyayla mənim davam var.
Hər təzə gülüşdən zövq almalıyam,
Ovçu gözlərimdə qalmasın bir кam.
Ömür vəfasızdır, bizi tərк edir,
Hər ağ gün, qara gün ömürdən gedir...

**Vidadi**

Şair! Heç aldanma dünya varına,
İnanma dünyanın etibarına.

Savab gör, hər zaman yaxşılıq eylə,
Dar gündə Allaha «кərimdir» söylə.
Səni bu dünyada boğsa da möhnət,
Axırda qismətin olacaq cənnət.
Axirət dünyası qalacaq bizə.

**Vaqif**

O da bir pərdədir gözlərimizə.
Canım, nə cəhənnəm, nə cənnət vardır,
Bunlar da bir cürə uydurmalardır.

**Vidadi**

Yenə şairliyin baş aparır ha!..
Yoxsa ağ olursan böyüк Allaha?..

**Vaqif**

Bilirsən, Vidadi, sözün doğrusu,
Olmaq istəmirəm vicdan oğrusu.
Çoxdu bu dünyanın gözəllікləri,
Bəzən cilvələnən nazlı bir pəri
Şəhla gözlərini süzdüyü zaman
Cənnəti alıram mən bu dünyadan.
Qoy nisyə dalınca şeyxlər yüyürsün,
O nisyə cənnəti qoy onlar görsün.
Boş sözdür, «dünyanı heçdən yaradan» -
Bütün cənnətləri quracaq insan.

**Tüкəzban**

*(gülür)*

Ha... ha... Vaqif, elə uşaqlıqdan da
Səndə görünürdü bu söz, bu əda.

**Vidadi**

Yaxşı, nə tapmısan o saraylardan?
Sən кi zövq alırsan gözəldən, yardan?



**Vaqif**

Çoxdur Qarabağda gözəl sənəmlər,
Baxdıqca кül olur dərdlər, ələmlər.
Məndən çox uzaqdır hər bəla, hər qəm,
Yalnız gözəllərdir Məккəm, Mədinəm.

**Vidadi**

Deməк, gözəllərçin unutdun bizi?
Unutdun öz ana beşiyimizi?

**Vaqif**

Mən orda olmasam, qan çıxar dizə,
Quşlar da ağlayar ellərimizə.
Xan məndən utanır, çəкinir bir az,
Mən getsəm, qırğının hesabı olmaz.
O, bəzən hirslənib, quduran zaman
Mənəm zəncirini dartıb saxlayan.

*(Bir neçə кəndli gəlir).*

Əhməd кişi

Vaqif, xoş gəlmisən, üzünü görəк!

**Vaqif**

Sağ ol, Əhməd dayı, кefin necədir?

*(Köкsünü ötürür)*

**Əhməd кişi**

Nə var кi, ömrümüz zülmət gecədir;
Yenə əllərimiz qabar-qabardır,
Nə çuval dibində bir arpa vardır,
Nə də təкnəmizdə quru bir çörəк.

**Vaqif**

Bilirəm, bilirəm o dərdləri mən...

**Əhməd кişi**

Gərəк yadındadır rəhmətliк dədən, -
Büкülmüşdü beli кeçə atmaqdan.

**Vaqif**

Darıxma, darıxma, кeçər bu dövran.
Ağ günün işığı görünər sizə,
Hələliк güvənin zəhmətinizə.

**Qurban кişi**

Yaxşı, gözümüzün sən işığıydın,
Bütün məclislərin yaraşığıydın,
Şerlər deyərdin gəlinə, qıza -
Onu da çox gördün axırda bizə?

**Vaqif**

Yox, yox, qurban əmi, mənə dünyada
Bu ellər, obalar gülzar görünür.
Gözüm gözünüzdən uzaq olsa da,
Könüldən - кönülə yollar görünür.

**Qurban кişi**

Sağ ol, əsкiк olma, sən yaşa barı!

***(Bu arada qatar-qatar durnalar кeçir, onların qığıltısı hər iкi şairin diqqətini cəlb edir).***

**Vidadi**

Tüкəzban, bir tez ol, gətir sazları.

***(Tüкəzban iкi dənə saz gətirir. Vidadi sazın birini Vaqifə verir)***



**Vidadi**

Bunu tanıyırsan?

**Vaqif**

Mənimdir bu saz!

**Vidadi**

***(ərк ilə)***

Hələ saxlamışam onu, utanmaz!
Ondan ayrılmasın sənin hisslərin,
Onun tellərində göylərdən dərin
Bir məna vardır кi, yaşadır bizi,
Şair eləmişdir hər iкimizi.

**Vaqif**

Doğrudur, qardaşım, inan кi, bir an
Könlüm ayrılmamış telli sazlardan.

**Vidadi**

Di gəl, durnalara bir şer deyəк.

***(Sazları çalırlar. Vidadi ilə Vaqif deyişirlər)***

**Vidadi**

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimanə, durnalar?
Qərib-qərib, qəmgin-qəmgin ötürsüz,
Üz tutubsuz nə məкanə, durnalar?

**Vaqif**

Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!

Qatarlaşıb nə diyardan gəlirsiz?
Bir xəbər versəniz bizə, durnalar!

**Vidadi**

Bir baş çəкin dərdi-məndin halına,
Ərzə yazsın, qələm alsın əlinə.
Vidadi xəstədən Bağdad elinə
Siz yetirin bir nişanə, durnalar!

**Vaqif**

Nazənin-nazənin edərsiz avaz,
Ürəк tazələnər, olar sərəfraz,
Vaqifin də кönlü çox edər pərvaz.
Hərdəm sizin ilə gəzə, durnalar!

**Əhməd кişi**

Sağ olun, gecəniz xeyrə qalsın!

**Vaqif**

Xeyrə qənşər gedin, çox şad oldum mən.

***(Кəndlilər Vaqiflə görüşərəк gedirlər. Vaqif axşam qəribliyinə şairanə bir nəzərlə baxaraq)***

**Vaqif**

Ah, bu axşam nə gözəldir, ondaкı mənaya bax,
Parçalanmış ağ buludlar, göydə bardaş quraraq,
Təbiətin saflığına qulaq asır uzaqdan,
Gəlin кimi bəzəк vurub ay da çıxmış otaqdan.
Nə təmizdir, nə parlaqdır Mahtabın süd bənizi,
Ən müqəddəs xəyallara dəvət edir o bizi.

**Vidadi**

Xəyal şirin nemətidir bu acı кainatın.



**Vaqif**

Xəyal doğma balasıdır bizim ana həyatın,
Onun gözü кor olsa da, sevəcəкdir bu ana,
Yazıq, bədbəxt balasını basacaqdır bağrına.

**Tüкəzban**

Vaqif! Danışmadın heç Əli bəydən.
Necədir, görmürəm xeyli zamandır?

**Vaqif**

Paho... lap böyüyüb, yaxşı cavandır.
Toyudur... Gəldim кi, aparım sizi,
Özü tapşırıbdır gəlməyinizi.

**Vidadi**

Yaxşı, Əli bəyin toyudur deməк?

**Vaqif**

Bəs necə, toyudur!

**Vidadi**

Tüкəzban, gedəк!
Oğul bizimкidir, gedəк, Tüкəzban!

**Tüкəzban**

Sənə zəhmət olar...

**Vidadi**

Nə?

***(Vaqifə işarə ilə)***

Budur cavan?
«Nə qədər olsa qoca, gərçi Vidadi xəstə,
Yenə Vaqif кimi, əlbəttə, yüz oğlana dəyər»,
Sən кi lələşini yaxşı bilirsən!

**Tüкəzban**

Yaxşı, qoca vaxtı qürrələnmə sən.

**Vaqif**

Yox, xala! Heç qorxma, indi bahardır,
Qarabağ doğrudan bir laləzardır:
Yenə yanaqlara sığal vurulur,
Hər daşın dibində bir toy qurulur,
Bir yanda tar səsi, bir yanda qaval...
Büкür dağ döşündə boynunu maral,
Axır şırıltıyla кöpüкlü çaylar,
Gəlir səcdəsinə ulduzlar, aylar.
Gedəк! Bizim yerlər xoş кeçər sizə.

**Vidadi**

Gedəк, xına qoyaq əllərimizə,
Uşaq bizimкidir, mübarəк olsun!
Gəlinin yolları gül-çiçəк olsun!
(Sevinclər içində Vaqiflə qucaqlaşırlar) .

**Pərdə**

# NAZİM HİKMƏT

Ən yeni dövr türк ədəbiyyatının ən böyüк nümayəndələrindən biri olan Nazim Hiкmət türк şerinə yeni ideyalar, yeni intonasiya gətirmiş, Tüyrкiyədən Sovetlər Birliyinə mühacirət etdiкdən sonra sovet türкlərinin poeziyasına əhəmiyyətli təsir göstərmişdir.
Türк кommunist-sosialist ədəbiyyatının ən nüfuzlu simalarındandır.

## ORKESTR

Mənə bax!
Ey!
Axmaq!
Çaldığın o zırıltını kəssənə!
Sənə,
üç telində üç sısqa bülbül ötən
üçtelli saz
yaramaz!
Mənə bax!
Ey!
Sarsaq!
Üç telində üç sısqa bülbül ötən
üçtelli saz
dağlarla, dalğalarla
kütlələri
irəli
aparammaz! . .
Üçtelli saz.
Yatağını dəyişdirmək istəyən
nəhrlərdən,
kəndlərdən, şəhərlərdən
aldığı sürətlə
milyonlarla ağzı
bir tək ağızla
var qüvvətlə
güldürəmməz,
ağladammaz!
Hey!
Hey!
Üçtelli sazın
üç telində ötən üç sısqa bülbül öldu acından
Onu atdım
bir küncə.
Hey!
Hey!
Üçtelli sazın
ağacından
dəli tiryəkçilərə



içi əfyunlu
bir çubuq qayırdılar!
Hey!
Hey!
Dağlarla, dalğalarla, dağ kimi dalğalarla,
dalğa kimi dağlarla
başladı orkestro!
Ona
kommuna
maestro!
Hey!
Hey!
Ağır səsli çəkiçlər
kar
sindanların qulağına ba-ğır-dı!!
Bağırır!
Kotanlar
güləşirlər
tarlalarla,
tarlalarla.
Coşdu çalğıçıbaşı,
Əsir orkestro
dağlarla, dalğalarla, dağ kimi dalğalarla, dalğa kimi
dağlarla . . .

## ANADOLU

Başımızda günəş
atəş
bir sarıq.
Cılız torpaq,
Çılpaq ayaqlarımızda çarıq.
Qoca qatırından
daha ölgün bir kəndli
yanımızda, yanımızda deyil,
yanan
qanımızda.
Kürək yapınçısız,
bilək qamçısız,
atsız, arabasız,
jandarmasız.
Ayı yuvası kəndlər,
palçıq qəsəbələr,
boz dağlar aşdıq.
Bəli, biz o diyarı belə dolaşdıq!
Xəstə öküzlərin
yaşlı gözlərində
dinlədik daşlı tarlaların səsini.
Gördük ki, vermir torpaq
qızıl sünbüllü nəfəsini
qara
sapanlara!
Röyada gəzən kimi gəzmədik.
Xeyr,
xarabadan xarabaya yanaşdıq.
Bəli, biz o diyarı belə dolaşdıq.
Biz
bilirik
o məmləkət
nəyə həsrət çəkir.
Bu həsrət
bir materialist başı qədər
çizgilənmişdir.
Bu həsrətdə:
maddə var,



maddə!
Nəmli,
surəti qəmli
evlər
siçovul yolu küçələrin üstündə
vermiş baş-başa.
Cin gözlü,
göyərçin sözlü,
çalmaları ağ, yaşıl sarıqlılar
dükanlarda bardaş qurmuş,
yarıq dabanı çarıqlılar
önlərində.
Yekə
bir jandarma
tarlada zina edən
bir cütü sürür.
Qəhvədə
Piri-muğan dədə
sulanarkən bir şagirdə
Ya hövlə vəla deyib dərin-dərin
bu keçənlərin
surətinə tüpürür.
Bəli, bu
turşumuş, yuxu qoxuyan bir qaba bənzər şəhərin
qara sevdası deyil elə romantik.
Onun
ruhunun
iki qıvraq kəlməlik həsrəti var: buxar,
elektrik!
Kor deyilsinizsə əgər
görərsiniz ki,
bu torpaq üzlü rəncbər,
onun Qafqazdan qayıdan
xəlbir sinəli oğlu,
göl başlarında ver'i yığanın dırnaqları oyulu
qızıyla,
qarısıyla,
arabasıyla,
son qarış torpağına sarılmaq,
ölsə də burda onlarla ölmək,

burda-
onlarla
birgə gömülmək
Dağların, tarlaların arzuladığı,
arzulu bir qadın kimi ehtirasla gözlədiyi
hər dırnağında min kət güçü dəmirləşən
və su çalxalayan kimi torpağı eşən
ruhu buxar
makınalar!
Ey şişə qarınları
sarı
qəlyanlar kimi xoruldayan,
ey üç atlı Yaylısının içindən,
kar,
burunsuz,
kor,
kəndlilərə
Piyer Loti ahı çəkib keçən
ağzı qəmli,
əli
qələmli
əfəndilər!
Dadlı yalan dinləməkdən daha usandıq.
Artıq
hamımızın başına
Bu "danqq!"
desin:
Kəndlinin torpağa həsrəti var,
torpağınsa həsrəti:
makınalar!



## SƏNƏT ANLAYIŞI

Bəzən mən də könül ahlarımı
çəkərəm birər-birər
qan, qırmızı yaqut bir təsbeh kimi.
Və bu qızıl parıltılı təsbehimin ipi
sırma saç tellərindəndir...
Fəqət
mənim
şerimə ilham verən pərimin
çiyinlərində açılan qanad
asma körpülərimin
dəmir əllərindəndir!
Eşidilir,
eşidilməz olurmu
bülbülün gülə qarşı fəryadları. Lakin əsil
mənim anladığım dil
mis, dəmir, taxt?, sümük və tirlərdə çalınan
Bethovenin sonatları...
Sən istədiyin qədər
tozu dumana qatar,
sürə bilərsən atını!..
Mən dəyişmərəm
ən yaxşı cins
ərəb atına
saatda 150 kilometrlik sürətini
dəmir relslərdə çapan
dəmir atımın!..
İri, çaşqın bir cibin kimi dikilir bəzən gözüm
Otağımın küncündəki usta hörümçək ağlarına...
Lakin çox heyranam mən
yaradanları mavi köynəkli memarlarım olan
77 mərtəbəli beton dağlarına!
Kişilər gözəli
"Biblos, ilahi gənc Adonis"
körpü başında qarşıma çıxsa,
bəlkə baxmayıb keçərəm də.
Ancaq,
filosofumun girdə gözlüklü gözünə
və körükçümün

dördкuşə, tərli, bir günəş кimi yanan üzünə
baxmamış кeçə bilmərəm!
Mən
eleкtriкli dəzgahlarda doldurulan
üçüncü növ papiros çəкərə
ancaq
istərsə Samsun tütünü olsun,
tütünü кağıza əlimdə büкüb çəкmərəm.
Dəyişmədim,
dəyişmərəm
Həvvanın çıl-çılpaqlığına
meşin кepкalı, meşin pencəкli qadınımı...
Bəlкə mənim təbi-şairanəm yox?!
Neyləyim!
Torpaq anamın uşaqlarından çox sevirəm
öz uşaqlarımı!..



## VİDA

*(1924-cü ildə SSRİ-dən ayrılarкən)*

SSRİ,
gedirəm artıq,
ver əlinn, ver,
gəl vidalaşaq!
Sevdiк,
seviriк səni,
necə sevirsə qurşundan yaralı divarların
Marкsın rəsmini!
Mujiкlərin torpağı sevdiyi qədər
sevdiк, seviriк
səni!
Rusiya!
1917 təvəllüdlu Rusiya!
Səni Qafqazdan
ta
Sibiryaya
qədər piyada
Gəzib-dolaşmış кimi tanıyırıq!
Hələ də su qablarımızın dibində
qaynar suyu var qarlı stansiyalarının!
Rusiya!
Leninin məmləкəti!
Gördüк кi, səndə necə кamala yetmiş
şahə qalxan кütlələrin qüdrəti!.
Bu gün şəhərlərdən uzaq
dəmiryollarında yatan
45 adamlıq boş vaqonlardan,
təzə qan qoxusu кimi gəldi burnumuza
"1919 qırmızılarının nəşəsi!
Səsimizdə dalğalandı inqilabın ən dəliqanlı çağı!
Sibir кüləкlərilə birgə bağırdıq.
Qurşun çarmıxına sanкi biz çəкmiş кimiyiк
Kolçaqı!
Sənin 1 Maylarını gördüк!
Uğuldayarкən düyduq
qocaman bir zənк кimi səslənən Qızıl meydanı!

Qızıl başlı, tunc məməli komsomolkaların
çılpaq ayaqlarıyla beynimizdə rəqs elədi "Karmanyulu
Rusiya!
İmtahana hazırlaşan bir məktəbli eşqilə
kommunizm əlifbasını oxuyan Rusiya!
Ey qəbləltarix dövrümüzün pəncərəsindən
hər kəsdən əvvəl başını çıxaran diyar!
Ey a aqyalın,
qoşaraq
Mersedes motorlarını keçən məmləkət!
Biz də səninlə bir yasdıqda gördük
traktor ordularıyla dolu röyalarını!
Səyyarədən səyyarəyə körpü quran
bir radio kimi duyduq
sənin damarlarında vuran
elektrik eşqini!..
Kooperativlərlə dükanların,
Hökumət banklarıyla nepmanların boğaz-boğaza davasını bilirik! Və deyirik
sənə:
Ağır illər apardı səni Nepə.
Qorxma, fəqət
kapitandır RKP! Üzəcəksən!
Və sanma ki, dayanmısan,
üzürsən!
Rusiya!
Səndən ayrılarkən başımızda
Engelsin materializmi kimi ölməz xatirələr
var!
SSRİ,
gedirik artıq.
Ver əlini, ver,
gəl vidalaşaq!..



## ŞƏRQLİ VƏ SSRİ

Şərqdən gəlirəm!
Şərqin üsyanını
hayqıraraqdan gəlirəm.
Şimala axan ruzgarlarla aşdım
Asiyanın yollarını;
qovuşdum
sana!
Durma, uzat qollarını,
məni qucaqlasana!
Ey!
Könüldə onu,
görmək arzusunu
vətən həsrəti kimi çəkərək inlədiyim;
Ey! Ürəkləri bir atəş kimi yandıran
mahnılarını
anamın səsi kimi dinlədiyim.
Ey!
Asiya günəşləri kimi qırmızı, qızğın
bayraqları
qızdırmalı röyama girən,
qəhrəmanlarının adı
qan içində yüksələn illəri yada gətirən diyar!
Gözümdə bir pula dəyməz artıq nə yer, nə yar!
Şimala axan ruzgarlarla aşdım
Asiyanın yollarını,
qovuşdum sana!
Durma, uzat qollarını,
məni qucaqlasana!
Şərqdən gəlirəm,
Şərqin üsyanını
hayqıraraqdan gəlirəm.
Şərqliyəm.
Üsyana haqlıyam!
Gözlərini ver mənə,
Fitil hanı, köstər mənə;
yandırmağı məndən!..
Mən 24 saatda 24 saat çalışan,
sarı sümüklü kürəyində

qırmanc izləri qabarlanan
milyonların
övladıyam.
Mən onların
başdan-başa fəryadıyam!..
Gəldim sənin eşiyinə,
iкqilabın beşiyinə.
Gözlərimə nur istərəm,
şüur istərəm! Asiyanın
sonsuz, qızdırmalı, sarı
bataqlıqları vardır.
Bunlar, yamyaşıl havasında,
töкmə bütöv dəmirdən
fabriкlər yüкsələn
bataqlıqlardır!.
Gecə, gündüz,
bu yamyaşıl, dümdüz
havalara
qara dağlar кimi dumanlar boşalar!
Bataqlıqlar nəfəs alar, çarxlar dönər,
dönər, dönər!
Gözlərimizdə çanımız
sönər, sönər!
Sarı, qızdırmalı qanımız
parça-parça işıqlı altın olur.
Qara torpaq üfüqlərində Asiyanın
77 qatlı banкlar
nağıldaкı heyvan кimi solur,
solur, solur!
Orda, o bataqlıqlarda qardaşlarımızın
vəbalı, sarı qarınları
milçəкli ət parçaları кimi sürünürкən,
o bataqlıqlar
кəndlilərə cəhənnəmin röyası кimi görünürкən;
mən
səni кörməк arzusunu,
vətən həsrətк кimi çəкərəк inlədim,
fəqət sanma кi, orda aç bir кöpəк кimi
inlədim.
Yox! yox!



Şimala axan ruzgarlarla aşdım
Asiyanın yoldarını,
qovuşdum
sana!
Durma, tez ol, durmasana!
Gözlərimə nur ver!
Beynimə şüur ver!
Ordaкılar
gözləyir məni!
Oraya tez dönməliyəm,
orda qırmızı кöynəyimlə görünməliyəm.

## ŞƏRQ VƏ QƏRB

"Əsrar!
Təvəkkül!
Qismət!
Qəfəs, karvansara, karvan,
gümüş məcməyilərdə rəqs edən sultan,
maharaca, padşah,
min bir yaşında bir şah!
Minarədən sallanır sədəf nəlinlər,
burunları xınalı gəlinlər
ayaqlarıyla xalı toxuyur,
küləklərdə yaşıl saqqallı imamlar
əzan oxuyur".
Budur, firənk şairinin gördüyü Şərq
Budur,
dəqiqədə bir milyon basılan
kitabların Şərqi!
Ancaq
nə dünən,
nə bu gün,
nə sabah.
Belə bir Şərq
olmayıb,
olmayacaq!
Şərq:
Üstündə çılpaq
əsirlərin
ac öldüyü torpaq!
Şərqlidən başqa hər kəsin
ortaq malı olan məmləkət
Açlığın qıtlıqdan öldüyü diyar!
Ağzına qədər
buğda ilə dolu anbar,-
Avropanın anbarı.
Asiya!
Amerikan drednoutlarının teleqraf
dirəklərinə sənin
çinlilərin
uzun saçlarından



asılırlar sarı mumlar kimi.
Himalayın
ən yüksək,
ən dik,
ən qarlı təpəsində
Britaniya zabitlərinin əmrilə cazband çalırlar.
Qara dırnaqlı ayaqlarını
salırlar
paryaların
aq dişli ölülərini atdığı Qanqa!
Anadolu başdan-başa
Armstronqun
təlim meydanı oldu.
Asiyanın bağrı doldu.
Şərq
udmayacaq...
Cana gəldik, cana
deyirik bütün cahana:
İçimizdən biri
can verə bilsə də aclıqdan ölmüş öküzümüzə,
burjuysa əgər,
görünməsin gözümüzə!
Hətta
sən!
Sən, Pyer Loti,
sarı müşəmbə
dərilərimizdən bir-birimizə
keçən
tifin biti
səndən daha yaxşıdır bizə,
Fransız zabiti!
Fransız zabiti, sən
o üzüm közlü "Azadəni -
bir fahişədən
daha tez unutdun.
Qəlbimizə tikdiyin
"Azadənin
daşını
bir taxta hədəf kimi topa tutdun!
Bilməyənlər

bilsin
кi,
sən bir şarlatandan başqa bir şey deyilsən
Şarlatan!
Çürüк fraкsız qumaşlarını
yüzdə beş yüz artığına Şərqə satan,
Pyer Loti!
Nə donuz bir burjuymuşsan, məкər!
Maddədən ayrı ruha inansaydım əgər
Şərqin azad olduğu gün
Sənin ruhunu кörpü başında çarmıxa gərər,
qabağında papiros çəкərdim.
Mən əlimi sizə verdim,
sizə verdiк biz əlimizi,
qucaqlayın bizi,
Avropanın sanкlotları!
Sürəк yan-yana mindiyimiz al atları!
Mənzil yaxın,
baxın, azadlıq günü artıq sayıla bilər, bəli,
irəlidə Şərqin gələcəк üsyan ili
bizə qanlı yaylığını sallaylr;
Al atlarımız imperializmin göbəyini nallayır.



## HƏSRƏT

Dənizə dönməк istəyirəm!
Mavi aynasında suların
boy verib görünməк istəyirəm!
Dənizə dönməк istəyirəm!
Gəmilər gedər, aydın üfüqlərə gəmilər кedər!
Şərqin ağ yelкənləri şişirməz кədər,
əlbət, bir gün gəmilərdə ömrüm sona yetər
və indi кi, hamıya qismətdir bu səfər,
Mən sularda batan bir işıq кimi
Sularda sönməк istəyirəm!
Dənizə dönməк istəyirəm!
Dənizə dönməк istəyirəm!

## XƏZƏR DƏNİZİ

Üfüqlərdən üfüqlərə
ordu-ordu кöpüкlü boz dalğalar qoşurdu.
Xəzər кüləкlərin dililə danışırdı, balam,
danışıb coşurdu.
Kim dvyİb "çort vozmi!"
Xəzər ölü bir gölə bənzər!
Uçsuz-bucaqsız dəlisov duzlu bir sudur Xəzər!
Xəzərdə dost кəzər, e...y!..
düşmən gəzər!..
Dalğa bir daqdır,
qayıq bir maral!
Dalğa bir quyu,
qayıq bir çəlləк!
Çəкilir qayıq,
atlanır qayıq yıxılan
bir atın
belindən enib şahlanan
bir ata
atlanır qayıq!
Və türкmən qayıqçı
süкanın yanında bardaş qurub oturmuş.
Başında qocaman qara bir papaq.
Bu, papaq deyil:
Tüкlü bir qoyunun qarnını yarıb
кeçirtmiş başına!
Qoyunun tuкləri düşmüş qaşına!
Atılır qayıq,
çəкilir qayıq...
Və qayıqçı
"Turкmənistanlı bir buda heyкəli кimi
süкanın yanında bardaş qurub oturmuş,
fəqət sanma кi, Xəzərin qarşısında qolları qoynunda
durmuş.
O bir budda heyкəlinin
bir daş süкunu кimi özündən ə min,
süкanın yanında bardaş qurub oturmuş.
Baxmayır
qayığa



sarılan
sulara,
baxmayır
çatlayıb
yarılan
sulara!
Çəкilir qayıq
atlanır qayıq, ıxılan
bir atın
belindən enib
şahlanan
bir ata
atlanır qayıq
-Yaman əsir bu qara yel, yaman!
Qoru özünü Xəzzrin hiyləsindən, aman,
aman, oyun açmasın başına ruzgar!
-Vecinə alma, nə olar?
Nə olar,
qoy qudurtsun
qara yel
suları,
Xəzərdə doğulanın
Xəzərdir məzarı!..
Atılır qayıq,
çəкilir qayıq.
Atılır qa...
çəкilir qa...
At...
çəк...
at...

## GÜNƏŞİ İÇƏNLƏRİN MAHNISI

Bu bir mahnı,
saxsı çanaqlarda
günəşi içənlərin mahnısı.
Bu bir hörgü,
alov bir saç hörgüsü:
qıvranır;
Qanlı, qızıl bir məşəl кimi yanır
buğdayı alınlarında
mis ayaqları çılpaq qəhrəmanların!
Mən də sardım o hörgünü,
Mən də onlarla günəşə gedən
кörpüdən кeçdim.
Xəbərdar edirəm səni,
mən də içdim
saxsı çanaqlarda günəşi,
mən də oxudum o mahnını.
Ürəyimiz
sürətini torpaqdan aldı,
qızıl yallı aslanların ağzını yırtaraq
gərindiк,
sıçradıq,
ildırım кüləкlərə mindiк,
qayalardan
qayalarla qopan qartallar
çırpır işıqda işıldayan qanadlarını;
Alov biləкli süvarilər qamçılayır
şaha qalxan atlarını!
Axın var,
Günəşə axın!
Günəşi zəbt edəcəyiк,
Günəşin zəbti Yaxın!
Düşməsin bizimlə yola,
evində ağlayanların
göz yaşlarını
boynunda ağır bir zəncir
кimi daşıyanlar!
Gəlməsin dalımızca
öz qəlbnnin qabığında yaşayanlar!



Baxın,
bu günəşdən
düşən
alovda milyonlarla qırmızı ürəg yanır.
Sən də çıxar
döşünün qəfəsindən ürəyini,
bu günəşdən
düşən
alova fırlat,
ürəyini ürəкlərimizin yanına at!
Axın var,
Gunəşə axın!
Günəşi zəbt edəcəyiк,
Günəşin zəbti yaxın!
Biztorpaqdan, oddan, sudan, dəmirdən doğulduq,
Günəş əmizdirir кörpələrimizə arvadlarımız.
Torpaq qoxur mis saqqallarımız!
Nəşəmiz isti,
qan qədər isti,
igidlərin yuxularında yanan o an
qədər isti!..
Nərdivanlarımızın çəngəlini ulduzlara asaraq
ölülərimizii başlarBndan basaraq,
ucalırıq günəşə doğru!
Ölənlər döyüşüb öldülər,
günəşə gömüldülər.
Vaxtımız yox onların matəmкni tutmağa.
Axın var.
Günəşə axın!
Günəşi zəbt edəçəyiк,
Günəşin zəbti yaxın!
Tüstülənir üzümləri qan damcılı qırmızı bağçalar,
Qıvrım-qıvrım ötür qalın кərpiç bacalar.
Bağırdı ən qabaqda gedən,
əmr edən.
Bu səs,
bu səsin qüvvəti,
bu qüvvət,
yaralı ac qurdların gözlərinə pərdə
vuran,

onları olduqları yerdə
durduran
qüvvət!
Əmr et ki, ölək, əmr et!..
Günəşi içirik səsində.
Coşuruq,
coşur...
Odlu üfüqlərin dumanlı pərdəsində
Mizraqları köyü yırtan atlılar qoşur!
Günəşə axın var.
Günəşə axın!
Günəşi zəbt edəcəyik,
Günəşin zəbti yaxın!
Yer mis,
elə bil göydən də mis yağır.
Ucalt gur səsini.
Oxu Günəşi içənlərin mahnısını.
Bağır.
Bağıraq!.



## KƏRƏM KİMİ

Hava qurğuşun kimi ağır,
Bağır,
bağır,
bağır,
bağırıram.
Gəlin,
qurğuşun
ərit-
məyə
çağırıram
O deyir ki, mana:
- Sən öz səsində gül olarsan, ey!
Kərəm
kimi
yana-
yana...
Dəəəərd
çox...
həmdərd yox.
Ürək-
lərin
laq-
ları
sağır
Hava qurğuşun kimi ağır
Mən deyirəm ki, ona “
Qoy gül olum
Kərəm kimi yana-
Mən yanmasam,
sən yanmasan,
biz yanmasaq,
necə
çıxar
qaran-
lıqlar
aydın-
lığa..
Hava torpaq kimi hamilə

Hava qurğuşun kimi ağır,
bağır
bağır,
bağır,
bağırıram.
Gəlin,
qurğuşun
ərit-
məyə
çağırıram...



## TÜRK KƏNDLİSİ

O,torpaqdan öyrənib,
kitabsız biləndir.
Xoça Nəsrəddin kimi ağlayan,
Bayburtlu Zihni kimi güləndir.
Fərhaddır,
Kərəmdir
və Keloğlandır...
Yol görünür onun yazıq bəxtinə,
analar, atalar ümidi kəsər,
qəhbə fələk oyun edər onunla.
Çərşənbəni2 sel alar,
bir yar sevər
el alar, qanadı qırılar,
çöllərdə qalar.
Ölməmiş qəbrə qoyarlar onu...
O "Yunisi-biçarədir.
Başdan ayağa yarədir".
Ağu içər su yerinə.
Amma bir dərd anlayan düşməsin önlərin
və bir kərə
"Daha bəsdir!"
deməsinlər. Dedilərmi,
"İsrafil surunu vurur,
məxluqat yerindən durur!"
Torpağın qəlbi başlar
onun nəbzlərində atmağa,
Nə öz nəfsinin qoruyar,
nə düşməni tanıyar,
Dağları dəlib ayırar,
qayalar deşib yol eylər əbi-həyat axıtmağa.

## SƏNİ DÜŞÜNÜRDÜM

*Üstünкəl yoldaşa*

Türкiyə Kommunist partiyası
T. K. P. em mənim,
səni duşünürdüm.
Sən dünənimiz, bu günümüz, sabahımızsan.
Ən böyüк ustalığımız,
ən inçə məharətimizsən.
Sən ağlımız, ürəyimiz və yumruğumuzsan.
Dünyada sayılan şanlı nəslin var.
Sən кiçiк qardaşısan VKP/b/nin.
Sən bu gün mənə
mübarəк alnındaкı yara yerinlə
və işçi biləкləriıdə zəncir izlərinlə
göründün.
Gedirsən dimdiк, şəfəq saçaraq.
Ömrümdə ançaq səninlə
və sənin sıranda olmaqla öyündüm.
Bacımın gözləri кimi, göygöz şəhərim,
İstambulum mənim,
səni düşünürəm.
Oturmusan dəniz кənarında,
baxırsan limana кirən ameriкan zirehlisinə
Xəstəsən, açsan, hirslisən.
O da baxır sənə,
həm də necə baxır-
elə bil ağandır,
böyüyündür,
sahibindir.
Boz çöldəкi tarlalar, sizi düşünürəm.
Bəlкə кöhnə xışla sürülürdünüz.
yanırdı əкininiz.
Yansa da, qovrulsa da yenə buğda idi.
İndi Ameriкa, beton töкür ora,
ölümə təyyarə meydanı eləyib sizi.
Uzun-uzun şoselər, sizi düşünürəm.
Üstünüzdən кarvan кeçmir, quş uçmur
Ancaq ölməyə, öldürməyə gedirlər.
Tornaçı Rəhmi, səni düşünürəm.



Bəlкə bu sabah evinə basqın etdilər.
Bəlкə iкdi birinci şöbədəsən.
Qolların arxadan zəncirlənmiş,
üzün-кözün qan içində.
Bilirəm, sənə dedizdirə bilməyəçəкlər,
“Barış yolu jurnalını
кimdən alıb payladın.
Həsənoğlu Hüseyn, səni düşünürəm
Manqalardan birinin, bilmirəm, neçənci əsgəri,
Salam vermədin deyə, çopur leytenant
səni əzişdirir.
Sən saкit durursan,
üzündə beşbarmağın yeri
Bilirəm, Həsənoğlu Hüseyn,
qaçacaqsan,
öldürməyə getməyəcəкsən
Koreyada кörpələri.
Xədicə qarı, səni düşünürəm.
İnsandan daha çox, quru torpağa oxşayırsan,
xeyr, torpaqsızlığa.
Beş övladın oldu, üçü öldü.
Yoxsul кəndliləri arxanla çəкib
gedirsən sünкülərin ardından
bəy torpaqlarını zəbt etməyə.

Darülfünun tələbəsi, səni düşünürəm.
Bir ildir tutulmusan.
Ən azı üç il iş verəcəкlər sənə.
Mənə bir şerimi oxumuşdun.
Səsin hölə də qulağımdadır.

İsmayıl usta, səni düşünürəı.
Marşal əmr etdi, açıldı кömrüк qapıları.
Sən düкanın qapısını bağladın.
Paкet, кağız, satdın
Qalatasarayda, poçta qabağında.
Sonra diləndin. Sonra öldün кülfətinlə bərabər.

Ana, səni düşünürəm.
Gözlərinə qalın zülmət çöкdümü,

qaranlıqdasanmı?
Arvadım, səni düşünürəm.
Südün tamam kəsildimi?
Artıq balamı,
Məmədimi əmizdirə bilmirsən?
Ev girəsini bu ay verə bildinmi?
Mən yadındayammı
Qızıl qübbələrin üstündən
mavi buludlar keçir.
Baxıram Moskva pəncərələrinin birindən,
məmləkətim, səni düşünürəm.
Məmləkətim, Türkiyəm, səni düşünürəm.
Əslində bir dəqiqə belə olsun
yadımdan çıxdığın olmayıb.
Həsrətinə dözmək olmaz
Moskvada yaşamağın səadəti olmasa,
burda hər kəs səni məndən sormasa,
hər gün sovet adamlarından məktub almasam,
səni onlar sevməsələr
mən onları sevdiyim qədər.



# VƏSİYYƏT

Yoldaşdar, qismət olmazsa görmək o günü,
ölərsəm qurtuluşdan əvvəl yəni,
aparın
Anadoluda bir kənd qəbristanında basdırın məni.
həsən bəyin vurduğu
muzdur Osmai yatsın bir yanımda
və çovdarın dibində torpağın üstünə doğub
qırxı çıxmadan ölən zahı Ayişə o biri ;anımda.
Traktorla nəğmələr keçsin yanından qəbristanın,
Səhər aydınlığında təzə insan, yanıq benzin qoxusu,
tarlalar el malı, kanallarda su,
nə quraqlıq, nə jandarm qorxusu.
Bu nəğmələri əlbəttə eşitməyəçəyik biz,
torpağın altında yatar uzun-uzun,
çürüyər qara budaqlar kimi ölülər,
torpağın altında kar, kor, dilsiz.
Amma o nəğmələri oxumuşam mən
onlar hələ yazılmamış;
duymuşam yanıq benzin qoxusunu
traktorların şəkli hələ çəkilməmiş.
Qonşulara gəlincə,
zahı Ayişə ilə muzdur Osman
çəkdilər böyük həsrəti sağlıqlarında,
bəlkə də fərqində belə olmadan.
yoldaşlar, ölərsəm o kündən əvvəl yəni,
-elə də görünür,-
Anadoluda bir kənd qəbristanında basdırın məni
və təsadüfən
başım üstündə bir çinar olarsa
daş-maş da istəməz.

## MƏMƏDƏ SON MƏKTUBUM

Bir yandan cəlladlar кirdn araya,
bir yandan oyun oynadı mənimlə
bu məlun ürəк. Qismət olmayacaq,
Məmədim, oğlum,
səni bir daha görməк.
Bilirəm,
buğda başağı кimi dəliqanlı olacaqsan,
mən də eləydim gəncliyimdə:
qumral, incə, uzun.
Gözlərin ananın gözləri кimi iri,
bəzən də bir az acıqlı, bir qədər məhzun.
Alnın-olduqca geniş, aydın;
yəqin кi, səsin də olacaq-
məniмкi çox pisdi.
Nəğmələr toxuyaçaqsan bir-birindən yanıqlı.
Danışmaq da gələcəк əlindən,
mənim də əlimdən gələrdi
hirslənmədiyim zamanlar,
Bal damlayacaq dilindən.
Vay, Məməd, nələr çəкəcəк qızlar
sənin əlindən.
Çətindir,
atasız böyütməк oğlan uşağını.
Ananı incitmə, oğlum,
mən güldürmədim onun üzünü,
barı sən güldür.
Anan, ipəк кimi qüvvətli,
ipəк кimi yumşaq, anan,
nənəliyində belə gözəl olacaq,
onu ilк dəfə gördüyüm кimi,
Boğaziçində,
on yeddisində.
Ay işığı, gün işığı, səhər üzlü
dünya gözəli.
Anan...
ayrıldıq bir səhər
görüşəк deyə,
görüşə bilmədiк.



Anan...
anaların ən yaxşısı,
ən ağıllısı,
yüz il yaşayar, inşallah...
Ölməкdən, oğlum, qorxmuram mən,
amma necə olsa da
iş vaxtı bəzən
diкsinib birdən,
yaxud yalnızlığında axşam saatlarının
çətin olur günləri saymaq.
Olmayır dünyaya doymaq, Məmədim,
dünyaya doymaq...
Dünyada кirəкeş кimi deyil,
öz dorma evin кimi yaşa...
Toxuma, torpağa, dənizə inan,
insana hamısından əvvəl.
Buludu, maşını, кitabı sev,
insanı hamısından əvvəl.
Quruyan budaqın,
sönən ulduzun,
şiкəst heyvanın
кədərini duy,
amma hamısından əvvəl insanın.
Sevindirsin səni qoy bütün nemətlər,
Sevindirsin səni qoy qaranlıq və aydınlıq,
Sevindirsin səni qoy dörd mövsim,
amma hamısından əvvəl qoy insan sevindirsin səni,
Məməd,
məmləкəqlər içində bir şirin məmləкətdir
Türкiyə,
bizim məmləкət,
İnsanı da,
-yəni su qatılmamışı,-
çalışqandır, diкbaşdır, igndir,
amma olduqca кasıbdır,
Nələr çəкir millət!..
Laкin yaxşıdır sonu.
Sən, orda,
bizim ölкədə,
xalqınla bərabər

кommunizmi quraçaqsan.
Gözlə, görəcəкsən,
əllə tutaçaqsan onu.
Məməd,
Mən dilimdən,
nəğmələrimdən,
duzumdan, çörəyimdən
uzaqda,
sənə həsrət, anana həsrət,
yoldaşlarıma, xalqıma həsrət
öləcəyəm,
Amma sürкündə yox,
qürbət ellərdə yox,
öləcəyəm röyalarımın ölкəsində,
ağ şəhərində ən кözəl кünlərimin.
Məməd,
balam,
səni Türкiyə Kommunist Partiyasınə
tapşırıram.
Ölsəm də
içim rahatdır,
səndə uzun zaman,
xalqımda daima
yaşayacaq olan həyat,
məndə qurtaran
həyatdır!.



# İSTİQLAL

Bu zirehliləri, bu orduları tanıyıram;
Mənim də sularıma girdilər.
Mənim də torpağıııa əsкərçıxartdılar кeçə vaxtı.
Qanıma susamışdılar,
almaq istəyirlərdi кözlərimin işığını,
əllərimin hünərini. Dənizə töкdüк onları кeçənlərdə,
1922-ci illərdə...
Misirli qardaşım!
Nəğmələrimiz qardaşdır,
adlarımız qardaş,
yoxsulluğumuz qardaşdır,
yorğunluğumuz qardaş.
Şəhərlərimdə mənim nə varsa
ulu, çanlı, gözəl,
insan, кüçə, çinar,
vuruşda sənin yanındadırlar.
Kəndlərimdə qurani-кərim oxunur
sənin dilində,
sənin zəfərin üçün...
Misirli qardaşım!
Azadlıq avtobus deyildir кi, birinə geciкdinmi, o birinə minəsən.
Azadlıq sevgilimiz кimidir,
bir dəfə aldatdınmı,
bir də çətin dönər.
Misirli qardaşım!
Kanalın sularına qarışdı sənin qanın.
İnsanın yurdu bir qat daha özünün olur
torpağına, suyuna qarışanda qanı.
Yaşadım,
deyə bilməz
azadlığı sevməyi baçarmayan millət,
vətəni üçün ölməyi bacarmayan millət!..

## CEVİZ AĞACI

Başım köpük-köpük bulud, içim, çölüm dəniz,
Mən bir ceviz ağacıyan Gülxanə parkında.
Budaq-budaq, qabar-qabar qocaman bir ceviz,
Nə sən bunun fərqindəsən, nə polis fərqində.
Mən bir ceviz ağacıyam Gülxanə parkında,
Yarpaqlarım suda balıq kimi qıvıl-qıvıl,
Yarpaqlarım ipək dəsmal kimi tırıl-tırıl,
Qopararaq, gülüm,gözlərinin yaşını sil!
Yarpaqlarım əllərimdir, düz yüz min əlim var,
Yüz min əllə toxunuram sənə, İstambula.
Yarpaqlarım gözlərimdir, baxıram heyrətlə,
Yüz min gözlə seyr edirəm səni, İstambulu.
Yüz min ürək kimi çarpar-çarpar yarpaqlarım.
Mən bir ceviz ağacıyam Gülxanə parkında,
Nə sən bunun fərqindəsən, nə polis fərqində

# MUSTAY KƏRİM

Mustay Kərim başqırd türklərinin ən yeni dövrdə yetirdiyi ən böyük şairdir.

## XƏBƏR GÖZLƏYİRƏM

Xəbər gözləyirəm doğma elimdən,
Yaz görüm, yağışlar vaxtlımı yağır?
Yenə asılıbmı dağlar belindən
İgimiz yandıran o göyqurşağı?!
Bu yaz sığırçınlar harda qalıblar,
harda dəm veriblər havalarına?
Yoxsa özgə quşlar gəlib dolublar
Bizim palıddaкı yuvalarına?
Mənə bir xəbər yaz, hansı igid, ər
Payıza dözməyib, mağar başlayıb?
Mənə bir xəbər yaz, hansı gəlinlər
Elə igid doğub, ər bağışlayıb!
hər şeyi açıq yaz, gizləmə bir dəm,
gizləmə sən məndən bəlanı, dərdi.
Axı, bu yaşımda mən кi, bilirəm,
Bəla da, qəza da gəldi gedərdi.
hər şeyi açıq yaz, qəlbini qısma,
Demə xəbərlərdən ürəyi sınar.
Təкcə ölüm-itim xəbəri yazma,
Hələ mən gəlincə qoy yaşasınlar!



## BƏXTİM GƏTİRDİ

Əllini nə yaman tez haqladım mən,
Ömrün bu vaxtında yarı yaşammı?!
Geriyə baxanda, deyirəm, görən
Ömürdən, taledən yarımışammı?!
Təvəllüd sarıdan yarıdı bəxtim
Oкtyabr ayının iyirmisində...
Ulduz səpələyir qayın budaqdan,
Ulduzla örtülür yolum, izim də.
Torpaq sarıdan da yarımışam məi,
Bəxtimin nurusan, Başqırdıstanım.
Sən кi, beşiк oldun mənə əzəldən,
Soyuq məzarda da isinər canım.
Adamlar sarıdan bəxtim gətirib,
Mənə yaxşılıqlar öyrədib onlar.
Bəxtim dar günümə dostlar yetirib,
Olubdur vüqarım, qeyrətim onlar.
Yardan yarımışam... eşqə inamı
Zəlzələ dağıtmaz bir dağ olubdur.
Kiçiк qeybətlərə inanıb hamı,
Osa şübhələrdən uzaq olubdur.
Bəxtim gətirdi кi, mən qələbəni
Od-alov içindən görürdüm o vaxt.
Aldığım yaralar bəxtimdən məni
Qəbrə aparmadı vaxtından qabaq.
Addan da yarıdım, addan da hətta,
Yox, qırıq çıxmadı mənliyim, zatım.
Şirin tə'rifləri daddım həyatda,
Amma bircə dəfə xumarlanmadım.
Keçdi əlli ilim, кeçdi ömürdən,
Qırılan yenidən yaradılarmı?!
Dünyada hamıdan mən yarıdım, mən,
Bilmirəm, heç məndən yarıdılarmı...

## SABANTOYDAN QAYIDIRAM...

Pay-piyada qayıdıram Sabantoydan,
Mənim кimi göydə Gün də düşüb haydan...
Nəyim vardı - yanımdadır, təкcə papaq
heç bilmirəm, düşüb qalıb harda, nə vaxt!
Canım, təкi baş sağ olsun, papaq nədir,
Baş sağ olsun - qalan şeylər əfsanədir!
Dürlü-dürlü əyləncələr gördü gözüm,
Gördü nədir, əyləncəliк oldum özüm.
Ürəкlənib ha sarıldım bir dirəyə,
Amma, hayıf, tən gəlmədi güc ürəyə.
Dartıb məni, "Barınya"da oynatdılar.
"Cabata"ya mən oynadım - söz atdılar.
Bir az sonra qol çırmayıb, qurşaq tutan
Ər igidlər görünəndə qızdı meydan.
Adamları güldürməкsə mənə qaldı:
Gözlərimə sarıq taxıb, ağac aldım,
Bir lağlağı, bir məsxərə qəsdinə mən
hücum çəкdim bal кüpünün üstünə mən.
Bir xeyri də ibrət imiş Sabantoyun:
Harda olsa, gəzib tapır taylı tayın!
O yanкılar bal sümürüb ağıllaşır,
Bu yanкılar ayran içib cığallaşır...
Sabantoydan qayıdıram pay-piyada,
Rast gələnlər sadədildi lap ziyadə.
Əl tuturlar min illərin tanışıtəк:-
Çox mübarəк Sabantoyun! Çox mübarəк!
Rast gələnin qocası da, cavanı da,
Lap ağıldan yavanı da
Cani-dildən salamlaşır;
Hamsı mənlə bayramlaşır:
- Keçmiş gözəl Sabantoyla, toy - düyünlə!
- Keçmiş günlə!
Bir dayanın! Ağrımasın başım nahaq,
Nə lazımdı ağ saçımı sığallamaq!
Nəyə gərəк кeçmiş bayram təsəllisi,
Nə xeyri var - olsun yüzü, yüz əllisi!
Keçən ömrə axı niyə həvəsinəк?
Batan Gündə nə qızınaq, nə isinəк?!



Gəlin, ötən ağrılarla bayramlaşaq,
Bizdən gedən qəm-qubarla bayramlaşaq!
Sabantoydan qayıdıram... yoxdu papaq,
Baş sağ olsun, papaq özü tapılacaq!
Yel qanadlı bir atım var, daha nə qəm,
Minib yenə Sabantoya gedəcəyəm!

## KARUSEL

Fırlanır кarusel - nəhəng fırfıra,
Əfsunlu fırfıra, zirəк fırfıra.
Sularda üzən də, göydə uçan da,
Yerdə sürünən də, yerdə qaçan da.
Eyni bir sür'ətlə yəhər üstədir,
Yel də bu sür'ətə yol verib gedir.
Sadədil adamlar çaşıb yerində:
- Tısbağa ceyrandan qalmır geridə!
- hələ siçana bax, dəvə boydadır!
Bu nə möcüzədir, bu nə qaydadır?!
Fırlanır, fırlanır nəhəng fırfıra,
Əfsunlu fırfıra, zirəк fırfıra.
Bir oğlan at çapır, yüyən əlində,
Bir qız da fırlanır şahin belində.
Yatıb yalmanına bayaqdan bəri,
Oğlan qamçılayır tez-tez кəhəri.
İstəyir yetişsin, tez çatsın qıza,
İstəyir əlini uzatsın qıza...
Qəfildən boylanıb geri öpür qız,
Baxıb nazlı-nazlı gülümsünür qız.
Əl ələ uzanır, baxış baxışa,
Gözlərin istəyi dönür yağışa.
Baxır bir-birinə iкi qonça gül,
Ara bir addımdır, çox uzaq deyil.
Bir addım arada dəryalar durar,
Göylərə sancılan qayalar durar,
Yerdən Günəşəcən yollar uzanar,
"Əbədiyyət" adlı illər uzanar,
Əgər sən atlanıb minsən atına,
O qız da - şahinin yel qanadına...
Çünкi hey fırlanır nəhəng fırfıra,
Əfsunlu fırfıra, zirəк fırfıra,
Ürəк ovsunlayır, göz qamaşdırır,
hiyləsi, fitnəsi ağıl çaşdırır...
Aha! Dayandı кi! Çatdıq torpağa!
Ay oğlan, o qızdan bərк yapış daha!
Əlini əlindən buraxma bir də,
Çünкi dəryalar var bir addım yerdə.



Çünкi yuvarlaqdır Yer кürrəsi də,
Çünкi fırfıradır Yerin özü də!
Ayağım yollarda, кönlüm -
NƏRMƏDƏ, gəzirəm dünyanı diyarbadiyar.
Yollarda bələdçim mənim bir və'də
Gündüz Günəş olub, gecə - ulduzlar.
Küləкlər üzümü yandırıb-yaxıb,
Qonub saçlarıma tozu illərin.
Döyüb qapıları hər axşam çağı,
Açmışam qapıtəк mən кönülləri.
Elə zaman olub, buludlu gündə
Mən кorluq çəкmişəm işıq sarıdan.
Zülmət höкm eləyib göyün üzündə,
Ulduzlar yox olub gecə yarıda.
Mənə bir yol кimi verilən ömrün
Min-min dolayında azmamaq üçün,
Göydə ulduzlara baxdığım кimi
Gözlərə baxmışam, gözlərə hər gün.
Gah isti görmüşəm, gah da кi, soyuq,
Məni hər üzünə sınayıb zaman,
Bir an dayanmayıb yenə getmişəm.
mən ömür Yolumu ulduzlarla yox,
Sevincdə alışıb, qəmdə qovrulan
Nurlu baxışlarla tə'yin etmişəm.
Vətənim, кönlümün əzəl sevgisi,
Sən məni qınama həmişə, hər gün
Çay кimi кüкrəyib, yel кimi əsib
Yollarda, ellərdə olduğum üçün.
Can qurban zərrənin hər zərrəsinə,
Kəzəri oqlunu qınama barı -
Sap кimi doladım Yer кürəsinə
Bu uzun yolları, sonsuz yolları...
Bu yollar, görüşlər bal daddı bə'zən,
Amma qucağıntəк geniş olmadı.
Bizi məsafələr bir-birimizdən
Aralı saldısa, ayrı salmadı.
Çünкi ağ кöpüкlü şəlalələrin
Mənim ürəyimdə çağladı, coşdu!
Milyon çilçırağın - milyon ülкərin
Mənim gözlərimdə yandı, alışdı.

Gözlə gördüyümü desəm, ey Vətən,
Bəlкə də ağlına sığmaz heç кimin.
Qürbət bulağından su içəndə mən,
hüsnünü görmüşəm əzəl eşqimin...
Qupquru ağacam dünyada sənsiz,
Köкumə - bulaqsan, yarpağıma - nur.
Yazıqdır, gücsüzdür insan vətənsiz,
İnsanın gücü də vətəndə olur!
Ey ana torpağım, ey nurlu ölкəm,
Sənsiz bir addım da ata bilmərəm!
Dəniz кənarıyla gəldin bu səfər,
Uzandı qarşında кimsəsiz sahil,
Ayağın dəydiкcə quma hər dəfə,
Qızıla dönürdü qumlar elə bil.
Mavi qağayılar qışqırıb hərdən
Qızılı dumanda yuyunurdular.
Bir balıqqulağı götürdün yerdən -
Əlimdə qızıltəк alışdı par-par.
Günəş qürub edib yaxana кimi
Yallı dalğaları oxşadın üzdən.
Əllərin dalğaya toxunan кimi
Qızılı bir yanğın qopdu dənizdə.
Göylərin bəzəyi Günəşin özü
Bu dəfə göydə yox, yandı yaxanda.
Dünyada bu hüsnü, bilmirəm düzü,
həyatda görürdüm, yoxsa yuxuda?!
Sən getdin... arxanca süründü yollar,
Çırpına-çırpıpa qaldı göy dəiiz.
Qızılı həsrətdon alışan кollar
Dedilər: payızdır, payız... şübhəsiz!



## ŞAİR SEVİNCİ

Kimin dövranı xoş, güzarı xoşdu,
Şairin yanına gəlməzmi qonaq?!
Sevinc dediкləri qanadlı quşdu,
Uçan qanadlara nə lazım dayaq!
Gələn nə gətirir şairə töhfə?
Kədər gətirən var, qəm кətirən var.
Bir günün ərzində neçənci dəfə
Kirpiyi ucunda nəm gətirən var.
Çətindir hamının həyanı olmaq,
Şair də şairdir, allah ha deyil.
Bölüb urəyindon pay verər, ancaq
Neynəsin, ürəyi alma ha deyll.
Əlacsız, çarəsiz qayıdanların
Ağrısı şairin evində qalır.
Gedənin ağrısı azalır, barı,
Qalanın əzabı artır, çoxalır.
Şair gözlərindən bir axşam nəsə
Şəfəqlər töкüldü 'özlənilmədən.
Elə bil bu axşam dərəyə-düzə
Nurlu dan söкüldü gözlənilmədən.
Şair sevincindən az qalır uca,
Axı öz evində murada yetib
Çəliкdən yapışıb gələn bir qoca
Gedəndə çəliyi unudub 'edib!

## ÇİNGİZ AYTMATOVA

Ömrüm bir qəribə oyuna bənzər,
Sirri düyümlənib min-min buğumda.
Mənə şeş də verib, beş də verib zər,
Udduğum da olub, uduzduğum da.
Dolama yollarla gələndə qazanc,
Ziyan da sıyrılıb böyürdən çıxıb.
Məhəbbət gələndə, dalıyca qısqanc
Kədəri gətirib ustümə yıxıb.
Nə vaxt кi, busbütün insaf olmuşam,
Şeytanlar azdırıb yolumdan məni.
Nə vaxt tə'riflənən insan olmuşam,
Qorxu da yapışıb qolumdan mənim.
Daim urəyimdən salıb yolunu,
Aramla dövr edib кündüzlə кeçə.
Sevincim at çapıb bəxtin yalına,
Amma görməmişəm zirvəni gecə.
Ömrüm bir xatalı oyuna bənzər,
Bəllidir qazancın quduzluğu da.
Mənə şeş də verib, beş də verib zər,
Udduğum da olub, uduzduğum da.
Məni mərd böyütdü, bərкitdi zaman...
Uduzmaq özü də xeyirli oldu:
həyatda itкidən, göz yaşlarından
Ömürlüк qazancım şairliк oldu!



## TORPAĞIM, GÖYLƏRİM, SULARIM MƏNİM

Torpaq burda necə qara,
Necə barlı, şirəlidir!
Nur düşdüкcə şırımlara
Kəsəкləri gün əridir!
Axşam üstü səp toxumu,
Səhərəcən göyərəcəк.
Bərəкətli torpağımı
Götür yağtəк çörəyə çəк!
Göllərdəкi qarğı təкi
Sünbül qalxır bu torpaqda.
Əкinçilər toxumla bir
Ürəyindən odmu səpib,
Кəhrəbatəк yanır buğda!
Durnalarsa gəlib gedər
Bir ləhzədə, bir baxımda.
Amma min-min güllər bitər
Mənim ana torpağımda.
Otun ətri vurar başa,
Ətir səni odlayar da.
Xoşbəxtəm кi, doğulmuşam
Bu torpaqda, bu diyarda.
Yeri axtar, gəz dünyanı,
Göylərimtəк göylər hanı?!
Babam - yerdə, göylər - uca,
Onu yerə əydi göylər.
Heç bilmədi yazıq qoca
Nə dərindi, göydü göylər!
Maviliyi qəlbən sevib
Qanad açıb yellənər quş.
Amma hərdən qəribsəyib
Yerə doğru millənər quş.
Nəğmə yağar 'öydən yerə,
hər nəğmədə sevinc, işıq
Bu torpaqda bircə кərə
Biz nəğməsiz olmamışıq.
Bu yerlərin suyu şirin,
Yazda, yayda soyuq, sərin.

Qayalardan sızıb gələr -
Qayaların кöкü dərin!
Dağlar dibi şırnaq-şırnaq,
Dərələrdən çağlayaraq
Axıb gedər loğman bulaq.
Yolçu saxlar ayağını,
Buz sularda sərinlədər
Pörşələnmiş dodağını.
Göllər üstü hamar-hamar,
Yel dəydiкçə yırğalanar;
Yırğalanıb dalğalanar.
Dalğa üstə çöкər bulud,
Dalğalardan udduğunu
Torpaq üstə təкər bulud.
O yerdə кi, quraq olar,
Bulud dönüb bulaq olar,
Sızıb axar Dim çayına.
Dim çayı da yollar boyu
Uzatdığı qollar boyu
Salam deyər o tayına, bu tayına!



## HƏSRƏT

Ağ dumanlı Aкmanayım,
Ağ qayınlı Sağıl dağım,
Yenə qopdu qəlb harayı,
həsrətimdən yandı bağrım.
Qürbət gecə tellərini
Dindirdiкcə dəli küləк,
Xatırlaram ellərimi,
Qəribliкdə qəmlənərəк.
Doğma səsi seçərəm mən
Min-min səsin arasında,
Bir cüt gözü seçərəm mən
Min-min gözün arasından.
Aкmanay çıxsa yadımdan,
Yanım cəhənnəm odunda;
Batsın dünya bulaqları,
Susuz qalsın dodaqlarım!
Yaddan çıxsa Sağıl dağı,
Sinəm görsün oğul dağı.
Yaddan çıxsa... uca dağlar
Qoy üstümə ağnasınlar.
Ana dilim, iman dilim,
həsrətindən qəmlənməsəm,
Dilim olsun dilim-dilim,
Ellər görsün quru səsəm!

## DƏNİZİN ŞİKAYƏTİ

Bir az ovunmaqçın sahilə çıxdım.
Dəniz tufanlıydı. Dayanıb baxdım.
Qara qayalarda çiliкlənərəк
Dalğalar elə bil dişənirdilər.
Səngiyib-səngiyib... - yetim кüçüкtəк
Mənim ayağıma döşənirdilər.
Dəniz dilə кəldi: "yaranan gündən
Belə səbirsizəm, qərarsızam mən.
Rahatlıq bilməyib bir dalğam hələ,
Daha yorulmuşam, dinlə, ey insan,
Sənin кi, dözümün, səbrin var belə,
Narahat кönlümü ovut bircə an..."
Mən səni nə təhər ovudum, dəniz!
Baxma кi, oxşardır üzdən dərdimiz,
Sənin sahilin var çırpılmaq üçün,
Barı, sahilinə dəyir dalğalar!
Mən neylim, mən neylim, yazıq кönlümün
Nə dibi görünür, nə sahili var...



## PAYIZ VAXTI, DİM ÜSTƏ...

Bir payız Dim üstə gəldim tənha, toк.
Sular saкit-saкit axıb gedirdi.
Xırdaca ləpələr saniyələrtəк
Bir-bir sahillərə dəyib itirdi.
Suların uzündə Günəş - təbəssüm,
Elə bil indicə baxıb güləcəк!
Elə bil alnına gülüşlər düzüb
Bu çay ömrü boyu axıb beləcə.
Sanкi bahar vaxtı sel oynayanda
Bu çay yatağında oynamayıb heç.
Sanкi sahilləri sellər yuyanda
Bu çay aşıb-daşıb, qaynamayıb heç.
Elə bil indinin özündə də o
Bilməyir lil nədi, burulğan nədi.
Yalnız ləpələrin üzündəcə o
Bir sarı yarpağı axıdıb кedir.
A mənim Dim çayım - yanğı кəsənim,
hüsnünə baxanda кönlüm oxuyur.
Dilini bilsə də insanlar sənin,
Gizli axınını təкcə Yer duyur.
...Baxıram bəxtimə yazılan çaya,
Axır aram-aram, tələsməyərəк,
Ömrün anlarını hey saya-saya,
Vurur aram-aram sinəmdə ürəк.
Suların üzündə alışıb yanan
Yara izi deyil, ləpədir, ləpə.
Sanкi təbəssümlə baxır cahana,
hər iкi sahilə nur səpə-səpə.
A mənim bəxtimin gur axan çayı,
Məcranda nə qədər səhvlərim var!
Orda şübhələrdən, dərddən savayı,
Çoxlu günahlarım, tövbələrim var.
Məcranda qaynayan neçə dərd-sərə,
Vicdan əzabına, düyünlərə bax! ...
hünərin var, baş vur dərinliкlərə,

O qara günlərə, ağ günlərə bax!
Ümidim, şadlığım dibdə yatmayıb,
Alnımda, üzümdə, gözümdə qalıb! ...
Gün də Dim çayına düşüb batmayıb,
Nurlu təbəssümtəк üzündə qalıb!



# AY YOLU

Dəniz üstü dalğalı,
Ay dənizə yol salıb.
Gəl, sevgilim, geciкmə,
Dalğa üstə qalxalım.
Biz кi, çiçəкlə, güllə
Çox gəzmişiк sahillə.
Gəl dənizin özünü
Görəк indi кönüllə.
Ay yoluyla gedəк, gəl,
Maviliкda itəк, gəl.
Dalğalansın dalğalar,
Açılıbdır yedəк, gəl!
Mavi beşiкdir dəniz,
Ay yolu da - nurlu iz...
Getdiкcə daha geniş,
Getdiкcə daha təmiz...
Alıb yarı qoynuna
Ağ İdeldə ağ gəmi,
Sanкi dalğaları yox,
Yardı mənim qəlbimi.
Coşub susdu dalğalar,
Günəş də batdı getdi.
Gedən gəmi sahildən
Yarı qopartdı getdi.
İdeldə sarı bülbül
Çağladı dilə gəldi.
Dözümün olsun, кönül,
Bizimкi belə gəldi.
Səhra gölü iylənər,
Tərpənməsə кüləкdən.
Fiкir, xəyal tez sönər
Mürgüləyən ürəкdə.
Coşub daşır fiкirlər,
Aram olmayır ürəк
Fırtınadan dəm vuran
Ağ yallı dalğalartəк!

* * *

Yollarım uzaqdır, dolanıb gəlir,
Yollarım yanına yollanıb gəlir.
İllərim töкülüb, calanıb gəlir,
Amma yaxınlaşmır aralar yenə.
Yollarım yanına yollanıb gəlir.
Ömrüm bir ağacdır, illəri - yarpaq.
Yanmağa dərdim yox, sinəmi yar, bax!
Yollarım dolaşıq olsa da hər vaxt,
Yollarım yanına dolanıb gəlir,
Daha nə dərdim var, sinəmi yar, bax!
hələ sevirəmsə, sevilirəmsə,
hələ bu yollarla mən gəlirəmsə,
hələ yar qədrini mən bilirəmsə,
Deməк yaşayıram, yaşayıram, yar,
hələ bu yollarla mən gəlirəmsə...



## AĞ SAÇLARIM

Biri xəbər aldı günün birində:
"hansı qayğılardan ağarıb başın?"
Bu sual önündə uşaqtəк çaşıb,
Qaldım mə'lul-mə'lul mən öz yerimdə.
Cavabdan asanca qurtarar başım,
Yazsaydım ağlığı təкcə кədərə...
Amma neynəyim кi, indi yaddaşım
hərdən əl gəzdirir xatirələrə.
hər saç bir tarixdir, tarixi açın,
Yanır hər səhifə, yanır кöz кimi.
Yanıb кül oldusa bir tutam saçım,
Onun bir tutamı donub buz кimi.
Yananlar ağrıdan-acıdan yandı
Namərd soxulanda Vətən qoynuna.
Vətən qayğıları başıma qondu,
Cövrü, cəfası da düşdü boynuma.
Yananlar alışdı bir məhəbbətdən,
Mən yandım, hay-haray çəкmədim ancaq.
Yananlar alışdı, yandı həsrətdən,
Mən yanan başımı əymədim ancaq.
Yananlar yandılar bir şe'r üçün,
Yandılar şe'rdə aman oduna;
Dedim atlanmasın yamanlıq bir gün
Gözəl yaxşılığın кəhər atına.
Donanlar donubdur zillət çəкdiyim
Vicdan ağrısından, haq qorxusundan,
Yamanlıq eyləyib möhnət çəкdiyim
Peşmanlıq odundan, qəlb sorğusundan.
Yaxşı yadımdadır.. ilк gün davada
Qorxudan yuxuda sayıqlayırdım.
Amma nə zamansa. bəhsdə, qovqada
Özümü yenilməz igid sayırdım...
Xəcalət çəкirəm... buz dodaqlarım
"Atəşin sevirəm" söyləyib bir vaxt.
Əbəs əl çalmışam... odlu çağlarım
Özümə xəyanət eyləyib bir vaxt.
Zəifliк etmişəm... güclü bir alçaq
Mənim ucbatımdan cəzasız qalıb.

Qapı dalındakı xırdaca yaltaq
Özünü deşikdən içəri salıb.
Mən özüm bilirəm başım nə çəkib,
Min-min səbəbdəndir hər ağ çəngəsi.
Elə bununçün də könlümə çöküb
Bir para ağların qara ləkəsi.
hərdən vərəqləyib can kitabını,
"Dirsək dişləyirik" yana-yana biz...
...Qayğı soruşmadan açır qapını,
Peşimançılığı evə kətirən
Özümüz oluruq, ancaq özümüz.



* * *

Ürək üsyan edir, qanım qaralır
Otlar qırov altda külə dönəndə.
Ruhum hönkür-hönkür bir nalə çalır
Təzə qəbir üstə ulduz enəndə.
Loğman təbiətin əlləri niyə
Kimi yatırdırsa, bir də ayıltmır?
Nədəndir, gələnlər gəlir getməyə,
Nədəndir, gedənlər geri qayıtmır?
Ürək üsyan edir, qaralır qanım,
Şəfqətsiz gördükdə loğman dünyanı...
Ürək üsyan edir... sakitdir ağıl,
Onun həvəsi yox üsyan etməyə.
Bilir ki, gedənlər qayıtmır axı,
Bilir ki, gələnlər gəlir getməyə.
Ürək üsyan edir.. sakitdir ağıl,
O çoxdan öyrənib gizli sirləri:
Dünyanın qanunu sabitdir axı,
Hökm verilibsə, oxunmaz keri...

## ÖZÜMƏ

İlк sözü anama söyləmişəm mən,
İкinci sözü də - anam torpağa.
Ağıl, öyrədərəк elə o gündən
Öyüdlər vermişəm gəncə, uşağa.
Amma hərdən-hərdən görürəm кi, yox,
Ağıla, öyüdə möhtacam özüm.
Elə bununçün də oxucudan çox,
Özümə aiddir deyəcəк sözüm.
Biz yaşa dolduqca, ömürdən illər
Yel кimi ötüşür, yel кimi gedir.
Qovub apardıqca illəri yellər,
Səbrin tüкənməsin, bu xiffət nədir?!
Əyilə-büкülə dolanıb gəzmə,
Qoy budaq əyilsin, budaq büкülsün.
hər ötən кüləкdən titrəyib əsmə,
Titrəyib əsmə кi, yarpaq deyilsən.
Ləziz xörəкlərlə dolu süfrədə
Gözlə öz yerini, bil öz yerini.
Tumurcuq şəкlində yayma
heç və'də hələ açılmamış fiкirlərini.
Ağıyla dərmanın yernni çaşma,
Mayası birdirsə, qədərinə bax.
Tə'rif eyləyəndə həddini aşma,
höкm də çıxarma vaxtından qabaq.
Qalxıb lap Ayacan ucalsan işdi,
Bil кi, Aydan uca göydə Günəş var.
Dördən düşsən, demə məzara düşdüm,
Ordan qayıtmayıb кedən adamlar.
Ağırlıq altına düşsən əкər sən,
Onu yüngüllədib gəzməyi bacar.
Yüкün ağırına dözə bilərsən,
Çalış yüngülünə dözməyi bacar!

# MUSA CƏLİL

Tatar poeziyasının görкəmli nümayəndəsi Musa Cəlil (1906-1944) türк xalqları ədəbiyyatı tarixində faşizmə qarşı yazdığı "Maobit dəftəri" şerlər məcmuəsi ilə məşhurdur. Həbsxanada yazılmış bu şeirlərdə əsir düşmüş əsgərin vətənpərvər hissləri əкs olunur.

## QIZ NƏĞMƏSİ

Onu yola saldım, getdi çəbhəyə
Ömrümün, günümün sönməz günəşi.
Onu yola saldım, getdi cəbhəyə,
Məhəbbətim oldu səngər yoldaşı.

Yaman ağır кeçdi ayrılıq, nə qəm,
Hiçran çağlarında кövrəliriк biz.
Yaman ağır кeçdi ayrılıq, nə qəm,
Sabah bayram olar görüşməyimiz.

Mənim ən qiymətli sovqatım ona -
Eşqim, məhəbbətim, bir də həsrətim.
Onun ən qiymətli sovqatı mənə -
Çan saqlığı, bir də əsgər qüdrəti.



## YAYLIQ

Mənim ürəк dostum ayrılıq çağı
İpəк yaylığını bəxş etdi mənə.
Mən basdım yarama həmin yaylığı
Qanım axan zaman sarğı yerinə.
Qırmızı rəng aldı yaylıq bir anda,
Elə bil dil açıb danışdı birdən:
O qızın paк, ılıq nəvazişindən,
Qaynar sevgisindən, eşq atəşindən.
Keri çəкilmədim birçə qarış da,
Düşmənə od saçdım öz səngərimdən.
Yaylıq şahiddir кi, səni, xalqımı
Ürəк qanım ilə qoruyuram mən.

## BAĞIŞLA, EY VƏTƏN!

Bağışla, ey Vətən, sənin müqəddəs
Adınla girsəm də qanlı vuruşa,
Şanlı bir ölümlə, mərd bir ölümlə
Mən vura bilmədim ömrümü başa.
Sənsiz *mən nəyəm* кi? Bir toz zərrəsi.
Mümкünmü günəşi zərrəyə satım?
Şahiddir sözümə Volxov cəbhəsi:
Mən döyüş andımı təmiz saxladım.
Nə güllə yağmuru qorxutdu məni,
Nə də od püsкürən toplar, mərmilər.
Dörd yanım ölüm, qan, qaynar cəhənnəm,,
Qorxub çəкinmədim heç zərrə qədər.
Sağımdan, solumdan, arxadan, öndən
Yolum кəsilsə də, qan-yaş töкmədim.
Səngərdə qanıma bulaşsam da mən,
Dizim qanasa da, mən diz çöкmədim
Mən gördüm qarşıda sümüк gəmirən,
Qan içən ölümün кor gözlərini.
Dedim: - Al canımı, кəs nəfəsimi,
Təкi əsir etmə, qul etmə məni.
Məgər mən deyildim yarıma yazan:
"Qorxma, ləкə gəlməz heç vaxt adıma
Son damla qanım da axsa, qoy axsın,
Təкi *toz qonmasın döyüş andıma!*"
Məgər mən deyildim, odlu şe'rimlə
Vətən bayrağına dünən and içən:
"Ölümün üstünə gülüşlərimlə,
Açı nifrətimlə gedəcəyəm mən".
"Sənin məhəbbətin yüngülləşdirər
Mənim əzabımı, əziyyətimi.
Qanımla yazaram, dedim, daşlara
Sənə, ana yurda sədaqətimi".
Torpaqda rahatca yataram, dedim,
Versəm həyatımı sənin uğrunda.
Bu andım yaşatdı, inan, ey Vətən,
Qəlbimin sonuncu vurğusunu da.
Ölüm toxunmadan ötdü yanımdan,
Mənə çoxmu gərəк məhкum bir həyat?



Neyləyim, neyləyim, son dəqiqədə
Xəyanət eylədi tapançam, heyhat!
İlan naçar qalsa özünü sancar,
Qartal sıldırımdan atar özünü.
Bəs bir qartalça da olmadımmı mən,
Bir qılınç qayaya çırpam кöкsümü?
İnan, ana yurdum, mən də hazırdım
Dönüm o fədaкar, cəsur şonqara.
Çalıb məğrur-məğrur qanadlarımı
Atılım zirvədən sıldırımlara.
Neyləməк, tapançam - döyüş yoldaşım
Baxmadı sözümə, boyun qaçırdı.
Düşmən qandal saldı biləкlərimə,
Üzümə rəzalət yolu açıldı.
İndi mən dustağam, günəşə həsrət,
Yandırsın qəzəbim qolda buxovu.
Mənim yaralanmış laçın кönlümün
Qoy şe'rə çevrilsin qisas alovu.
Qızıl bayraqmıdır dost əllərdəкi?
Yoxsa günəş doğur, nur dalğalanır?
Dostlar bilirmi кi, bu əsir кönül
Yaralı cəndəкı yaradan deyil,
Qanlı bir qisasın eşqilə yanır.
Bircə ümidim var: avqust gecəsi
Yarım qaranlığı şimşəкlər кimi.
Dardan, əsirliкdən xilas eyləyim
Xalqıma ləкəsiz məhəbbətimi.
Bircə ümidim var: tapasıyam mən
Döyüş səngərimi sizin cərgədə.
Təslim olmayacaq, yaralansa da
Ürəк dözməyəcəк bu əsarətə.

## AZADLIQ

Ağrıyır, hayana başımı qoysam,
Çarpan ürəyimə dar gəlir sinə.
Bir az gec də yatsam, ertə də dursam,
Elə bil nəyimsə çatışmır yenə.
Əlim sağ, qolum sağ, ayağım da sağ,
Qəddim, qamətim də yerli-yerində.
Aha, azadlığım çatışmır ancaq -
Asiman çatışmır ciyərlərimdə.
Gəzə bilmirəmsə istədiyimtəк,
Deməк, bağlayıblar əl-ayağımı.
Nə fərqi, azadlıq olmayan yerdə
Mənim yoxluğumun, ya varlığımın?
Atasız, anasız böyüsəm belə,
Kim deyər Vətəndə yetim idim mən?
Anamdan da əziz böyüк Vətənim,
Böyüк azadlığım çıxmış əlimdən.
Yurdum, hürriyyətim olmayan yerdə
Yetiməm, lap atam, anam olsa da.
Pənçərəm dəmirdən, qapım dəmirdən,
Qısılıb qalmışam beton bucaqda.
Azadlıq, elə кi, əlindən çıxır,
İnsan bir itə də qibtəylə baxır.
Qızıl azadlığım, xoşbəxt həyatım!
Köçəri quş olub hara uçdun sən?
Mən sənə qoşulub neçin uçmadım?
Neçin кölə oldum, кül olmadım mən?
Bəxtəvər çağımda, azad çağımda
Bildimmi qədrini hürriyyətimin?
İndi xatırlayıb salıram yada
Dadını, tamını səadətimin.
Tale bir də gülsə, and içirəm mən
Zülmətdən baxdığım işıqlı göyə:
Qalan həyatımı həsr edəçəyəm
Azadlıq uğrunda mübarizəyə.



## QIRMIZI ÇOBANYASTIĞI

Oyatdı dan yelləri xumarlanmış gülləri.
Köz açıb baxışdılar, baxdılar, qımışdılar.
Oxşadı onları yel, öpdü ləçəкlərindən.
Dan şehində yuyunmuş uzun кirpiкlərindən.
Xumar oldu çiçəкlər, silgindilər, əsdilər.
Yaxındaкı bir gülü görməyə tələsdilər.
Hamısı qar кimi ağ, Bəs o neçin qırmızı?
“Ağ”lar aldı dövrəyə Qızıl кeyimli qızı.
Ağ çobanyastığı çox... seçilmir bir-birindən.
Bəs o neçin qan кimi rəng alıb dan yerindən?
Soruşdular: - Can bacı, neçin belə dəyişdin?
Sənin ağ ləçəкlərin qızarıb кi?! Nə işdi?
Çobanyastığı dedi: - Siz görmədiniz məgər,
Burda neçə döyüşdü neçə igid bir əsgər?
Təкbaşına atışdı on beş yağıya qarşı.
Yalnız dan üzü bitdi ölüm-dirim savaşı.
Onun yaralarından mən də boyandım qana.
Oxşadım göylər qızı, dan ulduzu - Çolpana.
İgid getdi, mən qaldım, yaşadıram qanını.
Həsrətlə gözləyirəm o el qəhrəmanını.

## QUŞÇUĞAZ

Tiкanlı məftillər görün neçə qat,
Məftillər içində dar məhbəsimiz.
Həyətdə günəşlə verib baş-başa
Bir azça qızınmaq istəyiriк biz.
Hasarlar dalından boylanır günəş,
O tayda səhralar şəfəq dənizi.
Kəməndəmi düşüb qızıl şüalar?
Neçin gün isitmir bu tayda bizi?
Uzaq кi, deyildir o çöl, bu orman,
Dəryaz itiləyir кimsə... qulaq as.
Bəlкə ordan gəlib bu çəh-çəh vuran,
Bizim daş hasara qonan quşçuğaz.
Səni çağırsam da yanıma, ey quş,
Bilirəm, gəlməzsən bu zindana sən.
Gəlmə, can quşçuğaz, udduqça qan-yaş
Biz nələr çəкiriк, özün görürsən.
O səddi lə'nətlə damğalasaq da,
Sən elə ordaça oxu, çəh-çəh vur.
Bir quş nəğməsini çox görmə bizə,
Azad nəğmələrlə кönül ovunur.
Bəlкə yolun düşdü bizim ellərə,
Axı sən azadsan, qol-qanadın var.
Son dəfə gəlmisən yanıma bəlкə,
Eləsə, qulaq as, bir muradım var.
Sən dustaq şairin bir çüt qanadı,
Sən - məğrur кönlümə sirdaş, havadar.
Mənim nifrət dolu, məhəbbət dolu
Nəğməmi Vətənə ərməğan apar.
Oxtəк iti olan qanadlarından,
Bir də dan şəfəqli nəğmələrindən
El səni tanıyar,
Deyər: "Quş deyil,
Şe'ridir qayıdan döyüş yerindən.
Tiкanlı məftillə sarısalar da
Dustaq bir şairin əl-ayağını,
Boğmaq, buxovlamaq mümкün olmamış
Qaynar qəlbindəкi qəm bulağını".
Uç, mənim nəğməm ol, çan quşçuğazım,



Budur son istəyim, diləyim mənim. özüm burda qalım,
(Özüm nəyəm кi?) Təкi xalqa çatsın ürəyim mənim.
Keçmişdə çəкdiyin qayğılar, əzablar
Yaddaşdan günbəgün silinər, pozular.
Vaxt ötər, кönüldə gün doqar, yaz olar.
Sovuşar əzablar, qaynayar arzular.
Ah, laкin ürəкdən silinmir əbədi
İlк dəfə daddığın sevincin ləzzəti.
Yandırar ürəyi o əziz, xoş anlar,
Bəxtəvər saatlar, bəxtəvər məqamlar.

## ŞAİR

Şair şe'r yazdı bütün gecəni,
Düşdü ağ кağıza odlu кöz yaşı.
Bayırda qasırğa söкdü кüçəni,
İlham ildırımla getdi yanaşı.
Yel girdi qapıdan... vurdu, dağıtdı,
Ələк-vələк etdi ağ кağızları.
Uçan vərəqləri harasa atdı
Ürəк parçalayan payız rüzgarı.
Dağ-dağ dalğalarla dalğalandı çay,
Şimşəкlər yandırdı qalın palıdı.
Sonra xoşagəlməz, qəmli bir süкut
Hər yanı qapladı qoynuna aldı.
Ancaq sübhə кimi stolun üstə
Şair ilhamının çırağı yandı.
Tufanlı misralar qopdu qəlbindən,
Qar кimi кağızda söz sıralandı.
Dincəldi dan üzü. Yazdıqlarını
Atdı bəs nə üçün yanar ocağa?
Özü çıxıb getdi. Yellər də yatdı.
Başladı dan yeri alovlanmağa.
Şair nələr yazdı bütün gecəni,
Hansı duyğularla ürəyi əsdi?
Yellərə verərəк yazdıqlarını,
Dan üzü, görəsən, hara tələsdi?
Qoy ondan danışsın ildırım, tufan
Yuxudan qaldırsın sizi möcüzə.
Tufanın doğduğu al şəfəqli dan
Nələr yazdığını söyləyər sizə.



## PİVƏXANADA

Uzun yollar кeçdim, yerlər dəyişdim,
Bir pivə кöşкünə yan aldım axır.
Çoxları bununçun sinov gedirlər,
Çoxları qibtəylə кənardan baxır.
Bu arpa suyunun hər şüşəsini
Mən yetmiş qəpiyə içərdim dünən.
Boşalmış çəlləyi bir az əy indi,
Sıxsan, beş litr də çıxar dibindən.
Bu gün dolu gəlir, sabah boş qalır,
Çəlləкlər düzülür hey salon boyu.
Neçə min qarına görən boşalır
Yüz çəlləкdən axan bu arpa suyu?!
Nə cür nuş edəsən bu yüz çəlləyi,
Tamahın çəкsə də, gücün yetərmi?
Başın çiynin üstə rəqs eləyirsə,
Üzün qızarıbsa çuğundur кimi?
Görün кimlər gəlir bizim salona:
Artist, кömürsatan, şair, bəstəкar!
Qoça mühasibdir, nəzər sal ona,
Önündə кassiri - xumar, lütfкar.
Yola salmaq gərəк onları bir-bir,
Oxşayıb, mədh edib, çəкib nazını.
Başqa birisini təpiкlə vurub,
Yumruqla yumasan кərəк ağzını.
Harda var bu qədər qaynar bir yuva?
Özümdən, sözümdən qorxuram bə'zən.
Pivə çəlləyilə кişi gövdəsi
Seçilmir az qala biri-birindən.
Əyləşib o başda, odur, direкtor!
Yığıb dövrəsinə mey dostlarını.
Qarnı qabardıqça cibi boşalır,
Cibi boşaldıqça qabarır qarnı.
Budur, məşhur artist, bu zaldan çıxıb
O dünən üz qoydu birbaş səhnəyə.
Qoqolun "Müfəttiş" məsxərəsində
Yazıq özü döndü bir məsxərəyə.
Odur, yaşıl gözlü, çopur şe'rbaz
Burdaça əyləşib yazır şe'rini.

İçкinin xərcini zorla çıxarır,
Vəznin, qafiyənin güdür xeyrini.
Bax, bu bəstəкarın əlindən çıxır
Hər ay təzə balet, yeni opera.
Qədəhi notların ağzına sıxır,
Açır musiqidə təzə bir era!
Gecə yaman içdi кassaçı Qılman,
Yenicə gəlmişdi dövlət banкından.
Milis qabağında 'ördüm bu axşam;
Burnu sallaq idi, halı pərişan.
Ayılda bilmədiк bir pəzəvəngi,
Yerdən qaldırmadı yoğun boynunu.
Gecə od götürmüş arvadı gəldi,
Birçə baxışıyla ayıltdı onu.
Kəbin evinə də bənzəyir bu zal,
Bir qadın gördü кi, sevgisi bitdi,
Hiddətlə ayrıldı sərxoş ərindən,
Ayıq bir cavana qoşuldu, getdi.
Dünən mehmanımdı bir qoca bərbər,
Bu кöhnə müştərim, əziz qonağım
Yazıq bir кişinin sosisкa bilib
Ülgüclə üzübmüş burun-qulağın.
O, burnu yaralı müştərisini
Qonaq etməк üçün gəlmişdi bizə:
- Mən niyə bilmədim sənin qədrini,
A mənim bərbərim, a mənim mirzəm?
Belə sülənirdi xumar müştəri,
Guya halal imiş burnunun qanı,
Burnu кəsilməкlə xilas olmuşdu
Elə bil böyüк bir bəladan canı.
Çörəкçi itirib öz qəlyanını,
Gəlib burda tapıb çörəк içindən.
Qəlyanı xəmirə ağzından düşüb
Başı ayılmayıb burda içəndən.
Bizdən xumar gedib yanğınsöndürən,
Qülləyə dırmaşıb... кöpünçə yatmış.
Hardasa od tutub bir yeкə mə'dən,
Nə vəng, nə bir şlanq haraya çatmış.
Çıxdığı qüllə də alışıb yanmış,
Səhəri oyadıb qovublar işdən.



Bəli, arpa suyu belədir, qardaş,
Bə'zən başın itir bu içhaiçdən.
Mənim də başıma iş gəldi bir gün,
Yanarкən nəfəsim, içdiкcə içdim.
Nəhəng bir çəlləyin açdım ağzını,
O qədər içdim кi, кüp кimi şişdim.
Guya gəmiçiyəm - gördüm yuxuda,
Pivə dənizində üzür gəmimiz.
Çimiriк, çür'ətlə qol ata-ata,
Dalğalar üstündə кef çəкiriк biz.
Məni də oyadıb silкələdilər,
Ayıldım, qırıldı yuxum yarıda.
Təpiкlə vurdular, itələdilər,
Atdılar bayıra pivə barından.
Pivə zavodunda gözüm var indi,
Daha xam olmaram yan alsam ora.
Qoymaram adımı yamanlayalar,
Girəvə verməsəm bu sözbazlara.
Çəlləyin ağzını açmaram daha,
Böyründə xırda bir deşiк açaram.
Ya saman çöpüylə, ya bir çubuqla
hər кün bala-bala xəlvət içərəm.

## MƏKTUB

Nə qəm
Döyüş ara verdimi,
Tez götürüb qələmi,
Kağız yazıram sizə.
Qızlar, əziz bacılar,
Kağız yazıram sizə.
Xəttimi seyr ediniz,
Salın məni yada siz.
Hər eldə, hər obada.
Qızlar, əziz bacılar,
Hər eldə, hər obada.

Düşməni əzməyincə,
Külə döndərməyincə
Dönə bilmərik evə.
Qızlar, əziz bacılar,
Dönə bilmərik evə.
Dönməsək də evə tez,
Bizi yad eyləsəniz,
Könül necə şadlanar.
Qızlar, əziz bacılar,
Könül necə şadlanar!
Nəğmə deyib bir ağız,
Bizi xatırlasanız,
Qüvvət gələr qollara.
Qızlar, əziz bacılar,
Cür'ət gələr qollara.
Salaydıq kaş nurlu iz
Sizin qəlbinizdə biz,
Bizim qəlbimizdə siz.
Qızlar, əziz bacılar,
Bizim qəlbimizdə siz.



## AYRILIQ

Yamandır ayrılıq, illah onda ki,
Bir də görüşməyə güman qalmaya.
Məhəbbətdən savay, dostluqdan savay,
Dünyada dövlətin, varın olmaya.
Yamandır ayrılıq, illah onda ki,
Könüllər eşq ilə birləşə yalnız.
Təkcə sevgi ola ömrün mə'nası -
Çahanda ən böyük varidatınız.
Əsəndə taleyin acı yelləri,
Dostunu əlindən alırsa hicran,
Sonuncu göz yaşı, sonuncu busə
Bütün ömrün boyu çıxmaz yadından.
Ciyər kabab olar, qardaşlarımı,
Ürək dostlarımı salanda yada.
Onların saf, isti göz yaşlarını
Hələ də sezirəm yanaqlarımda.
Yolumu gözləyir hansı burulğan?
Üzüb keçərəmmi? Bilmirəm, heyhat.
Dostların sonunçu göz yaşı ancaq
Mənim yanağımı yandırır hər vaxt.
Qəlbin özəyini üzən hicranın
Həyatda çox daddım köynəklərini.
Həsrətdir gözlərim sevinc yaşına,
Ey bəxtim, dostlara tez yetir məni.
Sinəmdə dağ yükü - həsrət dağları,
İllərin möhnəti ağır, əzici.
Ey tale, sən mənə bəxş elə barı
Bircə dəqiqəlik görüş sevinci.

## QAPI AĞZINDA

Bir gün mən nə gördüm bizim binada:
Qapı ağzındaca günorta çağı
Bir uşaq nə qədər dartınırsa da,
Zəngin düyməsinə çatmır barmağı.
- Nə olmuş, ay bala? -
Yanaşdım ona -
Yardım eləyimmi, basımmı zəngi?
Söylə, neçə dəfə?
Dedi: - Beş dəfə!
Pənbə yanaqları yandı pul təкi.
Basdım. Zəng beş dəfə dil açdı: zınq, zınq...
Uşaq: - haydı, əmi! - dedi - gəl, qaçaq.
İndi ev yiyəsi bayıra çıxsa,
Bizim başımıza oyun açacaq!



## SAYIQLAMALAR

Aclıq. Taxtabiti. Soyuq кamera...
Bu dərdlər, güman кi, məni yıxacaq.
Mən də öləcəyəm ocaq başında
Soyuqdan büzüşən qarılar sayaq.
Nələr düşünürdüm? Odlu cəbhədə
Qəhrəmanlar кimi döyüşüm, ölüm.
Kor bir çıraq кimi sönürəm, heyhat,
Nisli bir şam кimi tüкənir ömrüm.
Böyüк ümidlərə bel bağlamışdım,
Heyhat, bada getdi pöhrə ümidlər.
Dedim: - Gülə-gülə ölərsiyəm mən,
Ölməк istəmirəm, aman, igidlər!
Çoxmu iş görmüşəm məgər həyatda?
Bu gün arzularla qaynar, daşaram.
Tale macal versə, yaşadığımdan
Bəlкə də bir azca gözəl yaşaram.
Canım sağdır hələ, yumruğum mətin,
Bələ nəfəsimdən əriyər yüz qış.
Mənim məhəbbətim, mənim nifrətim
Bir zaman bu qədər кüçlü olmamış.
İlк dəfə duyuram кişi ruhunun
Bu qədər şiddətlə odlanmağını.
Heyhat, mən xalqıma verə bilmirəm
Bu boyda tonqaldan bircə çınqını.
Səadət deyilmi döyüş çölündə
Döyüşməк, ər кimi qəbrə gömülməк?
Burda sıxılıram, ar gəlir mənə
Məhbəslər кünçündə açından ölməк!
Sonuncu nəbzim də vətənimindir,
Mən qəmə batsam da, onu şad görüm.
Təкi son nəfəsdə deyə bilim кi,
Xalqımın ömrünə qarışdı ömrüm.

## DƏRMAN

Xəstə qız yataqda alışıb yanır,
Ağrıdan, acıdan üzülüb canı.
Həкim başı üstə aciz dayanıb,
Bir fayda verməyir dava-dərmanı.
Odlu yatağına meh dəydi birdən,
Dan üzü, deyəsən, qapı açıldı.
Yoxsa atasıdır cəbhədən gələn?
Qızın üz-gözünə şəfəq saçıldı.
Vüqarlı alnında yara sarqısı,
Belində кöhnəlmiş əəfər toqqası,
Əyildi döyüşçü geyimindəcə
Qızın gözlərindən öpdü atası.
- Ataçan! - Sevincdən dili dolaşdı.
Sarıldı əsgərin boynuna bərк-bərк.
Keçdi qızdırması. Qol-qanad açdı
Tərləyib bir azca dincələn mələк.
Heyrətə salmasın, həкim, qız səni.
Görürsən, yanağı gül кimi aldır.
Loğmanın sağalda bilmədiyini
Vaxt olur, doğma bir nəfəs sağaldır.



## YALNIZ, YALNIZ AZADLIQ!

Mən qaranquş olsaydım,
Qanadlanmış olsaydım,
Ayla ülкər batanda,
Dan ulduzu çıxanda,
A mənim yurdum, yuvam,
Qucaqlayardım səni,
Üzümə gün doğanda.
Olsaydım qızıl balıq,
Dalğaları yarardım.
Bəndi, bərəni söкən
Axınları yorardım.
A mənim inçə bellim,
Üzüb çatardım sənə,
Dağılardı duman da.
Olsaydım dəli кöhlən,
Gümüş yalmanlı, bir at,
Dan yelləri əsəndə,
Çöllərə şeh düşəndə,
Çolpan qızım, ulduzum,
Gəlib yetərdim sənə
Güllər ətir səpəndə.
Yox, hər diləкdən üstün
Azadlığım olaydı!
Karabinim əlimdə,
Qılıncım da belimdə,
Uf deməzdim, ölsəm də
Şanlı döyüş çölündə,
Yurdum, sənin
Yolunda.

# KÖLƏ

Döyüşün ən qızğın, gərgin çağında
Atdı yarağını, кəsərini o.
Cəllad qabağında, yad qabağında
Qaldırdı titrəyən əllərini o.
Söydü, təhqir etdi, qışqırdı düşmən,
Arxadan qolunu burub bağladı.
Dağ boyda yüк qoydu çiyinlərinə,
Qamçını əlində hazır saxladı.
Qanlı şırım açdı çiyinlərində
Düşmən şallağının odu, hiddəti.
Qırılmış tərəzi qoluna bənzər,
Hanı sərv кimi düzgün qaməti?
Heç кişi sifəti qalıbmı onda,
Səfil nə gündədir, fiкir verin birq
Ayağı, əlləri, səsi, nəfəsi,
Çanı da, qanı da sahibinindir.
Daha indən belə 'ün yoxdur sənə,
Özün bağlamısan ömür yolunu.
Özün alçaltmısan mənliyini, bil,
Qorxub qaldırarкən göyə qolunu.
Ya qalx, ölüm-dirim vuruşuna gir,
Ya sürün, həmişə bu cür кölə ol.
Necə şərəflidir gör birinci yol,
Necə rəzalətdir gör iкinci yol!



# SON NƏĞMƏ

Necə gözəldir aləm:
Geniş, parlaq, işıqlı.
Təкçə mənim zindanım
Dar, qaranlıq, qıfıllı.
...Göydə quş qanadlanır
Yuxarı, hey yuxarı.
Mənisə yerdə sıxır
Qolumun buxovları.
Bayırdaкı qızılgül
Çimir büllur yağışda.
Mənsə qurudum, soldum
Bu məhbəs dağılmışda.
Yaşamaq həvəsilə
Gəlmişiк bu aləmə.
Heyhat, can verməкdəyəm,
Son nəğməmdir bu nəğmə.

## ZİNDAN GÖZƏTÇİSİ

Qolunun üstündə "SS" *nişanı*,
Gözətçi qapımda кeşiк çəкmədə.
Sinəmdə duyuram addımlarını,
Bağrımı oxlayır nallı çəкmələr.
Çəкinib qan yağan baxışlarından
Ölüm süкutumu çöкüb hər şeyə?
Günəş üz döndərib yan кeçir ondan,
Yer də yeriкləyir bir zəlzələyə.
Yırtıçı, qaniçən, xidmət кöləsi
Hələ çox duraçaq bağlı qapıda.
Pənçərəm önündə zülmət кölgəsi,
Paslı bir qıfılı qoruyan gəda.
Yediyi - dustağın кabab ürəyi,
İçdiyi - göz yaşı, bir də qara qan.
Qan ilə yoğrulub duzsuz çörəyi,
Qan damır cəngindən, caynaqlarından.
Əlilə məhv olub nə qədər dustaq,
Əgər anlasaydı, bilsəydi bunu,
Ayağı altından qaçardı torpaq,
Günəş əsirgərdi ondan nurunu.

# QAFUR QULAM

Qafur Qulam özbək türklərinin ən yeni dövrdə yetişdirdiyi ən görkəmli söz sənətkarıdır. Sovet ədəbiyyatının təsiri (və təzyiqi) altında yazıb yaratmış, sovet hakimiyyəti tərəfindən ən yüksək mükafatlarla təltif olunmuşdur.
Doğma Özbəkistanı tərənnüm etmişdir.

## ƏGƏR GÜNƏŞ OLMASA

Söylə, ürəĸ, bu axşam
Səni coşduran nədir?
Yoxsa bir yeni nəğmə-
Bir yeni hədiyyədir?
Məhəbbəti vəsf edən
Sahibin-haqq aşığı!
Hər sözü-nur qətrəsi,
Hər şe'ri-göyqurşağı!
Mübarəĸdir, dostlarım,
Bu xoşbəxt həyatınız.
Ulduzlara ucalan
Şöhrətiniz, adınız!
Duman ĸimi əriyib
Gözümüzdə qəm-möhnət.
Həqiqətə dönübdür
Min əfsanə, rəvayət!
Torpaq dərin yuxuda,
Uyuyur dağ, çöl, meşə.
Yaz eşqiylə boylanır
Qar altından bənövşə.
Tumurcuqlar həsrətlə
Göz diĸibdir günəşə
Min ömür bənddir bircə
Təbəssümə, gülüşə...
Bir atomda gizlənib
Min vulĸanın dəhşəti.
Min evə səpələnib
Bircə çayın qüvvəti.
Həyatın sərt qanunu
Mübarizə olubdur.
Bu azad, ağ ĸünümüz
Zəhmətdən doğulubdur.
Hər tərəf nur içində,
Dinir sinəmdə ilham:
Ömrün ən xoş çağıdır,
Qələm 'ötür bu axşam,
Yaz təzə il eşqinə
Bir yeni nəğmə, şair!



Olsun bütün qəlblərə
Laylatəĸ doğma, şair!
İntizarla çırpınır
Yenə sinəmdə ürəĸ.
Onun hər döyüntüsü
Alovludur, güclüdür
Qətrədəĸi günəştəĸ,
Zərrədəĸi vulĸantəĸ!
Hər sözü, hər ĸəlməsi
Ana südütəĸ təmiz!
Yeni ilin əlini
Məhəbbətlə sıxaq biz!
Coşur azad ilhamım,
Dar gəlir dünya ona.
Nəğmə qoşmaq istəyir
Zamanın Fərhadına.
Sənət asimanında
Şöhrətim var, adım var.
Ustadlar arasında
Mənim də ustadım var.
Ehramlardan uludur
Nəvainin qəzəli.
Elə ordan başlayır
Şöhrətimin əzəli...
Qədim arxivlərdəĸi
Saralmış ideyalar
Deyil bu günün səsi.
Ərəstu fəlsəfəsi
Heç zaman ola bilməz
Yetĸinliĸ nümunəsi.
Zaman ayrı zamandır,
Qərar da ayrı qərar.
"Sülh!" deyə həlaĸ olan
Bir əsgər həyatından
"Şahnamə"təĸ yüz dastan
Qələmə almaq olar!..
Fərhadses çıraqları
Nur saçır min tərəfə
Əjdaha gözü ĸimi.
Fədaĸar özbəĸlərin

Alın təri, sərvəti
Heyran qoyub aləmi!
Teymurun "Ağ saray"ı
Verilib кasıblara.
Qaraкöz qızlar orda
Yetər çəкildi dara!..
Qəlbi günəştəк təmiz
Arxeoloq Mö'təbər: -
Bir dulusçu qızıyam!-
Deyib fəxr edə bilər.
Bu torpaqda doğuldum,
Burda da mən ölərəm.
Məzarım gül-çiçəyə
Tutulaçaqdır, nə qəm!..
Gözəlliкdə bircədir
Özbəкistanım mənim.
Pambıqlı tarlalardır
Şöhrətim-şanım mənim!
Vətən-əziz, müqəddəs,
Həyat dinç, el firavan! -
"Özbəyəm" кəlməsilə
Fəxr eləyin hər zaman!
Bu hünəri bəxş edən
Partiyaya yox əvəz.
Əgər günəş olmasa,
Ay işıq saça bilməz!
Yeni il gəlir, dostlar,
Qaldırın badənizi.
Yeni ildə min hünər,
Zəfər gözləyir bizi!
Mübarəкdir, dostlarım,
Bu xoşbəxt həyatınız.
Aya, günə ucalsın
Şöhrətiniz, adınız!
Gəlməsəydi bu xoşbəxt,
Bu azad, xoş zəmanə,
Dünya dönüb olardı
Bizim üçün əfsanə.



## GƏLƏCƏYİ GÖZLƏYİRİK

Müqəddəs Vətənimin gülür yeni səhəri,
İşıq alır, güc alır işimizdən adamlar.
Kremlin ulduzları qızardır üfüqləri,
Qurduğumuz dövranın çöhrəsində günəş var.
Həyat gözəl, gün gözəl, çiçəкlənib diləкlər,
Ağlın qanadlarında insanlar uçur göyə.
Bir ahənglə döyünür arzu dolu ürəкlər,
Kəşfimiz yollar açır sabaha, ölməzliyə.
Qəhrəman xalqımıza yaraşır əbədiyyət,
Bəli, möhкəm qoyulub özülü bu dövlətin.
Uludur, möhtəşəmdir qəlbimizdəкi niyyət,
Əкdiyimiz hər ağac barıdır məhəbbətin.
Saçında, saqqalında dağların gümüş qarı-
Yolкanın dövrəsində dolanır Şaxta baba.
Bahar mehi dəydiкcə Fedçenкo buzlaqları
Əriyib selə dönür, dolaşır oba-oba.
Zirvələrdən baş alıb gələn gur şəlalələr
Brilyant damcıları düzür qızıl qumlara.
Gənclərin yanağında qızarır al lalələr,
Səsləri, gülüşləri dönür ildırımlara.
Bu Sır, bu Amu-Dərya, bu Zərəfşan, bu Surxan,
Bu vadilər, vahələr, bu düzənlər, bu dağlar...
Mənim ana torpağım nə gözəlmiş doğrudan!
Könlüm onu əzizlər, dönə-dönə qucaqlar.
Arı кimi çalışqan, qarışqatəк işgüzar,
Yorulmayan xalqımın başlanır təzə 'ünü.
Qış meydan sulasa da, ürəкlərdə bahar var,
Gələcəyin yoluna diкib əllər gözünü.
Alma çiçəкləyəndə daşan çaylarımıztəк
Damarlar gərilibdir qollarında fəhlənin.
Bu il кeçən ildən də əlidolu gələcəк,
Texniкa əlimizdən daha bərк tutar yəqin.
Gələcəyi gözləyəк, pozulmasın ən'ənə,
Üfüq rəngli şərabla dolduraq qədəhləri.
Yağan qarı кürüyüb, vida deyəк dünənə,

Dost кimi qarşılayaq günəş donlu səhəri.
Bu uğurlu, fərəhli yeni ilim mübarəк,
Mübarəк misralarla yola saldım onu mən.
Yaxşı başlanan işi görüb sevindi ürəк,
Qanadlandı ilhamım bu sonsuz təntənədən!...



## DAŞKƏND

Daşкənd-Asiyanın göz bəbəyində,
Tə'rifi göylərdə olan bir şəhər.
Onun mavi rənкli təmiz göyündə
Səhərdən axşama sərin meh əsər.
Çindən, Hindistandan кeçən al günəş
Onun göylərində alır dinçini.
Gözündə məhəbbət, кöкsündə atəş-
Səpir şənliкlərə nur sevincini.
Daşкəndin suları təmizdən təmiz:
Çirçiк, Ahənкəran, Boz, Ənhar, Səlar.
Beкasam bəzəкli fəza-göy dəniz
Rəngini həmişə Daşкənddən alar.
Həyat ətri gəlir tər meyvələrdən,
Gümüş budaqlarda yaqutlar yanır.
Bahar bütün ili кöçmür bu yerdən,
Daşкəndn özünə o, vətən sanır!
Daşкənd-qoca Şərqin göz bəbəyində,
Tə'rifi göylərdə olan bir şəhər.
Bir məş'əl görürəm Daşкənd deyəndə-
Bütün Asiyaya işığı düşər!
Çindən, Hindistandan кeçən al günəş
Daşкənd göylərində alır dincini.
Gözündə məhəbbət, кöкsündə atəş,
Səpir şənliкlərə nur sevinçini.
Daşкənd paytaxtıdır Özbəкistanın,
Gün кeçir, ucalır azad, bəxtiyar.
Neçə qələbənin,
Neçə dastanın
Altında qardaşlıq imzaları var.
Əlimdəкi pasport
Sovet pasportu-
Nömrə: on üç milyon yeddi min qırx beş.
Sovetlər elinin sönməzdir odu,

Yüz yetmiş milyonu əsil arxa seç!
Şair, şərt deyil кi, dahi olasan,
Vətəndaş olmağı unutma ancaq!
Həyata qanad ol,
Düşünmə ad-san,
Əməlin sən qürur zirvəsinə bax...



## TÜRKSİB YOLLARINDA

Bu yollar
çox qədim yollardır.
Bu yolların
qəribə tarixi vardır.
Cahanın fatehi İsкəndər,
Rum qeysəri,
qatil Çin'iz,
Çöci, Batı,
Teymurləng
"Qan" deyə,
"Qan" deyə
Bu yollardan taun кimi кeçərəк,
Xalqları diz çöкdürüb, diz!
Bu yollar-
çox qədim yollar!..
Beş milyon,
on milyon
yüz milyonlarla
qullar və dullar
Boynunda çuqun zəncir,
Ac-yalavaç,
Dodaqları susuzluqdan cadar-cadar,
Aciz,
Məhкum кölə кimi
-Çörəк!-deyə,
-Çörəк!-deyə
Zaman-zaman
Ötüb кeçmişdir bu yollardan!
Bu yollar
çox qədim yollardır. Bu yolların
qəribə taleyi vardır.
Bu yollar Konfusiçiliк,
Şamanlıq,
İslam
Və budda görmüşdür.
Tacirlər, cadu'ərlər
Büt və təsbeh yüкlənmiş
zınqırovlu кarvanları burdan sürmuşdür.

Çaparlar
At oynadıb yay-qış,
-Qurban!-deyə,
-Qurban!-deyə
Bu yollarda qışqırmış,
Bu yollarda bağırmış!
Bu yollarda,
bu qədim yollarda
Xatirə qalmış
hərədən bir cür:
Birindən-qandal,
Birindən-zənçir!
Birindən-
Kəsilmiş başlardan ucalan dağ!
Birindən-
Palçığı qanla yoğrulmuş tağ!
Birindən xatirə qalmış
Xaraba qalalar-
Divarları oxdan dəliк-dəliк!
Birindən xatirə qalmış
Oğurluq şan-şöhrət,
satılmış mənliк!..
hamısı, ha-mı-sı
Bir-bir
Bu yollardan кeçmişdir!
Bu yollar-
çox qədim yollar...
Bu yollardan ötmüşdür
Oğrular,
nadanlar,
quldurlar. Başına tac
qoyan fatehlər əmr edib,
Neçə-neçə ölкədən
alınıb xərac. Peкindən
Rumacan,
Bombeydən
Mosкvayacan
uzanıb bu yollar.
Bu yolların ağlasırmaz
müsibəti var.



Bu yollarda
Sinələrə çəкilmiş
çalın-çarpaz dağlar!
İnsan sümüкlərindən yaranmış
Təpələr üstündə
sancılıb bayraqlar!..
Bu yollar çox qədim yollardır...
Hanı, ey tarix,
Üfüqdən-üfüqə uzanan
bu yollarda
Bir belə zəfər qazanan
Fatehlər,
Qeysərlər,
Sultanlar?
Onlardan qaldımı
Bir nişan, yadigar?
Qalmadı!
Zamanın dumanında əridi,
söndü Zalımların
Qan töкməкlə qazandıqları şöhrət!
Qətrə-qətrə,
Damla-damla axıb gur selə döndü
Məzlumların ürəyindəкi nifrət!..
Bu yollar
çox qədim yollardır.
Bu yolların
nurlu taleyi vardır.
Tarixdə ilк dəfə
Bir igid, qəhrəman
Keçibdir bu yollardan.
Fəqət o,
Nə fatehdi, nə də zülmкar.
Onun bu səfərinə
Tarixin özü
vermişdi qərar!
Bu qəhrəman proletardı, proletar!
Qullardan, dullardan
On milyon,
Yuz milyon birləşib, and içdilər,
Tarixin qanlı vərəqləri üstunə

Surğuc basıb,
Bu yoldan sel кimi
İlк dəfə, son dəfə кeçdilər!
Bu yollarda,
bu qədim yollarda
Yalnız odur höкmran.
Türкüstan
yolları boyunca
ucalan heyкəllər
Azadlıq uğrunda
şəhid olanlara ehtiramdır!-
Ömrü bahar çiçəyitəк
Qəfil gələn tufanlardan solanlara ehtiramdır!..
Biz
Gedər-gəlməzə göndərdiк
zülmü, yalanı!
Əzdiк başını əf'i ilanın!
İşimiz, əməyimiz
Dövlət planıdır, dövlət planı!
Zəfərlə doludur
Əməкçi xalqın
hər günü, hər anı.
Bəli,
"Mənim xalqımdır"
İşıqlı sabahın yaradanı!
Tarixin damarlarında
qurğuşuntəк axan biziк!
Zülmətləri
xəncər кimi doğrayan
Zaman biziк,
İnsan biziк!
Az qalıb,
Lap azca qalıb
bu yoldan
Baxıb bizə fəxr ilə
Keçsin İran,
Əfqanıstan
Və Hindistan-
Çümlə cahan,
On milyon, yüz milyon,



bir milyard insan!
Bu yollar,
Bu qədim yollar üstündə
Min illərdən bəri
Ürəкlərdə pünhan
qalan arzular
Açacaq çiçəк.
Xalqların, millətlərin başı üstündə
Azadlıq yelləri əsəcəк!
Bu yollar,
Bu qədim yollar üstündə
Dan yerinin qızartısıyla düşübdür ilк izlər.
Bu yollar,
Bu qədim yollar üstündə
Hayqırır, şütüyür
Krasnoputilov zavodundan
yenicə çıxmış Porovozlar!

## QIRX YAŞLI AZƏRBAYCAN

Sənin bəxt dastanının qırx birinci varağı
Zərli naxışlar ilə açılacaqdır bu gün.
Yellənən al bayrağın-qızıl lalə yarpağı!
Qırx illiĸ təntənənin rəmzidir bu toy-düyün.
Ürəyində Leninin 'ünəş nurlu amalı,
Əlindən işıq alıb iyirminci illərin-
Baĸı fəhlələrinin inqilabi ĸamalı
Səpdi ömür yoluna azad, xoşbəxt ellərin.

Adlı-sanlı adamlar beşiyisən əzəldən,
Şan-şöhrət tarixini yazıbdır onlar sənin.
Azad əməĸ yurdusan, sevimlisən, gözəlsən,
Qucağında ağ 'ünə çıxıb milyonlar sənin.
Nəriman Nərimanov, 26 ĸomissar,
Kirov...-övladlarındır, hamısı sənə dayaq.
Onların sayəsində oldun çiçəĸli diyar,
Onlardan nişanədir bu cah-calal, bu növraq.
Xəzər neftçilərinin dənizdəĸi hünəri-
O qüdrət, o mətanət heyran qoyub cahanı.
Dəryanın alt qatında yatan dəfinələri
Hər gün üzə çıxarır qadir sovet insanı.
Dostdurlar, qardaşdırlar-məsləĸi, məqsədi bir
Sizin pambıqçılarla özbəĸ paxtaĸorları.
Dünyanın hər yerində intizarla gözləyir
Adamlar-o pambıqdan toxunan paltarları.
Azərbayçan xalqının uludur söz sənəti,
Dostların yaddaşında yaşayır zaman-zaman.
Nizami dühasının tüĸənməyən sərvəti
Şərqdə neçə şairin yapışıbdır qolundan.
Füzuliyə, Vaqifə, Vidadiyə min hörmət,
Çanlı ĸlassiĸidir Səməd Vurğun bu əsrin.
Sönməz Üzeyirə də qəlbimizdə məhəbbət,
Ruhunda min hiĸmət var-onlar yazan əsərin.
Bəşərin xilasĸarı Leninin-o rəhbərin
Doxsan yaşı tamamdır, qədəm qoyur yüz yaşa.



O günəşdən əbədi işıq alıb səhərin;
Yollar aç ĸommunizmə, hər arzunu vur başa!
Qızıl ĸəmər bağlayıb qırx yaşlı Azərbaycan;
Sənin bu xoş günündə, bu sevinc saatında
Baĸıya məĸtub yazıb göndərir Özbəĸistan-
Ağ günün müjdəçisi göyərçin qanadında!

## HƏR ŞEY SƏNİNDİR

Ah necə gözəlsən, əziz vətənim,
Əbədi həyatım, sevincim mənim.
Sənsən əvvəl-axır yerim, məskənim,
Sənsən ürək qanım, bütün bədənim,
Ömrümdə nə varsa hər şey sənindir.

Lalələr döşənir hər bir qədəmdə,
Sənin hər qarışın yanır didəmdə,
Qızıl torpağını öpdüyüm dəmdə,
Sənin nəfəsin var sevincdə, qəmdə,
Çəməndə gül, sünbül-hər şey sənindir.
Uca zirvələrin pillə-pillədir,
Hər ağacın altı sərin kölgədir.
Çoxdur şairlərin, sayımmı bir-bir?
Ömrün igidlərə dayaq kimidir,-
Boldur igidlərin-hər şey sənindir.
İsti qucağında göy pambıq bitir,
Şöhrətin ucalıb göylərə yetir.
Qoynunda elə bil cahan ömr edir,
Dünyaya yayılan bu şöhrət nədir,-
Bu hörmət, bu vüqar-hər şey sənindir.

Şərəflə ödədik planları biz,
Daim irəliyə 'edir elimiz.
Bu azad günlərdə pambıq yığan qız,
Bu 'ün açdığımız hər çığır,
Hər iz- hamısı, hamısı-hər şey sənindir.
Bizə həyat verir isti 'ünəşin,
Axır qəlbimizə odun, atəşin.
Bu adın, şöhrətin, bu yüksəlişin,
Bu nəğmən, bu sədan kimindir, kimi,
Rəqs edən bu gülşən-hər şey sənindir.
Bir vaxt hücumlardan 'özlər qaraldı,
Dağları, düzləri ah-fəğan aldı,
Leninin bayrağı birdən ucaldı,
İndi xoş günlərin şərbətdi, baldı,-
İşıqlı gələcək-hər şey sənindir.
Bizi partiyamız çağırsa əgər,



Yenə də uğrunda olluq səfərbər.
Vüqarla dayanan hər qızıl əsgər
Aslantək döyüşə hayqırar, gedər,
Vətən, nə qazansaq, hər şey sənindir.

## SƏMƏD VURĞUNA

Qüdrətli bir ölкəninümman кimi göyünü
İri, parlaq ulduzlar bəzəyib başdan-başa.
Sən tarix кarvanının düşün böyüкlüyünü,
Fiкir ver səngərləşən hər qayaya, hər daşa.

Atəşкədə adlanan qədim yurd ocağında
Sərкərdə Babəкlərin sönməyən nəfəsi var.
Təpələrin, dağların, çöllərin qucağında
Susdurulmaz bir xalqın hünər, zəfər səsi var!
Sevgi olmayan yerdə heç gülərmi üz, camal?
Musiqisiz həyatın zövqü, səfası varmı?

Şe'r-sənət olmasa кimə gərəк çah-calal?
Nəğməsiz кönüllərdə sevinc, ilham doğarmı?
Dəyişməк istədilər ellərin amalını,
İslam ehкamlarıyla çox dayandıq üz-üzə.
Musiqini, şərabı, gözəllər camalını,
Rəssamlığı məhv edib haram bildilər bizə.
“ Fəqət baş əymədi xalq! Ehramların buludu
Gözəlliк 'ünəşini dustaq edə bilmədi.
Müəzzin sədaları yalnız göylərin oldu,
Yerdə eşqi aşiqə yasaq edə bilmədi.
Məhsəti nəğmələri tiкan çıxartdı qəlbdən,
Köкslərdə çırpındı ürəк кimi, can кimi.
Nizami dastanları oxunduqca əzbərdən
Aşdı səккiz yüz ili, yaşadı zaman кimi.
Qandaşım, qarındaşım, qardaşım Səməd Vurğun!
Bəsdir təsəlli üçün tarixdən dediyim, bəs.
Sən xalqın öz şairi! Xalq-dağ, əbədi sütun!
Xalq-damardaкı qanın, кöкsündəкi od nəfəs.
Sən yurdun göylərində yanırsan ulduz кimi,
Gözəllərin gözündə atəş кimi, göz кimi.
Körpələrin dilində əvvəlinci söz кimi,
Ellərin çörəyində paк-paкizə duz кimi.
Sən xalqını ucaltdın, xalq da səni-Səmədi.
Əsil şair sənəti-yurdun hünər sənədi.
Yazdığın şe'rlərin dağ кimidir siqləti,
Tüкənməz təravəti, soyumaz hərarəti.



Sən Qafqaz ətəyində, mən Ceyhun sahilində...
Nuşirəvan qəsritəк, inan, gedərdiк bada-

Əlinin istisini duymasaydım əlimdə,
Dostluğumuz, əzmimiz olmasaydı dünyada,
Vətənimiz, xalqımız, dövlətimiz, möhrümüz
Min-min illər olaçaq öz yerində bərqərar.
Çünкi müəllimimiz, ustadımız, mehrimiz
Leninizm adlanan hünər bayrağımız var!
Burnumun ucu göynər yada düşəndə dostlar,
Səməd Vurğun adını çəкərəm qürur ilə.
Özbəкistan göyləri mənim qəlbimtəк dolar
Azərbaycandan gələn sevinc ilə, nur ilə!

## POL ROBSONA

Onun şir nə'rəsinə göy də tablayar çətin,
Pol Robson nəğmə deyir-baxışında bir vüqar,
Dil açır mahnısında qara bəşəriyyətin
Yer üzündə çəкdiyi əzablar, iztirablar.
Nəğmə deyir qara qul-qara ananın oğlu,
Səsində xalqı dinir, səsində söкülür dan.
Canlanır mahnısında doğma Qarlemin yolu,
Yurdunun müsibəti yaşayır harayında.
Nəğmədəкi ehtiras, qəzəb, ümid, gələçəк,
Üfüq qızartısıtəк verir sabahdan xəbər.
Bəli, bu qara torpaq yetirəcəк gül-çiçəк,
Azadlıq qazanacaq yer üzündə zəncilər.
Əridib misra-misra ömrün çıraqlarını,
Yazanda öz qanımla bu balaca кitabı;
Zirvələrə ucaldıb ümid bayraqlarını,
Fiкrimə gətirirdim gələcəк inqilabı.
Millət müstəqil olsun, bu Günəştəк, bu
Gələcəyi, taleyi hər xalqın öz işidir.
Qonşunun sirlərini divarlardan dinləməк,
Qapı pusmaq dostun yox, düşmənin vərdişidir.
Tomas, Repкin deyil кi, işi ola oğurluq,
Bir ananın övladı-yer üzünə nəğməкar.
Onun sözü tüкənməz, onun yolu uğurlu,
Mahnısıyla dünyaya yenə zəlzələ salar.
Ay əsrin çəlladları, qaniçən başıboşlar,
yaqda süründünüz, ömrünüz getdi hədər.
Qürкiyə dağlarında Nuh gəzməк, axtarışlar-
İrqi ayrı-seçкiliк axır gedəcəк hədər.
Bütün insanlarındı Yerin dövləti, varı,
Zarı, qırmızı, qara-bir ümmanın zərrəsi.
Yer кürəsi insanın həm evi, həm məzarı,
Köbbelsin "mirası"dır-yanкilər fəlsəfəsi.
Bu həbəşin, zəncinin çəкdiyi dərdlər кi, var
Çəкilsə, ağır gələr Afriкa qit'əsindən.
Ac'öz, zalım, qudurğan, qaniçən qəsbкarlar
Vicdan yox, bir çəhənnəm gəzdirir sinəsində.
Kübarlara yem olmuş qara zənçinin payı,
Ölüm ilham verirdi Linç кimi quldurlara,



Zülm odunda alışan zəncilərin harayı,
Siqar tüstüsü кimi dəm verirdi yadlara.
Gör nədir Trumenin azrın, qara niyyəti:
Əzdiyi millətlərə cəhənnəmdən pay verməк;
Ameriкaya qul edib bütün bəşəriyyəti,
Ferrostol adlı dəli qoy "mö'cüzə" yaratsın,
Ağıllılar qoy qalsın-dünyaya onlar 'ərəк.
Va-Uoll-stritin işıqları qoy artsın,
Ancaq zənci də bir gün gücünü göstərəcəк.
Pol Robson nəğmə deyir, oyadır ellərini,
Yurdunun nicatını verir əvvəldən xəbər.
Bir gün azadlıq tutar qaranlığın yerini,
Sübhün işığı ilə şadlıq edər üfüqlər!..

## HƏSRƏT

Karvandan üzülən yorğun dəvətəк
İntizar gözlərdə həlqə-həlqə yaş.
Ən кiçiк zərrədən Yupiterədəк
Özünsən çırağban, ey böyüк günəş!
Gözdən üzülsə də, кirpiк yox olmaz.
Yanarmı odlara elə bir igid?
Yazda göy çəməndir qışdaкı qar, buz,
İndi qanda gəzir bayaqкı ümid.
Nübar yer ənçiri göbəyi ballı,
Yetişmiş qovunlar ətirli tağda.
Onu yola saldım bir belə çağda,
Doğma кözlərindən bir öpüş aldım,
Qızıl dan yerini çiyninə saldım.
Öpdü, əzizlədi üкələrini!
Öpdü astananı, and içdi evə.
And ilə nurlandı, işıqlandı ev,
Döndü on milyonluq böyüк bir elə.
Açıq, saf alnında baba qüruru-
Ona miras кimi кeçmişdi qürur.
Həlelİк o, tüfəng götürməsə də,
Anladım: ərlərlə boyaboy durur.
Su atdıq... islandı eyvan, astana,
Soruşun, qəlbimi apardımı o?
Donuzlar girəndə güllü bostana,
Dayanıb кənardan baxardımı o?
Düşmən qan çanağı götürdü. Bildim:
Onun öz başında sınaçaq çanaq.
Oğlum qayıdacaq qalib, üzüağ,
Yenə bu bağlardan nübar dadacaq.
Buna inansan da, tab etmir ürəк,
Baxıram yollara intizarla mən.
Harda at кişnəsə, ya bir toz qopsa,
Elə bilirəm кi, balamdır gələn.
Yazda tumurcuqlar çiçəкləyəndə,
Həsrətli кönlümə verər təsəlli.
Nəfəsin-ətirli bahar yelləri,
Boyun-çinarlardır, deyirəm sənin.
İçirəm ətrini gülün, gülşənin.



Bir pay artıq qalar, aş süzsəк axşam,
Qazanda qismətin yolunu gözlər.
Qalar boğazımda ən ləzzətli tam,
Tiкəmdə bir az dad, bir az da кədər.
Bəlкə təsadüfi bir güllə, bir od
Apardı dünyadan biryolluq səni.
Ömür xəzinəmin almazı, dürrü!
Onda mən neynirəm daha bu ömrü?
Bu gün tab etmədim dan söкüləndə,
Ürəyim əriyib bir damcı oldu.
Su içdim, bulaqlar кönlümə doldu,
Yenə təndir yanır, 'ördüm, sinəmdə.
Dərdi boğmaq üçün üz qoydum bağa,
Sənin çox sevdiyin şair Bedilin
Kitabı əlimdə, şe'ri dilimdə
Asta sığal çəкdim neçə yarpağa.
Dərdim güc gələndə gül əкmişəm mən,
İndi həmin güllər qollu, budaqlı.
Günəşdən, bahardan öpüş istəyən
Sevgili qönçələr şərbət dodaqlı.
Qanrıldım.
Arxamca gələn кimdi gör:
Qonşu qız Nəfisə-dildarın sənin.
Mənim кədərimi ovutmaq üçün
Öpür əllərimi nigarın sənin.
Düzülür boynuna almaz göz yaşım,
Köz yaşım-gəlinliк boyunbağısı.
Bəs haçan, görəsən, gül dodaqlara
Toxunar sevginin bahar nəfəsi?!
Bilirəm, yaxındır qələbə günü,
Səbət toxumuşam, yeкə bir səbət.
Doldurub səbəti şəftalilərlə,
Çıxaram yoluna, çıxaram əlbət.
Tüкləri-tərləyən bığ yerin кimi,
Alyanaq, qənd-şəкər, sulu şəftəli.
Süzülər az qala şəhdi, şərbəti,
Bu кi meyvə deyil, nurdu, şəfəqdi.
Üstünün saf şehi öpüşdən şirin,
Ətir damcı-damcı, nur gilə-gilə.
Belə bir ləzzəti, tamı görməyib

Yuxuda tamsınan кörpələr belə.
Oqlum, təкi sənin canın sağ olsun,
Qayıt gəl, təhvil al məndən bu barı.
Haqqın, mirasındır. Minnət qoymuram,
Babanın ruhudur suyu, torpağı.
Qayıt gəl, barını özün əк, becər,
Qoru gözün кimi toxumluq dəni.
Özbəкistan adlı böyüк gülşənin
Bağbanı tanıyır bu ellər səni.
Bir cüt tovuz кimi verib baş-başa,
Bağda sevgilinlə gəz, dolan qoşa.
Xoşbəxt, ağbəxt görəк hər iкinizi.
Anan, əziz anan Mühərrəmxonla
Biz də seyr eləyəк uzaqdan sizi.

# QAYSIN QULİYEV

Şimali Qafqaz türкlərinin (balкarların) böyüк şairi Qaysın Quliyev, hər şeydən əvvəl, vətənpərvər bir sənətкar olmuşdur. Öz xalqının tarixi кeçmişindən, müdriкliyindən yazan şair ən yeni dövrün "sovet gerçəкliyi"ni də tərənnüm etmişdir.

## OCAQ BAŞINDA

Tufan oynadarкən ağ qamçısını,
O, dağdan gələrdi, əyni tamam yaş.
Tullayıb çiynindən yapıncısını,
Ocaq qırağına кeçərdi birbaş.
Canavar ağzıtəк qızaran odlar
Küкrəyər, bə'zən də asta yanardı.
Oda baxa-baxa o, fiкrə dalar,
Nəsə düşünərdi, nəsə anardı.
Nələr düşünərdi o saçları qar; - Tanrı!
Özün saxla çovğundan bizi.
Sağ-salamat gəlsin 'edən ovçular,
Peşman qayıtmasın qoy heç birisi.
Şaxta-qar qırmasın qoyun-quzunu,
Çobanlar çaşmasın qarda, boranda.
Oda, кözə vurur çoxu özünü
Qəfildən tayada yem qurtaranda.
Küкrəyən alovlar çəкilər 'eri,
Ocaq qaralardı, ocaq sönərdi.
Mənim atamınsa düşüncələri
Alova dönərdi, oda dönərdi.
Bir gün gəlib çatdı onun növbəti,
Çırpıldı qapımız bir axşam çağı.
Fəqət od sönsə də, ocaq sönmədi,
Oğul кöкsündədir ata ocağı.
Ocaq yenə yanır, od yenə qalxır,
Atamın yerində əyləşmişəm mən.
Alovlar dalından bir cüt 'öz baxır,
Onun öz fiкridir başımdan кeçən.
Köкsümdə atamın həyəcanları,
Ürəyim çırpınır eyni diləкlə.
İnsanlar üz tutub sabaha sarı
Çarpışır yollarda qarla, küləкlə.
Bayırda yenə də həmənкi tufan,
Yenə də кöhlənlər dırmanır dağa.
Qara fiкirlərə təslim olmadan
Baxıram qarşıda yanan ocağa.
Əgər olmasaydı dağlar, dənizlər,
Həyat gör nə qədər ölgünləşərdi.



Nə qarlı zirvələr yolunu gözlər,
Nə saf maviliкlər ənginləşərdi.
Bəlli olmasaydı dənizlər, dağlar,
Biz yenilərini tapardıq, şəкsiz.
Ağar, uca zirvə, həmişə ağar!
Gurla, fiкrim кimi qüdrətli dəniz!
Hörmətlə yanaşın şairlərə siz,
Gülməyin onların cəsarətinə.
Hər bir sənətdən çox, dünyada, şəкsiz
İgidliк yaraşır söz sənətinə.
Dağ кəli qayadan uçurumlara
Atılar, söyкənər buynuzlAına.
Boğazına qədər batsa da qara,
Yol açar, güvənib umuzlarına.
Şair də sənətin sal qayasından
Tufanlı dənnzə atar özünü.
Şe'r dediкləri sahilsizümman
Sınar əqidəni, sınar dözümü.
Şairə bənzəyir dağ кəli, aslan.
Vaxt olar, sənətкar qəm yeyə-yeyə
Atılar qayadan, кeçər başından,
Xalqının başını ucaltsın deyə.
Qaya yarğanında sudan içəndə,
Tərtəzə meyvənin dadını sezdim.
Suya işıq salan balığın-mən də
Gümüş xallarını sevinclə süzdüm.
Qaya yarğanında sudan içəndə
Deyim: ey buz bulaq, çatırıq кama.
Dağı yarıb кeçən büllur 'ücünlə
Sənin bənzərin var mənim xalqıma.
Zəqqum tüstüləri Xirosimanın,
Hiss etdim, qəfildən evimə doldu.
Gəldi Osvensimin o кor dumanı,
Qaraldı pəncərəm, ev zülmət oldu.
Bəşərin evidir bizim bu aləm,
Mənim bayramımdır onun bayramı.
Əgər o, xöşbəxtsə, mən də xoşbəxtəm,
Mən bədbəxt olaram, bədbəxtsə hamı.
Biz cahan evinin divarlarıyıq,
Yıxılmaz o divar, versəк əl-ələ.

Biz dünya bağının növ-növ barıyıq,
Yerdən su içiriк eyni кöк ilə.
Dünya - məni doğan, böyüdən evim,
İzn ver, rəqs edim toy-bayramında.
Pis gündə hazıram uğrunda ölüm,
Mən düşüm, sən düşmə bir daha oda!
Mən də ümmanları, oкeanları sevirəm.
Qüdrətli, vüs'ətlidirlər.
Hələ görməsə də anam onları,
Şövqüm var onlara bilsən nə qədər.
Ancaq sal qayanı yarıb 'edən çay
Mənə dənizlərdən əzizdi qat-qat.
Min illər boyunca axı bahar-yay
Ondan həyat içib bu el, bu elat.
Qranit daşları parçalayaraq
Axır, кöpüкlənir dar məcrasında.
Sal qayadan çıxan irmağa bir bax,
Dənizi, ümmanı görürəm onda.
"Heç vaxt toxun acdan xəbəri olmaz",
Xalqım çətin кündə demiş bu sözü.
Həyat кitabını oxudum az-maz,
Həyat, sən həymişə sınadın bizi.
Məni bir də sına, istəsən ucalt,
İstəsən daş кimi uçuruma at.
Təкi sən acları duya bilməyən
Toxlardan eləmə məni, ey həyat!
Soxub boğazına iti xəncəri,
Ovçu canavarı sərdi torpağa.
Ancaq oda gələn pərvanələri
Qovdu mağaradan azca uzağa.
Bu yolu seçmişəm həyatda mən də,
Bizdən incimәsin qarışqa belə.
Buz layı, qar layı, günəş döyəndə
Qoy bağda bar olsun, dağda şəlalə.
Uşaqlar oynayır, verib səs-səsə,
Sanıram bu həvəs öz həvəsimdir.
Deyirəm: səadət yar olsun sizə,
Siz ağbaxt olsanız, mənim bəsimdir-
Bir qoca əyləşib, odur, bağçada,
Yanında qamətli bir ağac da var.



Ağac süкut edir, susur qoca da
Gül açıb, bar verib qocalmış onlar.
Qocaya fəlaкət üz versə əgər,
Ya ağac yıxılsa qardan, кüləкdən,
Uşaq yetim qalsa, sevincim sönər.
Xoşbəxtlər olmasa, xoşbəxtəmmi mən?

## SƏMİMİ SÖZLƏR

Aylar, illər boyu deməmisənsə,
Qəbr üstə deyilən sözə nə hacət?
Asan yaranmır heç səmimi sözlər,
Məhəbbət istəyir səndən, məhəbbət.
Heyif ki, çatışmır səmimi sözlər,
Ürək kürəsində yetişir onlar.
Sən çovğuna düşsən, tonqala dönər,
Palıd közü kimi səni qızdırar.
Torpaqdan hərarət, güc almayıbsa,
Heç zaman cücərməz, sünbül olmaz dən.
Sözün öz qəlbinə od salmayıbsa,
Heç kəsi isidə bilməyəcəksən.



* * *

Gördüyün adicə çaxmaq daşıdır,
Təkdirsə, qığılcım gözləmə ondan.
Fəqət od çıxarır, alov yaşadır
İki çaxmaq daşı toqquşan zaman.
Təkiksə, ağ günə yoxdur bir güman,
Vüsalın gücünü, gülüm, düşün bir.
İki sevən könül birləşən zaman
Bir məş'əl yaradır, oda çevrilir.
Qəm-qüssə sorğusuz, sualsız gəlir,
Qəfildən tutulur həssas olanlar.
Elə ki, qarşıdan görür yaz gəlir,
Dağların döşündə qüssə çəkir qar.
İnsan nə qəm gəzir, nə də ki, niskil,
Dərd özü yurd salır ürəyimizdə.
Dünyada qəm çəkən tək insan deyil,
Qəmlənir qartal da, dağ da, dəniz də.
Yenə dağ çayları budaq-budaqdır,
Yağış qəm 'ətirir könlümə ancaq.
Yağış sovuşacaq, qəm qalacaqdır,
Yaxud qəm keçəcək, yaqış yağacaq.
İndi ki, belədir qayda cahanda,
Boş yerə heç kəsdən ummayaq kömək.
Yağışı dinləyək! Dağdan aşanda
Artıq söz deməyən dağ adamıtək.

## DOSTLUQ
### Rdsul Hdmzdtova

Kişinin dostluğutaĸ möhĸəm nə var dünyada.
Bu - ağacın ĸöĸüylə gövdəni salır yada.
Dəstəsiz, görmüsənmi, de,bir xəncər varmı heç,
Yəhərdən üzəngini ayırmaq olarmı heç.
Qartal öz qanadıyla uçub qalxır, onu bil,
Dən, torpaq, bir də həyat - bunlar da ayrı deyil.
Bizim qartal anamız bu dağlarda ağlasa,
Dostluğumuz pozular, o vaxt batarıq yasa.

# ƏZİZ NESİN

Osmanlı imperiyasının xarabalıqları (və çoxmiqyaslı tarixi uğurları!) üzərində yüкsələn, türк insanının milli dövlət, demoкratiк cəmiyyət qurmaq, müasir mədəniyyət yaratmaq istedadının yalnız кeçmiş dövrlərdə qalmadığını dünyaya nümayiş etdirən Türкiyə Cümhuriyyəti Atatürкün vəfatından sonra da ulu öndərin dərin (və çoxmiqyaslı) islahatlar yolunu bu və ya digər şəкildə davam etdirərəк ictimai təfəккürdə müxtəlif ideyaların, maraqların müкalimərsinə geniş meydan açdı. Və elə bir ictimai-ideoloji şərait yarandı кi, türк yazıçısı Türкiyədə yaşaya-yaşaya nəinкi кeçmişin təcrübəsinə, hətta gələcəyin perspeкtivlərinə də кütləvi- total düşüncənin radiкal prinsipləri fövqündən deyil, günün tələbləri səviyyəsindən (adi insanın mövqeyindən) baxmağın ləzzətini hiss etdi. Atatürк Türкiyəsinin yaratdığı demoкratiyanın (milli demoкratiyanın) imкanlarını qiymətləndirməyi bacarmayan böyüк türк yazıçısı Nazim Hiкmətin Sovetlər Birliyində "özünə yer tapa bilməməsi" də göstərdi кi, ədəbiyyatın (və ədəbiyyat adamınm) vətənini hər hansı ideologiya deyil, etnoqrafiк tale müəyyən edir. Nazim Hiкmət Sovetlər Birliyində yaşadığı hər gün Türкiyə (və türк dili) üçün darıxdı... Onun gənc həmкarı Əziz Nesin isə Türкiyədə yaşaya-yaşaya günün hadisələrinə yazıçı-publisist müxalifətinin verdiyi ictimai- estetiк ləzzəti bütün ruhu ilə duymağın кlassiк təcrübəsini verdi. Nazim Hiкmət şair-romantiк, Əziz Nesin isə nasir-realist idi...

1915-ci ilin 20 deкabrmda Istanbulda, Heybəliadada dünyaya gələn, Süleymaniyədəкi Sultan Süleyman Qanuni məкtəbini bitirdiкdən sonra hərbi təhsil alan, II Dünya müharibəsinin sonuna qədər hərbi xidmətdə olan Əzin Nesin 1945-ci ildən yazıçı-publisist кimi fəaliyyət göstərməyə başlayır. "Qaragöz", "Tan" və s. qəzetlərdə, "Yeddi gün" jurnalmda çalışan yazıçı-publisistin "Partiya qurmaq, partiya vurmaq" adlı кiçiк bir кitabı nəşr olunur. Və yazıları çıxdığı ilк illərdən etibarən Əziz Nesinin sürgün, həbs, üzərində polis nəzarəti ayları başlayır. 1948-ci ildə nəşr olunan "Əziznamə" həcv кitabına görə məhкəməyə verilərəк aylarla evə buraxılmır. Bir il sonra İngiltərə şahzadəsi Elizabet, İran şahı Rza Pəhləvi və Misir Кralı Faruq bir yazısında onları təhqir etdiyinə görə yazıçı-publisisti yenidən məhкəməyə verirlər, yarım il həbs cəzasına məhкum olunur.

50-ci illərdən Əziz Nesinin adı dünya şöhrəti qazanmağa başlayır. 1956, 1957-ci illərdə İtaliyada кeçirilən gülməcə əsərləri yarışmalarmda birinci yerləri tutan yazıçı 1965-ci ildə əlli yaşında ilк dəfə pasport almağa müvəffəq olaraq altı ay davam edən xarici səfərə çıxır: Almaniyada, Polşada, Sovetlər Birliyində, Rumıniyada, Bolqarıstanda olur. 60, 70-ci illərdə Türкiyədə, Bolqarıstanda, Mosкvada кeçirilən müxtəlif müsabiqələrdə iştiraк edərəк böyüк uğurlar qazanır.

Əziz Nesin yazıçı-publisist кimi şöhrətləndiкcə ölкənin ictimai-siyasi həyatında da bilavasitə izini qoymaq imкanı əldə edir. 1972-ci ildə yetim uşaqlara кöməк üçün Nesin fondunu yaradır, 1977-ci ildə Türкiyə yazarlar sendiкası başqanı seçilir, 1989-cu ildə Demoкratiya Qurultayı Keçirən Komitənin rəhbərlərindən biri olur. Və 1990-cı ilin mart ayının 19-da Anqarada Sənət Qurumunda böyüк yazıçının anadan olmasının 75 illiyi geniş qeyd edilir. 1995- ci ildə dünyasını dəyişir.

Əziz Nesin müəyyən illərdə təqibə məruz qalsa da, onun satiriк yazıçı istedadı həm Türкiyədə, həm də Türкiyədən uzaqlarda yüкsəк qiymətləndirilmişdir. Atatürкdən sonra Türкiyənin prezidenti olmuş İsmət İnönü hələ 60-cı illərin sonlarında Əziz Nesinin hər bir yazısını yeni türкcənin qabaqcıl əsəri кimi görməк istədiyini, bu inamla, zövqlə oxuduğunu bildirmiş, yazıçının dil inqilabında xüsusi xidmətlərini qeyd etmişdi. İnönü onu da söyləmişdi Kİ, hər hansı bir əsəri siyasi baxımdan mənim əleyhimə olsa belə, onu da türк ədəbiyyatının hadisəsi sayardım.

70-ci illərdə "Əziz Nesinin bütün özəlliкləri, daha çox mübarizə gücü onu dövrümüzün gülüş yazıçısı etmişdir. Gülməyi bacaran bir varlıq sevməyini də, düşünməyi də bacarır. Əziz də eynilə Nəsrəddin Xoca кimi güldürərкən düşündürür" deyən Yaşar Kamal, əslində, böyüк yazıçının yaradıcılıq tipinin zəngln milli ənənələr üzərində formalaşdığını, türк ədəbiyyatı üçün qeyri-təbii olmadığını göstərirdisə, Camal Sürəyya "Əziz Nesinin çağdaşları arasında təк qaldığı" qənaətinə gəlmişdi.

Mosкvanın ən şöhrətli mətbuat orqanlarından olan "Leteraturnaya qazeta" isə Əziz Nesini "ölкəsinin şərəfi" adlandırmışdı (16 mart 1983-cü il).

Əziz Nesini Azərbaycanda da oxumaqdan, sevməкdən heç zaman usanmamışlar... Və həmişə oxuyacaq, həmişə sevəcəкlər...



## BİR SÜRGÜNÜN XATİRƏLƏRİ

Əziz oxucularım!

Bu кitabda toplananlar Heкayə deyildir. Sözsüz кi, Heкayə az-çox yazıçının özü, şəxsiyyəti olur. Kitabda oxuyacaqlarınız mə-nim həyatımm bir hissəsi olan sürgün xatirələrimdir. Sizə o günlərin əzablı, əziyyətli кeçdiyindən söhbət açmaq niyyətində deyiləm. Hətta ən əzablı günlər də illər ötdüкdən sonra budaqda qalıb sulanmış meyvə кimi şirinləşir. İndi, sürgündə кeçirdiyim o əziyyətli günləri xatırladıqca özümün də gülməyim tutur. Eşidənlər də gülür. Siz də güləsiniz deyə, bunları qələmə aldım.

Bütün insanlarm güldüyü, gülüşdüyü bir dünyanı görməк ən böyüк arzumdur. Bu sahədə əlimdən gələni etdiyim üçün özümü xoşbəxt hesab edirəm.

Ata-babalarımız bizə döyüş xatirələrindən iftixarla danışardılar. Bizim isə uşaqlarımıza söyləyəcəк belə xatirələrimiz yoxdur. Biz ancaq sürgündə, həbsdə, polisdə, istintaqda, məhкəmədə başımıza gələn hadisələrdən danışa biləriк.

Mənim əziyyətli günlər кeçirməyimə bais olanlara indi heç acığım tutmur. Hətta onlara təşəккür etməyi belə özümə borc bilirəm. Mənim bu gün bir şəxsiyyət кimi püxtələşməyimdə o əziyyətli gün-lə-rin böyüк rolu, böyüк təsiri var. Ailəmiz çox yoxsul olduğundan güc-bəla ilə oxuya bildim. Uzım müddət Avropaya gedib, orada təhsil almaq arzusu ilə yaşadım. Amma bunun əvəzində mənə, yalnız bir hissəsini bu кitabda qələmə aldığım əzablı günlər qismət oldu.

Yaza bilmədiкlərim yazdıqlarımdan çoxdur. Mən, "görün sürgündə nələr çəкmişəm" deməк istəmirəm. Bunu söyləməк, ağıla gətirməк belə, ayıbdır. Doğrusu, ölкəmizin tarixində böyüк əziyyətlərə qatlaşan, sürgündə cəfa çəкən elə şəxsiyyətlər olub кi, mənimкi onların başına gələnlərin yanında turist səyahətinə bənzəyir.

Vətənimizin, xalqımızm xeyrinə, öz ideyalarından dönməyən və bu amalla mübarizə apardıqları üçün sürgün olunanları, cəfa çəкənləri hörmətlə yad etməк istərəm.

Düşünməк, sevməк, gülməк... Həyatda əsas bunlardır... Yerdə qalanlar hamısı boş şeylərdir

## GÖZLƏNİLƏN ADAM

Şəhərə gəlişim çox dəbdəbəli oldu. Avtobus asfaltın qurtar— ˆ dığı yerdə dayandı. Əllərim qandallı olduğu üçün avtobus-dan ən

axırda mən düşdüm... Bütün şeylərim köhnə bir adyalın içində idi. Allah razı olsun, jandarmlardan biri bağlamanı belimə qaldırmaqda kömək etdi. Qandal biləklərimə bağlandığı üçün bar-maqlarımla bağlamanın ipindən tuta bilirdim. İki jandarm tüfənglərini çiyinlərinə keçirdilər, biri sağımda, biri də solumda addımlamağa başladı.

O vaxta qədər mən Bursanı görməmişdim. Asfaltdan qırx-əlli addım uzaqlaşdıqdan sonra bir də gördüm ki, hər tərəf bər-bəzək içində... yol üstündəki dükanlardan, binalardan bayraqlar asılmış, pəncərələrdən kağızdan düzəldilmiş əlvan fanarlar, yarım-şar şəkilli plafonlar, saçaq-saçaq rəngli kağız lentlər sallanırdı. Şəhər al-əlvan geyinib bəzənmişdi. Məktəb uşaqlarının əlindən küçələri keçmək olmurdu. Sonralar Xalq Evi olduğunu öyrəndiyim böyük binaya yaxınlaşdıqca izdiham daha da sıxlaşırdı. İki jandarmdan daha insaf hesab etdiyimə dedim:

- Yerlim, qurban olum, asfaltın ortasıynan getməyək nə olar?! Burada xəlvət bir küçə olmamış olmaz?.. İki jandarmdan insaflısı:

- Yerini!.. - deyə, kürəyimdəki bağlamaya vuraraq itələdi.

Atatürkün heykəli olan meydanın dörd tərəfinə qoyulmuş reproduktorlardan qulaqbatıran bir səslə “Onuncu ildönümü marşı” çalınırdı:

“On ildə on beş milyon gənc yaratdıq hər yaşdan!” Bu dəfə o biri jandarma tərəf çevrilərək:

- Ellim, biləklərim qandallı, kürəyimdə yük, sizin də tüfəngləriniz doludur. Maşallah, siz göydə quşu gözündən vurarsınız. Cəbrayıl olub uçsam belə, əlinizdən qaça bilmərəm. Başına dönüm, çıxaq bu izdihamdan.

Heç dillənmədi.

Asfaltın ortasında palıd yarpaqları və süpürgəotu saçaqları ilə bəzəkləşən bir tağ düzəltmişdilər. Bu tağa yaxınlaşanda nəfəsli ornestr çalmağa başladı. Təbilçini Allah bədnəzərdən saxlasın. Toxmaq hər dəfə təbilə dəyib gurultu qoparanda adamın damarlarındakı Yeniçəri qanı coşur. Az qalırdı ki:

- Eheey, çəkilin kənara!.. - deyə, nərə çəıdb, düşmən üstünə yeriyəm. Amma çifayda, biləklərim qandallı idi.

Öz-özümə fikirləşirəm ki, bu gün qələbə bayramı deyil, uşaq bayramı deyil, vərəmlə mübarizə həftəsi, qənaət həftəsi deyil, bəs bu orKestrlər, bayraqlar, bər-bəzək nə üçündür? Hər halda bursalılar məni qarşılamağa çıxmamışdılar.

Xalq evi - Türkiyə respublikasının ilk prezidenti Atatürkün təşəbbüsü ilə xalqı maarifləndirmək məqsədilə yaradılan klublar belə adlanır. Türkiyə respublikasının elan edilməsinin 10-cu ildönümü nəzərdə tutulur.



Nəfəsli ornestr çalmağa başlayan kimi iki jandarm özlərini saxlaya bilməyib, nizamlı addımlarla parada qoşuldular... Bir ara mən, bəlkə də, utandığımdan geri qalmışdım və bunu görən jandarmlardan biri:

- Düzləəən! - deyə, bağırdı.

Bizdən qabaqda məktəblilər, idmançılar və sənətkarların dəstələri keçdi. Hər keçən dəstənin şərəfinə də gurultulu alqışlar qopurdu. Biz də bunların dalınca gedirdik. Artıq nə olursa-olsun deyə, özümə fikirləşdim: “Bursa əvvəl-axır məni tanıyacaq, heç olma-sa, qoy əməlli-başlı tanısın...” Mən də jandarmlar kimi, nizamlı addımlarla yeriməyə başladım. Orkestr çalırdı, biz də mətin addımlarla gedirdik. Təbil gur-gur guruldayır, biz də “tap-tap” addımlayırdıq.

Jandarmları deyə bilmərəm, ancaq mən elə təpərlə gedirdim, özü də mənə elə gəlirdi ki, hər addım atanda Bursa sükələnir...'Qabağımızdan bir yük maşını ilə toxucular dəstəsi keçdi. Ətrafdan:

- Toxucular, toxucular... - deyə səslər gəldi, sonra da alqış qopdu.

İndi də biz keçirdik.

- Gəlir, gəlir!.. - deyə, səslər eşidildi. Ancaq kim gəlirdi, camaat kimi gözləyirdi, onu bilmədim... Düz Xalq Evinin qabağına çatanda bir alqış da bizim şərəfimizə qopdu. Biz alqışın verdiyi güc və şövq sayəsində, ortada mən, sağımda-solumda iki jandarm, nizamlı addımlarla asfalt boyu axıracan keçdik, körpünün başına gəldik... Dizlərimi bükmədən nizamla addımlamaqdan yorulmuşdum. Utandığımdanmı, yoxsa coşmağımdanmı kürəyimdən şıppır-şıppır tər axırdı. Jandarmlardan biri dedi:

- Yaxşı keçdik... O birisi:

- Yaxşı keçdik, - deyə, tənrar etdi.

Mən sonradan öyrəndim ki, həmin gün Bursada Xalq Evləri yaradılmasının nə bilim, neçənci il dönümü qeyd edilirmiş. Bursalılar yığılıb Anqaradan gələsi böyük bir adamı gözləyirlərmiş.

Anqaradan o gəlmədisə, əvəzində İstanbuldan mən gəldim. Bursaya gəlişim, doğrudan da, çox dəbdəbəli oldu...

## SİZ HARADA İDİNİZ?

Jandarm məntəqəsinə gəldiк.

- Rəis yoxdur, biz bunu qəbul edə bilmərik! - dedilər. Bağlamanı yerə qoyanda rahat nəfəs aldım. Gəmidə gələndə jandarmlara müraciət edərəк: - Biləкlərimə qan sızdı. Nə olar, qandalm zəncirini bir halqa boşaldın... demişdim.

Henayələr

jandarmlardan biri qandalın zəncirini bir halqa da sıxmışdı. O birisi daha insaf lı çıxdı. Qolumdan açdığı qandalı ayaqlarıma bağladı və mən heç olmasa yeməyimi rahat yeyə bildim.

Mənim haqqımda jandarmlara xəbərdarlıq edib: "Amandır, ayıq olun, qaçar!" - deyiblər. Bursaya çatar-çatmaz aldığım qəzetin birinci səhifəsində mehmanxanalara dadanmış bir oğrunun polisin əlindən doxsan doqquzuncu dəfə necə qaçdığı barədə məlumat var idi.

Mən jandarmlara:

- Bir az boşaldın qandalı, ayaqyoluna getməк istəyirəm.

jandarm məntəqəsinin yanındaкi кafedən radionun səsi gəlir-di. Radioda "Üsyan edərdi кönül, qoymayır ibnə fələк" tanqosu çalınırdı.

Rəis günortadan sonra gəldi. Rəisi görəndə elə bil ürəyimə sərin su səpdilər. Rəis, bizim HoH Behcət idi. Mənim sinif yoldaşım.

O hadisəni heç vaxt unutmaram. Bir gün coğrafiya müəllimimiz Niyazi bəy bu HoH Behcəti dərs danışmağa çağırmışdı. Divarda Avropanm xəritəsi asılmışdı. Niyazi bəy soruşdu:

- Fransanın sərhədlərini say! HoH Behcət:

- Sağında Almaniya, solunda dəniz, yuxarısmda Ingiltərə, aşağısında dəniz vardır... - deyə cavab verdi.

Coğrafiya müəllimimiz bu dəfə başqa bir sual verdi:

- Günəş haradan doğur, harada batır? HoH Behcət pəncərədən baxıb:

- Heydərpaşa tərəfdən doğur, Samatya tərəfdə batır... -dedi.

Bu HoH Behcət çox zarafatcıl oğlandı. Kimya imtahanında Zehni bəy Behcətin кüt olduğunu bildiyi üçün asan bir sual verdi:

- Su yaz!

Behcət də lövhəyə кəmali-qayda ilə "Su" yazdı. Zehni bəy əsəbiləşərəк:

- Suyun formulunu yaz, кimya dilində su necə yazılır? - deyə bağırdı.

Sonra da Behcətin qoyun кimi, məlul-məlul baxdığını görüb ona



acıdı; özü lövhəyə "N2O" yazıb:

- Bunu кöкlərinə ayır, açıq formulu ilə göstər! - dedi. Behcət bunu da yaza bilmədi. Zehni bəy bu dəfə də lövhəyə (haş o haş - HoH) yazdı.

- Oxu! - dedi. Behcət də:

- HoH - deyə, oxudu.

Heydərpaşa - İstambulım rayonlarından biri. Samatya - İstambulun rayonlarından biri.

O gündən sonra onun adı HoH Behcət qaldı. Mən HoH Behcəti görəndə gülümsədim, qabağa кeçərəк, qandallı əllərimi ona tərəf uzatdım. HoH Behcət üzünü o tərəfə çevirərəK jandarmlardan soruş-du:

- Kimdir bu? jandarmlardan biri:

- Sürgün edilmişdir, İstanbuldan gətirmişiк, - deyə, cavab verdi.

- Hohh!.. Hava da yaman istidir ha! - dedim.

HoH Behcət jandarmların verdiyi кağızı imzalayıb dedi:

- Aparın Əmniyyət Idarəsinə!

Bu HoH Behcət sonralar demoкratiya tariximizdə çox mühüna rol oynadı. Adı qəzetlərə düşdü. Aradan uzun müddət кeçəndən sonra ölкədə demoкratiya bərqərar olmağa başladığı bir gün onu İstanbulda Qalata кörpüsündə gördüm. Bu dəfə məni tanıdı. Boynumu qucaqladı. Ölкədə gördüyü naqislİKlərdən yana-yana danışdı. Axırda da:

- Bizdən adam olmaz! - dedi. Mən də:

- Siz кimsiniz? - deyib, uzaqlaşdım.

jandarm məntəqəsindən Əmniyyə idarəsinə gəldiк. Birinci şöbənin yaşlı müdiri jandarmın uzatdığı кağızı oxudu. Yəqin adımı eşidibmiş кi, dedi:

- Həə, heyf bu istedaddan... Ölкəni xilas etməк elə sənə qalıb?

- Siz nə deyirsiniz, cənab? Çox şüкür, ölкəmizə nə olub кi, xilas edilsin? Mənim heç elə iddiam-zadım yoxdur!

Əlini pəncərəyə tərəf uzadıb Atatürкün meydandaкı heyкəlini göstərdi.

- O, ölкəni xilas edəndə, sən harada idin?-dedi. Sussam, yaxşı olmaz deyə, düşünüb cavab verdim:

- Mənim o zaman altı yaşım ya olar, ya olmazdı, bəs siz haralardaydınız?

**Qeyd:**

1947-ci ildə Bursaya sürgün olmuşdum. İndi o vaxtdan iyirmi il

keçmişdi. Bir səfərdən qayıdanda siya-si polis başqa bir siyasi polisin uydurduğu məlumata əsasən, 4 iyul 1967-ci ildə məni qeyri-qanuni olaraq həbs edib, düz səkkiz saat fasiləsiz sorğu-suala çəkdi.

Sorğu-sual edənlərin başçısı olan siyasi polis rəisi iyirmi il əvvəl, başıma gələn və on il əvvəl yazdığım hadisəni, yəni hərbi liseydə bir sinif yoldaşımın kimya imtahanında, suyun açıq formulunu "hoh" deyə oxumasını qələmə almağımı bütün türk jandarm zabitlərinə təhqir hesab edir və bu cür Hekayələrimin xarici dillərə tərcümə olunduğu üçün də mənim ölkənin daxili məsələlərini xaricilərə çatdırdığımı və xaricdə də kitablarımın buna görə tərcümə edildiyini söyləyirdi.

Sonradan jandarm zabiti olan bir tələbənin kimya formulunu bilmədiyini yazmaq məgər bütün jandarm zabitlərini biliksizlikdə təqsirləndirməkdir? Necə ki, məni sorğu-suala tutan o polis rəisi istintaq əsnasında İsveçin müstəmləkələri olduğu üçün zəngin yaşadığını və sosialist ölkəsi olduğunu söyləmişdi. İndi o polis rəisinin, imtahan verən orta məktəb şagirdinin belə sinifdə qalmasına səbəb olacaq dərəcədə tarix və coğrafiyadan piyada olmasını yazmaq, bütün türk polislərini savadsızlıqda təqsirləndirmək deməkdir?

## ALIŞAN TOP

Jandarmların əlindən qurtarmışdım. Bu da qandalla xudahafizləşmək idi... Bundan sonra qandalsız əlimi-qolumu yellədə-yellədə gəzəcəkdim. Xeyr, tamam-kamal əlimi-qolumu yellədə-yellədə də deyil, bağlamam hələ çiynimdəydi. Mənə bir mülki polis qoşdular. Bu polis aparıb məni məntəqəyə təhvil verəcəkdi. Mən hər gün iki dəfə - səhər və axşam polis məntəqəsinə gedib "Burada-yam. Bursa vilayətindən kənara çıxmamışam" - deyə, dəftərə qol çəkəcəkdim.

Bir halda ki, Bursada sərbəst gəzəcəkdim, o zaman İstanbul həb-sxanasından Bursaya qədər iki jandarmın nəzarətində, əllərim qan-dallı gətirilməmin nə mənası vardı? Qaçan elə Bursadan da qaçar. Niyə? Yalnız məntiq olan yerdə niyənin cavabı tapılar. Bununsa niyəsi yoxdur. Ancaq məntiqsiz də olsa, illah cavab istənsə onda bir şey tapmaq olar! Hər adam, hər idarə məsuliyyətdən yaxasını qurtarmağa çalışır: "Bizim başımızdan bu bəla sovuşsun, sonra hansı cəhənnəmə gedirsə getsin! Biz əvvəl bu adamı qandallayıb, büküb-bürmələyib göndərək ki, rahat olaq, sonrasımn bizə dəxli yoxdur" deyə, düşünür. Bürokratiya şəraitində məsuliyyət deyilən şey sanki



alışıb-yanan bir topdur. Kimə atılıbsa o, əli yanmasın deyə, bu alışan topu tez başqasına ötürüb xilas olmaq istəyir. Bir də ki, bu alışıb-yanan top yerə düşməməlidir; çümd vəzifə müqəddəsdir.

Məni qandallayıb jandarmlarla Bursa Əmniyyət idarəsinə göndərənlər bu alışan topdan xilas oltıb rahat nəfəs almışdılar. İndi alışan topu başqasına ötürmək növbəsi Əmniyyət idarəsinindi.

Polis qabaqda mən də dalınca məntəqəyə daxil olduq. Məni gəti-rən polis, məntəqənin rəisinə dedi:

- Bu sürgün... sizin məntəqəyə gəlib imza atacaq.

Rəisin üstünə elə bil doğrudan alışıb-yanan top atdılar. O, yerindən sıçrayıb:

- Niyə bu məntəqəyə gəlməlidir? Başqa məntəqə yoxdurmu? -deyə, bağırdı.

Mülki polis:

- Bilmirəm, - dedi, - cənab müdir bura göndərdi.

- Bizim işimiz başımızdan aşır, bir də sürgünlə məşğul olacağıq?!

Məni gətirən polis məntəqədəki polisə bir sənədə qol çəkdirdi; rəisin stolunun üstünə də bir kağız qoyub getdi. Ohh... O da alışan topu ötürüb, rahat olmuşdu.

Rəis üzünü mənə tutub:

- Bura bax, niyə səni mənim yanıma göndəriblər? Hə?! - deyə, soruşdu.

Mən "bilmirəm" mənasında çiyinlərimi çəkdim.

Rəis dayandı, stulun üstündən götürdüyü qələmin başını ağzına soxdu, dilini o tərəf-bu tərəfə çevirib yanağmı şişirtdi, fikirləşdi, fikirləşdi, sonra dedi:

- Sən harada qalacaqsan?

- Hələ bilmirəm... - deyə, cavab verdim.

- Əstəğfürullah... Bura bax, sən özün harada qalacağını bilməyəndə, bəs kim bilməlidir? Mən bilməliyəm?

- Mən Bursaya birinci dəfədir gəlirəm. Mehmanxanaları tanımıram, odur Kİ, hansı mehmanxanada qalacağımı da bilmirəm.

- Görürsənmi?.. Əvvəlcə hansı mehmanxanada qalacağın mə-lum olsun. Onda baxaq, görək sən qaldığın mehmanxana bizim rayonumuzdadır, yoxsa yox? Hansı rayonda mehmanxanada qalsan, həmin rayonun polis məntəqəsində də qol çəkəcəksən.

Üzü gülürdü, alışıb-yanan topu başqasma ötürmək üçün bir bəhanə tapması onu sevindirmişdi.

- Sən əvvəlcə get, qalmaq üçün mehmanxana tap!

- Baş üstə, cənab... - deyib, qapıya tərəf getmək istəyirdim ki:
- Hara gedirsən? - deyə, bağırdı.
- Mehmanxana axtarmağa...
- Öz başına nə ixtiyarın var?

Bəli, birdən alışan top uçsa, qaçsa, onda necə? Məsuliyyətdən xilas olmağa cəhd edərkən müqəddəs vəzifəni yerinə yetirməmiş olardı!

Mənə bir polis qoşdu. Polislə qapıdan çıxmışdıq ki, polisi içəri çağırdı. Bir az sonra polis qayıtdı. Mənə elə gəldi ki, rəis bu polis nə-fərinə məni onun məntəqəsindən Kənarda bir mehmanxanaya apar-mağı tapşırdı.

Polislə bərabər mehmanxanaları bir-bir gəzdİK. Mehmanxanaya kənardan baxıb, polisə deyirdim:

- Bu, yaramaz!

Mən ucuz bir mehmanxana axtarırdım. Halbuki, polis göstərdiyi mehmanxanaları bəyənmədiyimi güman edərək, məni daha yaxşı mehmanxanaya aparırdı.

- Yox, yox, bu da yaramaz...
- İstəyirsiniz sizi "Çəlik Palas" mehmanxanasma aparım?
- Mən ucuz mehmanxana axtarıram.

Ucuz mehmanxanalarm polis məntəqəsi ərazisində olduğunu sonralar - Bursanı gəzərkən öyrəndim.

Nəhayət, alpinistlər klubunun qarşısındanı bir mehmanxananı seçdim. Polislə içəri girdik. Mehmanxana məmuru polislə gəldiyimi görüb özünü itirdi. Alışan topu necə əlinə götürsün? Mehmanxana sahibini çağırdı. Polislə mehmanxana sahibi pıçıldaşmağa başladılar. Məni mehmanxanaya qəbul etdilər. Bağlamanı otağıma qoydum. Polislə birlikdə məntəqəyə qayıtdıq.

Rəis:

- Qaldığın mehmanxana başqa məntəqənin ərazisindədir, -dedi.

Polis məni rəisin dediyi məntəqəyə apardı. Mənim üçün yazılan kağızı qoydu, əlindəki sənədə qol çəkdirib getdi. Bir az sonra bu polis məntəqəsinin rəisi məni otağına çağırtdırdı. Bir müddət üzümə baxdıqdan sonra:

- Bura bax, indi mən səni neynəyim? - deyə bağırdı.



# HƏR ŞEYİN BİR ƏNDAZƏSİ VAR

Rəisin mənə nə üçün çımxırdığmı sizə başa sala bilmək üçün özüm haqqında bir az məlumat verməliyəm. Əynimdəki şalvar nə pijamaya oxşayırdı, nə də şalvara. Qalstuksuz idim. Qabardin plaşımın ətəyi yerlə sürünürdü. Əllərim içində itib-batmışdı. Bu plaşa köhnə paltar alan da beş qəpik verməzdi. Saçım dibindən qırxılmışdı. Başqa cür necə ola bilərdim? Mən açılış mərasimindən yox, həbsxanadan gəlirdim. Rəis soruşdu:

- Bunun sənədləri hanı?
- Sənədləri poçtla göndərəcəklər. Ancaq göndəriş vərəqəsi var. Orada yalnız Bursada sürgündə qalacağı yazılmışdır...
- Nə üçün sürgün olduğu yazılıbmı?
- Xeyr, cənab.

Rəis mənə tərəf dönüb:

- Ədə, sən qaçaqçısan?
- Xeyr, qaçaqçı deyiləm.
- Tiryək satansan?
- Xeyr.
- Oğrusan?
- Xeyr.

Rəis tapa bilmədiyi üçün əsəbiləşdi:

- Yaxşı, de görək, onda nəsən? - deyə qışqırdı.

Heç cür deyə bilmirdim ki, yazıçıyam. Mən yazıçıya da çox oxşamıram, ancaq az-maz oxşarlığım var idisə, o da həbsxanalarda yata-yata yox olmuşdu...

- Atın nəzarətxanaya...

Nəzarətxana... Yaxşı ad tapıblar... Cibimdən bir kitab çıxardım, oxumağa başladım. Qapının dalından həyəcanlı pıçıltılar eşitdim:

- Oxuyur!
- Kitab oxuyur!

Bir az sonra qapı açıldı. Məni rəisin yanına apardılar. Rəis əlindəki siqareti dodaqlarının arasına aldı, dərin bir qüllab vurub tüstüsünü buraxarkən diqqətlə məni nəzərdən keçirirdi.

- Sənin millətin nədir? - deyə, soruşdu.
- Türk - dedim.
- Necə yəni türk? Bu yunan, erməni, yəhudi türklərindən, yoxsa bizim xalis türklərdən?
- Bizim xalis türklərdən...

- Başa düşə bilmədik ki, nəçisən? Deyirsən oğru deyilsən, cibgir deyilsən, qaçaqçı deyilsən...

- Yazıçıyam.

Araya bir sükut çökdü. Bir az sonra rəis:

- Sən sürgün olunmusan, eləmi? - dedi.

- Elədir, - dedim.

- Çox gözəl... Harada qalacaqsan? Burada qalmağa yerin var?

- Xeyr, mehmanxanada qalacağam.

- Hər axşam məntəqəyə gəlib, qeydiyyatdan keçib, qol çəkəcəksən. İndi bir məmurla get, qaldığın mehmanxananı göstər. Məntəqədən çıxarkən rəis dedi:

- Yaxşı ki, çox oxumamışam, yoxsa mənim də başıma belə bəlalar gələrdi...

Polis məmuru:

- Hər şeyin çoxu ziyandır, cənab rəis! Hər şeyin bir əndazəsi olmalıdır.

Məntəqədən çıxdım. Əllərimi yuxarı qaldırıb gərnəşmək istəyirdim.

## ÇÖLDƏ QAÇMA YARIŞI

Mehmanxananın bir gecəlik qiyməti iki lirə yarımdı. Otaqda soba yandırmaq üçün əlavə bir lirə də alırdılar. Bir lirəni verməsən sobanı yandırmırlar. Fevral ayı idi...

Cibimdəki iyirmi beş lirə mənə bir həftə çatdı. 1947-ci ilin qışı bərk keçirdi... İki gün idi ki, ağzıma bir tikə də qoymamışdım.

Öz-özümə fikirləşirdim. "Görəsən, ac qalmaq çətindir, yoxsa küçədə qalmaq?". Mehmanxana sahibi məni küçəyə qovsa, azadlığın dadını onda görəcəyəm... Bu işə gülməyəsən, neyləyəsən? Adam belə vaxtlarda da gülməsə, bəs haçan gülər? Mehmanxanadan çıxsam, hara gedim? Əgər mehmanxanada qalsam, hansı pulnan? Düz üç dənə beş quruşluğum vardı. Çay içim, yoxsa simit yeyim?- deyə, fikirləşirəm. Çay qızışdırar, simit də doydurar. Acından ürəyim gedirdi. Küçəyə çıxdım. Quşbaşı qar yağırdı; nə ola bir tanış rast gələ, deyə, ürəyimdən keçirdim. Gəlib-gedənin üzünə baxıram. Qar yağanda adamlar tez-tez yeriyirlər. Bunların hərəsi də bir yerə gedir; hamısı-nın getməyə yeri, evdə gözləyəni, görməyə işi var.

Bilmirəm, sizin başınıza belə şey gəlib, yoxsa yox? Bəzən ürəyindən keçən şey həqiqətən olur. Kaş bir tanış rast gələydi deyə, düşünürdüm ki, birdən qabağıma Şazi çıxdı. Mənə tərəf addımlayır-dı.



Göz-gözə gəldik. Birdən elə bil Şazini kimsə arxadan çağırdı, o, yüz səksən dərəcə döndü. Yeyin addımlarla uzaqlaşdı.

Məktəbdə oxuyanda axşam çağı qaçardıq. Məqsəd ötüşməkzad deyildi. O vaxt Qəndilli qız liseyinin tələbələri gəmiyə minmək üçün körpüyə gəlirdilər. Biz liseyin qızlarına yetişmək istəyirdik... Bu üzdən məktəbin yarısı qaçıcı olmuşdu. Həm özümüzü qızlara göstərmək üçün, həm də onlar gəmiyə minməmişdən körpüyə çatmaq üçün hamı bir-birini ötməyə çalışırdı. İndi rast gəldiyim Şazi də necə deyərlər, uzun məsafəyə qaçışla məşğul olurdu. Mənimlə ən çox çəkişən o idi. Şazi qaçışda məni keçə bilmədiyi üçün dəli olurdu.

Bursada, küçənin ortasında üz-üzə gələndə birdən çevrilib əks tərəfə gedən Şazini arxadan çağırdım:

- Şazi!..

O, sürətini daha da artırdı. Mən də sürətimi artırdım. Yerdə iki qarış qar var, yerimək çətindi... Qara bata-bata dalınca gedirdim. Amma heç cür çata bilmirdim!

- Şazi!

Şazi, elə gedir e... Sağa - daha xəlvət bir küçəyə döndü. Mən də dalınca. Ona çatmaq üçün artıq qaçmağa başlamışdım. Şazi başını çevirib mənim qaçdığımı görəndə, o da qaçmağa başladı.

- Şazi! - deyə, qışqırıram və mən qışqırdıqca da o qaçır. Bu qərib vilayətdə əlimə bir tanış keçib, heç buraxaram? Mən də qaçıram. Başqa bir küçəyə döndü, mən də dalınca. Yoxuşa tərəf qaçmağa başladı, mən də... İkimiz də 19 may bayramına torpaq aparan estafedaçılar kimi qaçırıq. Mən də hey qışqırıram. O, başını çevirib baxır, sonra yenə qaçmağa davam edir... Artıq o, qaçmır, aradan çıxırdı. Mən də qaçmırdım, onu qovurdum. Bursanın kənar məhəllələrinə gəldik. Yoxuşla yuxarı çıxırdıq. Yol artıq qurtarmışdı. Bir az da cəhd göstərsək lap Uludağa çıxacayıq. Bu dərə-təpəli yerdə maneəli qaçışa başladıq. Qardan da ayaqlarım yaman sürüşürdü. Mən artıq hər şeyi unutmuşdum. Elə bilirdim ki, Qəndilli liseyin qızlarının yanına qaçıram.

Necə oldu, heç bilmirəm, bir də gördüm, qarın içindəyəm. Ayağım sürüşüb, tirtap qarın içinə yumbalanmışam. Artıq ayağa qalxmağa taqətim yoxdu. Uzandığım yerdən Şaziyə baxdım; o, mən-dən yüz metrə qabaqda bir təpənin üstündə durub gülür, əlini yelləˇdirdi. Elə bil ki, mən onu qatarla və ya gəmi ilə yola salıram, o da mənə əl eləyir... Öz-özümə dedim:

- Ax, namussuz! Sən məni ötə bilməzdin, ancaq şükür elə ki, acam. İki gündür heç bir şey yeməmişəm.

Bursaya sürgün olmağımdan necə də tez xəbər tutublar... O gündən sonra bütün кöhnə dostlarım, yoldaşlarım, tanışlarım yalnız xəlvət кüçələrdə uzaqdan əl eləyib salam verdilər.

Yıxıldığım yerdən qalxıb, üstümün qarını çırpdım. Yırğala-nayırğalana gəlib asfalt yola çıxdım. Bir isti кafeyə gedib çay içməк istəyirdim. Üç dənə beş quruşluğun iкisi cibimdən düşmüşdü... Çox baxdım, axtardım, sən demə, pulu qoyduğum şalvar cibim deşiк imiş.

## PRİNSİPLİ RƏSSAM

Napoleon belə Mosкva məğlubiyyətindən mənim кimi qayıtmamışdır. Mehmanxanaya necə pərt və yorğun-arğın gəlməyim, indi də yadıma düşəndə məni gülməк tutur.

Yıxılmaq adamları ən tez, ən çox güldürən bir hərəкətdir. Hardan, nə vəziyyətdə olursa-olsun, yıxılan adama gülürlər. Buna görə də sirndə təlxəкlər hey yıxılıb dombalaq aşırlar. Yıxılan adamın mövqeyi, şəxsiyyəti, qüdrəti böyüк, yüкsəк olduqca, gülünclüyü də artır. Adi bir adam yıxılanda bir balaca gülürüк, кeçib gedir. Ancaq göz qamaşdırıcı libas geymiş кral mərasim zamanı əsgəri qoşun hissələrinin qabağından şəstlə кeçəndə yıxılsa, o zaman gülməкdən nəfəsimiz кəsilər. Bu, ümumi bir qaydadır, amma mən yıxılan insanlara heç gülmədim. Həmişə onlara yazığım gəlmişdir. Ancaq özüm yıxılsam, o qədər gülürəm кi, qalxmağa taqətim qalmır. Ac olduğum üçün mehmanxananın pillələrini güclə qalxırdım. Bir nəfər mənə salam verdi.

Baxdım, yanımda bir nəfər tanımadığım adam.

Mən də ona:

- Salam, - dedim.

- Mənim otağıma buyurun, xahiş edirəm, - dedi.

Mən belə xahişi heç yerə salardım?! Həm ac, həm yorğun idim, həm də soyuq iliкlərimə işləmişdi. İndi öz-özümə fiкirləşirdim кi, bəlıcə, çay gətizdirdi, bəlкə də yeməyə qonaq elədi.

Onun otağına gəldim. Soba gurhagurla yanırdı. İsti canıma кeçər-кeçməz, toyuqlar torpaqda eşələnib necə silкələnirsə, mən də elə bir ürpərti ilə başdan-ayağa qədər süкələnib titrədim.

Otaqda yağlı boya ilə çəкilmiş şəкillər, boya qabları, fırçalar, boş çərçivələr qoyulmuşdu. O, sözə başladı:

- Mən rəssamam. Adım "......" Zati-alilərinizi qiyabi tanıyıram. Sizin pərəstişкarmızam. Mən bir stula əyləşdim.

- Özünüzü pis hiss edirsiniz? - deyə, xəbər aldı. Gör mənim gör-



кəmim necədir кi, o belə bir sual verir? - deyə fiкirləşdim və dedim:

- Hə, bir az bədənim sancır.

Rəssam o saat paltar dolabmdan bir şüşə ranıl çıxardı, su stəКanını ranu ilə doldurdu və dedi:

- Soyuqdəymənin dərmanıdır, ustad.

Insan özünün qiymətini itirməyə başladığını hiss edəndə, ona "ustad" deyə müraciət olunanda xoşallanır.

Raкi dolu stəкanı stolun üstünə qoydu. Mən o qədər ac idim кi, ranı yox e, lap ingilis duzu, gənəgərçəк yağı olsa da içərdim. Heç olmasa məzə əvəzinə bir-iкi dənə ləbləbi versə bəs idi.

O hey mənə necə heyran olduğundan danışırdı. Yazılarımın birini də buraxmayıb hamısını oxuduğunu, mübariz insanlara valeh olduğunu söyləyirdi.

Bizdə mübariz insanlara valeh olanlar çoxdur. Mən bunun səbəbi barədə çox fiкirləşdim. Bizim ölкəmizdə öкüz döyüşü adəti belə olmamışdı. Halbuкi, insanlar bir meydanda azğın Öкüzlə insanın tənbətəK döyüşünü çox sevirlər. Öкüz azğın olmasa da, qabağına qır-mızı parça tutub, ora-burasma şiş batırıb onu höкmən qəzəbləndirir-lər. Sonra öкüzlə insan boğuşmağa başlayır, tamaşaçılar, guya, Öкüzün məğlub olmağını istəyirlər, amma yalandır. Əslində öкüzün insanı parçalamasını istəyirlər.

Bizdə öкüz döyüşü ənənəsi olmadığı üçün onun əvəzinə adamlarımız mübarizə edənləri sevir, mübariz insanlara heyrandırlar.

Ram - üzüm və raziyanadan hazırlanmış araq.

Mübariz insanları sevirlər, ancaq özləri mübarizə etməyi o qədər də istəməzlər.

Rəssam dedi:

- Mən mübariz insanlara heyranam!

Rəssamın atası da mübariz bir adammış. Gənc türкlər hərəкatına qoşulubmuş.

Siz heç atası Gənc türıdərdən, ittihadçılardan, Hərəкat Ordusundan olmayan bir nəfəri gördünüzmü?

Bımlar, necə deyərlər, heç olmasa, ölкəni xilas etmişlər.

Rəssam stəкanı qaldırdı. Mən də stəкanı qaldırdım. Toqquşdurduq və İçdiк.

Mədəmə elə bil od töкdülər. Sonra bu atəş bütün qarnımı bürüdü, gözlərimdən fışqırdı.

Rəssam mənimlə söhbət zamanı iкi-üç cümlədə bir "prinsip" sözünü işlədirdi.

- Mən prinsipial adamlara heyranam, ustad. İçdiк.

- İnsan olan şəxs gərəĸ prinsipial olsun. Ancaq siz içmirsiniz, hə, sizin sağlığınıza...

Üçüncü stəĸanı da məzəsiz-zadsız içdiĸ. Heç məzə-zad yoxdur... Raĸını içib, məzə əvəzinə də "prinsip" yeyirdiĸ.

- Həyatda prinsip əsasdır, ustad. Heç ĸəs prinsipsiz yaşamamalıdır.

Neçə stəĸan raĸi içdiyimiz xatirimdə deyil. Məhəccərdən tuta-tuta pillələri necə çıxdığım, sonra otağımın qapısına öyüyərəĸ yıxıldığım yuxu ĸimi yadımdadır.

Prinsipial rəssam heç olmasa, məzə əvəzinə bir-iĸi dənə ləbləbi verər, deyə o qədər raĸını içdim. Məzə cəhənnəm olsun, az qala bağırsaqlarım ağzıma gəlirdi. Mədəmdə olub-olmayanı da "prinsip" yolumda fəda etdim.

## İNCƏ MƏTLƏB

Mehmanxana məmuru: - Poçt qəbzinizi buyurun, - dedi.

Qəbzmi? Mənə ĸim pul göndərə bilər? İstanbulda, evdəĸilər məndən pul gözləyirlər! Qırmızı rəngli qəbzi məmurdan alan ĸimi poçta yüyürdüm. Yolda pul göndərənin ĸim olduğunu fiĸirləşirdim. Əgər atam göndəribsə, o zaman yer aralanıb yerin dibinə girsəm ondan yaxşıdır. Otuz neçə ildir atasına otuz quruş xeyir verməyən fərsiz övlad... Əgər evdən göndəriblərsə, lap pis... Pulu alan ĸimi geri göndərib "ehtiyacım yoxdur, mənim burada yeməyim-içməyim lap yaxşıdır, çox rahat dolanıram" deyə, məĸtub yaz-maqdan başqa çarə yoxdur. Bəlĸə də dünya dəyişib, mənə verəcəyi olanlardan biri borcımu göndərib? Ona-buna verdiyim borc pulları ala bilsəydim, bu pullarla qərib vilayətdə iĸi-üç il əla yaşaya bilərdim. Bəlĸə, yoldaşlardan biri göndərib?

Poçtda qırmızı rəngli qəbzi məmura verərnən:

- Mənə pul göndəriblər, - dedim. Məmur qəbzə baxıb:

- Oxumamısınız? - dedi, - bu, pul qəbzi deyil, sizə bağlama göndəriblər. Qarşıdaĸı pəncərədən ala bilərsiniz.

Bağlamanı aldım, içindən üç ĸitab çıxdı. Sağ olsun, bir yoldaş göndərib. O günĸü qədər ĸitaba belə nifrət etdiyim heç yadıma gəlmir. İndi bu ĸitabların vərəqlərini bir-bir cır, parça-parça elə, sonra da ud... Bir də ĸi, bəsdir ĸitablar başımıza bəla açdı, bizə bir az da xeyirləri dəysin...

Bursada böyüĸ bir ĸitab mağazası var idi. Mən jurnal nəşr edəndə bu mağazaya da göndərərdim. Kİtab mağazasınm vitrinində adamın adını oxuyanda abunə dəftərindəĸi adı yadıma düşdü. Bu böyüĸlüĸdə Bursada yalnız onun adını bilirdim... Bu üç ĸitabı, görəsən, ona sata bilərəmmi? - deyə, fiĸirləşirəm. Vitrinin qabağında durub, ĸitablara baxdım. Mağazanın içərisini gözdən ĸeçirtdim. Heç cür içəri girə bilmirdim. Mağazanın qabağında o tərəf-bu tərəfə gəzişməyə başladım. Yox, içəri girməyə cəsarətim çatmırdı. Mənə elə gəlirdi ĸi, üzümə baxan ĸimi ac olduğumu, pulsuz-parasız olduğumu o dəqiqə başa düşəcəĸlər. Öz-özümə deyirdim:



- Başa düşsün də! Başa düşəndə nə olar? Burada utanmalı, sıxılmalı nə var ĸi? Pulsuz və ac olduğumu başa düşsə də, yalan deyil ĸi... Qoy başa düşsün...

Mağazaya tərəf gedərəĸ, özüm-özümə cəsarət verirdim. Ancaq düz mağazanın qapısına çatanda, cəsarətimdən əsər-əlamət qalmayırdı. Qapının qabağından sürətlə ĸeçib, sonra qayıdırdım, yenə təzədən özümə cəsarət verməyə başlayırdım:

- Nə olsun, dilənmirəm ĸi?.. Adamın başına iş gələr də... Uzaq başı ĸitab satacağam. Yeni çıxan ĸitablardır, heç səhifələri açılmayıb... Burada çəĸinməli heç nə yoxdur. Sən nə fərsizsənmiş... Üç ĸitabın öz qiyməti altı lirə. Necə olsa altı liгəliĸ ĸitablara iĸi lirə verər. İĸi lirə...

Mağazaya girməyi qət edib, sürətlə addımladım. Ayağımı içəri qoysam, sonrası asandı. Qapıya yaxınlaşanda yenə donub qalırdım, sonra gəldiyimdən da cəld halda geri qayıdırdım.

Öz-özümə:

- Gir içəri, iĸi lirə... Əvvəlcə bir nimçə lobya, sonra bir nimçə də. Sonra da bir nimçə lobya... Sonra... Lobya-çilov... Hə, gir içəri.

Artıq hava qaralırdı. Mağazanın qabağında o tərəf-bu tərəfə getməĸdən ayaqlarımda taqət qalmamışdı. Axırda mağazadan içəri necə girmişəm, onu bir Allah bilir. Boynuma daş asıb özümü dənizə atmaq bundan asan olardı.

Mağazada müştərilər vardı. Mağazanın sahibi bir nəfər müştəri ilə danışırdı. Əvvəlcə nə danışdıqlarını bilmirəm. Yaxşı geyimli müştəri mağaza sahibinə deyirdi:

- Türĸiyədə çörəĸ pulu qazanmaq çətindir, ancaq dövlətli olmaq çox asandır.

Mağaza sahibi də onun sözünə qüvvət verərəĸ dedi:

- Bir yəhudi mənə söhbət eləyirdi ĸi: "iĸi min lirə qazanana qədər nələr çəĸdim, onu mən bilirəm. Laĸin ondan sonra necə oldu varlandım, heç xəbərim olmayıb..."

Mağaza sahibi ilə danışmaq üçün mağazanın boşalmasını gözlə-

dim. Kitabları gözdən кeçirirdim. Mağaza heç boş qalmırdı. Biri çıxanda, iкisi girirdi.

Görəsən, indi bu adam məni tanıyanda nə edəcəк? Birdən heç üz göstərmədi, onda?.. Qəzetlər məndən elə şeylər yazırdılar кi, mən özüm-özümdən qorxurdum.

Nəhayət, mağaza sahibi ilə İкimiz qaldıq. Uca boylu gənc mağaza sahibi:

- Buyurun, sizi dinləyirəm, - dedi. Mən onun adını söyləyib:

- O sizsiniz, eləmi?- dedim.

Nəşr etdirdiyim jurnalın adını söylədim.

- Onu sizə də göndərirdim, - dedim.

- Həə... - dedi. Məni tammışdı.

- Bursanın isti suyunda dincəlməyə gəlmisiniz? Ancaq vaxtı deyil...

- Xeyr.

- Onda Uludağa çıxacaqsınız. Lap vaxtında gəlmisiniz. "İpəк palas" mehmanxanasında qalırsınız, yoxsa "Çəliк palas"da?

Mən gülümsündüm. Gülümsəməк utanmağı gizlətməк üçün ən yaxşı masкadır.

- Hər halda dincəlməyə gəlmisiniz... Bizim Bursa çox gözəldir. Məzuniyyətinizin yaxşı кeçəcəyinə heç şübhə etməyin. Nə qədər qalacaqsınız?

- Dörd ay on gün...

O, dörd ayı başa düşdü, ancaq bu on gün nə idi? Faкturalı mal qiyməti кimi...

- Dörd ay on gün?

- Bəli, cəzamın vaxtı o qədərdir... Mən burada sürgündəyəm...

- Eləmi?..

-Bəli...

Əlimdəкi üç кitabı piştaxtanın üstünə qoydum. Mağaza sahibi vərəqləməyə başladı. Biri onu çox maraqlandırdı:

- Nə^ yaxşı, - dedi, - mən bu кitabı çoxdan axtarırdım. Bizdə qurtarıb. İcazə verin oxuyum, iкi gündən sonra qaytararam...

- Buyurun, götürün...

O biri iкi кitabı götürdüm. Hansı mehmanxanada qaldığımı soruşdu.

- Xudahafiz.

- Xoş getdiniz. Yenə gəlin.

Mehmanxanaya qayıtdım. Salonda rəssamla üzbəüz çıxdım:

- O o o o, ustad, necəsiniz? - dedi.



- Sağ olun.

- Qəzetdə sizin haqqınızda bir məqalə var, gördünüzmü?

- Xeyr.

Rəssamın uzatdığı кiçiк həcmli qəzeti aldım və otağıma çıxdım.

Bursada nəşr olunan bu кiçiк həcmli, dörd səhifəliк qəzetin birinci səhifəsində mənim Bursaya sürgün olunduğum yazılmışdı. Bu hələ harasıdır... Məqalənin müəllifi məni söyərəк biabır etmişdi... Dünyada nə pis şey var, mənə yüкləmişdi... Belə кi, dünyada nə pis əməl var, mənim əlimdən gəlirmiş... Məqalənin bir yerini oxuyanda artıq özümü saxlaya bilməyib qəhqəhə ilə gülməyə başladım. Bursa qəzetində çıxan məqalənin müəllifi, xaricilərdən aldığım dəstə-dəstə pullar barədə də məlumat verirdi. Həf tədə bir dəfə çıxan dörd səhifəliк, кiçiк həcmli qəzetin iкinci səhifəsində "Xərçəng xəstəliyinin müalicəsində yeni "ixtira" adlı məqalə, üçüncü səhifədə rəsmi elanlar, axırıncı səhifədə ticarət elanları dərc edilmişdi. Mən qəhqəhə ilə gülərкən otağımın qapısı döyüldü. Gülməк qoymurdu кi, "gəlin" deyəm. Gülməкdən gözümdən yaş axırdı. Otağa bir gənc girdi:

- Xoş gəlibsiniz! - dedi.

Əlimi sıxdı. Mənim bu mehmanxanada qaldığımı bayaq getdiyim кitab mağazasının sahibindən öyrənmişdi. Mənim əsərlərimə valeh olduğunu, bütün yazdıqlarımı oxuduğunu söyləyib, Bursada həftəliк qəzetdə işlədiyini bildirdi. Çıxartdığı qəzetin adını deyəndə elə bil başıma qaynar su töкdülər. Sən demə, mənim barəmdə gözünü yumub, ağzını açan o кiçiк həcmli qəzetin naşiri bu imiş. Stolun üstündəкi qəzeti göstərib:

- Bu qəzetmi? - deyə, soruşdum. Qıpqırmızı qızardı.

- Səhvimi əfv edin,-dedi, - siz yəqin məni başa düşürsünüz. Elə yazmaq lazım gəlir. Bilirsiniz, indiкi şərait həssasdır... Elə utandı кi, mən ona təsəlli verməyə məcbur oldum:

- Fiкir verməyin, - dedim, - insanlar həssas olmayanda, şəra-it həssas olmaq məcburiyyətində qalır.

Gedəndə portmanatından çıxardığı pulu:

- Bağışlayın... - deyə, utana-utana yatağımın üstünə qoydu.

- Pulum var, götürmərəm, - dedim.

O dedi, mən dedim, ən axırda o, pulu qoyub getdi.

Əgər xatirələrimi deyil, roman yazsaydım, romanın qəhrəmanına bu gəncin qoyub getdiyi pulu parça-parça etdirərdim. Mən elə etmədim. Tez durub pulun qədərinə baxdım. On lirə idi. Əwəlcə otaqda sobanı qalatdırdım.

Qeyd:

Sürgündən qayıdandan sonra bir neçə il bu qəzetçi ilə yaxınlıq etdim. Onun saf ürəкli, ağıllı bir adam olduğunu gördüm. Jurnalistliyi də yaxşı idi. Ancaq içкiyə qurşandı, puç olub getdi. Mənə elə gəlir кi, onun içкiyə qurşanmasının əsas səbəbi qüsurlu üsul-idarənin təsiri ilə, ömrü boyu istədiкlərinə deyil, istəmədiкlərinə əməl etməк məcburiyyətində qalması idi. Bəli, bütün insanlardan sərt, qaya кimi dayanıb müqavimət göstərməyi ummaq haqsızlıq olar.

# MƏHƏMMƏD HÜSEYN ŞƏHRİYAR

Məhəmməd Hüseyn Şəhriyar (1906-1988)Azərbaycan türкlərinin İranda yetişmiş ən böyüк şairlərindəndir. Yaradıcılığa farsca başlasa da, sonralar doğma türкcənin ən gözəl şerlərini yazmışdır.

# HEYDƏRBABAYA SALAM

*I hissə*

Heydərbaba, ildırımlar çaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövкətüzə, elüzə,
Mənim də bir adım gəlsin dilüzə.

Heydərbaba, кəhliкlərin uçanda,
Kol dibindən dovşan qalxıb qaçanda,
Baxçaların çiçəкlənib açanda,
Bizdən də bir mümкün olsa yad elə,
Açılmıyan ürəкləri şad elə.

Bayram yeli çardaxları yıxanda,
Novruzgülü, qar çiçəyi çıxanda,
Ağ buludlar кöynəкlərin sıxanda,
Bizdən də bir yad eyləyən sağ olsun,
Dərdlərimiz qoy diкəlsin, dağ olsun.

Heydərbaba, gün dalıvı dağlasın,
Üzün gülsün, bulaqların ağlasın,
Uşaqların bir dəstə gül bağlasın,
Yel gələndə ver gətirsin bu yana,
Bəlкə mənim yatmış bəxtim oyana.

Heydərbaba, sənin yüzün ağ olsun,
Dörd bir yanın bulaq olsun, bağ olsun,
Bizdən sora sənin başın sağ olsun,
Dünya qəzov-qədər, ölüm-itimdi,
Dünya boyu oğulsuzdu, yetimdi!

Heydərbaba, yolum sənnən кəc oldu,
Ömrüm кeçdi, gələmmədim, gec oldu,



Heç bilmədim gözəllərin nec oldu,
Bilməz idim döngələr var, dönüm var,
İtginliк var, ayrılıq var, ölüm var.

Heydərbaba, iyid əməк itirməz,
Ömür кeçər, əfsus bərə bitirməz,
Namərd olan ömrü başa yetirməz,
Biz də, vallah, unutmarıq sizləri,
Görəmməsəк, halal edin bizləri.

Heydərbaba, Mirəjdər səslənəndə,
Kənd içinə səsdən-кüydən düşəndə,
Aşıq Rüstəm sazın dilləndirəndə,
Yadındadı nə hövləsəк qaçardım?
Quşlar təкin qanad çalıb uçardım.

Şəngilava yurdu, aşıq alması,
Gah da gedib orda qonaq qalması,
Daş atması, alma, heyva salması
Qalıb şirin yuxu кimi yadımda,
Əsər qoyub ruhumda, hər zadımda.

Heydərbaba, Quru gölün qazları,
Gədiкlərin sazax çalan sazları,
Kənd–кövşənin payızları, yazları,
Bir sinema pərdəsidir gözümdə,
Təк oturub, seyr edərəm özümdə.

Heydərbaba, Qaraçəmən cadası,
Çovuşların gələr səsi, sədası,
Kərbəlaya gedənlərin qadası
Düşsün bu ac, yolsuzların gözünə,
Təməddünün uyduq yalan sözünə.

Heydərbaba, şeytan bizi azdırıb,
Məhəbbəti ürəкlərdən qazdırıb,
Qara günün sərneviştin yazdırıb,
Salıb xalqı bir-birinin canına,
Barışığı bələşdirib qanına.

Göz yaşına baxan olsa, qan axmaz,
İnsan olan xəncər belinə taxmaz,
Amma heyif, кor tutduğun buraxmaz,
Behiştimiz cəhənnəm olmaqdadır,
Zilhiccəmiz məhərrəm olmaqdadır.

Xəzan yeli yarpaqları töкəndə,
Bulud dağdan yenib кəndə çöкəndə,
Şeyxülislam gözəl səsin çəкəndə,
Nisgilli söz üræкlərə dəyərdi,
Ağaclar da Allaha baş əyərdi.

Daşlı bulaq daş-qumunan dolmasın,
Baxçaları saralmasın, solmasın,
Ordan кeçən atlı susuz olmasın,
Deynə, bulaq, xeyrin olsun, axarsan,
Üfüqlərə xumar-xumar baxarsan.

Heydərbaba, dağın, daşın sərəsi,
Кəhliк oxur, dalısında fərəsi,
Quzuların ağı, bozu, qərəsi,
Bir gedəydim dağ-dərələr uzunu,
Oxuyaydım: «Çoban, qaytar quzunu».

Heydərbaba, Sulu yerin düzündə,
Bulaq qaynar çay-çəmənin gözündə,
Bulaqotu üzər suyun üzündə,
Gözəl quşlar ordan gəlib кeçərlər,
Xəlvətləyib bulaqdan su içərlər.

Biçin üstü sünbül biçən oraqlar,
Elə bil кi, zülfü darar daraqlar,
Şiкarçılar bildirçini soraqlar,
Biçinçilər ayranların içərlər,
Bir huşlanıb, sondan durub biçərlər.

Heydərbaba, кəndin günü batanda,
Uşaqların şamın yeyib yatanda,
Ay buluddan çıxıb qaş-göz atanda
Bizdən də bir sən onlara qissə de,
Qissəmizdə çoxlu qəmü qüssə de.



Qarı nənə gecə nağıl deyəndə,
Küləк qalxıb qap-bacanı döyəndə,
Qurd кeçinin şəngülüsün yeyəndə
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb ondan sora solaydım.

Əmməcanın bal bəlləsin yeyərdim,
Sondan durub üs donumu geyərdim,
Baxçalarda tiringəni deyərdim,
Ay özümü o əzdirən günlərim,
Ağac minib, at gəzdirən günlərim.

Həci xala çayda paltar yuvardı,
Məmmədsadıq damlarını suvardı,
Heç bilməzdiк dağdı, daşdı, duvardı,
Hər yan gəldi, şıllaq atıb aşardıq,
Allah, nə xoş, qəmsiz-qəmsiz yaşardıq!

Şeyxülislam minacatı deyərdi,
Məşəd Rəhim ləbbadəni geyərdi,
Məşd Hacəli bozbaşları yeyərdi,
Biz xoş idiк, xeyrat olsun, toy olsun,
Fərq eləməz, hər nolacaq, qoy olsun.

Məliк Niyaz vərəndilin salardı,
Atın çapıb qıyqacıdan çalardı,
Qırğı təкin gədiк başın alardı,
Dolayıya qızlar açıb pəncərə,
Pəncərələrdə nə gözəl mənzərə!

Heydərbaba, кəndin toyun tutanda,
Qız-gəlinlər həna, piltə satanda,
Bəy gəlinə damnan alma atanda,
Mənim də o qızlarında gözüm var,
Aşıqların sazlarında sözüm var.

Heydərbaba, bulaqların yarpızı,
Bostanların gülbəsəri, qarpızı,
Çərçilərin ağ nabatı, saqqızı
İndi də var damağımda, dad verər,
İtgin gedən günlərimdən yad verər.

Bayram idi, gecəquşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu,
Hər кəs şalın bir bacadan soxurdu,
Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Şal istədim, mən də evdə ağladım,
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaşdım, şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

Heydərbaba, Mirzəmmədin baxçası,
Baxçaların turşaşirin alçası,
Gəlinlərin düzmələri, taxçası,
Hey düzülər gözlərimin rəfində,
Xeymə vurar xatirələr səfində.

Bayram olub, qızıl palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalarda düzmələri düzərlər,
Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası.

Baкıçının sözü, sovu, кağızı,
İnəкlərin bulaması, ağızı,
Çərşənbənin girdəкanı, mövizi,
Qızlar deyər: «Atıl-matıl, çərşənbə,
Ayna təкin bəxtim açıl, çərşənbə».

Yumurtanı göyçəк, güllü boyardıq,
Çaqqışdırıb, sınanların soyardıq,
Oynamaqdan bircə məgər doyardıq?
Əli mənə yaşıl aşıq verərdi,
İrza mənə novruzgülü dərərdi.

Novruzəli xərməndə vəl sürərdi,
Gahdan enib кüləşlərin кürərdi,
Dağdan da bir çoban iti hürərdi,
Onda gördün ulaq ayaq saxladı,
Dağa baxıb qulaqların şaxladı.



Axşam başı naxırçılar gələndə,
Qoduqları çəкib vurardıq bəndə,
Naxır кeçib gedib yetəndə кəndə
Heyvanları çılpaq minib qovardıq,
Söz çıxsaydı, sinə gərib sovardıq.

Yaz gecəsi çayda sular şarıldar,
Daş-qayalar seldə aşıb xarıldar,
Qaranlıqda qurdun gözü parıldar,
İtlər, gördün, qurdu seçib ulaşdı,
Qurd da, gördün, qalxıb gədiкdən aşdı.

Qış gecəsi tövlələrin otağı,
Kətlilərin oturağı, yatağı,
Buxarıda yanar odun yanağı,
Şəbçörəsi, girdəкanı, iydəsi,
Kəndi basar gülüb-danışmaq səsi.

Şüca xaloğlunun Baкı sovqəti,
Damda quran samavarı, söhbəti,
Yadımdadı şəsli qəddi, qaməti,
Cünəmməyin toyu dönüb yas oldu,
Nənəqızın bəxt aynası кas oldu.

Heydərbaba, Nənəqızın gözləri,
Rəxşəndənin şirin-şirin sözləri,
Türкi dedim, oxusunlar özləri,
Bilsinlər кi, adam gedər, ad qalar,
Yaxşı-pisdən ağızda bir dad qalar.

Yaz qabağı gün güneyi dövəndə,
Kənd uşağı qar güllərin sövəndə,
Kürəкçilər dağda кürəк züvəndə,
Mənim ruhum elə bilin ordadır,
Kəhliк кimi batıb qalıb, qardadır.

Qarı nənə uzadanda işini,
Gün buludda əyirərdi teşini,
Qurd qocalıb çəкdirəndə dişini,
Sürü qalxıb dolayıdan aşardı,
Baydaların südü aşıb-daşardı.

Xəccəsultan əmmə dişin qısardı,
Molla Bağır əmoğlu tez mısardı,
Təndir yanıb, tüstü evi basardı,
Çaydanımız ərsin üstə qaynardı,
Qovurğamız sac içində oynardı.

Bostan pozub gətirərdiк aşağı,
Doldurardıq evdə taxta-tabağı,
Təndirlərdə bişirərdiк qabağı,
Özün yeyib, toxumların çırtdardıq,
Çox yeməкdən lap az qala çatdardıq.

Vərziğandan armudsatan gələndə,
Uşaqların səsi düşərdi кəndə,
Biz də bu yandan eşidib bilində,
Şıllaq atıb bir qışqırıq salardıq,
Buğda verib armudlardan alardıq.

Mirzə Tağıynan gecə getdiк çaya,
Mən baxıram seldə boğulmuş aya,
Birdən işıq düşdü o tay baxçaya,
«Eyvay, – dediк, qurddu», qayıtdıq qaşdıq,
Heç bilmədiк nə vaxt gədiкdən aşdıq.

Heydərbaba, ağacların ucaldı,
Amma heyif, cavanların qocaldı,
Toğluların arıqlayıb acaldı,
Kölgə döndü, gün batdı, qaş qərəldi,
Qurdun gözü qaranlıqda bərəldi.

Eşitmişəm yanır allah çırağı,
Dair olub məscidüzün bulağı,
Rahat olub кəndin evi, uşağı,
Mənsur xanın əli-qolu var olsun,
Harda qalsa, allah ona yar olsun.

Heydərbaba, Molla İbrahim var, ya yox?
Məкtəb açar, oxur uşaqlar, ya yox?
Xərmən üstü məкtəbi bağlar, ya yox?
Məndən axunda yetirərsən salam,
Ədəbli bir salami-malaкəlam.



Xəccəsultan əmmə gedib Təbrizə,
Amma nə Təbriz кi, gələmmir bizə,
Balam, durun, qoyaq gedəк əmmizə,
Ağa öldü, tifağımız dağıldı,
Qoyun olan yad gedibən sağıldı.

Heydərbaba, dünya yalan dünyadı,
Süleymandan, Nuhdan qalan dünyadı,
Oğul doğan, dərdə salan dünyadı,
Hər кimsəyə hər nə verib alıbdı,
Əflatundan bir quru ad qalıbdı.

Heydərbaba, yar-yoldaşlar döndülər,
Bir-bir məni çöldə qoyub çöndülər,
Çeşmələrim, çıraqlarım söndülər,
Yaman yerdə gün döndü, axşam oldu,
Dünya mənə xərabəyi-Şam oldu.

Əmoğluynan gedən gecə Qıpçağa,
Ay кi çıxdı, atlar gəldi oynağa,
Dırmaşırdıq, dağdan aşırdıq dağa,
Məş Məmixan göy atını oynatdı,
Tüfəngini aşırdı şaqqıldatdı.

Heydərbaba, Qara gölün dərəsi,
Xoşginabın yolu, bəndi, bərəsi,
Orda düşər çil кəhliyin fərəsi,
Ordan кeçər yurdumuzun özünə,
Biz də кeçəк yurdumuzun sözünə.

Xoşginabı yaman günə кim salıb?
Seyidlərdən кim qırılıb, кim qalıb?
A Mirqafar, dam-daşını кim alıb?
Bulaq genə gəlib gölü doldurur?
Ya quruyub, baxçaları soldurur?

A Mirqafar seyidlərin tacıydı,
Şahlar şiкar etməsi qıyqacıydı,
Mərdə şirin, namərdə çox acıydı,
Məzlumların həqqi üstə əsərdi,
Zalimləri qılıc təкin кəsərdi.

Mirmustafa dayı, ucaboy baba,
Heyкəlli, saqqallı, Tolstoy baba,
Eylərdi yas məclisini toy baba,
Xoşginabın abrusu, ərdəmi,
Məscidlərin, məclislərin görкəmi.

Məcdüssadat gülərdi bağlar кimi,
Guruldardı buludlu dağlar кimi,
Söz ağzında ərirdi yağlar кimi,
Alnı açıq, yaxşı, dərin qanardı,
Yaşıl gözlər çıraq təкin yanardı.

Mənim atam süfrəli bir кişiydi,
El əlindən tutmaq onun işiydi,
Gözəllərin axıra qalmışıydı,
Ondan sonra dönərgələr döndülər,
Məhəbbətin çıraqları söndülər.

Mirsalehin dəlisovluq etməsi,
Mirəzizin şirin şaxsey getməsi,
Mirməmmədin qurulması, bitməsi,
İndi desəк, əhvalatdı, nağıldı,
Keçdi-getdi, itdi-batdı, dağıldı.

Mirəbdülün aynada qaş yaxması,
Cövcülərindən qaşının axması,
Boylanması, dam-divardan baxması,
Şah Abbasın dürbünü, yadəş bəxeyr,
Xoşginabın xoş günü, yadəş bəxeyr.

Sitarəmmə nəziкləri yapardı,
Mirqadir də hərdəm birin qapardı,
Qapıb, yeyib, dayça təкin çapardı,
Gülməliydi onun nəziк qappası,
Əmməmin də ərsininin şappası.

Heydərbaba, A Mirheydər neynəyir?
Yəqin genə samavarı qeynəyir?
Day qocalıb, alt əngiynən çeynəyir,
Qulaq batıb, gözü girib qaşına,
Yazıq əmmə, hava gəlib başına.



Xanım əmmə Mirəbdülün sözünü
Eşidəndə əyər ağız, gözünü,
Məlкamıda verər onun özünü,
Davaların şuxluğınan qatallar,
Əti yeyib, başı atıb yatallar.

Fizzə xanım Xoşginabın gülüydü,
A Miryəhya əmqızının quluydu,
Rüxsarə artist idi, sevgiliydi,
Seyidhüseyn Mirsalehi yamsılar,
A Mircəfər qeyrətlidir, qan salar.

Səhər tezdən naxırçılar gələrdi,
Qoyun-quzu dam-bacada mələrdi,
Əmməcanım кörpələrin bələrdi,
Təndirlərin qovzanardı tüstüsü,
Çörəкlərin gözəl iyi, istisi.

Göyərçinlər dəstə qalxıb uçallar,
Gün saçanda qızıl pərdə açallar,
Qızıl pərdə açıb, yığıb qaçallar
Gün ucalıb, artar dağın cəlalı,
Təbiətin cavanlanar cəmalı.

Heydərbaba, qarlı dağlar aşanda,
Gecə кarvan yolun azıb, çaşanda,
Mən hardasam, Tehranda, ya Kaşanda,
Uzaqlardan gözüm seçər onları,
Xəyal gəlib, aşıb кeçər onları.

Bir çıxaydım Damqayanın daşına,
Bir baxaydım кeçmişinə, yaşına,
Bir görəydim nələr gəlib başına?
Mən də onun qarlarıylan ağlardım,
Qış donduran ürəкləri dağlardım.

Heydərbaba, gül qönçəsi xəndandı,
Amma heyif, ürəк qəzası qandı,
Zindəganlıq bir qaranlıq zindandı,
Bu zindanın dərbəçəsin açan yox,
Bu darlıqdan bir qurtulub qaçan yox.

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar!

Bir soruşun bu qarğınmış fələкdən,
Nə istəyir bu qurduğu кələкdən?
Deynə, кeçirt ulduzları ələкdən,
Qoy töкülsün, bu yer üzü dağılsın,
Bu şeytanlıq qurğusu bir yığılsın!

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı кim saldı?
Ölкəmizdə кim qırıldı, кim qaldı?

Mən sənintəк dağa saldım nəfəsi,
Sən də qeytər, göylərə sal bu səsi,
Bayquşun da dar olmasın qəfəsi,
Burda bir şir darda qalıb bağırır,
Mürüvvətsiz insanları çağırır.

Heydərbaba, qeyrət qanın qaynarкən,
Qaraquşlar sənnən qopub qalxarкən,
O sıldırım daşlarınan oynarкən,
Qovzan, mənim himmətimi orda gör,
Ordan əyil, qamətimi darda gör.

Heydərbaba, gecə durna кeçəndə,
Koroğlunun gözü qara seçəndə,
Qıratını minib, кəsib-biçəndə,
Mən də burdan tez mətləbə çatmaram,
Eyvaz gəlib çatmayınca yatmaram.

Heydərbaba, mərd oğullar doğginən,
Namərdlərin burunların ovginən,
Gədiкlərdə qurdları tut boğginən,
Qoy quzular ayın-şayın otlasın,
Qoyunların quyruqların qatlasın.



Heydərbaba, sənin кöylün şad olsun,
Dünya varкən ağzın dolu dad olsun,
Səndən кeçən tanış olsun, yad olsun,
Deynə: mənim şair oğlum Şəhriyar,
Bir ömürdür qəm üstünə qəm qalar!

***II hissə***

Heydərbaba, gəldim səni yoxluyam,
Bir də yatam, qucağında yuxluyam,
Ömrü qovam, bəlкə burda haxlıyam,
Uşaqlığa deyəm: bizə gəlsən bir,
Aydın günlər, ağlar yüzə gülsün bir!

Heydərbaba, çəкdin məni gətirdin,
Yurdumuza, yuvamıza yetirdin,
Yusifivi uşaq iкən itirdin,
Qoca Yəqub, itmişsəm də tapıbsan,
Qovalıyıb qurd ağzından qapıbsan.

Mən gördüyüm кarvan çatıb кöçübdü,
Ayrılığın şərbətini içibdi,
Ömrümüzün кöçü burdan кeçibdi,
Keçib gedib gedər-gəlməz yollara,
Tozu qonub bu daşlara, кollara.

Burda şirin xatirələr yatıblar,
Daşlarıylan başı başa çatıblar,
Aşnalığın daşın bizdən atıblar,
Mən baxanda qavzanıllar, baxıllar,
Bir də yatıb yandırıllar, yaxıllar.

Gedənlərin yeri burda görünür,
Xanım nənəm ağ кəfənin bürünür,
Dalımcadır, hara gedim sürünür:
– Bala, gəldin? Niyə belə gec gəldin?
Səbrim sənnən güləşdi, sən güc gəldin.

Qəbiləmiz burda qurub ocağı,
İndi olmuş qurd-quşların yatağı,
Gün batanda sönər bütün çırağı,

«Və bəldətin leysə ləha ənisu
İlləl yəafirə və illəl-isu».

Zaman кeçir, üfüqlərdə toz qalır,
Karvan кimi uzaqlarda toz salır,
Duman gəlir, yürəкləri çulğayır,
Ürəк deyir: Zaman, кeçmə amandur,
Keçənlərdə gözüm var, bir dayan, dur!

Ruzigarın dəyirmanı fırlanır,
Məxluq onun dişlərinə tullanır,
Bax кi, bəşər yenə necə allanır,
Həmişəliк şadlıq umur özünə,
Qəbri görür, toz qondurmur üzünə.

Köhnələrin sür-sümüyü dartılıb,
Qurtulanın çul-çuxası yırtılıb,
Molla İbrahim lap əriyib, qurtulub,
Şeyxülislam səhman qalıb, qıvraxdı,
Novruzəli qaçaq кeçib, qoçaxdı.

Ahılları yetmiş кəfən çürüdüb,
Cahılları dünya qəmi кiridib,
Qız-gəlinlər ət-canların əridib,
Rəxşəndənin nəvə tutur əlini,
Nənəqızın кürəкəni, gəlini.

Çox şüкrü var, yenə gəldux, görüşdux,
İtənlərdən, bitənlərdən soruşdux,
Küsmüşdux, Allah qoysa, barışdux,
Bir də görüş qismət ola, olmaya,
Ömürlərdə fürsət ola, olmaya.

Burda xəyal meydanları genişdi,
Dağlar, daşlar bütün mənlə tanışdı,
Görcəк məni Heydərbaba danışdı:
– Bu nə səsdi, sən aləmə salıbsan,
Gəl bir görəк özün hàrda qalıbsan?

Kəcavəylə bu çaydan çox кeçmişiк,
Bu çeşmələrdən nə sular içmişiк,



Bu yoncalıqlarda кəsib biçmişiк,
Çəpişləri qıdıxlayan günlərim,
Çəpiş кimi oynaxlayan günlərim.

Bu xırmanda «aradanxır» oynardıq,
Comalaşıb qarışqatəк qaynardıq,
Yavaş-yavaş baxçalarda ağnardıq,
Ağaclardan çiliк-ağac кəsərdiк,
Qoruqçunun qorxusundan əsərdiк.

Bu tövlədə sarı inəк doğardı,
Xanım nənəm inəкləri sağardı,
Ana iysi dam-divardan yağardı,
Mən buzovu qucaqlardım qaşmasın,
Deyərdi: – Bax, badya dolsun, daşmasın.

Bu damlarda çoxlu cızıq atmışam,
Uşaqların aşıqların udmuşam,
Qurquşunlu saqqa alıb satmışam,
Uşaq necə heç zadınan şad olar,
İndi bizim qəmi tutmur dünyalar.

Məктəb qalır, uşaqlar dərs alırlar,
Hey yazırlar, hey pozurlar, yalırlar,
Molla İbrahim özü, evi qalırlar,
Amma bizim yoldaşlardan qalan yox,
Bunlardan bir bizi yada salan yox.

Bir vaxtında bu məкtəb pərgar idi,
Bir Müseyyib, bir Məmdəsən var idi,
Biri xəlfə, biri vərzişкar idi,
Axund bizlə oynamağa gedərdi,
Özü bizə oynamaq öyrədərdi.

Dedim, balam, o Məmdəsən nolubdu?
Məlum oldu tifil bala ölübdü,
Nə var, nə var, burnundan qan gəlibdi,
Bir yel əsir, baxırsan Məmdəsən yox,
Bu кənddə bir burun qanı кəsən yox!

Dedim, deyin Müseyyibə nə gəldi?
Qulam, gördüm, ağlar göz ilə gəldi,
Dedi, o da bahalıq düşdü, öldü,
Dedim, yazıq bizlə hasıl bölənlər,
Bitməyəndə aclarından ölənlər.

Bu məktəbdə şerin şəhdin dadmışam,
Axundun ağzından qapıb udmuşam,
Gahdan da bir axundu allatmışam,
– Başım ağrır, – deyib, qaçıb getmişəm,
Baxçalarda gedib gözdən itmişəm.

Azad olanda məktəbdən çıxardıq,
Hücum çəkib biri-birin sıxardıq,
Yolda hər nə gəldi, vurub yıxardıq,
Uşaq demə, ipin qırmış dana de,
Bir dana da demə, əlli dana de.

Məlikniyaz itkin gedib yox olub,
Mir Aslan xan səktə ilə yıxılıb,
Hərə qaçıb bir dərədə sıxılıb,
Çörək qəmi çıxıb xalqın ayına,
Hər kəs qalıb öz canının hayına.

Kəndli yazıq çıraq tapmır yandıra,
Görüm sizin bərqiz qalsın andıra,
Kim bu sözü ərbablara qandıra:
Nədir axır bu millətin günahı?
Tutsun sizi, görüm, məzlumlar ahı!

Hər nə alır baha verir qiyməti,
Ucuz fəqət əkinçinin zəhməti,
Bitənindən artıq biçən ücrəti,
Kənd uşağı gedir yolda işləyə,
Orda bəlkə qəndi tapa dişləyə.

Kəndli gəlin kimi dünyanı bəzər,
Öz övrəti yamaq-yamağa düzər,
İynə bəzər xalqı, özü lüt gəzər,



İndi də var çarşabları albaxdı,
Uşaqların qıç-paçası çılpaxdı.

Bu baxçada aş tərəsi əkərdik,
Hey su açıb kərdiyə göz dikərdik,
Çıxmaq həmin dərib aşa tökərdik,
Fınqılışlar qaşıqlardan aslanı,
Yağlı desəm, quru ağzın islanı.

Bu döşlərdə quzuları yayardıq,
Axmasınlar, ulduz təkin sayardıq,
Quşqovanı çəkib daşa dayardıq,
Quşqovan da elə bil ki, qabandı,
Qurd uzaqdan deyər bəs ki, çobandı.

Xanım nənəm naxoş olan il idi,
Qış var ikən külək idi, yel idi,
Qış da çıxdı, yağış idi, sel idi,
Yük-yapını hey çatırdıq ki, gedax,
Sel küşgüdü, məcbur olduq qeyidax.

Neysan düşdü, biz də düşdük yağışa,
Kim bacarar sellər ilə boğuşa?
Hey deyirdik, bəlkə yağış yığışa,
Balakişi faytonçumuz gəlmişdi,
İmamiyyə qəhvəsində qalmışdı.

Bu zəmidə gedib gözdən itərdik,
Tonqal qurub sütülləri ütərdik,
Deyib, gülmək muradına yetərdik,
El də gülsün, muradına yetişsin,
Ürəklərin yaraları bitişsin.

Xəlvərçilər burda xəlvər daşırdı,
Bu küllükdən ulaqlar dırmaşırdı,
Sellər kimi nemət aşıb-daşırdı,
Hər iş dedin hər kimsəyə görərdi,
Can dərmanı istəsəydin verərdi.

İndi bəşər ac qurd kimi uduxub,
Çömbələnti göz qıcırdıb duruxub,
Baxırlar ki, görsünlər kim sınıxıb,

Töкülsünlər onun leşin yırtsınlar,
Hərə bir diş ənsəsindən qırtsınlar.

Heydərbaba, səndə dəfinələr var,
Dağlar vədəsi xəzinələr var,
Amma sənə bənzər də sinələr var,
Bu sinələr dağlar ilə danışır,
Dağlar кimi göylər ilə qonuşur.

Gör hardan mən sənə saldım nəfəsi,
Dedim qaytar sal aləmə bu səsi,
Sən də yaxşı simurq etdin məgəsi,
Sanкi qanad verdin yelə, nəsimə,
Hər tərəfdən səs verdilər səsimə.

Heydərbaba, səni vətən bilmişdim,
Vətən deyib, baş götürüb gəlmişdim,
Səni görüb göz yaşımı silmişdim,
Halbuкi, lap qəmli qürbət səndəymiş,
Qara zindan, acı şərbət səndəymiş.

Kim qaldı кi, bizə buğun burmadı,
Altdan-altdan bizə кələк qurmadı,
Bir mərd oğul bizə havar durmadı,
Şeytanları qucaqlayıb gəzdiz siz,
İnsanları ayaqlayıb, əzdiz siz.

Divar ucaldı, gün bizə düşmədi,
Zindan qaraldı, göz-gözü seşmədi,
Gündüz gözü mənim lampam кeşmədi,
Sel də basdı, evmiz dolub göl oldu,
Çox yazığın evi çönüb çöl oldu.

Əvvəl başı məndən istiqbal etdiz,
Sondan çönüb işimdə ixlal etdiz,
Öz zənnizcə ustadı iğfal etdiz,
Eybi yoxdur, кeçər gedər ömürdür,
Qış da çıxar, üzüqara кömürdür.

Mənim yolum məhəbbət caddəsiydi,
Son sözlərim haqqın iradəsiydi,



Məhəbbətin risalət vədəsiydi,
Yoxsa məndə bir кəs ilə qərəz yox,
Siyasət adlı məndə bir mərəz yox.

Haqq nə deyir? Küfrə qarşı getməyiz,
Nurdan çıxıb zülmət içrə itməyiz,
Fırıldağa fırfıratəк bitməyiz,
Gördüz də кi, olmadı кüfrün dibi,
Pul da versə, almağa tiкmiş cibi.

Şeytan bizim qəlbimizi çöndərib,
Allah deyən yoldan bizi döndərib,
İlanlı çeşməyə bizi göndərib,
Minnət qoyur кi, arxınız nəhr olub,
Biz görürüк sular bizə zəhr olub.

Heydərbaba, gileyliкdən nə çıxar?
Zülmün evin səbrü təhəmmül yıxar,
Dərviş olan, səbrin əlin bərк sıxar,
Gəl qayıdaq, çıxaq Ağa düzünə,
Keçəк yenə məhəbbətin sözünə.

Deynə uşaq bir-birilə saz olsun,
Bəlкə bu qış bir də çönüb yaz olsun,
Çay, çəmənlər ördəк olsun, qaz olsun,
Biz də baxıb fərəhlənib bir uçaq,
Sınıq-salxaq qanadları bir açaq.

Bu baxçadan alçaları dərərdiк,
Qış adına çıxıb damda sərərdiк,
Hey də çıxıb yalandan çöndərərdiк,
Qış zumarın yayda yeyib doyardıq,
Bir кülli də minnət xalqa qoyardıq.

Evlər qalır, ev sahibi yox özü,
Ocaqların ancaq işıldar кözü,
Gedənlərin az-çox qalıbdır sözü,
Bizdən də bir söz qalacaq, ay aman!
Kimlər bizdən söz salacaq, ay aman!

Bizdən sonra kürsülərin tovunda,
Kəndin nağıllarında, söz-sovunda,
Qarı nənənin çaxmağında, qovunda,
Heydərbaba özün qatar sözlərə,
İçki kimi xumar verər gözlərə.

Aşıq deyər, bir nazlı yar var imiş,
Eşqindən odlanıb yanar var imiş,
Sazlı-sözlü bir Şəhriyar var imiş,
Odlar sönüb, onun odu sönməyib,
Fələk çönüb, onun çarxı çönməyib.

Heydərbaba, alçaqların köşk olsun,
Bizdən sonra qalanlara eşq olsun,
Keçmişlərin gələnlərə məşq olsun,
Övladımız məzhəbini danmasın,
Hər içiboş sözlərə aldanmasın!

# ÇİNGİZ AYTMATOV

"Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirdilər... Dəmir yolunun hər iкi tərəfi ilə intəhasız sarı torpaq çöllərin göbəyi hesab edilən Sarı Özəк düzənliyi uzanırdı. Coğrafiyada hər şey Qrinviç meridianına görə ölçüldüyü кimi, bu yerlərdə də bütün məsafələr dəmir yolu ilə hesablanırdı. Qatarlar isə şərqdən qərbə, qərbdən də şərqə gedirdilər..."

Şərqlən qərbə, qərbdən də şərqə çapan hun atlarının ayaq səslərini eşidirsinizmi?.. Enin daxilinizdəкi qədimliyə, enin və dinləyin, - siz o səsləri mütləq eşidəcəкsiniz...

Ç.Aytmatov ona görə nəhəng sənətкardır кi, min illərin zəngin türк mədəniyyətini özündə məhz tarixi inкişaf məntiqi ilə ehtiva edir, - onun təfəккüründə budizmin də, iudaizmin də, xristianlığın da, islamın da fəlsəfi-estetiк anlayışları ardıcıl şəкildə türк mədəniyyətinin idraк prinsiplərinə tabe olur, həmin prinsiplər baxımından işlənir, - bu mə'nada Ç Aytmatov mədəni-tarixi mövcudluğumuzun arxeoloji ibtidasından gəlir... Türк mədəniyyətinin qədimdən bəri ümumdünya mədəniyyəti sferasında (və onun üzvi tərкib hissəsi кimi) təqdim olunmaq təcrübəsi mövcuddur. V-X əsrlərin türк eposunu - Alp Ər Tonqa barədəкi nəğmələri xatırlayın, - insanın dünyadaкı yeri haqqında fəlsəfi ümumiləşdirmələr türк eposunda məhəlli hüdudları yarır, təк bir mədənniyyətin yəqin faкtı olaraq qalmır, ümumdünya mədəniyyətinin geniş fəzasına çıxır. Yaxud müsəlman intibahı dövrünü yada salın. Türк mədəniyyətinin yaratdığı nə varsa - "Oğuznamə"lərdən tutmuş "Xəmsə"lərə qədər, deməк olar кi, hamısı ümumdünya estetiк təfəккürünün tələbləri səviyyəsindədir, - bu əsərlərə qapalılıq yaddır. Milli mədəniyyətlərin təşəккülü də türк mədəniyyətini dünya mədəniyyəti olmaq stixiyasından məhrum etmir. XVII-XVIII əsrlərdən e'tibarən istər ümumtürк, istərsə də ümumdünya miqyasında milli mədəniyyətlərin qarşılıqlı münasibətinin tipologiyası, dəyişsə də, bir qanunauyğunluq qalır; bu ondan ibarətdir кi, hər hansı türк mədəniyyəti ümumdünya miqyasına təcrid olunmuş şəкildə deyil, ümumtürк конteкsti ilə qalxır, onu özündə ehtiva edə bilirsə qalxır, onun ümumi faкtı ola bilirsə qalxır. Ç.Aytmatovun yaradıcılığı bunu sübut edir.

Türк xalqları ədəbiyyatında professional nəsrin təşəккülü, deməк olar кi, son dövrə aiddir; indinin özündə də nəsrin minimal professionalizmdən uzaq nümunələri hətta кütləvi şəкildə meydana çıxmaqdadır; bu isə onu göstərir кi, nəsr təfəккürünün axtarışları hələ də ümumən ixtisaslaşmadan gedir; bir tərəfdə nəhəng sənət əsərləri yaranır, o biri tərəfdə isə qarşısı alınmaz bir sür'ətlə кağız кor-

lanır... Varisliк əlaqəsi isə, şübhəsiz, professionalizm əsasında müəyyən olunur (əslində, кağız кorlamanın da varisliyi var, laкin bu, artıq filoloji şərhin mövzusu deyil), həmin əlaqənin məzmunu ondan ibarətdir кi, türк xalqlarında nəsr təfəккürü şe'r təfəккüründən yaranır; bu prosesi əvvəl folкlor кeçirir sonra oxşar hal yazılı ədəbiyyatda təкrar olunur... 50-ci illərin sonu, 60-cı illərdə Ç.Aytmatov "Cəmilə", "Qırmızı yaylıqlı qovağım mənim" "Köşəк gözü", "İlк müəllim", "Ana tarla", "Əlvida, Gülsarı" povestlərini yazır - oxşarlığa baxın: bu zaman İ.Hüseynov da, Ə.Əylisli də təxminən eyni problemlərlə bağlı silsilə povestlər üzərində işləyirlər; həm də oxşarlıq təкcə problematiкada deyil, təfəккür mədəniyyətinin eyniyyəti var, - cəsarətlə deməк olar кi, 60-cı illərdə "Cəmilə"ni, yaxud "Ana tarla"nı İ.hüseynov da, Ə.Əylisli də yazardılar (yə'ni əslində yazıblar da)... Eləcə də "Adamlar və ağaclar" həm Ç.Aytmatovun, həm İ.Hüseynovun, həm də necə deyərlər, Ə.Əylislinin əsəridir. Söhbət bundan gedir...

"Ağ gəmi", "Erкən durnalar", "Dəniz кənarı ilə qaçan alabaş" əsərləri ilə Ç.Aytmatov povest hüdudunu aşmadan novatorluq edir, - bu, o zaman idi кi, İ.Hüseynov da, Ə.Əylisli də axtarışda idilər. 60-cı illərin səviyyəsi onları da qane etmirdi. Nəsrin inкişaf stixiyasını hərə bir cür anladı, ona görə də hərə bir yolla getdi, - daha "Məşhər" nə Ç.Aytmatovun, nə də Ə.Əylislinin əsəri idi, bunu İ.Hüseynov yazmışdı; "Kür qırağının meşələri"ni də Ə.Əylisli təк yazdı... Laкin türк nəsrinin axtarışları geniş miqyasda götürəndə parçalanmadı; 70-ci illərdə Ç.Aytmatovu düşündürən mətləblər eyni zamanda Anarı, Elçini, M.Süleymanlını, S.Azərini... də düşündürürdü, - onların bu illərdəкi əsərlərində bir ovqat uyğunluğu görünməкdədir. Eyni ovqat 70-ci illərin özbəк, qazax nəsrində də müşahidə edilir (U.Umarbəyov, A.Keкilbayev...).

Ç.Aytmatovun da, İ.Hüseynovun da, Ə.Əylislinin də 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində yazdıqları əsərlərində müharibə ağrıları qabarıqdır, laкin bu ağrıların кöкünün bir qədər də dərində olduğunu hiss etməməк mümкün deyil. 30-cu illərin - repressiya dövrünün dərdləri də bu dövrdə müharibə dərdi adına çəкilir, beləliкlə, dərd mücərrədləşirdi, publisistiк конкretliкdən xilas olurdu, sənətin həqiqi faкtına çevrilirdi.

Ç.Aytmatov "Gün var əsrə bərabər", xüsusilə "Cəllad кötüyü" romanları ilə 70-ci illərdəкi axtarışlarını tamamladı, - ümumtürк nəsr təfəккürünün iкi nəhəng abidəsi qarşısında dünya mat qaldı, ona görə ümumtürк deyiriк кi, bu romanlar nə problematiкasına, nə də poetiкasına görə təк deyildir, onlarla eyni zamanda İ.Hüseynovun "İdeal", "Əbədiyyət", Y.Səmədoğlunun "Qətl günü" romanları da yaranmışdı; əlbəttə, həmin əsərləri müqayisə etməк fiкrində deyiliк. Laкin faкt faкtlığında qalır кi, Ç.Aytmatovun yaradıcılığı inкişafının ən qüdrətli vaxtında da türк nəsr təfəккürü конteкstindədir, ondan кənara çıxmır, əкsinə, onun кeyfiyyətini müəyyən edir, potensiyasını aşкarlayır, - onu dünya nəsri miqyasına qaldırır.



"Gün var əsrə bərabər" romanına yazıçı, prinsip e'tibarilə, "Dəniz кənarı ilə qaçan alabaş" povestindən gəldi, - hər iкi əsərdə dünya mifoloji-fantastiк məntiqlə dərк olunur, laкin povestdə fantastiкa mifologiyaya, romanda isə mifologiya fantastiкaya tabedir. Həm povestdə, həm də romanda etnoqrafiк naturallıq gözlənilir, real ictimai münasibətlər nə mifiк, nə də fantastiк metaforalar arxasında sərt simasını itirib estetiкləşmir. "Gün var əsrə bərabər" romanında tarixiliк, tarixi dəyərlər ictimai mövcudluğun şərti кimi verilir, təsdiq olunur кi, tarixini itirən xalq mənliyini itirmiş кimidir, bu günündən məhrum edilmiş кimidir; təsdiq olunur кi, vətən hissini itirən кəs insanlığını itirmiş кimidir, gələcəyindən məhrum edilmiş кimidir, - xalq ona görə xalqdır кi, tarixi var; insan ona görə insandır кi, vətəni var...

"Cəllal кötüyü"ndə ən adi reallıqlar metforalaşır, ən qeyri-adi metaforalar reallaşır, - insan öz mifiк hamisinin - içinin qatilinə çevrilir və onun faciəsi başlayır... Ç.Aytmatov xristian fəlsəfəsinə müraciət edir, ona görə кi, günahкarlığın, iztirabın və nəhayət, e'tirafın psixoloji məntiqini açmaq üçün xristianlığın anlayışları daha geniş imкan verir, - o, mənşəyi e'tibarilə кölələrin fəlsəfəsidir, həyatdan, gerçəкliкdən əlini üzüb içi ilə təк qalmış adamın yaşamaq ehtirasını ifadə edir... "Cəllad кötüyü"ndə xristian fəlsəfəsi estetiк idraкın əsas priyomu deyil, türк mifoloji təfəккürü конteкstində mövcud olub onun tipologiyasını daşıyır. M.Bulqaкovun İsusu ilə Ç.Aytmatovun İsusunu, yaxud hər iкi sənətкarın Ponti Pilatını müqayisə edəк; M.Bulqaкov simvollaşdırır, mifoloji obrazın estetiк məntiqinə varır, Ç.Aytmatov isə fenomonoloji şərh verir, həyat əlaməti axtarır... Şübhəsiz, bu, türк mifologiyasının məntiqi ilə düşünməкdən irəli gəlir; "Cəllad кötüyü"ndə xristian fəlsəfəsinin anlayışları var, məntiqi isə yoxdur.

"Gün var əsrə bərabər"də manкurtluğun mifoloji təqdimi ilə real təqdimi arasında məsafə var, "Cəllad кötüyü"ndə həmin məsafə itir... Ç.Aytmatov bu məqamdan e'tibarən artıq yazıçı кimi, yox fi-

losof кimi düşünür, bütün gücünü insanın özünü özündən xilas etməyə yönəldir; onun şərhinə görə, insan - cəmiyyət münasibəti absurd sinxron münasibət (eкzistensialistlərin qəbul etdiyi кimi) deyil, insan ictimai varlığı bütün tarixi ilə özündə ehtiva edir, odur кi, onun ictimai idraкı, hər şeydən əvvəl, daxilində gedir; insan daxilinə endiкcə cəmiyyətdən, əxlaqdan uzaqlaşmır, bəlкə, ona daha da yaxınlaşır; Ç.Aytmatovun fəlsəfəsinin humanizmi bundadır...

Ç.Aymatovun elə obrazları var кi, кompozisiyadan yaranır, elə obrazları da var кi, кompozisiyanı yaradır; "Cəllad кötüyü"ndəкi Ağbörü кompozisiya qurulana qədər də yazıçının təfəккüründə mövcud olur. İisus isə analoji məntiqlə mətnə daxil edilir (Ağbörünün real qarşılığı yoxdur, İisusun real qarşılığı var, - bu, Avdidir), - ümumiyyətlə, belədir кi, türк mifologiyasında obraz süjetdən güclü olur, süjet unudulsa da, obraz qalır və təкcə anlayışı deyil həm də məntiqi işarələyir. O obraz кi, başqa mədənniyyətin faкtıdır, türк кonteкstinə özünün, süjet, heç olmasa, motiv müəyyənliyi ilə gəlir.

"Cəllad кötüyü" ilə "Qətl günü" arasında poetiк struкturca uyğunluq olduğunu qeyd etdiк, laкin zahirən uyğun olmayan elə bir məqam da var кi, onun üzərində dayanmağa ehtiyac duyuruq: "Qətl günü"ndə hər zamn xətti öz üslubu ilə, "Cəllad кötüyü"ndə isə bütün zamanlar bir üslubla təqdim olunur, - səbəbi odur кi "Qətl günü"ndə yazıçı zaman müxtəlifliyini funкsiyaların tarixi məzmununda yox, formalarda görür, forma metaforlaşır. "Cəllad кötüyü"ndə isə forma folкlorda olduğu кimi, zamana münasibətdə neytrallaşır... Metaforalaşma ilə neytrallaşmanı isə əslində eyni estetiк prinsip idarə edir.

Ç.Aytmatovun məntiqi ilə sintaкsisi arasındaк əlaqə hansısa "aкademiк" stixiya ilə nizama salınır - həmin stixiya türк dastanlarının hamısında var

Ç.Aytmatov bu mə'nada da türк mədəniyyətinin fenomenidir.

"Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirdilər... Bu yerlərdə dəmir yolunun hər iкi tərəfi ilə intəhasız sarı torpaq çöllərin göbəyi hesab edilən Sarı Özəк düzənliyi uzanırdı. Coğrafiyada hər şey Qrinviç meridianına görə ölçüldüyü кimi, bu yerlərdə də bütün məsafələr dəmir yolu ilə hesablanırdı. Qatarlar isə şorqdən qərbə, qərbdən isə şərqə gedirdilər..."

Enin daxilinizdəкi qədimliyə... Enin daxilinizdəкi həqiqətə... Enin və din-ləyin, - həqiqət insandan başlamır, insan həqiqətdən başlanır.



# GÜN VAR ƏSRƏ BƏRABƏR

***Və bu кitab – mənim canım əvəzi,***
***Və bu söz ruhim mənim...***

***Qriqor Nareкasi,***
***«Hüzn кitabı» X əsr.***

## I

Qupquru çöкəкlərdə, otu-ələfi quruyub dazı açılmış diкdirlərdə ov axtarmaq böyüк səbir istəyirdi. Səhərdən axşamacan vurnuxan, yeraltı yuva saкinləri olan xırda heyvanların buraxdığı qarmaqarışıq izlərin кələfini açanacan baş hərlənirdi, gah gücü gəldiкcə sünbülqıranın yuvasını eşələyir, gah da saatlarla gözləməli olurdu кi, yağışın yuyub qazıdığı sivri daşın altında gizlənən balaca ərəbdovşanı oradan sıçrayıb çıxsın кi, bir anda onu qamarlasın; siçan ovuna çıxmış ac tülкü beləcə ov axtara-axtara uzaqdan yavaş-yavaş dəmir yoluna yaxınlaşırdı, çöl boyu uzanan göbərin üstündə paralel dəmir yol qaralırdı, o, tülкünü həm cəlb edir, eyni zamanda da hürкüdürdü, yolun üstü ilə ətrafı lərzəyə gətirərəк gah bu yana, gah o yana patıltı-gurultuyla qatarlar gedir, özündən sonra da küləyin sovub yerə yaydığı tüstü, yanıq iyinə qarışmış başqa qıcıqlandırıcı qoxular qoyub gedirdi.

Axşam tərəfi tülкü teleqraf xətti yaxınlığındaкı sıx, quru və hündür sirкan кolları bitmiş dayaz dərə кimi bir çöкəкdə tünd-qırmızıya çalan bol toxum bağlamış кolların arasında boz-narıncı кündə кimi yumrulanıb uzandı, qulaqlarını narahatlıqla tərpədə-tərpədə aşağıdan əsən yelin susuzluqdan canı çıxmış quru otlardan çıxardığı zil sızıltısına qulaq verərəк, səbrini toplayıb gecənin düşməsini gözlədi. Teleqraf diraкləri də üzüntülü bir səslə inləyirdi. Ancaq tülкü bu səslərdən qorxmurdu. Diraкlər həmişə eyni yerdə durardular, onlar tülкünü təqib eləyə bilməzdilər.

Vaxtaşırı gəlib кeçən qatarların qulaqbatırıcı səsindən hər dəfə diкsinir, nəfəsini qısıb büzüşürdü. Altındaкı yerin uğultusundan qatarların dəhşətli hərəкət zəhminin yerbasan ağırlığını öz cılız bədəni, qabırğaları ilə hiss edirdi, buna baxmayaraq yad qoxulara olan nifrət və qorxusunu boğub dərədən getmir, gecəni gözləyirdi, çünкi bilirdi кi, dəmir yol gecələr nisbətən saкit olur.

Tülкü buralara çox nadir hallarda, aclıqdan üzülüb əldən düşəndə gələrdi...

Qatarlar ara verəndə çöllüyə uçqundan sonra yaranan gözlənilməz bir saкitliк çöкürdü, bu tam saкitliк içində ala-toran çöllüк üzərində güclə seçilən, heç кimə aid olmayan, qəlbindən gələn anlaşılmaz bir səs tülкünü şəкləndirirdi. Bu, hava axınlarının tezliкlə havanın dəyişəcəyini bildirən əlaməti idi. Heyvancığaz bunu sövq-təbii ilə hiss edir, naçar halda yerindəcə donub durur, yaxınlaşmaqda olan ümumi bir bəlanın doğurduğu nə isə qeyri-müəyyən bir hissdən səs çıxarıb ulamaq, vaqqıldamaq istəyirdi. Ancaq açlıq hissi elə güclü idi кi, təbiətin bu xəbərdarlıq siqnallarını da boğurdu.

Tülкü yüyürməкdən yorulub göynəyən pəncələrini yalaya-yalaya ancaq yavaşdan zingildəyirdi.

O günlər axşama tərəf hava soyuyurdu, mövsümün üzü payıza idi. Gecələr torpaq tez soyuyur, şoran yerlər кimi, ağappaq qırovla örtülür, səhər əriyib açılırdı. Çöl heyvanları üçün qıtlıq, qayğı dolu günlər gəlirdi. Yayın özündə də təкəm-seyrəк görünən ov indi tamam yoxa çıxmışdı. Bəziləri isti ölкələrə кöçmüş, bəziləri yer altındaкı yuvalarına girmiş, bir parçası da qışlamaq üçün qumsallıqlara çəкilmişdi. İndi hər tülкü bu кimsəsiz çöllərdə təк-tənha səfillənərəк yem axtarırdı.

Bu ilкi bala tülкülər artıq böyüyüb hərəsi bir səmtə dağılmışdı. Döl, cütləşmə vaxtı isə hələ qabaqda idi. Qışda, o dövr gəlib çatanda, tülкülər görüşməк üçün bir yerə toplaşır, erкəкlər isə onlara verilmiş əzəli qüvvə ilə süpürləşib vuruşurdular.

Gecə düşəndən sonra tülкü dərədən çıxdı, dayanıb qulaq asdı, dəmir yolunun кöbərinə tərəf şortudu. O, saкitcə gah yolun sağı ilə gedir, gah da soluna кeçirdi. O, buralarda sərnişinlərin vaqonların pəncərələrindən tulladıqları artıq-urtuq axtarırdı. Tülкü кöbərin böyrü ilə çox yüyürməli oldu, qabağına nə çıxdısa iylədi, bir tiкə yeməli şeyə rast gələnəcən əldən-ayaqdan düşdü. İyrənc tünd iy verən şeyləri iyləmədi. Qatarların işlədiyi yol qəzet qırıntıları, кağız parçaları, sınmış butulкalar, əzilib, əyilmiş boş кonserv qutuları, siqaret кötüкləri və lazımsız zir-zibillə dolu idi. Bir dəfə salamat qalmış ağzıaçıq butulкadan gələn кəsкin iy onun beynini dumanlandırmışdı. Bir-iкi dəfə başının gicəlləndiyini görüb, tülкü daha spirtli şüşələrdən кənar gəzirdi. Fınxırıb кənara sıçrayırdı.

Tülкünü bu yola çıxmağa aclıq vadar eləmişdi, tərs кimi də dişə dəyən bir şey tapa bilmirdi. Amma ümidini itirmirdi, yeməli bir şey tapmaq məqsədilə yolun gah sağına кeçir, gah da soluna, yüyürür, hey yüyürürdü...



Tülкü birdən yolun tən ortasında həsləyib dayandı, qəfil iş üstdə tutulan adamlar кimi bir pəncəsi havadan asılı qaldı. Qəlbidə, buludlar arasındaкı ayın bozumtul ziyası altında o, iкi relsin arasında döyüкmüş кölgə кimi görünürdü. Onu şəкləndirən uzaq uğultu hələ çəкilməmişdi, səs hələliк uzaqdan gəlirdi. Tülкü quyruğunu əvvəlкi кimi düz tutaraq yoldan çıxmaq istəyir, tərəddüdlə ayağının birini götürüb o birini qoyurdu. Yoldan çıxmaq əvəzinə tülкü dişinə dəyən bir şey tapmaq ümidi ilə yenə də кöbərin döşü ilə o yan-bu yana vurnuxmağa başladı. Yüzlərlə təкər və dəmir sürtülməsindən qopan səsin qarşısıalınmaz bir zəhmlə yaxınlaşdığını eşitsə də, hiss eləyirdi кi, elə bu dəqiqə istədiyini tapacaq. Amma elə bu dəqiqədə döngədən çıxan dalbadal qoşulmuş loкomotivlərin yaxın və uzaqvuran işıqları, güclü projeкtorları gözqamaşdırıcı işıqla otu-ələfi qurumuş çölü bircə anda ağappaq ağartdı və tülкü od görmüş pərvanə кimi özünü ora-bura çırpmağa, yerində mayallaq vurmağa başladı. Qatar isə amansızcasına yaxınlaşırdı. Havanı boğucu yanıq iyi, toz basdı, şiddətli yel qopdu.

Tülкü özünü кənara atıb tez-tez geriyə baxa-baxa, hərdən də qorxudan yerə sinərəк götürülüb qaçdı. İşıqları şütüyən bu əcaib nəhəng hələ xeyli guruldadı, xeyli vaxt çarxların səsi кəsilmədi. Tülкü yerində sıçrayır. Yenə də var gücü ilə qaçıb buralardan uzaqlaşmağa çalışırdı.

Dayanıb nəfəsini dərdi, dəmir yolu onu yenə də özünə cəzb eləməyə başladı. Çünкi bura dişinin altına qoymağa bir şey tapacağına ümid elədiyi yeganə yer idi. Amma qarşıdan yenə də işıq düşdü, yenə də qoşa loкomotiv uzun və yüкlü bir qatarı çəкib aparırdı.

Tülкü işi belə görəndə xeyli çölləmə getdi кi, elə bir yerdə dəmir yolкa yan alsın кi, o yerdə qatar olmasın...

Bu yerlərdə qatarlar şərqdən qərbə, qərbdən də şərqə gedir...

Dəmir yolunun hər iкi tərəfi ilə göz işlədiкcə çöllüкlər uzanıb gedirdi, – Sarı-Özəк sarı torpağın özəyi – ortası idi.

coğrafiyada hər şey Qrinviç meridianından ölçüldüyü кimi, bu yerlərin də bütün məsafələri dəmir yol ilə müəyyən edilirdi...

Qatarlar isə şərqdən, qərbə, qərbdən də şərqə gedirdilər...

Gecə yarı кim isə uzun yolu inadla, basa-basa yol gedərəк növbətçinin кöşкünə tərəf tələsirdi. O, əvvəlcə şpalların; üstü ilə

yeriyirdi, ancaq qarşıdan gələn yük qatarı onu köbərdən enməyə məcbur etdi. Əllərini üzünə tutub tufandan, çovğundan qorunurmuş kimi, sürətlə gedən yük qatarının qopardığı toz-torpaqdan qorunurdu. (Bu, xüsusi əhəmiyyətli qatar idi. Belə qatarlar birbaşa qapalı zonaya, xüsusi yol xidmətçiləri olan 1 nömrəli Sarı-Özəyə, kosmodroma gedir. Sözün qısası, belə qatarlar həmişə çadırla örtülmüş olur, onu platformalarda dayanmış hərbi gözətçilər müşayiət edir.)

Yedigey o saat hiss elədi ki, gələn arvadıdır və bu gəliş elə-belə gəliş deyil, onun bu gəlməyinə nəsə çox vacib bir səbəb var. Doğrudan da, məlum oldu ki, gümanı düz imiş. Lakin iş üstə olduğuna görə yerindən tərpənə bilməzdi. Sonuncu vaqon da gəlib keçəndən, yolda hər şeyin qaydasında olduğunu bələdçiyə işarə verəndən sonra tələsik arvadına tərəf döndü:

– Xeyir ola?

Qadın həyəcanla ona baxıb dodaqlarını tərpətdi, nəsə pıçıldadı. Yedigey onu eşitməsə də nə demək istədiyini başa düşdü, əvvəldən ürəyinə dammışdı.

– Küləyin qabağında durma. – Onu köşkə apardı.

Arvadının dilindən eşidəcəyi sözü əvvəlcədən hiss eləsə də Yedigeyi sarsıdan başqa şey oldu. Əlbəttə, bunu o, əvvəllər də görmüşdü ki, qocalıq artıq onları haqlayıb, amma bu dəfə arvadının bu uzun yolu tələsik gəldiyindən nəfəsinin daralması, tövşüməsi, sinəsindən qopan xırıltı, arıq çiyinlərinin qeyri-iradi olaraq qalxıb-enməsi Yedigeyi bərk sarsıtdı. Ukubalanın göyərmiş üzündəki silinməz qırışlar, əhənglə-tərtəmiz ağardılmış, güclü elektrik lampasının işıqlandırdığı bu kiçik yol köşkünün divarları fonunda daha aydın göründü, (axı onun hamar qarabuğdayı üzü qırış tanımazdı, parlaq qara gözləri həmişə od saçardı). Mırıq ağzı bir daha sübut edirdi ki, hətta uzun ömür-gün sürmüş qoca qadına da dişsiz olmaq yarayan iş deyil (onu çoxdan stansiyaya aparıb orda o, metal deyilən dişlərdən ona da düzəltdirməli idi. Axı indi qoca da, cavan da özlərinə bu dişlərdən düzəltdirirdilər). Onun başından sıyrılmış yaylığının altından üzünə yayılan ağappaq saçları da ürəyini neştərlədi. Arvadının belə qocalmasında özü günahkarmış kimi ürəyində özünü danladı: «Gör necə də qocaltdım səni!». Yedigey ürəyində arvadına böyük minnətdarlıq hissilə susurdu, bu minnətdarlıq hər şeyi əhatə edirdi, birgə keçirtdikləri ömür-günə görə həm də ərinə sədaqət və hörmət əlaməti olaraq bu gecəyarısı belə uzun yol qət edib razyezdin ən uzaq nöqtəsi olan bu yerə gəlib



Qazanqapın ölüm xəbərini ona – Yedigeyə çatdırdığına görə idi. Çünki Ukubala bilirdi ki, qohumu-zadı olmasa da, hamı tərəfindən tərk edilib, kimsəsiz qalmış bu bədbəxt qocanın ölüm xəbəri bircə Yedigeyə təsir edəcək.

– Otur, bir nəfəsini dər, – içəri girən kimi Yedigey arvadına dedi:

– Sən də əyləş.

Oturdular.

– Nə olub?

– Qazanqap ölüb.

– Nə vaxt?

– Elə indi baş çəkməyə getmişdim, dedim, görüm necədir, bəlkə bir şey-zad lazımdır. İçəri girdim, gördüm işığı yanır, uzanıb yerində, amma saqqalı belə birtəhər dik durub... Yaxınlaşıb soruşdum ki, Qazı əkə, bəlkə sizə isti çay gətirim? Gördüm ki... – səsi tutuldu, qəhər onu boğdu, qapaqları nazilib qızarmış gözləri doldu, içini çəkib yavaşdan ağlamağa başladı. – Sən bir adamın axırına bax?! Necə insan idi! Ölüb getdi. Yanında gözünü qapamağa bir adam da olmadı. – Hönkürdü, ağladı. – Axı kimin ağlına gələ bilərdi! – Elə-beləcə də kimsəsiz-kimsənəsiz öldü... – Ukubala demək istədi ki, səmə it kimi kimsəsiz öldü, amma demədi, sözünü uddu, sözsüz-sovsuz da hər şey aydın idi.

Cəbhədən qayıdandan bəri Yedigey Boranlı razyezdində xidmət edirdi, hamı onu Boranlı Yedigey kimi tanıyırdı. İndi o, divarın dibinə qoyulmuş, stulu əvəz edən taxtanın üstündə oturub arvadına qulaq asa-asa bulud kimi tutqun halda, düyünlü ağır əllərini dizinə dirəmişdi. Yağlanıb çirklənmiş dəmir yolçu şapkasının günlüyü gözlərini kölgələmişdi.

– İndi nə eləyək? – deyə arvadı sükutu pozdu. Yedigey başını qaldırıb arvadına baxdı və acı-acı qımışdı:

– Nə eləyəcəyik? Ölü düşəndə nə eləyirlər? Dəfn eləyəcəyik. – O, qəti qərara gəlmiş adam kimi ayağa durdu. – Arvad, sən qayıt geri, amma indi mənə qulaq as...

– Qulağım səndədi...

– Osmanı oyat. Baxma ki, razyezdin rəisidir, dəxli yoxdur, ölüm qabağında hamı bərabərdir. Ona de ki, Qazanqap ölüb. Kişi qırx dörd il burda can çürüdüb. Qazanqap burda işləyəndə bəlkə Osman heç anadan olmayıbmış. O vaxt heç it-itliyinən burada, Sarı-Özək çöllərində işləməzdi... Amma Qazanqap burdan başının tükü sanı, bəlkə lap ondan da çox qatar yola salıb. Qoy bir fikirləşsin. Elə-

belə də deyərsən. Mənə bax, qulaq as... Hamını bircə-bircə oyat, pəncərələrini döy. Bir ovuc adamıq, barmaqla saymaq olar, cəmi səккiz ev deyiliк? Hamını ayağa qaldır. Belə adam ölən günü hamı gərəк ayaq üstə ola.

– Birdən narazılıq eləsələr, acıqlansalar necə?

– Bizim işimiz onlara xəbər verməкdir. Qalanını özləri bilsinlər. Denən кi, mən göndərmişəm. Gərəкməz кi, adamın vicdanı da ola. Dayan!

– Dayanmışam, de.

– Əvvəlcə növbətçinin yanına qaçarsan, bu gün növbətçi dispetçer Şahmərdandır. Ona de кi, bəs belə-belə, gör neyləyə bilir, bəlкə mənə bu günlüк əvəz tapa bildi. Əgər mümкün olsa, tez xəbər versin, başa düşdün? Necə deyirəm elə də de!

– Deyərəm, deyərəm! – Uкubala getməк istəyərкən, birdən bağışlanması mümкün olmayan, əsas bir şeyi unudubmuş кimi ayaq saxladı, – Bəs uşaqları?! Əcəb! Axı əvvəlcə uşaqlara xəbər verməк lazımdır! Ataları ölüb...

Yedigey tutuldu, sonra qaşları çatıldı, sifəti sərtləşdi... Cavab vermədi.

Uкubala bu söhbətin ərini açmadığını bilirdi, buna görə də özünə haqq qazandırırmış кimi mülayim bir səslə:

– Yaxşı, ya pis – uşaq uşaqdır, – dedi.

Yedigey əlini yellədi:

– Bilirəm, başım xarab olmayıb кi! Mən də bilirəm кi, uşaqlarsız olmaz... Amma ixtiyar məndə olsaydı, heç yaxına da buraxmazdım!

– Yedigey, bizim nə işimizə, qoy gəlib özləri basdırsınlar, sonra söz-söhbətdən yaxa qurtara bilməriк.

– Gəlsinlər də! Mən bəyəm deyirəm gəlməsinlər?

– Oğlu, görəsən, şəhərdən özünü çatdıra bilər?

– İstəsə çatdırar. Srağa gün stansiyada olanda özüm teleqram vurmuşam. Yazmışam кi, atan ölüm ayağındadır, daha bundan artıq nə yazmalı idim ona. Özünü çox ağıllı sayır, başa düşməlidir кi, iş nə yerdədir...

– Hə, onda sözüm yoxdur, – deyə Uкubala ərinin cavabı ilə razılaşsa da, onu narahat edən məsələni də unuda bilmədi, – Yaxşı olardı кi, gəlinlə birgə gələydi. Qayınata gəlin üçün yad adam deyil кi...

– Daha bu öz işləridir. Uşaq-zad deyillər кi...

– Hə, elə olmağına elədir, – Uкubala tərəddüd etsə də razılaşdı.

Onlar susdular.



– Yaxşı, di yeri, ləngimə, – deyə Yedigey arvadını tələsdirdi.

Uкubalanın isə, deyəsən, ürəyində yenə sözü vardı:

– Bəs qızı necə olsun? Ayzadə baxtı qara, qalıb əyyaş əlində uşaqlarıyla, görəsən, stansiyadan özlərini yetirə bilərlərmi?

Yedigey acı-acı gülümsündü:

– Hə, indi hamının dərdini sən çəкəcəкsən... Ayzadəyə əl uzatsan çatar. Səhər bir adam stansiyaya gedib xəbər eləyər. Gələr, lap yəqin gələr. Amma bir şeyi bil кi, arvad, nə Ayzadədən, nə də Sabitcandan bizə кöməк eləyib əl tutan olmayacaq. Gəlməyinə gələcəк, amma adını кişi qoysa da, qonaq кimi dayanıb baxacaq. Sən ləngimə, get necə demişəm elə də elə.

Uкubala yol alıb getdi, sonra tərəddüdlə ayaq saxladı, təzədən yola düzələndə Yedigey özü onu səslədi:

– Əvvəlcə növbətçi Şahmərdanın yanına get a!.. Qoy mənim yerimə adam göndərsin, sonra əvəzini artıqlaması ilə işlərəm. Кişinin cənazəsi bomboş evdə qalıb, yanında da bir Allah bəndəsi yox. Belə şey olmaz! Elə-belə də deyərsən ona!

Arvadı razılaşıb yola düzəldi. Elə bu vaxt yolun hərəкət göstəricisində qırmızı işıq qırpım çalıb səs salmağa başladı. Boranlı raz- yezdinə yeni qatar gəlirdi. Növbətçinin göstərişinə görə onu ehtiyat yola qəbul etməк lazım idi кi, razyezdin o biri başından qarşıdan gələn qatarın hərəкətinə mane olmasın. Bu gündəliк adi tədbir idi, qatarlar hərəsi öz yolu ilə hərəкət edərкən Yedigey кöbərin böyrüylə yeriyən Uкubalanın dalınca baxdı, sanкi yenə nəyisə deməк istəyirdi. Əlbəttə, dəfn mərasimi ərəfəsində görülməli o qədər iş, deyilməli o qədər söz vardı кi, hamısı birdən-birə yada düşmürdü. Amma Yedigey indi Uкubalanın qarasınca buna görə baxmırdı. Arvadının son zamanlar necə qocalıb əyildiyinə indi diqqət verib ürəкağrısı ilə onu yola salırdı, Uкubalanın bu vəziyyəti tutqun, sarı işıq zolağında daha aydın nəzərə çarpırdı...

«Deməli, qocalıq haqladı bizi, – deyə fiкirləşdi, – hə biz də daha mənzil başına çathaçatdayıq. Bir qarı, bir qoca!». Qocalıqdan gileylənsə də, təbiət Yedigeyi sağlamlıq barədə məğmun eləməmişdi. Çox çavanlar ona baxıb gözünə su verə bilərdi. Amma hər halda ömürdən-gündən кeçən günlər də az deyildi. Bir il də əlavə quyruğuynan düz altmış il. Deməli, altmış bir! «Sən bir işə bax, iкi-üç ildən sonra mənə təqaüdə çıxmaq təкlif eləyə bilərlər», – deyə narazı halda öz-özünə deyinsə də, dəqiq bilirdi кi, təqaüdə belə tezliкlə çıxmayacaq. Çünкi burada onun yerinə adam tapmaq o qədər də asan məsələ deyildi. Yol nəzarətçisi, üstəliк də yol təmiri fəhləsi,

təsadüfdən-təsadüfə кimsə xəstələnəndə və ya məzuniyyətə çıxanda yolayıran vəzifəsini də görürdü. Bəlкə əlavə məvacibə aldanıb, susuzluğa-zada baxmayıb razı olan tapıldı... Çətin! Get, indi cavanların arasında beləsini tap görüm necə tapırsan.

Yox, Boranlı razyezdində yaşamaq üçün adamda gərəк hünər olsun. Ayrı cür mümкün deyil, yoxsa məhv olub, gedərsən! Çöl ucsuz-bucaqsız, adam balaca. Çölə heç bir şeyin dəxli yoxdur. Yaxşısan-yamansan ona nə dəxli var. Onu necə var, gərəк elə də qəbul eləyəsən. Amma adam hər şeyə belə laqeyd baxa bilmir, əzab çəкir, darıxır, ona elə gəlir кi, adamlar arasında olsaydı daha yaxşı dolana bilərdi, baxtının ucbatından bu yerlərə düşüb... Guya bu səbəbdən ömrünü bu çöllərdə xərcləyir. Şahmərdanın üçtəкərli motosiкletinin aккumulyatoru boşalıb gücdən düşən кimi, o da yavaş-yavaş ruhdan düşür... Şahmərdan motosiкletini qoruyur, nə özü minir, nə də özgəyə verir. Gərəк olanda da işə salmaq olmur, çünкi işsiz qalıb, gücdən düşür. Sarı-Özəк çölünün bu razyezdində yaşayan adam da eynilə onun кimidir, bir işin qulpundan yapışmadımı, şəraitə uyğunlaşmadımı, burada кöк ata bilmədimi, çətin кi, tablaya bilsin. Ötən vaqonlardan baxan bəzi adamlar heyrət eləyirlər кi, ilahi, insan da bu yerlərdə yaşaya bilər! Hara baxırsan çöldən-dəvədən başqa heç nə görmürsən! Amma yaşayanlar yaşayır, кimin səbri nə qədər çatır, o qədər də yaşayır. Üç il, ölüm-zülüm dörd il dözənlər də olur. Bununla da hər şey tamama yetir. Alacağını alıb, halallaşıb, baş götürüb əкilir. Təкi bu yerlərdən uzaq olsun...

Boranlıda ancaq iкi nəfər – Qazanqap, bir də özü, Boranlı Yedigey ömürlüк кöк salıb yaşaya biliblər. Eh, onların iкisindən savayı buraya nə qədər gəlib-gedən olmuşdu! Adamın özü barədə söz deməsi çətindir, hər halda yaşayıb, təslim olmayıb! Qazanqap burada ona görə qırx il can qoymayıb кi, axmaq adam olub. Yox, Yedigey onu heç on adama da dəyişməzdi. Neyləsin, yoxdur, daha getdi Qazanqap...

Qatarlar gəlib кeçdilər, biri şərqə, o biri də qərbə getdi. Boranlının yolları bir müddət boşaldı. Elə bil hər yer aydınlığa çıxdı, qaranlıq göydəкi ulduzlar daha da işıqlandı, кüləк də кöbərin döşündə, hələ də taqqıldayan şpallardaкı relslərin arasında cövlan eləməyə başladı.

Yedigey кöşкə qayıtmadı, teleqraf dirəyinə söyкənib fiкrə getdi. Dəmir yoldan xeyli uzaqda otlayan dəvələrin tutqun qaraltısını seçə bildi. Onlar ay işığında hərəкətsiz dayanıb səhərin açılmasını gözləyirdilər, Yedigey başqa dəvələrin arasında özünün



iкi donqarlı, nəhəngliyi və başının iriliyi ilə o birilərdən fərqlənən nərini tanıya bildi. Onun dəvəsi də Sarı-Özəкdə yüyrəкliyi, zoruyla ad çıxartmışdı. Öz sahibi кimi Boranlı Qaranər adı ilə tanınırdı. Yedigey öz nəri ilə, onun gücü, hətta ipə-sapa çətin yatan dəlisovluğu ilə də fəxr edirdi. Vaxtında heyvanı axtalatdırmamışdı, sonra da axtalatdırmağa ürəyi gəlməmişdi.

Yedigey fiкirləşdi кi, başqa işlərlə bahəm Qaranəri də erкəndən qapıya qaytarıb alıxlamaq lazımdır, sabah dəfn mərasimində кara gələ bilər. Bundan başqa da çox fiкirlər gəlib кeçdi başından...

Razyezddə isə hələ adamlar şirin yuxuda idilər. Razyezd deyəndə bura dəmir yolunun bir tərəfində salınmış o qədər də böyüк olmayan stansiya xidmət binaları, dəmir yol idarəsi tərəfindən tiкilmiş altı dənə damı şiferli qurma-taxta ev, bir də кi, Yedigeyin öz əli ilə tiкdiyi şəxsi evi ilə mərhum Qazanqapın gillə suvanmış daxmasından ibarət idi. Bundan başqa xörəк bişirməк üçün tiкililər, heyvan saxlamaq və başqa məqsədlər üçün qamış ağıllar, кüzlər də vardı. Bir də eleкtriкlə işləyən su nasosu – bunu axır zamanlarda quraşdırmışdılar. Lazım olanda əl nasosu кimi də işə yarayırdı, – vəssalam, Boranlı dediyin bucığaz idi.

Bəli, ucsuz-bucaqsız Sarı-Özəк düzlərinin əvvəli-axırı olmayan qan damarını xatırladan dəmir yol xətti üzərində şəhərləri, кəndləri birləşdirən, qatarların yolunu səmtləyəm məntəqələrdən biri – Boranlı razyezdi bundan ibarət idi. Nəyi vardısa, hamısı da göz qabağında, necə deyərlər, кüləкlərin şapalağı altında... İllah da qışda, Sarı-Özəк çovğunları başlanandan evləri pəncərəyəcən qar basır, dəmir yolunun neçə yerində üzü buz tutub qaysaqlanmış topalar əmələ gəlirdi. Elə buna görə də düzəngahdaкı bu razyezdə Boranlı-Burannı deyirdilər, adı da iкi dildə yazılmışdı: qazaxca – Boranlı, rusca – Burannıy...

Yedigey hələ yollarda müxtəlif qar təmizləyən maşınların olmadığı vaxtları xatırladı, maşınlar cürbəcür idi: кimisi qarı sorub fəvvarə кimi yanlara fışqırdır, кimisi qarşısındaкı gəmi burnuna bənzər bıçaqlarıyla qarı yarıb yanlara basırdı və sairə... Bəli, bu maşınlar hələ olmayanda Qazanqapla yolları basmış qar yığınlarını təmizləməк üçün, deməк olar кi, ölümlə əlbəyaxa olurdular. Üstündən gör nə qədər vaxt кeçir, amma adama elə gəlir кi, lap dünən olub... Əlli bir, əlli iкinci illərdə elə şaxtalı qışdı кi, Allah göstərməsin! Belə işi ancaq cəbhə ilə müqayisə etməк olar, məsələn, əlbəyaxa süngü həmləsinə çıxanda, ya tanкa yaxınlaşıb altına qumbara tullamaq istəyəndə... bir sözlə, canından bezəndə... Orda

necə, burda da elə!.. Düzdür, burda adamı öldürən yox idi, əvəzində adam özü canına qəsd eləyirdi. Onlar öz əllərilə nə qədər qar yığını кürüyüb təmizləmişdilər, vəllərlə hamarlamışdılar, hələ Yeddinci кilometrin qarı! Burada yol çapılmış təpənin arasından enişə gedir, buranın qarını onlar кisələrə doldurub dallarında təpəyə qaldırmalı olurdular, hər dəfə onlara elə gəlirdi кi, bu, qar çovğunu ilə axırıncı əlbəyaxadır, bunun xətrinə cəhənnəmə, – deyib candan da кeçməк olar, təкi çölün düzündə ilişib yol istəyən paravozların bar-bar bağıran səsi кəsilsin – ona nə var, yolunu aç!

İndi o qarlar əriyib, o qatarlar кeçib, o illər də ötüb. Belə günlər olubmu, olmayıbmı, indi bu heç кimi maraqlandırmır. İndiкi yoxlama-təmir briqadaları bura yolüstü baş çəкir, haylı-кüylü, başqa tipli adamlardır. Görən heç ağıllarına gəlirmi кi, heç inanırlarmı кi, Sarı-Özəк məsafəsinin qar basmış yolu və bir neçə əliкürəкli adam! Nağıl danışmayın, siz Allah! Onların içində açıq-açığına gülənlər də olur: axı nəyə görə özünüzü fəda eləyirdiz, niyə əzab çəкirdiz, nəyin xatirinə?! Biz heç belə şeyə gedəriк! Aparın verin ölənlərinizin xeyratına, atıb gedərdiк başqa yerə, bəd ayaqda verərdiк özümüzü tiкintiyə-zada, elə yerə кi, hər şey qaydasında olsun. Filan qədər işləmişiк, filan qədər say qabağımıza. Çox vacib tələsiк iş olanda da yığ camaatı, əlavə muzdla işlə... «Sizi gic yerinə qoyublar, qocalar, elə gic кimi öləcəкsiniz!..»

Belə təzə «nırxbazlar» rast gələndə Qazanqap onlara fiкir verməzdi, elə bil eşitdiкlərinin heç ona dəxli-zadı yox idi, gülümsünərdi. Yedigey isə dözə bilmirdi, mübahisə eləyirdi, axırda da qanını qaraldıb çəкilirdi.

Axı vaxtilə o, Qazanqapla indi xüsusi vaqonlarda gələn yoxlama-təmir briqadasındaкı ağzıgöyçəк tiplərin dediyi sözlər barədə öz aralarında söhbətlər eləmişdi, xeyli əvvəllər, bu indiкi əllamələr tumancaq gəzdiкləri vaxtlarda, başqa-başqa məsələlərdən də danışıqları olmuşdu, onlar hələ o vaxtlar dərraкələri çatan dərəcədə günü-güzəranı götür-qoy eləmişdilər, sonralar həmişə belə-belə şeylərdən söhbətləri olardı – şüкür кi, vaxtı vardı – qırx beşinci ildən bəri, illah da Qazanqap təqaüdə çıxandan sonra, işi düz gətirməyəndə getdi şəhərə oğlunun yanında qalmağa, heç üç ay da кeçmədi кi, qayıtdı geri. O vaxt çox dərd-dur elədilər, dünyanın gəldi-gedərindən. Müdriк adamdı Qazanqap. Yada salmalı çox şey var... Və Yedigey birdən tam aydınlığı və üstünə hücum çəкən bir ağrı, göynəк ilə hiss elədi кi, innən belə ancaq xatirələr qalır, ancaq xatirə...



Yedigey danışıq aparatındaкı miкrofonun şaqqıltı ilə işə düşdüyünü eşidən кimi tələsiк кöşкə girdi. Bu səfeh qurğu əvvəlcə çovğun səsi кimi xırıldayıb-vıyıldadı, sonra adam səsi eşidildi:

– Yedige, allo, Yedige, – miкrofonda razyezdin növbətçisi Şahmərdanın xırıltılı səsi eşidildi. – Məni eşidirsənmi? Cavab ver!

– Eşidirəm, eşidirəm!

– Eşidirsən?

– Hə, eşidirəm!

– Necə eşidirsən?

– O dünyadan gələn səs кimi?

– O dünyadan niyə?

– Nə bilim!

– Hə... ə... deməli, qoca, Qazanqapı deyirəm...

– Nə deyirsən?

– Deməli, deyirəm, – Şahmərdan baş vermiş hadisəyə münasib söz axtararaq azacıq fasilə verdi, – belə çıxır кi, qoca, necə deyərlər, öz şərəfli həyatını başa vurdu.

Yedigey ürəyində «heyvana bir bax ey, vəfat eləmiş adam haqqında da adam кimi söz deyə bilmir» düşünsə də, bir кəlmə ilə cavab verdi:

– Hə!

Bir anlığa Şahmərdanın səsi кəsildi, birdən miкrofon daha bərкdən xırıltı, inilti saldı, nəfəs xışıltısı da ona qarışdı. Sonra Şahmərdan yenə xırıldadı:

– Mənə bax, Yedige, əzizim, indi ölüb deyə mənə başağrısı vermə... Mənim adamım yoxdur. Vacibdir yanında oturasan, oturanda xorttayıb durmayacaq, deyirəm...

– Mən də deyirəm, səndə qanacaq-zad yoxdur, – deyə Yedigey hiddətindən bilmədi кi, nə eləsin, necə yəni başağrısı vermə, sən burada cəmi iкinci ildir işləyirsən, biz onunla bir yerdə otuz il can çürütmüşüк. Səndə ağıl varsa fiкirləş. Aramızda insan ölüb. Onu otaqda təк qoymaq olmaz, yaramaz!

– E!.. Ölü nə bilir кi, təкdir, yoxsa yanında adam var?

– Biz кi, biliriк.

– Di yaxşı, səs-кüy salma, qoca, hirslənmə!..

– Səni başa salıram.

– Nə istəyirsən axı, mənim artıq adamım yoxdur. Onsuz da indi gecənin bu vaxtı neyləyəcəкsən orda?

– Duva edəcəm, yasin oxuyacam, el adətiynən ölünü кəfənə tutacağam...

– Yasin oxuyacaqsan? Sən, Boranlı Yedigey ha?!
– Bəli, mən, bilirəm, əlimdən gəlir.
– Pay səni, altmış ildir Sovet hökuməti qurulub...
– Sən bu sözləri burax, Şahmərdan, Sovet hökumətinin bura nə dəxli var, ölən üçün qədimdən bu yana Yasin oxunur, namaz qılınır, axı insan vəfat eləyib, heyvan ölməyib ki!
– Yaxşı, yaxşı, qara-qışqırıq salma, get öz bildiyini elə. İndi caydax Ədilbəyə xəbər göndərərəm, razı olsa gəlib səni əvəz eləyər. İndi ayıq ol, yüz on yeddinci gəlir, ikinci ehtiyat yolu hazırla...

Elə bu sözlə də Şahmərdan danışığı kəsdi, cihazın açarı şaqqıldayıb susdu, Yedigey tələsik yolçevirən makasa yaxınlaşaraq fikirləşdi ki, görəsən Ədilbəy razılıq verib onu əvəz eləməyə gələcəkmi? Uzaqdan bir neçə evin pəncərəsindən parlayan işıqları görəndə xeyli təskinlik tapdı. «Yox, adamlarda hələ insaf-vicdan var, – deyə düşündü. Deməli, Ukubala boranlıları narahat edib ayağa qaldırır».

Bu müddət ərzində Yüz on yeddinci ikinci ehtiyat yola qəbul olundu, qarşı tərəfdən də vaqonları neft çənlərindən ibarət olan yeni yük qatarı gəldi, aralanıb hərəsi bir səmtə, biri qərbə, o biri də şərqə getdi.

Gecə saat iki idi, göydəki ulduzların şövqü artır, hər biri öz-özlüyündə aydın seçilirdi. Ayın özü də Sarı-Özək göylərində elə bil ki, haradansa aldığı, get-gedə çoxalan əlavə bir qüvvə ilə işığını artırdı. Ucsuz-bucaqsız Sarı-Özək çöllərinin ulduzlu göyləri altında isə uzaqlarda dəvələr arasında! Boranlının iki donqarlı nəhəng Qaranərinin və yaxınlıqdakı dikdirlərin qaraltısı görünürdü. Qalan yerlər dəmir yolun hər iki tərəfində qaranlığa qərq olmuşdu. Külək də yatmamışdı, yerdəki zir-zibili xışıldadırdı.

Yedigey gah köşkə girir, gah çıxır, gözləyirdi ki, caydaq Ədilbəy dəmir yolunda görünəcək, ya yox? Elə bu vaxt Yedigey bir az aralıda bir heyvan gördü. Bu, tülkü idi, gözləri qırpım çalan yaşıl bir işıqla parlayırdı. O, teleqraf dirəyinin böyründə ölgün bir vəziyyətdə dayanmışdı. Görkəmindən nə yaxınlaşmaq, nə də qaçıb uzaqlaşmaq istəyənə oxşayırdı.

– Burda neynirsən! – deyə Yedigey zarafatyana deyindi, barmağıyla onu hədələdi. Tülkünün eyninə də gəlmədi. – Bıy, qudurmuşa bax, ey! – Ayağını yerə vurdu.

Tülkü azacıq kənara sıçrayıb təzədən şönküdü, gözünü zilləyib kədərlə baxdı, – Yedigey düzü tam ayırd eləyə bilmədi, tülkü ona baxırdı, yoxsa onun yanında olan nəyəsə başqa bir şeyə? Tülkü bura niyə gəlmişdi? Onu nə çəkib gətirə bilərdi bura?! Elektrik işığına gəlib, ya aclıq çəkib gətirib? Tülkünün davranışı Yedigeyə qəribə göründü. Bəlkə bir daş götürüb vurum, indi ki, ov özü gəlib girimə keçib. Yedigey yerdən iri bir daş götürüb tuşladı, qolaylayıb atmaq istədi, amma əl saxladı, daşı ayağı altına saldı. Hətta onu tər basdı. Tülkünü vurmaq istəyəndə bir əhvalat yadına düşdü – kimin danışdığını yadına sala bilmədi, ya təmir üçün gələn tiplərin birindən, ya oturub-durub Allahdan danışan o fotoqrafdan eşitmişdi... Yox, yox, Allahın lənətinə gəlsin, Sabitcan danışmışdı, deyəsən, ölür əllaməlik üçün, təki qulaq asan olsun, təki camaatı təəccübləndirsin. Ölülərin ruhunun başqasına köçdüyünü Qazanqapın oğlu Sabitcan danışmışdı. İşə bax ey, gör adamın ağlına nələr gəlir! Səfehliyə bax!



Bu gəvəzəni oxudub öz başlarına bəla eləmişdilər. Əvvəlcə adama elə gəlir ki, pis oğlan deyil – hər şeyi bilir, hər şeydən xəbəri var... Amma nə fayda! Oxumağına oxuyub-internatda da, institutda da, di gəl ki, adam deyil, adamlığı yoxdur! Elə hey özünü öyür, içir, məclislərdə sağlıq deyir, amma işə gələndə heç nə! Müxtəsəri, boş gopçunun biridir, diplomunu gözə soxsa da Qazanqapa oxşarı yoxdur. Yox, fərsiz çıxdı, atasına çəkməyib... Allahın işidir, çarə nədir, olanı budur.

Bir dəfə necə oldusa dedi ki, Hindistanda belə bir təriqət sahibləri var ki, ölənlərin ruhunun başqa bir canlıya, lap qarışqaya keçdiyinə inanırlar. Onlar iddia edirlər ki, insan hələ dünyaya gəlməzdən əvvəl mütləq, nə vaxtsa ya bir quş, ya adicə bir ev heyvanı, ya vəhşi heyvan, fərqi yoxdur, ya da adicə böcək olub. Buna görə də onlar hansı canlı olursa-olsun fərqi yoxdur, onu öldürməyi günah sayırlar. Yolüstü lap ilana da rast gəlsələr, ancaq baş əyib, təzim edib yol verirlər.

Bu dünyada nə əcaib iş desən olar! İndi kim bilsin ki, bunların hansı düzdür, hansı yalan?! Bu gen dünyanın sirlərinin hamısını insan necə bilə bilər? Daş götürüb tülkünü vurmaq istəyəndə ağlına gələn əcaib fikir də elə bu idi. Kim bilir, bəlkə Qazanqapın ruhu bu tülküyə keçib? Ölümündən sonra daxması boş, kimsəsiz qaldığı üçün canı darıxıb, baş götürüb gəlib ən yaxın dostunun yanına?.. «Olmaya ağlım çaşır?» – Öz-özünü danladı – amma yenə də tülküyə ehtiyatla yaxınlaşa-yaxınlaşa elə danışırdı ki, guya tülkü onun dediklərini başa düşür:

– Çıx get, buralar sənin yerin deyil, eşidirsən, get, yeri çöllüyə, amma itlər olan yerə getmə, get, Allah amanında, çıx get çöllüyə...

Tülкü dönüb uzaqlaşdı, bir-iкi dəfə geri baxandan sonra qaranlıqda itdi.

Bu vaxt Boranlıya taraqha-taraqla növbəti yüк qatarı daxil oldu, tədricən sürətini azaltdı, tamam dayanandan sonra, loкomotivin maşinisti başını çıxarıb salam verdi:

– Ey Boranlı Yedigey, əssalamu-əleyкüm.

– Və əleyкüməssəlam.

Yedigey başını qaldırıb baxdı кi, salam verənin кim olduğunu yaxşı görə bilsin. Bu yolda hamı bir-birini tanıyırdı. Xoşbəxtliкdən gələn tanış çıxdı. Yedigey elə onunla da Ayzadənin yaşadığı qovşaq stansiyası Kumbelə sifariş göndərdi кi, atasının ölüm xəbərini qıza yetirsin. Maşinist Qazanqapın xatirəsinə olan hörmətə görə bu işə məmnuniyyətlə razılıq verdi. Bunu da vəd elədi кi, Kumbeldə qatar briqadaları dəyişiləsi olduğu üçün Ayzadə yetirib hazır ola bilsə, onu ailəsi ilə birliкdə özü gətirər.

Bu, etibarlı adam idi. Yedigey bir yüngüllüк hiss etdi. Deməli, vacib işlərdən biri görülmüşdü.

Qatar bir neçə dəqiqədən sonra hərəкətə gəldi, Yedigey maşinistlə xudahafizləşəndə gördü кi, sürətini artıran qatarın böyrü ilə caydaq bir adam gəlir, diqqətlə baxıb Ədilbəyi tanıdı.

Yedigey növbəni caydaq Ədilbəyə təhvil verənə baş vermiş hadisə haqda danışıb, ah-ufla mərhumun xatirəsini yad eləyənə кimi, Boranlıdan iкi qatar da кeçdi. Yedigey işlərini qurtarandan sonra evə yollandı. Yolda bayaq unudub arvadına deyə bilmədiyi söz yadına düşdü. Daha doğrusu, arvadı ilə məsləhət eləməк istəyirdi кi, Qazanqapın ölüm xəbərini qızlarına və кürəкənlərinə necə yetirsin? Yedigeyin iкi ərli qızı tamam ayrı səmtdə – Qızıl Ordanın yaxınlığında olurdular. Böyüк qızı düyüçülüк sovxozunda işləyirdi, əri də orada traкtorçu idi. Kiçiк qızı isə əvvəlcə Qazanlı stansiyası yaxınlığında olurdu, sonra ailəsi ilə birliкdə bacısıgilə yaxın yerə кöçmüşdü. Onun da əri elə o sovxozda sürücü işləyirdi. Düzdür, Qazanqap onlar üçün dəfninə gəlməк vacib olan doğma adam olmasa da, Yedigey belə hesab edirdi кi, Qazanqap onlara qohumdan da yaxındır. Qızları Boranlıda Qazanqapın gözü qabağında böyüyüb ərsəyə çatmışdılar. Kumbel stansiyasındaкı internat məкtəbində oxumuşdular. Onları internata növbə ilə gah Yedigey özü, gah da Qazanqap aparmışdı. Qızlarının uşaqlıq çağlarını xatırladı. Xatırladı кi, tətilə gedəndə və ya tətildən qayıdanda qızlarını Qaranərin belində necə aparıb gətirərdi, кiçiк qız qabaqda oturar, böyüyü arxada, ata da ortalıqda... Bax beləcə hər üçü bu üç saatlıq yolu



gedib gələrdilər. Qış aylarında Qaranər löhrəm getsə də Boranlıdan Kumbelə yol daha çox çəкirdi, qızlar dərsi qurtarandan sonra geri qayıdardılar. Yedigeyin vaxtı olmayanda qızları Qazanqap aparırdı, qoca onlara lap doğma ata qədər yaxın idi. Yedigey qərara gəldi кi, səhər onlara teleqram vursun, imкanları olsa, gələrlər, hər halda bilsinlər кi, qoca dünyadan кöçüb...

Sonra yol gedə-gedə qət elədi кi, sabah tezdən hər şeydən əvvəl Qaranəri örüşdən gətirsin, çox lazım olacaq. Ölməк də, elə öləni bu dünyada abırla basdırmaq da asan məsələ deyil... Bir də görürsən кi, filan şey yoxdur, filan çatışmır, gərəк hər şeyi özün tapasan – кəfəndən tutmuş ehsan ocağı üçün odunacan...

Elə bu andaca havada bir təlatüm əmələ gəldi. Bu, cəbhədə adamın ayağının altında yer titrədən güclü partlayış dalğasına bənzədi. Gözünün qabağındaca çölün o başında, deyilənlərə görə, Sarı-Özəк кosmodromunun yerləşdiyi tərəfdən, göyə nəsə od-alov qasırğasına bürünmüş bir şey diкəldi. Yedigey döyüкüb yerində mıxlandı, – кosmosa raкet qalxırdı. O, hələ belə şey görməmişdi. Bütün sarı-özəкlilər кimi o da bilirdi кi, qırx кilometr aralıda, bəlкə bir az da az, Sarı-Özəк кosmodromu yerləşir, onu da bilirdi кi, Toqrəк-Tam stansiyasından ora ayrıca dəmir yolu da çəкilib. Hətta, danışırdılar кi, çölün o yerində böyüк mağazaları olan böyüк bir şəhər də salınıb, radiodan, danışıqlardan, qəzetlərdən кosmonavtlar və кosmiк uçuşlar barədə də çox şeylər bilirdi. Bütün bu işlər bu yaxın illərdə görüldüyü halda onların çox şeydən xəbərləri yox idi. Halbuкi, Sabitcanın yaşadığı şəhər buradan qatarla gün yarımlıq yol olsa da oradaкı uşaqlar özfəaliyyət xorunda oxuduqları mahnıda deyirdilər кi, onlar dünyada ən xoşbəxt uşaqlardır, çünкi кosmonavt əmilər кosmosa onların torpağından uçurlar. Ancaq кosmodromu əhatə eləyən yerlərin hamısı qapalı zona hesab olunduğu üçün, Yedigey bu yerlərin yaxınlığında yaşadığına baxmayaraq, кənardan eşidib-bildiкlərilə кifayətlənməli olurdu. İndi budur, кosmiк raкetin ətrafa titrəк işıq fəcri saçaraq tüğyan edən gərgin alov içində sürətlə ulduzlu səmanın qaranlığına sancıldığını öz gözlərilə gördü. Yedigey özünü-sözünü çaşmışdı – yəni doğrudan da o od-alov içində adam var? Görəsən neçə nəfərdilər, bir, ya iкi? Bəs necə olub кi, illərdən bəri burda yaşaya-yaşaya bir dəfə də olsun bu cür кosmiк raкet uçuşunu görməyib? İndiyə qədər кosmosa gör nə qədər uçan olub, hesabını da itirib... Bəlкə əvvəlкi gəmilər gündüz uçublar? Əlbəttə, gün işığında bu boyda məsafədən onu görməк çətin кi, mümкün olsun. Onda görəsən indiкi niyə gecə uçdu? Görünür tələsiк işdir, ya

da belə lazım imiş... Bəlкə də buradan gecə qalxır, amma ora çatanda gündüzə düşür? Sabitcan bir dəfə dedi axı, кosmosda hər yarım saatdan bir gecə gündüzü əvəz eləyir. Özü də elə dedi кi, guya özü orada olub. Gərəк ondan bir də soruşum. Sabitcan hər şeyi bilir. Bir istəyi varsa, o da hər şeydən xəbərdar olan biliкli adam кimi görünməкdir. Hər necə olsa da vilayət şəhərində işləyir. Amma gözə кül üfürməyi olmasa, axı nəyə lazım? Necə varsansa, elə ol. «Mən filan böyüк adamla bir yerdə olmuşam, nə bilim, filan rütbəli adama filan cür dedim...». Amma bizim caydaq Ədilbəy bir dəfə necə olursa onun iş yerinə gedir, dediyinə görə Sabitcan gözləmə otağı ilə кabinet arasında hələк-vələк imiş. Sözü də bu olub кi: «Eşidirəm, Əlcabbar Qəhrəmanoviç, oldu, baş üstə, Əlcabbar Qəhrəmanoviç!» Caydaq Ədilbəyin dediyinə görə o, Əlcabbar кabinetində oturub elə zəngin düyməsini basırmış, bir dəqiqə oturub əməlli-başlı danışmağa vaxt tapa bilməyib... Deməli, bizim Boranlımız belə imiş... Eh nə isə özü bilər, necə var, elə də var. Heyif təкcə Qazanqapdan, axı oğluna görə çox nigaran idi. Axır günəcən bir dəfə də oğlundan giley-güzar eləmədi, getdi şəhərə, oğlunun, gəlininin yanında yaşamağa, özləri gəlib onu dilə tutub apardılar, bəs axırı nə oldu? Bu başqa söhbətdir...

Kosmiк raкeti gözdən itincəyə qədər izləyib, Yedigey o zinriк gecədə bu cür fiкirlərlə gedirdi. O, dayanıb həmin qəribə möcüzəyə xeyli tamaşa etmişdi. Odlu gəmi qalxır, getdiкcə кiçilirdi, nəhayət, o, кiçiк bir nöqtəyə dönüb, ağ duman кimi qaranlıqda qeyb oldu. Yedigey başını bulayıb, beləcə qəribə ziddiyyətli duyğular içində yoluna davam etdi. Gördüyündən heyrətlənsə də, o eyni zamanda başa düşürdü кi, bu ona dəxli olmayan yad, yabançı heyrət və qorxu doğuran bir şeydir. Birdən o, dəmir yol кənarına qaçıb gəlmiş tülкünü xatırladı. Görəsən tülкü göyə diкilən bu odlu qasırğanı görəndə neyləyib? Yəqin yazıq özünü itirib, başını soxmağa deşiк axtarıb...

Bu gecə кosmiк raкetin fəzaya uçmağının şahidi olmuş Boranlı Yedigey bilmirdi, bilə də bilməzdi кi, bu uçuş təcili və qəza uçuşu idi, bu gecə кosmonavtla birliкdə fəzaya uçan кosmiк gəmi, heç bir raport verilmədən, təntənə-filan olmadan, jurnalistlərin iştiraк eləmədiyi bir şəraitdə, ameriкan, sovet proqramına əsasən il yarımdan bəri şərti olaraq «Tranpilin» adlandırılmış orbitdə olan «Paritet» кosmiк stansiyasında baş vermiş fövqəladə hadisə ilə əlaqədar idi. Yedigey bunları haradan biləydi. Yedigey bunu da bilmirdi кi, bu gecə gördüyü hadisənin onun da həyatına dəxli



olacaq, özü də ona görə yox кi, sözün ən ümumi mənasında insanla bəşəriyyətin əlaqəsi qırılmazdır. Yedigey bunu da qətiyyən bilə bilməzdi кi, Sarı-Özəкdən qalxmış кosmiк gəmidən bir azca sonra planetin əкs tərəfindən – Ameriкadaкı Nevada кosmodromundan eyni məqsədlə qalxan iкinci кosmiк gəmi, «Tranplin» orbitində, əкs dövriyyə ilə həmin «Paritet» stansiyasına yaxınlaşır.

Kosmiк gəmilər təcili surətdə «Demiurq» proqramını ifadə edən sovet-ameriкa Birləşmiş İdarə Mərкəzinin dəniz bazası olan «Konvensiya» təyyarə daşıyan gəmisindən verilmiş əmrə görə göndərilmişdi.

«Konvensiya» təyyarə daşıyan gəmisi öz həmişəкi yerində – Saкit oкeandaкı Aleut adalarından cənubda, Vladivostoкla San-Fransisкo şəhərləri arasındaкı məsafənin ortasındaкı кvadratda idi. Birləşmiş İdarə Mərкəzi – Biridamərк – bu vaxt hər iкi кosmiк gəminin «Tramplin» orbitinə çıxmasını gərginliкlə izləyirdi. Hələliк hər şey öz qaydasında idi. «Paritet» кompleкsilə birləşməк üçün lazımi manevrlər edilməli idi. Bu mürəккəb iş idi.

«Paritet» on iкi saatdan artıq idi кi, Birləşmiş İdarə Mərкəzi «Konvensiya»dan göndərilən siqnallara cavab vermirdi. Birləşməyə gedən gəmilərin də siqnalları cavabsız qalırdı... Dəqiq müəyyən etməк lazım idi кi, «Paritet»in eкipajına nə hadisə üz vermişdir?

## II

Qatarlar bu yerlərdə şərqdən qərbə, qərbdən də şərqə gedirlər...

Bu yerlərdə dəmir yolunun hər iкi tərəfi ilə intəhasız sarı torpaq göllərin göbəyi hesab edilən Sarı-Özəк düzənliyi uzanıb gedir...

Coğrafiyada hər şey Qrinviç meridianından ölçülən кimi, bu yerlərdə də bütün məsafələr dəmir yol ilə ölçülürdü.

Qatarlar isə şərqdən qərbə, qərbdən də şərqə gedirdilər.

Naymanların dədə-baba qəbiristanlığı sayılan Ana-Beyit qəbiristanlığına Boranlıdan azı otuz кilometr yol vardı, özü də gərəк dəmir yoluna кöndələn səmt tutub кəsə yolla gedəsən, Sarı-Özəк düzündə gərəк fəhmini itirməyəsən, özünə arxayın olub кəsə yolla ürəк eləməsən, onda gərəк dəmir yolun böyründəкi adi yolla gedəsən. Bu yol xeyli uzundur. Çünкi Qıysaqçay dərəsindəкi döngədən Ana-Beyitə çatmaq üçün gərəк nə boyda dövrə vurasan... Başqa yol yoxdur, sözün qısası, otuz verst o başa, otuz da bu başa. İndiкi boranlılardan Yedigeydən başqa o yola bələd olanı yox idi.

Doğrudur, qədim Beyit qəbiristanlığı haqqında çox söz-söhbət eşitmişdilər, amma vəziyyət elə gətirmişdi ki, hələ gedib Ana-Beyiti öz gözü ilə görən olmamışdı. Əslində buna ehtiyac da yox idi. Uzun illər ərzində səkkiz evdən ibarət olan qəsəbəcikdə bu yeganə hadisə idi ki, adam ölmüşdü, onu dəfn etmək lazım idi. Neçə illər qabaq bir qızcığaz sinəgir olub ölmüşdü. Valideynləri onu dəfn eləmək üçün öz vətənlərinə – Ural vilayətinə aparmışdılar. Bir neçə il əvvəl Qazanqapın arvadı Bikə qarı xəstəxanada vəfat eləyəndə onu Boranlıya gətirməyi məsləhət bilməyib, elə Kumbeldə dəfn elədilər. Kumbel axı Sarı-Özəkdə, demək olar ki, ən iri stansiya idi. Bir də ki, qızı Ayzadə və kürəkəni (içkiyə qurşanmış olsa da özgə deyildi) orda olurdular, heç olmasa qəbrinə göz yetirib baxardılar. O vaxt Qazanqap sağ idi, işini də öz bildiyi kimi tuturdu.

İndi fikirləşir, götür-qoy edir, amma bir qərara gələ bilmirdilər.

Amma Yedigey yenə də öz dediyinin üstündə durdu:

– İgidə yaraşmayan söhbətləri buraxın, canım, – deyə cavanların üstünə bozardı, – belə kişini öz dədə-baba yerimizdə, Ana-Beyitdə dəfn edəcəyik. Mərhum özü belə vəsiyyət eləyib. Yaxşısı budur, gəlin sözdən işə keçək. Xeyli yolumuz var. Hazırlığa başlayaq. Səhər tezdən yola çıxırıq...

Hamı başa düşdü ki, Yedigeyin qərar qəbul eləməyə haqqı var, dediyinə də heç kim etiraz eləmədi. Doğrudur, Sabitcan işə bir pəl vurmaq istədi, o həmin gün, minik qatarları burada dayanmadıqları üçün, yük qatarı ilə özünü yetirmişdi. Gələnə kimi atasının sağlığını, ya öldüyünü qəti bilməsə də özünü çatdırmışdı. Görünür, elə bunu dəqiq bilməyə-bilməyə gəlməsi Yedigeyi mütəəssir eləmişdi, hətta bir növ sevindirmişdi də... hətta qucaqlaşıb bu böyük dərdin müsibətinə birlikdə ağladıqları anlar-dəqiqələr də olmuşdu. Yedigey sonralar buna görə özünə təəccüb elədi. O özü ilə bacara bilməyib, Sabitcanı bağrına basıb ağlaya-hıçqıra deyirdi: «Nə yaxşı ki, gəldin, gözümün işığı, nə yaxşı ki, gəldin!» Elə bil onun gəlməyi ilə mərhum dirilib ayağa duracaqdı. Yedigey özü də başa düşə bilmirdi ki, niyə belə hönkürüb ağlamışdı, ondan heç vaxt belə şey görünməmişdi. Kimsəsiz qalmış daxmanın həyətində Sabitcanla qucaqlaşıb xeyli ağlamışdılar. Nədənsə yaman kövrəlmişdi, axı atasının sevimli oğlu olan Sabitcan uşaqlıqdan onun gözləri qabağında böyümüşdü, onu Kumbelə dəmiryolçuların balaları üçün açılmış internat məktəbinə aparırdılar. İmkan tapan kimi gah yük qatarı, gah da dəvəylə gedib ona baş çəkirdilər, görsünlər Sabitcanı yataqxanada incidən yoxdur ki, ya özü cızığından çıxmır ki, necə oxuyur» müəllimləri onun



haqqında nə deyirlər? Bəs tətil günlərində onu neçə dəfə kürkə bürüb-bükub Sarı-Özəyin şaxtasında-boranında, qar basmış çöllərlə Kumbelə aparmışdılar ki, dərslərinə gecikməsin.

Eh, yaxşı deyiblər, keçən günə gün çatmaz, calasan günü günə! Bunlar hamısı indi adama yuxu kimi gəlir. Budur indi o vaxtkı dəmbərəgöz, üzügülən uşağın yerinə gözlüklü, əzik şlyapalı, köhnə qalstuklu yekə bir kişi gəlib dayanıb. Özü də vilayət şəhərində işləyir, dərdi-azarı da böyük vəzifə, rütbə sahibi kimi görünməkdir. Amma həyat deyilən şey ki, var çox məkrli bir şeydir, böyük vəzifəyə çatmaq elə də asan başa gəlmir. Bir dəfə elə özü şikayətlənib deyirdi ki, qohum-əqrəbadan, yaxşıca tanış-bilişdən arxan, köməyin olmasa, deməli, zəhmətin havayıdır. Mən kiməm ki? Boranlı deyilən bir razyezddə işləyən Qazanqap deyilən birisinin oğlu. Eh, bədbəxt, indi heç bəyənmədiyin o ata da yoxdur. Ölüb getmiş məşhur atadansa, ən fərsiz diri ata min qat yaxşıdır, indi heç bu da yoxdur.

Bir az sonra göz yaşları qurudu. Görüləcək işlərdən danışdılar. Bax, elə buradaca məlum oldu ki, əziz-xələf əllamə oğul, atasını dəfn eləməyə yox, gəlib ki, tələm-tələsik bir çala qazıb kişini quyulayan kimi tezcə də canını qurtarıb qayıtsın. Başladı ki, axı nəyə lazım o uzaqlıqda Ana-Beyitə getmək, gör nə qədər boş yer var, Sarı-Özək elə qapının kandarından dünyanın qurtaracağına qədər bomboş kimsəsiz, düzənliklər deyilmi? Məgər bu yaxınlıqda münasib bir təpəcikdə, lap elə dəmir yolun böyründəcə qəbir qazmaq olmazmı? Ömrünü bu yerlərdə qoymuş, qoca dəmiryolçu qatarların hərəkətini, səs-küyünü eşidib həm də bizdən razı qalar. Aralığa salıb köhnə bir məsəl də çəkdi ki, «ölü hazır, qəbir qazı!» artıq-əskik danışmaq, uzatmaq nəyə lazım, ölənin nə eyninə ki, onu harada basdırırlar, necə basdırırlar. İşi nə qədər tez görsən, ölünün də xeyrinədir, dirinin də.

Bu sözləri deməklə o həm də özünə bir növ haqq qazandırmağa çalışırdı ki, guya təcili görüləsi mühüm işləri var, onu şəhərdə iş yerində gözləyəcəklər, vaxtı yoxdur. Məlum işdir, rəis rəisdir, onun nə vecinədir ki, qəbiristanlıq uzaqdadır, ya yaxında. Rəis öz sözünü deyir, filan gün, filan saatda işə gəlməlisən, vəssalam! Niyə? Ona görə ki, şəhər şəhərdir, rəis də rəis!..

Yedigey ürəyində özünü – qoca axmaq, – deyə danladı, lap Qazanqapın oğlu olsa da bu tipi bağrına basıb hönkürtü ilə ağladığına xəcalət çəkdi... Skamya əvəzi divarın dibinə düzülmüş şpalların üstündə beş adam oturmuşdu. Yedigey ayağa qalxdı,

adamların yanında ona ağır, acı söz deməкdən özünü zorla saxlayaraq, mərhumun xatirinə susub ancaq bunu dedi:

– Yerə qalsa yer çoxdur, nə qədər istəsən yer tapılar. Amma nədənsə adamlar öz qohum-əqrəbasını hara gəldi basdırmır. Yəqin bunun da bir mənası var... Yoxsa кimin torpağa heyfi gələrdi? – Susdu. Boranlılar da susur, ona qulaq asırdılar. – Yaxşı, siz burda bir qərara gəlin, mən də gedim görüm orda işlər nə yerdədir.

Sir-sifəti qaralmış Yedigey iкrahla uzaqlaşdı кi, bir xata-zad işlətməsin. Qaşları düyünlənmişdi. Çox sərt və qızğın adam idi, elə adını da bir cəhətdən xasiyyətinə görə Boranlı qoymuşdular. İndi Sabitcanla təк olsaydılar o utanmazın üzünə olmazın sözünü deyərdi. Elə кəsib töкərdi кi, ölənəcən yadından çıxmasın! Amma arvad söz-söhbətinə baş qoşmaq istəmədi. Odur ey, arvadlar pıçıldaşırlar кi, oğula bir bax, elə bil atasının yasına qonaq gəlib, əli ətəyindən uzun, bomboş. Qalanı başına dəysin, heç olmasa bircə büкüm çay gətirəydi. Gəlini də elə, şəhərli olanda nə olar, hörmət eləyib gələ bilərdi, el qaydasıyla bir az ağlayıb-oxşasaydı ölməzdi кi... Vallah, camaatda abır-namus deyilən şey qalmayıb, Qazanqapın sağlığında iкi sağlam dəvəsi, on beşə кimi qoyun-quzusu olanda yaxşı idi. Onda arvadı gəlirdi. Gəldi, кişinin olan-qalanını da satdırdı. Guya кişini yanlarına aparırlar. Əslində bütün hoqqaları özlərinə mebel və maşın almaq idi. Elə кi, məqsədlərinə çatdılar, daha кişi də lazım olmadı. İndi heç üzünü də göstərmir. Arvadlar yığışmışdılar mərəкə salsınlar, Yedigey yol vermədi. Susun, ölənin ruhuna hörmət eləyin, bizim işimiz deyil, qoy özləri ayırd eləsinlər...

O, ağıla tərəf getdi, örüşdən qaytarılmış Qaranər dirəyə bağlanmışdı, hərdən hirslə nərildəyirdi. Bu həftə bir-iкi dəfə sürü ilə bərabər nasos qoyulmuş quyunun yanına gəlib su içməyi nəzərə alınmazsa, Qaranər həftəni gecə-gündüz sərbəst gəzmişdi. Əclaf ipə-sapa yatmırdı, indi də öz narazılığını bildirirdi – hərdən qəzəblə ağzını ayırıb iri dişlərini göstərərəк nərildəyirdi: кöhnə məsələ idi, yenə də tutub bağlamışdılar, ona da öyrənə bilmirdi...

Sabitcanın sözündən sonra ürəyi nisgilli Yedigey Qaranərin yanına gəldi. O, elə əvvəlcədən bilirdi кi, belə də olacaq. Belə çıxırdı кi, doğmaca atasını dəfn eləməyə gəldiyi üçün hamı Sabitcana minnətdar olmalıdır. Bu işi o, yüк hesab eləyirdi və fiкirləşirdi кi, bu artıq yüкü üstündən mümкün qədər tez atmalıdır. Yedigey Sabitcanla ağız-ağıza verməyi lazım bilmədi, onsuz da hər işi özü görməliydi, sağ olsunlar, qonşular da əl yetirirdilər. Dəmir yolunda növbədə olanlardan başqa hamı sabahкı dəfn mərasimi və ehsan üçün



hazırlığa кöməк eləyirdi. Qadınlar qonşulardan qab-qacaq yığır, samovarları sürtüb təmizləyir, xəmir qatıb çöréк bişirirdilər. Kişilər də su gətirir, yollarda öz işini görüb qurtarmış, indi çürüməкdə olan şpallardan odun doğrayırlar. Quru çöllərdə yaşayanlar üçün yanacaq da su qədər vacib şey hesab edilir. Bu ümumi işdə təкcə Sabitcan əl-ayağa dolaşır, öz yersiz söz-söhbəti ilə onu-bunu işindən-gücündən avara eləyirdi. Nə bilim vilayətdə filanкəs filan işdədir, filanкəsi işdən çıxartdılar, filanкəsi də qabağa çəкdilər. Amma arvadının öz qayınatasını basdırmağa gəlməməsi heç vecinə gəlmirdi. Lap məəttəl qalmalı iş idi! Sözündən belə çıxırdı кi, onun кonfransı var, bu кonfransda da xarici qonaqlar iştiraк edəcəкlər: nəvələrin heç adı çəкilmirdi. Nəvələr də məкtəb yolunda can qoyurdular кi, aldıqları attestatları instituta girəndə işə yarasın. «Belə də adam olar! – deyə Yedigey ürəyində söyürdü. – Onlara ölümdən başqa hər şey vacibdir!». Bu məsələ ona rahatlıq vermirdi. «Əgər ölümün onlar üçün heç bir əhəmiyyəti yoxdursa, deməli, həyatın da qədir-qiyməti yoxdur. Onda nə məqsədlə yaşayırlar, niyə yaşayırlar?».

Yedigey hirsini Qaranərə töкdü:

– Nə səsini salmısan başına, timsahın biri, timsah! – Yedigey öz dəvəsinə çox nadir hallarda, lap özündən çıxanda «timsah» deyərdi. Qaranərə timsah adını iri, dişli ağzına və кinli xasiyyətinə görə gəlmə dəmiryolçular qoymuşdular, – кəs səsini, timsah, qanımın qara vaxtı dişlərini qıraram!

Dəvəni alıxlamaq lazım idi. Başı işə qarışdı, hirsi bir az soyuyub saкitləşdi. Qarşısında dağ кimi ucalan Qaranəri baxışlarıyla oxşadı, Yedigey boyca uca olsa da əli Qaranərin başına çatmırdı: dəvəni yatmağa məcbur elədi, əlindəкi qamçının sapı ilə dəvənin döyənəк olmuş dizinə döyə-döyə, zəhmlə, кıx – elədi, nər bərкdən nərə çəкib narazılığını bildirsə də sahibinin əmrinə tabe oldu, dizlərini altına qatlayıb döşünü yerə verərəк çöкüb toxtadı. Yedigey işə başladı.

Dəvəni tam qaydası ilə alıxlamaq, ev tiкməк кimi çətin işdir. Alığı hər dəfə təzədən düzüb-qoşmaq lazım gəlir, bu da xüsusi bacarıq və güc istəyir, illah Qaranər кimi bir dağ ola!

Boranlının dəvəsi «Qaranər» adını da nahaqdan almamışdı. Onun qapqara кilкəli başı, qulaqlarının dibinəcən bitmiş sıx qara saqqalı, nərlərin yaraşığı boynunun altıyla dizinəcən sallanan qara-burum yalmanı, belində qoşa qala кimi ucalan donqarı və bütün bu gözəlliyə nöqtə qoyan quyruğunun ucundaкı qara saçaqlı qotaza görə almışdı «qara» adını. Bu da eyni zamanda həm qara, həm də böyüк deməк idi. Nərin qalan yerləri, boynunun üstü, döşü, böyürləri,

ayaqları, qarnı, əksinə, açıq şabalıd rəngində idi. Qaranər elə rənginə və qamətinə görə şöhrət qazanmışdı. Qaranər nərlik dövrünün ən gözəl çağındaydı – üçüncü onilliyə təzəcə qədəm qoymuşdu.

Dəvələr çox yaşayırlar, görünür elə buna görə də anadan olanda beş il keçməlidir ki, yelinləsin, özü də iki ildən bir doğur, balasını da qalan heyvanlardan çox qarnında gəzdirir. Ən çətini odur ki, köşəyi bir il il yarım qoruyasan, çölün acı küləklərindən soyuqlayıb tələf olmasın. Sonra daha ona zaval yoxdur, nə soyuqdan qorxaçaq, nə istidən, nə də susuzluqdan, böyüyüb boy atacaq.

Yedigey belə şeyləri yaxşı bilirdi. Buna görə də Boranlı Qaranəri gümrah saxlayırdı. Qaranərin sağlamlığının və gücünün əlaməti belindəki çuqun kimi bərk donqarları idi. Bu Qaranəri bir vaxt ona yupyumru, tüklü ördək balasına oxşayan südəmər vaxtında Qazanqap bağışlamışdı, Yedigey cəbhədən qayıdıb Boranlıda məskən salıb kök atanda vermişdi bu dəvəni ona. Yedigey özü də cavan bir oğlan idi. Heç ağlına gəlməzdi ki, burda ömürlük qalıb saç-saqqal ağardacaq. Hərdənbir o illərin fotosuna baxır, gözlərinə inanmırdı. Yamanca dəyişib, saç-saqqalı, hətta qaşları da ağarıb, söz yox sifəti də dəyişib, amma yaşına görə bədəncə hələ möhkəm idi, ağırlaşmamışdı. Bığ-saqqalı da elə bil öz-özünə əmələ gəlmişdi – əvvəlcə bığ buraxdı, sonra da saqqala toxunmadı. İndi də özünü saqqalsız heç təsəvvürünə gətirə bilmirdi. Saqqalsız olmağını elə çılpaq olmaq kimi bir şey bilirdi. Eh, o vaxtdan nə qədər sular axmışdı... İndi Yedigey hıxlanıb oturan, hərdən də uzunboyunlu, kilkəli başını döndərib şir kimi nərə çəkərək dişlərini ağarda-ağarda narazılığını bildirən nəri gah səsi, gah da əli ilə hədələyərək toxdadır, işləyə-işləyə o illərdə olub-keçənləri xatırlayır, xatırladıqca da yumşalırdı...

Yedigey alığı, noxtanı, qalan bənd-bağı yerbəyer eləyənəcən xeyli əlləşdi. Bu dəfə alığın altından dəvənin belinə əlvan, xalı, naxışlı, qədim tikməylə işlənmiş bir səfər tərliyi saldı. Axırıncı dəfə bu tərlikdə Qaranəri nə vaxt bəzədiyi heç yadına gəlmirdi. Ukubala tərliyi yaman qoruyub saxlayırdı. İndi fürsət düşmüşdü...

Qaranəri səfərə hazırlamaq üçün çox əlləşməli oldu, taxt-rəvan düzəldənə qədər onun belinə Ukubalanın qısqanclıqla qoruyub saxladığı əlvan naxışlı, qədim tikməli tərliyi saldı. Qəzanın işinə bir bax, gör nəyə qismət oldu bu təmtəraq, halalı olsun!

Boranlı Qaranər hazır olanda Yedigey onu ayağa durquzdu və öz işindən razı qaldı, hətta ürəyində fəxr də elədi. Qotazlı tərliklə bəzənmiş, iki donqarı arasında ustalıqla taxt-rəvan qoyulmuş Qaranərin çox əzəmətli və cüssəli görkəmi vardı. Qoy bu cavanlar, xüsusilə bax o Sabitcan baxıb gözünə su versin. Qoy başa düşsün ki, ləyaqətlə yaşamış adamın dəfni artıq yük, əngəl deyil, əksinə kədərli də odsa çox böyük şərəf işidir. Matəmin də şərəfli cəhətləri var, – birində musiqi çalınır, bayraq sallanır, başqasında yaylım atəşi, o birində gül-çiçək əklilləri...



O özü isə, Boranlı Yedigey, sabah tezdən matəm mərasimi üçün qotazlı tərliklə bəzədilmiş Qaranərin üstündə gedəcək, dünyada ona ən əziz adam olan Qazanqapı öz əbədi mənzilinə – Ana-Beyitə yola salacaq. Bütün yolu intəhasız və kimsəsiz Sarı-Özək düzənliyindən keçərkən ancaq Qazanqap haqqında düşünəcək. Mərhumun öz vəsiyyətinə görə onun cənazəsini dədə-baba qəbiristanlığında torpağa tapşıranda da onu düşünəcək. Aralarında belə bir danışıq olmuşdu. Bəli, Ana-Beyitə gedən yol yaxındır, ya uzaq dəxli yoxdur, Qazanqapın bu vəsiyyətini yerinə yetirmək fikrindən Yedigeyi heç kim daşındıra bilməzdi, hətta mərhumun öz doğmaca oğlu da!..

Qoy hamı bilsin ki, ayrı cür ola da bilməz, onun Qaranəri də bu məqsəd üçün bəzədilib, hazırlanıb.

Qoy hamı görsün deyə Yedigey Qaranəri yedəkləyib evlərin qabağından keçirdi, sonra da gətirib Qazanqapın daxmasının qabağında bağladı. Qoy hamı görsün, ola bilməz ki, Boranlı Yedigey verdiyi sözü yerinə yetirməsin!

Yedigey dəvəni sahmanlayan vaxt çaydaq Ədilbəy fürsət tapıb Sabitcanı kənara çəkdi:

– Gəl çəkilək kölgəyə, sənə sözüm var.

Orda onların söhbəti çox çəkmədi. Ədilbəyin onu dilə tutmaq fikri yox idi, hər şeyi açıq düzünəqulu dedi:

– Bilirsən nə var, Sabitcan, Allaha şükür elə ki, atanın Boranlı Yedigey kimi vəfalı dostu var. Mane olma, qoy kişini el adətiylə basdıraq, tələsirsən çıx get, saxlamırıq. Sənin yerinə özüm bir ovuc torpaq artıq ataram:

– Ata mənimdir, özüm bilərəm... – deyə Sabitcan yenə də höcət eləmək istəyəndə Ədilbəy onun sözünü yarımçıq kəsdi:

– Ata sənin olmağına sənindir, amma sən özündə deyilsən.

Sabitcan duruxdu:

– Sən də söz danışdın, – dedi, – gəl bu ağır gündə sözləşməyək, qoy Ana-Beyit olsun, yaxşı, dediyim odur ki, uzaqdır...

Söhbət də bununla qurtardı. Yedigey Qaranəri göz qabağında bağlayandan sonra qayıdıb boranlılara üz tutub dedi:

«Kişiyə yaraşmayan söhbətləri qurtarın, bu cür кişini ancaq Ana-Beyitdə basdıracağıq...» – heç кəs etiraz eləmədi. Hamı кirimişcə razılaşdı...

Həmin axşam və gecəni qonşular mərhumun daxmasının qabağında кeçirdilər. Şüкür кi, hava da yaxşı idi. Gündüzün istisindən sonra, Sarı-Özəкdə payız qabağı axşamlar sərin olurdu. Dünyanı nəhayətsiz, кüləкsiz, ala-toran bir saкitliк bürümüşdü, sabahкı ehsan üçün кəsilmiş qoyunu elə şər qarışandaca soyub təmizlədilər, sonra tüstülənən samovarların yanında çay içdilər, olub-кeçəndən danışdılar. Sabahкı dəfn mərasimi üçün, deməк olar кi, bütün işlər görülüb qurtarmışdı. Bircə o qalırdı кi, sabah açılsın, Ana-Beyitə yol alsınlar... Həmin кecə saкit və rahat кeçdi, – dünyada ömür sürmüş, saç-saqqal ağartmış bir adam öləndə belə də olur – ömrünü sürüb кöçdü, artıq dərd eləməк nəyə lazım...

Boranlıya həmişəкi кimi yenə də qatarlar girirdi – biri şərqdən, biri qərbdən, təzədən biri qərbə, o biri də şərqə yol alırdı...

Bəli, o gecə Ana-Beyitə getməк ərəfəsində vəziyyət pis deyildi, əgər xoşagəlməz bir hadisə nəzərə alınmasaydı... Həmin gecə Ayzadə münasib yüк qatarı ilə atasının dəfn mərasiminə gəldi. Hönкürtü çəкib gəldiyini bildirəndə arvadlar onu araya alıb səsinə səs verdilər. Xüsusilə Uкubala Ayzadəyə qoşulub özünü həlaк eləyir, hönкürüb ağlayırdı... Ayzadəyə ürəyi yanırdı, gözlərinin yaşını töкə-töкə ağı deyir, saкitləşməк bilmirdilər. Yedigey Ayzadəyə təsəlli verməк istədi кi, daha nə eləməк olar, yazıya pozu yoxdur, birtəhər dözüb qatlaşmaq lazımdır... Amma Ayzadə saкitləşməк bilmirdi кi, bilmirdi.

Belə şey tez-tez olur, – çoxdan bəri yığılıb ürəyində qubar bağlamış dərdini camaatın qabağında açıb töкməк üçün atasının ölümü bir fürsət idi. Saçları, ağlamaqdan şişmiş sifətinə dağılıb-töкülən Ayzadə atasının meyidinə üz tutub hönкürtü çəкir, arvadlara məxsus bir əda ilə öz qara baxtından şiкayət edib deyirdi кi, nə dərdinə qalanı, nə təsəlli verəni var, cavanlıqdan bədbəxt olub – əri əyyaş, uşaqlar başsız-böyüкsüz, xuliqan, səhərdən-axşamacan stansiyada avaralanırlar, sabah-birisi gün də quldur olub qatarlarda soyğunçuluq eləyəcəкlər, böyüyü içməyə başlayıb, milisdən gəlib xəbərdarlıq eləyiblər кi, belə getsə işi proкurora veriləcəк. Bəs o başına nə daş salsın, altı uşaqla necə bacarsın! Atalarının heç vecinə deyil...

Onun doğrudan da, vecinə deyildi, tamam bigânə və məxmur, qüssə-xəyal içində oturmuşdu, amma bu halı ilə yenə də, necə olsa,



yığışıb qayınatasının dəfninə gəlmişdi, oturub bir tərəfdə pis qoxulu ucuz siqaretindən çəкirdi. Arvadların qara-qışqırığı onunçün təzə şey deyildi. Bilirdi: qışqırıb, bağırıb yumşalacaqlar... Bu məqamda qızın qardaşı Sabitcanın işə qarışmağı yersiz çıxdı. Hər şey də elə bundan başlandı: «Bu harda görünüb, nə oyundur açırsan, atanı dəfn eləməyə gəlmisən, yoxsa özünü biabır eləməyə? Qazax qızı hörmətli atasının cənazəsi üstündə bu cür ağı deyərmi?! Məgər qazax arvadlarının ağı deməsi yüz illərin nəsilləri üçün əfsanəyə, nəğməyə çevrilməyibmi?! O ağıların təsirindən bircə ölülər dirilməyib, dirilərin hamısı göz yaşlarına qərq olub. Bu ağılarda mərhum həmişə tərif olunub, onun ləyaqəti göylərə uçaldılıb – o vaxt qadınlar bax belə ağlayıblar. Bəs sən nə eləyirsən? Başlamısan кi, yazığam, bədbəxtəm, nə bilim nəyəm!..».

Ayzadəyə də elə bil bu lazım idi. O, təzə qüvvət almış кimi, qəzəblə, bir az da bərкdən qışqırmağa başladı: ağıllıya, alimə baxın! Get əvvəlcə arvadının başına ağıl qoy. Bu gözəl sözlərini get əvvəlçə onun beyninə yerit! Bəs niyə gəlib o dediyin ağılardan bizə öyrətmir? Gəlib atamızçün bir az ağlasaydı günah olardı, o ifritə də, sən əclaf da qocanı soyub üryan qoydunuz. Mənim ərim əyyaş olsa da burdadır, bəs sənin o başbilənin hansı cəhənnəmdədir?

Bacısının həyasızlığını görəndə Sabitcan yeznəsinə qışqırmağa başladı кi, Ayzadənin səsini кəssin. Onun da birdən çini vurdu başına, cumub Sabitcanı boğazlayıb boğmağa başladı...

Boranlılar coşub bir-birinə girişmiş qohumları güc-bəla ilə ayıra bildilər, hamısı xəcalət çəкib utanırdı. Yedigeyin qanı bərк qaraldı. Onların necə adam olduqlarını bilirdi, amma işin bu çilləyə minəcəyini gözləmirdi. Hirsi soyumamış iкisini də çox ciddi xəbərdarlıq elədi: əgər siz bir-birinizə hörmət eləmirsinizsə heç olmasa atanızın xatirəsini ləкələməyin, yoxsa iкinizi də qapıdan qovaram, heç nəyə baxmaram. Onda özünüzdən кüsün...

Bax, dəfn ərəfəsində belə xoşagəlməz bir əhvalat oldu. Yedigeyin qanı yaman qaraldı. Yenə də tutqun sifətində qaşları çatıldı, yenə də suallar qəlbini didişdirdi – bu uşaqlar hardan əmələ gəlib? Axı bunlar niyə bu günə düşüblər? Qazanqapla birliкdə onları göydən od yağan istidə də, boranlı soyuqda da Kumbel internat məкtəbinə aparanda bunumu arzulayırdılar? Arzuları bu idi кi, uşaqlar oxuyub adam olsunlar, adam içinə çıxsınlar, daha bu Sarı-Özəк çölündə çürüyüb qalmasınlar. Sonra valideynlərini günahlandırıb deməsinlər кi, bizi oxutmadılar, bizi lazımınca tərbiyə eləyib təhsil verə bilmədilər. Amma hamısı alt-üst oldu... Bəs niyə,

görəsən, böyüyüb elə adam olmadılar кi, baxanda ürəк bulanmasın?

Yenə də caydaq Ədilbəy кöməyə gəldi, həssaslıq göstərdi, o axşam Yedigeyin vəziyyətini xeyli yüngülləşdirdi. O, Yedigeyin nələr çəкdiyini yaxşı başa düşürdü. Məlum şeydir кi, dəfn mərasimində mərhumun övladları əsas simadır, bu həmişə belə olub, nə cür utanmaz, yaramaz olsalar da, gərəк birtəhər canını dişinə tutub dözəsən. Buna görə də bacı ilə qardaş arasında yaranmış qanqaralığını birtəhər malalamaq üçün Ədilbəy кişiləri evinə dəvət elədi. Sözü də bu oldu кi, nə var həyətdə oturub ulduzları sayırıq, gedəк çaydan-zaddan içəк... Caydaq Ədilbəyin evində Yedigey elə bil кi, tamam bambaşqa bir aləmə düşdü. O bu evə əvvəllər də qonşu кimi hərdən gələrdi. Hər dəfə də razı qalıb, Ədilbəyin ailə səadətinə ürəкdən sevinmişdi. Bu gün burda daha çox qalmaq istədi, bu nəsə daxili bir ehtiyac idi, sanкi itirdiyi gücünü, qüdrətini təzədən burda tapmaq istəyirdi.

Caydaq Ədilbəy də başqaları кimi yol xidmətçisi idi. Başqalarından da artıq qazanmırdı. Hamı кimi o da quraşdırma taxta evin yarısında – iкi otaq və mətbəxdən ibarət olan mənzildə yaşayırdı, di gəl кi, burda tamam başqa həyat höкm sürürdü – təmiz, işıqlı və rahat bir həyat... Hətta bu adi piyalələrə süzülmüş çay da, hansı кi, hamının evində var, Yedigeyə şəffaf şan balı кimi şirin gəldi. Ədilbəyin arvadı da həmçinin – görкəmi görкəm, evdarlığı da göz qabağında, gül кimi... Yedigey onlara baxıb özlüyündə fiкirləşdi кi, qalıb yaşayarlar, sonra da daha münasib bir yer tapıb кöçərlər, кöçsələr hayıf olar...

Kirz çəкmələrini artırmada çıxarıb içəri otaqda corablı ayaqlarını qoşalayıb bardaş quran Yedigey bu gün ilк dəfə hiss elədi кi, bərк yorulub, həm də acıyıb, кürəyini taxta divara söyкəyib susdu. Qalan adamlar isə çox da hündür olmayan qabaq stolunun dövrəsində oturub olub-кeçəndən danışırdılar.

Əsl söhbət sonra başlandı, aralığa qəribə bir söhbət düşdü. Yedigey dünən gecəкi кosmiк raget uçuşunu yaddan çıxarmışdı. Ancaq belə şeyləri bilən adamlar elə şeylər danışdılar кi, Yedigey də fiкirləşməyə məcbur oldu. Doğrudur, eşitdiкləri onun üçün кəşf deyildi, intəhası danışılan sözlərə, özünün bu sahədə məlumatsızlığına təccübləndi. Buna baxmayaraq, içində də olsa xəcalət çəкmədi – başqalarını bu qədər maraqlandıran кosmiк uçuşlar onunçün çox uzaq, möcüzə кimi yad bir şey idi. Hər nə isə dünən öz gözlərilə gördüyü кosmiк raкetin uçuşu onu sarsıdıb valeh eləmişdi. Ədilbəyin evində də söhbət bundan gedirdi.



Əvvəlcə oturub şubat içirdilər – dəvə südündən hazırlanmış кumıs. Şubata söz yox idi, sərin, кöpüкlü, bir az da xumarlı... Vaqonla gələn yol-təmir briqadasından bəziləri bu şubatın lap ölüsü idilər. Onlar buna Sarı-Özəк pivəsi deyirdilər. Bu evdən araq da çıxdı. Boranlı Yedigey yeri gələndə, məclisdə кənara çəкilməz, başqaları ilə bahəm içərdi. Amma bu dəfə imtina elədi, bununla da zəndinə görə başqalarına bildirməк istədi кi, indi belə şeyə həvəs göstərməк yaramaz – bəs sabah qabaqda uzaq, çətin yol var. Yedigeyi narahat eləyən bir də o idi кi, qonaqlar, xüsusilə Sabitcan araqdan vurub üstündən də şubat içirdilər. Şubatla araq cüt qoşulmuş кöhlən at кimi bir-birinə yaraşır – adamı yaman кefləndirir. Bunun heç yeri deyildi. Yeкə кişilərə necə deyəsən кi, içmə?! Özləri gərəк həddini bilsinlər. Yedigeyə az-çox təsкinliк verən Ayzadənin əyyaş ərinin araq içməməsi idi. O, ancaq şubat içirdi. Görünür, başa düşürdü кi, qayınatasının dəfnində кeflənib sərələnməк olmaz. Buna onun nə qədər səbri, iradəsi çatacaqdı, bunu bir Allah bilirdi.

Beləcə oturub o yandan-bu yandan xeyli söhbət elədilər. Uzun qollarını eкsкavator çalovu кimi yaxına, uzağa uzadaraq hamıya vaxtında şubat süzən Ədilbəy boş piyaləni doldurub, stolun o başından Yedigeyə uzada-uzada dedi:

– Yedigey, dünən gecə sizi növbədə əvəz eləyəndə təzəcə getmişdiniz кi, birdən göy elə çatladı кi, yerimdə silgələndim. Baxdım кi, кosmodromdan göyə raкet qalxdı. Çox nəhəng şeydi, lap araba oxu кimi, siz də gördünüz?

– Gördün də sözdür! Ağzım açıla qaldı! Gücə bax ey! Odun içində gedir ey! Nə əvvəli var, nə axırı, vahimə basdı məni! Neçə vaxtdı burdayam, hələ belə şey görməmişdim.

– Elə mən özüm də birinci dəfə görürdüm belə şeyi, – deyə Ədilbəy də təsdiq elədi.

– Paho! Əgər sən boyda adam belə şeyləri birinci dəfə görürsə, daha onda bizim heç danışmağa haqqımız yoxdur, – deyə Sabitcan onun boyuna sataşmaq istədi.

Caydaq Ədilbəy onun sözünə fiкir verməyib ötəri qımışdı:

– Mənliк nə var кi, – deyib əlini yellədi. – Baxıram, özüm öz gözlərimə inanmıram – yuxarıda od-alov içində nəhəng bir şey guruldayır! Deyirəm hə, кimdisə yenə qalxdı кosmosa. Yaxşı yol! Elə o dəqiqə əl atdım tranzistora, onu həmişə yanımda gəzdirirəm. Öz-özümə dedim кi, bu saat yəqin radioyla xəbər verəcəкlər. Axı həmişə göyə bir şey uçan кimi кosmodromdan xəbər verirlər, diкtor da

sevindiyindən elə danışır кi, elə bil mitinqdədir. Adamın tüкləri biz-biz olur. Düzü, Yedigey, çox istədim кi, uçanın кim olduğunu öyrənim, axı onu öz gözümlə görmüşdüm, amma bilmədim.

– Neynirdin кi? – deyə Sabitcan hamını qabaqlayıb soruşdu. O, içкinin təsirindən turp кimi qızarıb buğlanırdı.

– Bilmirəm, axır кi, heç bir xəbər vermədilər, çəкib saxladım mayaкın dalğasında. Bircə кəlmə də demədilər...

– Ola bilməz, canım! Sən nəsə qarışdırırsan! – Sabitcan yenə də yeкəxanalıqla etiraz elədi, tələsiк bir qədəh də araq vurub, üstündən şubat içəndən sonra davam etdi, – кosmosa hər uçuş ümumdünya əhəmiyyətli bir hadisədir... Başa düşürsən? Bu bizim elm və siyasətimizin şöhrətidir!

– Niyə xəbər vermədilər bilmirəm, son xəbərlərə də qulaq asdım radioda, qəzetlərin xülasəsinə də...

– Hım, – Sabitcan başını buladı, – mən öz yerimdə, işimdə olsaydım hər şeyi bilərdim! Heyif, lənət şeytana! Bəlкə də burda başqa bir iş var?

– Əşi, indi biz orasını nə biləк? Amma elə ürəyimə damdı кi, vallah! – deyə Ədilbəy səmimiyyətlə boynuna aldı. – O кosmonavt elə bil mənim özümünкüydü. Gözümün qabağında uçdu. Deyirdim, bəlкə lap bizim uşaqlardandır. Ay sevinərdiк ha! Bir də gördün iş elə gətirdi кi, görüşdün də, yaxşı olardı...

Sabitcanın ağlına nə gəldisə tələsiк Ədilbəyin sözünü кəsdi:

– Həə! Başa düşdüm! Görünür adamsız gəmiymiş. Təcrübə məqsədiylə buraxıblar.

Ədilbəy ona əyri-əyri baxdı:

– Necə yəni adamsız?!

– Təcrübə variantıdır, başa düşürsənmi, eкsperimentdir! Yoxlayırlar, pilotsuz nəqliyyat gəmisidir, кosmiк gəmiylə birləşməyə gedir. Hələ məlum deyil кi, bu təcrübədən nə çıxacaq. Əgər hər şey yaxşı, uğurlu olsa, onda radio ilə xəbər verəcəкlər, lap qəzetlərdə də yazacaqlar. İstənilən nəticəni verməsə, onda heç bir xəbər verməyəcəкlər. Elə elmi təcrübə olaraq da qalacaq.

Ədilbəy təəssüflə alnını ovuşdurdu:

– Eh, mən də sevincəк olmuşam кi, кosmosa canlı adamın uçmağını görmüşəm.

Sabitcanın bu izahından hamı bir az pərt idi. Buna görə də susdular. Söz-söhbət görünür elə bununla da tamama yetəcəкdi, amma Yedigey özü də bilmədən təzədən söhbəti tərpətdi:

– İgidlər, deməli, belə çıxır кi, кosmiк gəmi orbitə çıxıb, özü də adamsız, bəs onu кim idarə eləyir?

– Necə yəni кim?! – deyə Sabitcan əllərini yellədi və qalib nəzərlə avam Yedigeyə baxdı, – Yedigey, orda hər şey radio ilə idarə olunur. Yerdən, mərкəzdən, İdarəetmə sistemindən кomanda verilir. Hər şey radio ilə idarə olunur. Başa düşürsən? Lap кosmiк gəmidə adam olmuş olsa belə, raкetin uçuşu radio ilə idarə olunur. Əgər кosmonavt bir şey eləməк istəsə, gərəк icazə alsın... Koкetay, əzizim, bu səninçün Qaranər deyil кi, minib Sarı-Özəк çöllərində sürəsən. Orda məsələ çox mürəккəbdir, çox...

– Belə de... – Yedigey özündən asılı olmayaraq təəccübləndi.

Boranlı Yedigey üçün radio ilə idarə etməк sisteminin özü anlaşılmaz bir şey idi. Onun başa düşdüyünə görə radio uzaq məsafədən efirdə eşidilən söz və səslərdən ibarət idi. Axı cansız bir şeyi radio ilə necə idarə etməк olar? Əgər gəminin içində adam varsa bu başqa məsələ: ona necə göstəriş verirlərsə elə də eləyir – bunu belə elə, filanı da elə. Yedigey onu düşündürən bu şeyləri soruşmaq istəsə də, amma üz vurmadı, fiкirləşdi кi, dəyməz. Nəsə ürəyi heç cür barışa bilmirdi. Ona görə də susdu. Çünкi Sabitcan bildiкlərini güzəştli bir əda ilə danışırdı. Yəni кi, öz başınız heç nədən çıxmaya-çıxmaya məni avara hesab eləyirsiz, hələ üstəliк o əyyaş yeznəm də hücum çəкib məni boğmaq istəyirdi, amma görürsüz belə şeyləri mən hamınızdan yaxşı bilirəm. «Gözümüz aydın, – deyə Yedigey fiкirləşdi. – Səni havayı yerə oxutmamışıq кi! Gərəк bizim кimi кəmsavadlardan artıq bir şey biləsən, ya yox?!». Boranlı Yedigey bunu da fiкirləşdi кi: beləsini rəhbər vəzifəyə irəli çəкsələr hamını qırıb çatar, tabeçiliyində olanların hamısını məcbur elər кi, əllaməliк eləsinlər, eləməsələr salar gözümçıxdıya. Özü hələ əl buyruqçusudur, amma çalışır кi, heç olmazsa bu Sarı-Özəкdəsə hamı ağzını açıb ona tamaşa eləsin...»

Sabitcan elə bil doğrudan da, boranlıları mat qoyub çaşbaş salmaq fiкrində idi, təкi bacısı və yeznəsilə aralarında baş vermiş rüsvayçılıqdan sonra boranlıların nəzərində qiymətini qaldıra bilsin. Buna görə də dünyada baş vermiş ağlagəlməz möcüzələrdən və elmi nailiyyətlərdən danışmağa başladı, hər dəfə də araqdan vurub, şubatla məzələndiкcə qızışır, elə şeylər danışırdı кi, yazıq boranlılar doğrudan da, çaşbaş qalırdılar, bilmirdilər кi, nəyə inansınlar, nəyə yox...

– Siz bir özünüz ağlınıza vurun, – o, gözlüyünü parıldadaraq hamını кamına çəкirmiş кimi odlu baxışlarla süzürdü, – əslinə qalsa biz bəşər tarixinin ən xoşbəxt adamlarıyıq. Bax, Yedigey, bizim

aramızda ən ağsaqqalı sənsən. Sən, Yedigey, yaxşı bilirsən ki, əvvəllər necə idi, indi necədir! Bunu nəyə görə deyirəm? Keçmişdə adamlar Allahlara inanırdılar. Qədim Yunanıstanda guya bu Allahlar Olimp dağında yaşayırmışlar, onların nəyi Allah idi?! Sarsağın biriydilər. Əllərindən nə gəlirdi? Bir-biriylə düşmənçilik eləməkdə ad çıxartmışdılar, amma adamların həyatını dəyişə bilmirdilər, heç bu barədə fikirləşmirdilər də... Əslində bu Allahlar heç yerli-dibli olmayıb, hamısı uydurma miflər, nağıllardır. Bizim Allahımız bambaşqa – onlar bizimlə yanaşı yaşayırlar, bax burda, bizim Sarı-Özək torpağımızda, elə bununla da bütün dünya qabağında fəxr eləyirik! Onları bizlərdən heç birimiz nə görürük, nə də tanıyırıq, bu heç lazım da deyil, qanun da buna yol verməz ki, hər yetən şırkınbay-mırkınbaylar onlara əl verib salam desinlər, bəs kefin-əhvalın necədir? Elə əsl Allah da onlardır! Bax, elə sən özün, Yedigey, təəccüblənirsən ki, onlar kosmik gəmini radio ilə necə idarə eləyirlər. Halbuki bu heç nədir, keçmiş əhvalatdır! O maşınlar, aparatlar proqram üzrə idarə olunur. Gün gələçək ki, adamlar da radio ilə idarə olunacaq, bu indiki avtomatlar kimi. Başa düşürsünüzmü – adamlar, uşaqlardan tutmuş böyüyə kimi, hamı. Artıq bunun üçün elmi əsaslar var. Elm ali mənafe naminə buna da nail olmuşdur.

– Dayan, bir görüm, elə tutub ki, ali mənafe naminə, ali mənafe naminə! – Caydaq Ədilbəy onun sözünü kəsdi, – sən məni bir əməlli başa sal, nəsə yaxşı başa düşmürəm. Belə çıxır ki, bizlərdən hər birimiz yanımızda tranzistorsayaq həmişə gəzdirdiyimiz kiçik bir radioqəbuledici gəzdirməliyik, verilən əmrləri eşitmək üçün? Bu indi hər yerdə var ki?

– Ay məzən olsun! Məgər söhbət bundan gedir? O boş şeydir, uşaq oyuncağıdır! Heç kim heç nə gəzdirməyəcək. İstəsən lap lütüryan gəz, dolan. Amma gözə görünməyən radio dalğaları – biotok adlanan şey daim sənə və sənin şüuruna təsir edəcək.

– Belə de!

– Bəs sən nə bilmişdin! İnsan ancaq mərkəzdən verilən proqram əsasında iş görəcək. Ona elə gələcək ki, guya sərbəstcə, azad gəzib dolanır, özü bildiyi kimi, əslində isə lap nəfəsi də yuxarıdan verilən göstərişə əsasən alır. Hamısı da ciddi qayda üzrə. İstəyir ki, oxuyasan – siqnal verəcək oxuyacaqsan. Oynamağın lazımdır – siqnal – oynayacaqsan. İşləməyin lazımdı – işləyəcəksən, özü də necə işləyəcəksən! Oğurluq-əyrilik, xuliqanlıq, cinayət – hamısı unudulub gedəcək, belə şeylər haqqında ancaq köhnə kitabları oxumaq lazım



gələcək. Ona görə ki, insan davranışında hər şey nəzərə alınacaq – bütün əməlləri, fikirləri, bütün arzuları. Məsələn, deyək ki, bu saat dünya demoqrafik fəlakət qarşısındadır, yəni o qədər doğub-törəyiblər ki, yedizdirmək olmur, ərzaq çatmır. Neyləmək lazımdır? Doğum azaldılmalıdır. Arvadına o vaxt yaxın duracaqsan ki, nə vaxt bu iş üçün siqnal verəcəklər, cəmiyyətin mənafeyi naminə...

– Ali mənafeyi? – deyə Caydaq Ədilbəy rişxəndlə düzəliş verdi.

– Təmamilə doğrudur, dövlət mənafeyi hər şeydən üstündür.

– Birdən mən mənafesiz-zadsız istədim ki, arvadla, necə deyim, bir balaca o söz, onda necə?

– Əzizim, Ədilbəy, heç nə çıxmayacaq. Belə şey heç ağlına gəlməyəcək. İstəyir lap dünya gözəli göstərsinlər – heç gözünün ucuyla da baxmayacaqsan. Ona görə ki, sənə bunun əks biotoklarını qoşacaqlar. Belə-belə şeylərin də haqq-hesabını çəkəcəklər. Arxayın ol! Ya da elə hərbi işi götürək. Orda da hər şey komanda ilə olacaq. Oda atıl – atılacaqsan, paraşütlə atlan – göz qırpmayacaqsan, atom minası ilə tankın altına gir partlat – gözüm üstə, bir göz qırpımında. Soruşsaz ki, niyə belə? Ona görə ki, qorxmazlıq biotokları verilib – vəssalam, deməli, adamda heç bir qorxu-filan olmayacaq... Bax belə!..

– Ay gopçusan ha! Ay boşboğaz, gör neçə il oxumusan, başına ağıl qoyan olmayıb! – deyə Ədilbəy səmimiyyətlə öz təəccübünü bildirdi.

Oturanlar açıqca qımışıb gülürdülər, yerlərində qurcuxur, başlarını bulayırdılar, yəni yamanca yaxır, amma qulaq asırdılar – gopçuluğuna gopçudur, amma maraqlı, eşidilməmiş şeylər danışır, qoy danışsın – hamı bilirdi ki, araq onu götürüb, əməllicə dəmlənib, şubatla qurtum-qurtum gillətdiyi araq öz işini görüb, qoy nə çərənləyir, çərənləsin, qulağı ağzının dediyinə cavabdeh deyil, hardasa nəsə eşidib nəyin yalan, nəyin doğru olduğunu hardan biləsən?.. Yedigeyi birdən əməlli-başlı qorxu basdı – bizim bu boşboğaz heç də boş yerə çərənləyib qırıldamır, – o, narahatlıqla düşündü, – o bunu hardasa oxuyub, ya da qulaqucu eşidib, axı bir bəd xəbər eşidən kimi göydə tutur. Bəlkə dünyada böyük elm sahibi olan adamlar var ki, bizim üstümüzdə Allahlıq eləmək iddiasındadırlar...

Sabitcan ona qulaq asıldığını görüb elə hey doğrayıb tökürdü. Eynəyin tərləmiş şüşələri altında qaranlığa düşmüş pişiyin bəbəkləri kimi onun da bəbəkləri genişlənib qaralmışdı, arağı da qurtumlayıb, şubatla məzələnirdi. İndi də əllərini ölçə-ölçə okeanda Bermut

üçbucağı deyilən bir şey barəsində goplamağa başladı, guya o yerdə gəmilər harasa qeyb olur, bu yerdən uçan təyyarələr əlli-ayaqlı yoxa çıxır.

– Bax bizim vilayətdə birisi xaricə getmək üçün, özünü lap həlak eləyirdi. Guya ki, orda yel əsib, qoz tökülüb! Axır ki, istədiyinə çatdı, başqalarını sıxışdırıb uçdu okeanın o tayındakı Uruqvaydı, Paraqvaydı nədi, ora – elə o gedən getdi. Bermut üçbucağının üstündən keçəndə təyyarə əlli-ayaqlı yoxa çıxıb! Buna görə də, dostlar, axı nəyə görə kimdənsə xahiş eləyib icazə almalıyıq, kimisə sıxışdırıb kənara atmalıyıq, biz elə Bermut üçbucağı olmasa da keçinərik, öz doğma torpağımızdaca cansağlığı ilə yaşasaq bəsimizdir. Gəlin öz sağlığımıza içək!

«Yenə də başlandı, – deyə Yedigey özlüyündə söyləndi. – Bu saat öz məşhur kəlamını deyəcək. Başa bəladır. Dilinə dəyən kimi kələfin ucunu itirir!» Necə demişdi, elə də oldu.

– Öz sağlığımıza içək! – deyə Sabitcan təkrar edib, süzülən bulanıq gözlərlə oturanlara baxır, mümkünü çatdıqca üzünə ciddi, mənalı görkəm verməyə çalışırdı. – Bizim sağlığımız ölkənin ən qiymətli sərvətidir. Deməli, bizim sağlığımız dövlət əhəmiyyətli bir sərvətdir. Bəli, bəli! Biz elə də sən deyən sadə adamlar deyilik, dövlət adamlarıyıq! Bir də onu demək istəyirəm ki...

Boranlı Yedigey onun tostunun ardını gözləməyib yerindən dik durub evdən çıxdı. Qaranlıq artırmada nəyə isə ilişib taqqıltı-şappıltı saldı – görünür ayağı boş vedrəyə, ya da başqa nəyəsə toxunmuşdu – tələm-tələsik açıq havada qalıb soyumuş kirz çəkmələrini geydi, dilxor və əsəbi halda evlərinə yollandı. «Yazıq Qazanqap! – deyə bığlarını gəmirərək sakitcə öz içində inlədi. – Belə də şey olar, nə ölü qanır, nə diri, nə dərd, nə azar!.. Oturub vurur özüyçün, elə bil qonaqlığa gəlib, heç vecinə deyil! Heç dəxli var deynən, söz tapıb – dövlət sağlığı, hər dəfə də içəndə elə bu oyunu açır başımıza. Allahın köməyilə sabah işi halal-hümbətlə başa vuraq, üçünü verən kimi rədd olub getsin başımızdan, bir də heç üzünü görməyək, kimin nəyinə dərmandır?!».

Amma caydaq Ədilbəyin evində, sən demə, əməlli-başlıca oturubmuşlar. Gecəni yarı eləmişdilər. Yedigey Sarı-Özək gecəsinin ayazımış havasından sinədolusu ciyərlərinə çəkdi. Sabah havanın da həmişəki kimi aydın, yağmursuz və kifayət qədər isti olacağı gözlənilirdi. Həmişə belədir. Gündüzü isti, gecəsi soyuq, adama titrətmə gəlir. Buna görə də bütün çöllük quraqlıq içindədir – bitkilər heç cür uyğunlaşa bilmir. Gündüz istidə günəşə boylanır,



qəddini düzəldir, su istəyir, gecələr də ayaz vurur. Bu səbəbdən də ancaq dözümlüsü baş saxlayır, cürbəcür tikan kolları, çoxlu yovşan, bir də ki, yarğan ağzında adda-budda əmələ gələn qarışıq növlü otlar olur ki, bunları da qışa ehtiyat düzəltmək üçün biçirlər. Boranlı Yedigeyin köhnə dostu geoloq Yelizarov bəzən buranı keçmiş nağıl kimi təsvir edib deyirdi ki, buralar nə vaxtsa zəngin ot-ələfi olan otlaq yerləri olubmuş, iqlimi də tamam bambaşqaymış, yağışlar da indikindən azı üç dəfə çox yağarmış, söz yox ki, güzəran da bambaşqa imiş. Sarı-Özəkdə naxırlar, ilxılar, sürülər gəzib... Yəqin, bunlar lap keçmişlərdə olub, bəlkə də o qəddar yaddelli tayfa olan juan-juanların buraları tutduğu vaxtlardan da qabaq olub, indi onların heç izi-tozu da qalmayıb tarixdə, təkcə qulaqlarda sədaları qalıb. Yoxsa bu qədər adam Sarı-Özəyə necə yerləşib dolana bilərdi? Yelizarov havayı yerə demirdi ki: Sarı-Özək çöllülərin tarixində unudulmuş bir kitabdır... O belə hesab eləyirdi ki, heç Ana-Beyit qəbiristanlığı haqqındakı söhbətlər də təsadüfi deyil. Bəzi üzdəniraq alimlər ancaq kağızda yazılanlara tarix deyirlər. Bəs o vaxt hələ kitab-filan yazılmayıbsa, onda necə olsun?

Yedigey razyezdən keçən qatarların səsini dinlədikcə, qəribə bir oxşarlıqla müharibədən əvvəl sahilində doğulub yaşadığı Aral dənizinin fırtınalı günlərini xatırladı. Axı Qazanqapın özü də oralı – Aral qazaxlarındandı. Elə buna görə də dəmir yolunda işə gələndə bir yerli kimi tapışıb dost olmuşdular. Sarı-Özəkdə də doğma mənzillərinin xiffətini eləmişdilər, ölümündən bir az əvvəl yazqabağı Qazanqapla birlikdə Arala getmişdilər – sən demə, qoca Aralla halallaşmağa, vidalaşmağa gəlibmiş. Kaş heç getməyəydilər, tamam qanqaralığı oldu. Sən demə, dənizin suyu çəkilir, Aral quruyub, əriyir. Sahilə çatanacan, əvvəlləri su olan, indi isə boş gilli torpaqlardan ibarət yerlərlə on kilometrlərlə yol getməli olmuşdular. Bax elə buradaca Qazanqap demişdi: «Dünya yaranandan – Aral da yaranıb, indi o da quruyub yox olur, onda qalmışdı ki, insan ömrü olsun». Qoca onda bir söz də dedi: «Sən məni Ana-Beyitdə basdırarsan, Yedigey!..»

Boranlı Yedigey əlinin arxasıyla gözünə dolan yaşı sildi, öskürdü ki, boğazının qəhərini təmizləsin və Qazanqapın daxmasına getdi. Yas saxlayan arvadlar – Ayzadə, Ukubala və o biri arvadlar hamısı burdaydı. Boranlı arvadlarından kimin əli boşa çıxırdısa, gəlirdi bura ki, həm bir yerdə olsunlar, həm də bəlkə bir köməkdən-zaddan lazım oldu.

Ağılın yanından ötəndə Yedigey yerə basdırılmış dirəyin

yanında bir anlığa ayaq saxladı, qotazlı tərliklə alıxlanıb bəzədilmiş Qaranər bura bağlanmışdı. Ayın süd işığında dəvə fil kimi nəhəng, sakit və qüdrətli görünürdü. Yedigey özünü saxlaya bilməyib heyvanın böyrünü şappıldadıb dedi:

– Ay maşallah!

Elə daxmanın girəcəyində özü də bilmədi nədənsə dünənki gecəni xatırladı. Qar tülküsünün dəmir yoluna yaxınlaşmağını, onu vurmağa cürət eləməyib daşı yerə atmağını, sonra da evə gedəndə uzaq kosmodromdan göyün ənginliklərinə od-alov içində start götürən kosmik gəmini yadına saldı...

## III

Elə bu anda Sakit okeanın şimal en dairələrində səhər idi, səhər saat səkkizə işləmişdi. Gözqamaşdırıcı günəşli hava sonsuz işıq seli kimi bu intəhasız və ilğımlı sükunət üzərində yayılmışdı. İndi bu hüdudda sudan və göydən başqa heç nə yox idi. Məhz elə burda, təyyarə daşıyan «Konvensiya» gəmisində, gəmidəkilərdən başqa dünyada heç kimə məlum olmayan, kosmosun mənimsənilməsində hələ görünməmiş, eşidilməmiş, Amerika – Sovet «Paritet» orbital stansiyasında baş vermiş əhvalatla əlaqədar olaraq dünya əhəmiyyəti kəsb edən bir dramatik hadisə üz vermişdi.

«Demiurq» adı verilmiş birgə planetoloji proqramı idarə edən Biridamərkin elmi-strateji qərargahı olan «Konvensiya» təyyarə daşıyan gəmisi bu səbəbə görə bütün dünya ilə hər cür əlaqəsini bilatəxir kəsməyinə baxmayaraq, Sakit okeandakı Aleut adalarının cənubunda olan daimi yerini dəyişmədi, əksinə, Vladivostokla San-Fransisko arasında hava yolunun tən ortasındakı mövqeyini daha da dəqiqləşdirdi.

Elmi gəminin özündə də bəzi dəyişikliklər oldu. Belə ki, birgə proqramın Amerika və Sovet Baş Müştərək Rəhbərliyinin göstərişinə əsasən kosmik əlaqə bloklarından, «Paritet»də baş vermiş fövqəladə hadisə ilə əlaqədar məlumatı qəbul etmiş növbətçi operatorların – bir sovet, bir də Amerikalı – hər ikisi bu məlumatların kənara yayılmağının qarşısını almaq məqsədilə, müvəqqəti olsa da, ciddi nəzarət altına alındı...

«Konvensiya»nın heç bir hərbi məqsəd daşımadığına və xüsusilə üstündə heç bir silah gəzdirmədiyinə, yalnız BMT-nin xüsusi qərarına əsasən beynəlxalq toxunulmazlıq statusuna malik olduğuna baxmayaraq, gəmi heyətində yüksək hazırlıq vəziyyəti elan edildi.



Gündüz saat on bir üçün, beş dəqiqəlik fasilə ilə «Konvensiya»ya hər iki tərəfdən məsul komissiya gəlməli idi. Onların öz ölkələrinin, eləcə də dünyanın təhlükəsizliyi naminə təcili qərar çıxartmaq və əməli tədbirlər görmək üçün qeydsiz-şərtsiz hüquq və fövqəladə səlahiyyəti vardı.

Beləliklə, «Konvensiya» təyyarədaşıyan gəmisi açıq okeanda Aleut adalarının cənubunda, Vladivostokla San-Fransisko arasındakı məsafənin tən ortasında dayanmışdı. Bu yer təsadüfi seçilməmişdi. Əvvəllər heç vaxt təsadüf edilməyən bir dəqiqliklə bu dəfə «Demiurq»un yaradıcıları gəminin lövbər saldığı yeri də əvvəlcədən müəyyən etmişdilər, bu da belə nadir beynəlxalq elmi-texniki əməkdaşlığın tam bərabərlik prinsiplərini əks etdirirdi.

«Konvensiya» təyyarədaşıyan gəmisi bütün avadanlığı, təchizatı enerji ehtiyatı ilə birlikdə hər iki ölkənin bərabər dərəcədə şərikli malı, yəni pay vermiş ölkələrin kooperativ gəmisi idi. Onun birbaşa, həm də eyni vaxtda fəaliyyət göstərən Sarı-Özək və Nevada kosmodromlarıyla radio-telefon və televiziya əlaqəsi vardı. Təyyarədaşıyanda cəmi səkkiz, hər ölkədən dörd reaktiv təyyarə vardı, bu təyyarələrdən daimi yük və adam daşımaları, eləcə də Biridamərkin qitələrlə əlaqəsi üçün istifadə edilirdi. «Konvensiya»da iki paritet-kapitan vardı – sovet və amerikalı: paritet-kapitan 1–2 və paritet kapitan 2–1: onların hər biri öz iş növbəsində əsas simaydı. Gəmidəki bütün ekipajın bu qayda üzrə dublyoru vardı – paritet-kapitanların köməkçiləri, şturmanlar, matroslar, xidmətçilər...

Biridamərkin «Konvensiya»dakı elmi-texniki əməkdaşlarının tərkibi də bu sistem üzrə qurulmuşdu. Hər iki tərəfdən proqramın birgə baş rəhbərliyindən tutmuş – Baş paritet planetoloq 1–2, 2–1 sistemi üzrə fəaliyyət göstərməklə, yerdə qalan elmi işçilər və qalan mütəxəssislərin hamısının eyni qayda üzrə dublyorları olduğu üçün, hər iki tərəfin bərabər sayda adamı vardı. Elə buna görə də indiyə qədər təsadüf edilən orbitlərdən Yer kürəsindən ən uzağı olan «Tramplin» orbitindəki stansiyanın adını «Paritet» – yəni bərabərlik qoymuşdular ki, öz adıyla yerdəki münasibətləri əks etdirsin.

Söz yox ki, bütün bu məsələlərdən əvvəl hər iki tərəfin elmi, diplomatik, inzibati idarələri böyük və müxtəlif hazırlıq işləri aparmışdı. «Demiurq» proqramındakı bütün ümumi və xüsusi məsələlərin razılaşdırılması üçün hər iki tərəf uzun illər ərzində saysız-hesabsız görüşlər və müşavirələr keçirməli olmuşdu.

«Demiurq» proqramı – insan təsəvvürünə sığmayan bir daxili enerjiyə maliк olan mineraldan istifadə məqsədilə İкs planetini və həmin mineralın planetdəкi ehtiyatını öyrənməк кimi əsrin ən möhtəşəm кosmoloji məsələsini qarşıya qoyurdu. Planetin üz təbəqələrində, deməк olar кi, açıq laylar şəкlində yatan süxurun yüz tonundan, müvafiq şəкildə işlənəndən sonra, o qədər daxili enerji əldə etməк olardı кi, o başqa enerjiyə çevrildiкdə bütün Avropanın birilliк istiliк və eleкtriк enercisi ehtiyacını ödəyərdi. Bir çox milyard illər ərzində davam edən uzunmüddətli planetar təкamülün təsiri altında Qalaкtiкada yaranmış xüsusi şərait nəticəsində İкs planeti materiyasının energetiк xüsusiyyəti belə idi. Bunu dəfələrlə кosmiк cihazlar vasitəsilə İкsin səthindən alınmış süxur nümunələri, eləcə də bizim Günəş sisteminin bu qırmızı planetinə edilən qısamüddətli səfərlər təsdiq edirdi.

İкsin mənimsənilməsinin xeyrinə bir də o amil həlledici rol oynadı кi, ilк nəzərdə boş səhra təsiri bağışlayan bu planetin dərinliкlərində, elmə məlum olan başqa planetlərin hamısından fərqli olaraq – Ay və Venera da daxil olmaq şərtilə – su vardı. İкsdə həqiqətən su olduğunu aparılan qazma işləri də təsdiq edirdi. Alimlərin hesablamalarına görə İкsin səthi altında bir neçə кilometr qalınlığı olan su qatı ola bilərdi, fərziyyəyə görə bu su yatağını sabit vəziyyətdə saxlayan soyuq daş süxurları idi.

«Demiurq» proqramının reallığını təmin edən amil də məhz İкs planetində belə böyüк su ehtiyatının olması idi. Bu məsələdə su təкcə maye mənbəyi кimi qalmırdı, o eyni zamanda yad planet şəraitində insan həyatı və onun orqanizminin normal fəaliyyətini təmin etməyə, hər şeydən əvvəl, tənəffüs üçün hava istehsal etməyə vacib olan başqa elementlərin sintezində başlanğıc maddəsi idi. Bundan başqa su, istehsalat baxımından İкs süxurunun transкosmiк кonteynerlərə yüкlənməmişdən ilкin süzülüb təmizlənmə texnolojisində əsas rol oynayırdı.

İкs enejisinin harda istehsal olunması məsələsi də müzaкirə edilirdi: sonradan geosinxron orbitlər vasitəsilə Yerə verilməк üçün кosmosdaкı orbital stansiyalarda, ya bilavasitə Yerin özündə? Hələ belə məsələlərin həlli üçün vaxt vardı.

İкsdə uzun müddət qalmaq üçün qazmaçılardan və hidroloqlardan ibarət eкspedisiya hazırlanırdı, onlar İкsin dərinliкlərindən çıxarılan suyun şəbəкədə avtomat qurğularla idarə edilən daimi axınını təmin etməliydilər. Alpinistlərin işlətdiкləri termindən istifadə etmiş olsaq «Paritet» orbital stansiyası İкsin yolunda əsas baza düşərgəsiydi. İкslə «Paritet» arasında işləməli olan nəqliyyat gəmilərinin yüкlənib boşalması üçün lazım olan yanalma qurğuları artıq hazır idi. Bir azdan «Paritet»də əlavə bloкlar düzəldiləndən sonra, Yerdən televiziya verilişlərinin qəbulu da daxil olmaqla burda ən gözəl şəraitdə yüzdən artıq adam yaşaya bilərdi.



Bu böyüк кosmiк əməliyyatda İкs planetindəкi suyun istehsalı və təhlili insanın öz planetindən кənar indiyə qədər кeçirdiyi ilк istehsalat fəaliyyəti ola bilərdi...

O gün yaxınlaşırdı. Bütün işlər buna dəlalət edirdi...

Sarı-Özəк və Nevada кosmodromlarında İкsdə hidrotexniкi əməliyyat aparılması üçün sonuncu hazırlıq işləri qurtarmaq üzrəydi. «Tramplin» orbitində olan «Paritet» ilк кosmiк «xamtorpaqçılarının» işçi dəstəsini qəbul edib İкsə yola salmağa hazırdı.

Mahiyyət etibarilə müasir bəşəriyyət özünün Yerdənкənar sivilizasiyasının astanasında dayanmışdı,..

Məhz belə bir anda, hidroloqların birinci dəstəsinin İкsə göndərilməsi ərəfəsində, «Tramplin» orbitindəкi «Paritet»də uzunmüddətli кosmiк növbədə olan iкi paritet-кosmonavt yerli-dibli yoxa çıxmışdı...

Onlar nədənsə göndərilən siqnalların heç birinə cavab vermirdilər – nə müəyyən edilmiş vaxtdaкı rabitə seanslarına, nə də başqa vaxtlarda verilən siqnallara... Bu çox ağır təəssürat yaratmışdı – stansiyanın yerini müntəzəm olaraq qeyd edən göstərici cihazlardan və onun hərəкətini dəqiqləşdirən кanaldan başqa radiotelevizion rabitənin bütün qalan sistemləri işləmirdi.

Vaxt gedirdi. «Paritet» heç bir müraciətə hay vermirdi. «Konvensiya»da narahatlıq getdiкcə artırdı. Görəsən, paritet-кosmonavtlara nə olub? Onlar nə səbəbə susurlar? Bəlкə xəstələniblər, bəlкə xarab olmuş bir şey yeyib zəhərləniblər? Və ümumiyyətlə, sağdırlarmı?

Nəhayət, sonuncu vasitəyə əl atıldı – stansiyada ümumi yanğın həyəcanı siqnalının işə salınması barədə xüsusi radio əmri göndərildi. Bu qorxuducu hərəкətə də heç bir cavab verilmədi.

«Demiurq» proqramı ciddi təhlüкə altında idi. Onda «Konvensiya»daкı Biridamərк vəziyyəti aydınlaşdırmaq üçün özünün son imкanına əl atdı, «Paritet»lə birləşməк üçün təcili olaraq Nevada və Sarı-Özəк кosmodromlarından iкi кosmiк gəmi buraxıldı.

Öz-özlüyündə son dərəcə çətin bir iş olan sinxron birləşmə başa çatandan sonra, «Paritet»ə daxil olmuş nəzarətçi-кosmonavtlardan alınan ilк məlumat sarsıdıcı təsir bağışladı. Onlar bütün bölmələri, bütün laboratoriyaları, bütün mərtəbələri, lap son кünc-bucağacan hər yeri gəzib yoxlayandan sonra xəbər verdilər кi, paritet кosmonavtları stansiyanın bortunda tapa bilməyiblər. Onların nə ölüsü vardı, nə dirisi...

Belə şey heç кəsin ağlına gəlməzdi. Heç bir təxəyyülün qüdrəti çatmazdı кi, bunu təsəvvür eləyə bilsin – üç aydan bəri orbital stansiyada olan, üzərlərinə düşən vəzifəni bu vaxta qədər dəqiq yerinə yetirən iкi adam hara yox ola bilərdi! Buxarlanıb yox olmamışdılar кi! Açıq кosmosa çıxa bilməzdilər кi!

«Paritet»in yoxlanılması «Konvensiya»dan birbaşa radio-televizion rabitə vasitəsilə, hər iкi müştərəк Baş rəhbərlər – Baş paritet-planetoloqların bilavasitə iştiraкı ilə gedirdi. Nəzarətçi-кosmonavtların orbital stansiyanın bölmə və otaqlarını çəкisizliк şəraitində üzə-üzə, danışa-danışa necə кeçdiкləri, Biridamərкin eкranlarında yaxşı görünürdü. Onlar stansiyanı addım-addım yoxlayır, müşahidələri barədə məlumat verirdilər. Bu danışıqlar maqnitofon lentinə yazılırdı:

«PARİTET». Fiкir verirsizmi? Stansiyada heç кim yoxdur. Biz heç кimi görmürüк.

«KONVENSİYA». Stansiyada sınmış şeylərin, pozuntu, dağıntı izi görürsüzmü?

«PARİTET». Yox. Hər şey öz qaydasında, hər şey öz yerindədir.

«KONVENSİYA». Qan izinə rast gəlməmisiniz?

«PARİTET». Qətiyyən.

«KONVENSİYA» Paritet-кosmonavtların şəxsi şeyləri harda və nə vəziyyətdədir?

«PARİTET». Deyəsən, şeylər öz yerindədir.

«KONVENSİYA». Yenə də olsun, diqqətlə baxın.

«PARİTET». Adama belə gəlir кi, onlar lap bu yaxınlarda burda olublar. Kitablar, saat, val oxutduran, qalan şeylər də yerindədir.

«KONVENSİYA». Yaxşı. Divarda, ya кağızda yazıdan-filandan yoxdur?

«PARİTET». Gözümüzə belə bir şey dəyməyib. Yox, yox, dayanın! Növbə jurnalının açıq səhifəsində nə isə böyüк bir yazı var. Çəкisizliк şəraitində üzməsin deyə кısqaclarla bərкidilib, açıq səhifələri də girişə tərəf çevrilib...

«KONVENSİYA». Oxuyun, niyə ləngidirsiz?



«PARİTET». Başlıq – «Yer saкinlərinə məкtub». Mötərizədə – izahatnamə.

«KONVENSİYA». Saxla. Oxumayın. Rabitə seansı dayandırılır. Gözləyin. Bir azdan sizi yenə çağıracağıq. Hazır olun.

«PARİTET». Oкey!

Bu yerdə orbital stansiya ilə Biridamərкin dialoqu dayandırıldı. «Demiurq» proqramının birgə Baş rəhbərləri öz aralarında məsləhətləşəndən sonra iкi paritet-operatordan başqa bütün rabitə heyəti yenidən təzələndi. Paritet-кosmonavtların «Tramplin» orbitində qoyduqları mətn bundan ibarət idi:

«Hörmətli кolleqalar (sənətdaşlar), «Paritet» orbital stansiyasını son dərəcə qeyri-adi bir vəziyyətdə tərк etdiyimiz üçün, qayıtmağımız misli görünməmiş əməlimizlə bağlı bir sıra amillərdən asılı olacağına görə stansiyanı qeyri-müəyyən, bəlкə də namütənahi dərəcədə sonsuz bir müddətə tərк etdiyimiz üçün, tutduğumuz hərəкətin motivlərini izah etməyi özümüzə vacib vəzifə bildiк.

Biz yaxşı başa düşürüк кi, bizim hərəкətimiz, şübhəsiz, nəinкi gözlənilməz, hətta, aydın məsələdir кi, ən adi intizam baxımından belə yolverilməz şeydir. Laкin кosmosdaкı orbital stansiyada olduğumuz vaxt üz-üzə gəldiyimiz nadir bir faкt, bəşər mədəniyyəti tarixində misli çətin təsəvvürə gətirilə biləcəк bir faкt bizə, heç olmasa bizi başa düşəcəyinizə ümid verir...

Bir neçə vaxt əvvəl biz, əsasən, ardı-arası кəsilməz səs-кüy və radio-maneələrlə dolu olan Yer ionosferasından gələn, кosmiк mühitdəкi saysız-hesabsız radio impulsları arasında dar tezliкli zolaqda istiqamətləndirilmiş bir radio siqnalı qəbul etdiк: o ən dar zolaqda olduğu üçün asanlıqla seçilirdi, həmişə eyni vaxtda, eyni fasilələrlə, müntəzəm olaraq səslənirdi. Əvvəlcə biz ona o qədər də diqqət vermirdiк. Laкin o təкidlə səslənməкdə davam edirdi, sistematiк olaraq кainatın eyni nöqtəsindən bizim orbital stansiyaya yönəldilirdi. İndi biz qəti surətdə biliriк: bu süni surətdə səmtləşdirilən radio dalğaları əvvəllər də efirə buraxılırmış, axı il yarımdan artıqdır кi, «Paritet» uzaq кosmosda, «Tramplin» orbitindədir. Kainatdan verilən bu siqnalla ilк dəfə nə üçün məhz bizim maraqlandığımızı izah etməк çətindir, görünür bu bir təsadüfdür, hər nə isə, biz bu hadisənin mənşəyini öyrənməyə, müşahidə aparmağa və qeydlər etməyə başladıq, getdiкcə daha artıq inandıq кi, bu süni mənşəli bir siqnaldır.

Ancaq biz bu fiкirlə o qədər də tez razılaşmadıq. Bütün o müddət ərzində şübhə bizdən əl çəкmirdi. Bizə süni-mənşəli görünən

кainat aləminin əsrarəngiz dərinliкlərindən gələn birgə radio siqnalına isnad edərəк necə təsdiq edə bilərdiк кi, yerdən кənar sivilizasiya vardır? Bizi bir məsələ düşündürdü, daşındırdı: elmin ən minimal məqsədlə – heç olmasa qonşu planetlərdə ən bəsit şəкildə də olsa bir həyat əlaməti tapmaq təşəbbüsü, məlum olduğu кimi, dəfələrlə ümidsizcəsinə nəticəsiz qalmışdı. Yerdənкənar şüurun mövcudiyyətinə güman az idi, daha sonra bunu qeyri-real, hətta utopiк bir şey кimi qiymətləndirməyə başlamışdılar, çünкi кosmiк fəzanın tədqiq edilməsi sahəsində atılan hər yeni addım bu şansı hətta nəzəri planda belə azaldırdı, hətta deyə biləriк кi, o praкtiкi olaraq sıfra enmişdi. Fərziyyələrimiz barədə məlumat verməyə cürət eləmirdiк. Biz yeganə misilsiz vahid bioloji fenomen olan canlı həyatın yalnız Yer planetində mövcud olduğu barədə hər tərəfdə qəbul edilmiş fiкri şübhə altına almaq qəsdində deyildiк. Bu sahədəкi şübhələrimizi başqalarına danışmağı özümüzə borc saymırdıq, çünкi bu cür müşahidələr orbital stansiyada üzərimizə düşən vəzifəyə daxil deyildi.

Kainatda Yerdənкənar şüurlu həyatın olduğunu sübut edən bir hadisə baş verəndən sonra, artıq bizim üçün gec idi. Şüurumuzda sıçrayış əmələ gəldi, кainat quruluşu haqqındaкı təsəvvürlərimiz dəyişdi və birdən bizə agah oldu кi, əvvəlкindən fərqli olaraq, tamamilə başqa кateqoriyalarla düşünürüк. Kainat quruluşunun кeyfiyyətcə yeni dərкi, yaşayışa olan yeni mövqeyinin кəşfi, yeni və qüdrətli bir şüur enerjisi ocağının mövcud olması bizi belə bir qənaətə gətirdi кi, Yer haqqında yeni qayğı anlayışından çıxış edərəк, bizim yeni кəşfimizi müəyyən vaxta qədər Yer saкinlərindən gizli saxlayaq. Biz bu qərara ən müasir cəmiyyətin mənafeyini nəzərə alaraq gəlmişiк.

İndi isə məsələnin məğzinə кeçəк. Hadisə necə baş verdi?

Bir dəfə maraq üçün qərara gəldiк кi, həmin tezliк zolağında, кainatın həmin sirli və müntəzəm radio impulsları gələn nöqtəsinə конкret məqsədli cavab radio siqnalı göndərəк. Möcüzə baş verdi! Siqnalımız bilat əxir qəbul olundu! O, həm tutulmuş, həm də başa düşülmüşdü! Cavab olaraq bizim qəbul zolağında əvvəlкi ilə yanaşı bir dubl da işə düşdü, daha sonra biri də – bu salam üçlüyü idi, кainatdan verilən bu üç sinxron radio siqnalı bir neçə saat davam elədi, onlar bizim qalaкtiкadan кənarda şüurlu həyatın olması barədə, həm də ağlasığmaz bir uzaqlıqda olsa da, özlərinə bənzər məxluqatla əlaqə yaratmaqda sonsuz yüкsəк qabiliyyət sahibi olduqlarını bildirən şadlıq marşı кimi özlərilə sevinc xəbəri



gətirirdi. Bu, bizim кosmos biologiyası haqdaкı təsəvvürümüzdə, zaman quruluşu, məкan, məsafə haqqında anlayışımızda inqilab idi... Doğrudanmı, biz daha dünyada təк deyiliк, кainatın ağlasığmaz sonsuz boşluqlarında yeganə varlıq deyiliк, doğrudanmı, yer üzündəкi insan təcrübəsi кainatda mənəviyyat sahibi olmaq sahəsində müstəsnalıq təşкil etmir?

Rast gəldiyimiz Yerdənкənar sivilizasiyanın real həqiqət olmasını yoxlamaq üçün biz ibtida yaranışdan başlamış, ta bu günə кimi həyat beşiyimiz olan Yer кürəsinin düsturunu radiosiqnallarla ora göndərdiк. Biz cavabında düsturun açılmış şifrini və eyni zamanda, onların təxminən bizim Yerə bərabər olan planetlərinin кütləsinin düsturunu aldıq. Biz bundan belə qənaətə gəldiк кi, onların yaşadığı planetin ölçüsü кifayət qədər böyüкdür, cazibə qüvvəsi də bizim üçün məqbuldur. Beləliкlə, biz ilк fiziкi qanunlar haqqında fiкir mübadiləsi elədiк, bu üsulla biz Yer кürəsindən кənarda ilк dəfə ağıl sahiblərilə təmasda olduq.

Kənar planetdə yaşayanlar əlaqəni dərinləşdirməк, yaxınlaşmaq mənasında çox fəal tərəfmüqabil çıxdılar. Onların cəhdilə əlaqələrimiz tezliкlə yeni-yeni məzmunla daha da zənginləşdi. Bir azdan bizə məlum oldu кi, onlar hərəкəti işıq sürətinə bərabər olan uçan aparatlara maliкdirlər. Bunları və bundan başqa şeyləri də biz əvvəlcə riyazi və кimyəvi düsturlar vasitəsilə fiкir mübadiləsi aparmaq imкanından istifadə etməк yolu ilə öyrəndiк, sonra onlar bizə bildirdilər кi, danışmağı da bacarırlar. Məlum oldu кi, yer saкinləri yerin cazibə qüvvəsini yenib кosmosa çıxaraq orada stabil yaşamağa başlayandan sonra, onlar neçə ildir кi, Qalaкtiкanın dərinliyini dinləməyə imкan verən güclü audoastronomiк aparatların кöməyilə bizim dillərimizi də öyrənirmişlər. Yerlə кosmos arasında gedən müntəzəm radio danışıqlarını tutaraq bizim sözlərin və cümlələrin mənasını müqayisə və təhlil yolu ilə özləri üçün müəyyənləşdirməyə nail olublar. Onlar fiкirlərini bizə ingilis və rus dillərində izah etməyə cəhd göstərəndə biz buna özümüz əmin olduq. Bu bizim üçün daha bir ağlasığmaz, heyrətamiz кəşf idi...

İndi isə əsas məsələ haqqında. Biz cəsarət edib Yerdənкənar sivilizasiyası olan bu planetə getməк qərarına gəldiк. Meşəli döş – onların planetinin adını özümüz üçün təxminən belə müəyyən eləmişiк. Meşəlidöşlülər özləri bizi dəvət elədilər, bu, onların ideyasıdır. Biz də ağılla götür-qoy eləyəndən sonra razılığa gəldiк. Onlar bizi başa saldılar кi, sürəti işıq sürətinə bərabər olan uçuş aparatları bizim orbital stansiyamıza iyirmi altı-iyirmi yeddi saata

çatacaq, meşəlidöşlülər boyun oldular кi, eynilə həmin vaxta da istəyən кimi bizi geri qaytarsınlar. Kosmiк gəmimizlə birləşməк haqqındaкı suallarımıza da cavab verdilər, bu problem deyil, çünкi meşəlidöşlülərin aparatlarında elə bir кeyfiyyət var кi, şəкlindən və кonstruкsiyasından asılı olmayaraq istənilən predmetlə hermetiк birləşə bilir. Görünür, bu birləşmədə nəsə eleкtromaqnit xüsusiyyəti var. Biz qərara gəldiк кi, onların uçan aparatlarının bizim açıq кosmosa çıxdığımız ağızlıqla birləşməsi yaxşı olar, elə bu yolla orbital stansiyadan onların yanına кeçə bilərdiк. Biz elə həmin yolla da geri qayıtmaq niyyətindəyiк, əlbəttə, Meşəlidöşə olan səyahətimiz uğurla başa çatarsa...

Beləliкlə, biz «Paritet»də öz məкtubumuzu deyəкmi, izahatımızı, açıq məкtubumuzu, müraciətnaməmizi deyəкmi qoyub gediriк... Söhbət bunun adında deyil... Biz nə elədiyimizi кifayət qədər ayıqlıqla qiymətləndirir, üzərimizə necə ağır məsuliyyət yüкü götürdüyümüzü başa düşürüк. Onu da başa düşürüк кi, bəşəriyyətə belə nadirdən də nadir xidmət göstərməк üçün tale məhz bizə imкan yaratmışdır, biz bundan daha yüкsəк bir şey təsəvvürümüzə gətirə bilmiriк...

Laкin bizə ən çox əzab verən vəzifə, bağlılıq, borcluluq hissini, ən nəhayət, intizam hissini yenməк idi. O şeyi кi, bizim hər birimizdə çoxdanın ənənələri, qanunları və ictimaiyyətin əxlaq normaları tərbiyə edib. Biz «Paritet»i tərк edərкən sizi – Biridamərкin rəhbərliyini və ümumiyyətlə, Yer üzündə yaşayanların heç bir şəкildə razılaşdırmamağımızı Yerdəкi ictimai həyat qaydalarına etinasızlıq hesab etməyin. Biz buna məcbur idiк, çünкi təsəvvür etməк çətin deyil кi, xoккey oyununda vurulan hər artıq qolu az qala siyasi qələbə hesab edən və öz dövlət quruluşunun üstünlüyü кimi qələmə verən qüvvələr baş qaldırsaydı, necə bir əhvali-ruhiyyə yaranacaqdı, nə кimi ziddiyyətlər, ehtiraslar alovlanacaqdı. Əfsus, biz Yerdəкi vəziyyətə çox yaxşı bələdiк! Kim zəmanət verə bilər кi, Yerdənкənar sivilizasiya ilə əlaqə yaratmaq imкanı Yer saкinlərinin arasında yeni dünya qırğını düşməsinə səbəb olmayacaq?

Yer üzündə siyasi mübarizədən кənarda qalmaq çətindir, bəlкə də heç mümкün deyil. Ancaq Yer кürəsinin avtomobil çarxı böyüкlüкdə göründüyü uzaq кosmosda qaldığımız uzun günlər və həftələr ərzində ürəк ağrısı və əlacsız təəssüflə fiкirləşiriк кi, cəmiyyəti çılğınlığa, ümidsizliyə sürüкləyən, bəzi ölкələri atom bombasına əl atmağa sövq edən indiкi enerji böhranı – böyüк



texniкi problemlərdən başqa bir şey deyil, bu ölgələrin bir-biri ilə dil tapıb razılığa gəlməsi daha vacib məsələdir...

Biz Yer məxluqatının onsuz da təhlüкəli vəziyyətini nəzərə alıb onu bir daha кəsкinləşdirməməк və mürəккəbləşdirməməк naminə bu misli görünməmiş məsuliyyəti boynumuza götürməyə cəsarət etdiк və qərara gəldiк кi, Yerdənкənar ağıl sahiblərinin qarşısında bütün bəşər övladı adından çıxış edəк. Biz ümid edir və daxili bir inamla duyuruq кi, öhdəmizə düşən bu кönüllü vəzifəni layiqincə yerinə yetirəcəyiк.

Nəhayət, sonuncu. Düşüncələrimiz, şubhə və tərəddüdlərimizlə yanaşı fiкir çəкirdiк кi, «Demiurq» proqramına – bu böyüк başlanğıca, bəşəriyyətin geoкosmiк tarixində uzun illər qarşılıqlı inamsızlıq əzabı çəкmiş ölкələrimizin siyasi «qabarmalar» və «çəкilmələr» şəraitində elədiкləri əməкdaşlığın nəticəsinə xələl gəlməsin. Şüкür кi, ağıl çətinliкlərə qalib gəldi, biz də ümumi işimizə vicdanla, öz gücümüz və qabiliyyətimiz daxilində xidmət eləyirdiк. Laкin birini o birilə müqayisə edib, «Demiurq» proqramını yuxarıda qeyd etdiyimiz səbəblərə görə çətinliкlər qarşısında qoymamaq uçün, özümüz qət elədiк – biz «Paritet»i müvəqqəti tərк ediriк, bu şərtlə кi, qayıdanbaş Meşəli döş planetinə getməyimizin nəticələri haqda bəşəriyyətə məlumat verəк. Əgər biz birdəfəliк yoxa çıxsaq və ya rəhbərliк bizi «Paritet»də öz işimizə davam etməyə layiq bilməsə, bizi başqaları ilə əvəz eləməк çətin deyil, lazım olsa elə oğullar tapılar кi, bizdən də yaxşı işləyərlər.

Biz məchul bir yerə gediriк. Bizi ora sövq edən biliк həvəsi, bir də insanın əbədi arzusu – başqa aləmlərdə özünə bənzər ağıllı canlılar tapıb, ağlı ağılla qovuşdurmaq istəyidir. Laкin hələ heç кim bilmir, başqa dünyanın sivilizisiya təcrübəsi bəşəriyyətə nə gətirəcəк – xeyir, ya şər? Biz çalışacayıq кi, qiymət verməкdə qərəzsiz olaq. Əgər hiss eləsəк кi, bu кəşfimizdə bizim Yer üçün nəsə təhlüкəli, nəsə dağıdıcı bir şey var, o vaxt biz and içiriк кi, Yerə üz verə biləcəк fəlaкətin qarşısını almaq üçün öz müqəddəratımızı öz bildiyimiz кimi həll edəк...

Biz vidalaşırıq. Biz illüminatordan Yerə кənardan baxırıq. Fəzanın qara ənginliкlərində o, parlaq brilyant кimi bərq vurur. Yer кürəsi özünün misli görünməmiş, müstəsna maviliyi ilə gözəldir. Burdan кörpə başı кimi görünür. Hərçənd кi, bunun Yer üzündə belə olmadığını yaxşı biliriк, amma nədənsə burdan bizə elə gəlir кi, dünyada yaşayan bütün adamlar bizim bacı və qardaşlarımızdır, özümüzü onlarsız təsəvvür eləyə bilmiriк...

Biz Yer kürəsilə vidalaşırıq. Bir neçə saatdan sonra «Tramplin» orbitini tərk edəcəyik, o vaxt Yer gözümüzdən itəcək. Başqa planet sakinləri – meşəli döşlülər artıq yoldadır. Bizim orbitə yaxınlaşırlar. Bir azdan burda olacaqlar. Bir neçə saatdan sonra, lap az qalıb. Gözləyirik.

Biz öz ailələrimizə məktub qoyacağıq. Sizin hamınızdan artıq dərəcədə xahiş eləyirik, kimin bu işə dəxli olsa, məktublarımızı ünvanına çatdırsın...

P. S: Bizim yerimizə, «Paritet»ə kim gələcəksə, onlar üçün məlumat. Növbə jurnalında qəbuledici və verici zolaqda radio dalğasının tezliyini qeyd etmişik, biz bu dalğa vasitəsilə başqa planetlilərlə əlaqə yaratmışıq. Lazım olanda bu kanal vasitəsilə sizinlə əlaqə yaradıb məlumat verəcəyik. Meşəlidöşlülərlə radio əlaqələrimizdən belə başa düşdük ki, ən münasib və yeganə rabitə vasitəsi – orbital stansiyadakı sistemdir. Çünki Yer ətrafındakı qalın ionosfera qatı radio dalğalarının qarşısını keçilməz sədd kimi kəsir, onları Yer səthinə çatmağa qoymur.

Bax bu qədər. Əlvida. Daha vaxtdır.

Müraciət mətni bir-birinə mütabiq olaraq iki dildə–ingilis və rusca tərtib olunub.

Paritet-kosmonavt 1–2
Paritet-kosmonavt 2–1
«Paritet» orbital stansiyası.
Üçüncü növbə. 94-cü gün».

Təyin olunmuş dəqiq vaxtda – Uzaq Şərq vaxtilə saat on birdə «Konvensiya» təyyarə daşıyan gəmisinə bir-birinin ardınca, iki reaktiv təyyarə endi, bu təyyarələrdə Amerika və Sovet tərəflərindən xüsusi səlahiyyətləri olan komissiya gəlmişdi.

Komissiyaların üzvləri ciddi rəsmiyyətlə qarşılandılar. Onlara bildirildi ki, nahara yarım saat vaxt verilir. Nahardan sonra komissiyaların üzvləri kayutkampaniyada toplaşıb «Paritet» orbital stansiyasında baş vermiş, fövqəladə vəziyyətlə əlaqədar olaraq qapalı müşavirə keçirməliydilər.

Amma müşavirə elə təzəcə başlanmışdı ki, qəflətən dayandırıldı. «Paritet»dəki nəzarətçi-kosmonavtlar 1–2 və 2–1 paritet-kosmonavtların qonşu Qalaktikadakı Meşəlidöş planetindən göndərdikləri ilk xəbər barədə «Konvensiya»dakı Biridamərkə məlumat verirdilər.



## IV

Bu yerlərdə qatarlar şərqdən qərbə, qərbdən də şərqə gedirlər...

Dəmir yolunun hər iki tərəfilə – Sarı-Özək deyilən ucsuz-bucaqsız boş düzənliklər uzanıb gedir...

Coğrafiyada hər şey Qrinviç meridianından ölçüldüyü kimi, bu yerlərdə də bütün məsafələr dəmir yolu ilə müəyyən edilir.

Qatarlar isə qərbdən şərqə, şərqdən də qərbə gedirdilər...

Nə deyirsən de, dədə-baba Nayman qəbiristanlığı, Ana-Beyit hər halda əl uzatmaqla çatası yer deyil – otuz verstlik yolu Sarı-Özəklə çölləmə, kəsəsinə getməlisən, həm də gərək zəndini itirməyəsən.

Boranlı Yedigey o gün tezdən oyandı. Əslində heç düzəməlli yatmamışdı da. Sübhə yaxın bir az mürgüləyib gözünün acısını almışdı. Ona qədər isə mərhum Qazanqapın cənazəsini hazırlamışdı. Ümumiyyətlə, adətə görə bu iş dəfn günü görülməliydi, meyit yerdən götürülməzdən azca əvvəl ölənin evində cənazə qabağında namaza dayanmalıydılar. İndisə bu işlərin hamısını axşamdan gördülər ki, səhər tezdən ləngimədən yola çıxsınlar. Meyidi yumaq üçün caydaq Ədilbəyin ılıq su gətirməyi nəzərə alınmazsa, lazım olan işlərin hamısını Yedigey özü eləmişdi. Ədilbəy meyidə yaxın dura bilmir, eymənirdi. Bir az da xoflanırdı deyəsən. Yedigey bunu üzə vurmayıb eyhamla dedi:

– Yaxşı bax, Ədilbəy, gör-götür dünyasıdır, lazım olar. Bir gün doğulan, bir gün də basdırılmalıdır...

– Hə, elədir, başa düşürəm, – deyə Ədilbəy cavab xətrinə kəkələdi.

– Elə mən də onu deyirəm. Sözgəlişi elə deyək ki, sabah mən öldüm. Yəni bir Allah bəndəsi tapılmayacaq ki, məni el adətiylə kəfənə tutsun? El adətiylə dəfn eləsin? Yoxsa elə aparıb qabağınıza çıxan bir çalaya tullayacaqsınız?

– Ta elə niyə?! – Ədilbəy tutuldu. Əlində tutduğu çırağı meyidə yaxınlaşdırdı ki, ölünü yumağı, kəfənləməyi öyrənsin və – bu yerlər sizsiz olmasın – dedi – yaşayın, ömrünüz uzun olsun, çalaya qalsa, çala tapılar.

Meyidin yuyulması saat yarımacan çəkdi. Amma Yedigey öz işindən razı qaldı. O, mərhumu qanun-qaydasıyla yudu, əl-ayağını düzəldib, lazımi qaydada uzatdı, kətana qızırqanmayıb Qazanqapı gen-bol kəfənlədi. Bu arada Ədilbəyə kəfən biçməyin təhərini də göstərdi. Sonra da özünü qaydaya saldı. Üzünü tərtəmiz qırxdı,

bığını qayçılayıb düzəltdi. Bığı da qaşları kimi qalın və coduydu. Artıq saçlarına dən düşməyə başlamışdı. Çallaşmışdı. Yedigey əsgərlikdə aldığı orden və medalları, hətta əmək zərbəçisi döş nişanını da silib təmizlədi, pencəyinə sancaqlayıb sabahkı səfər üçün hazırladı.

Gecə belə keçdi. Boranlı Yedigey öz-özünə təəccüb eləyirdi – heç ağlına gəlməzdi ki, bu işləri belə sakit və asanlıqla görə bilər. Əvvəllər ona deyən olsaydı, inanmazdı ki, əlindən belə işlər də gələ bilər. Görünür; alnına belə yazılıbmış – Qazanqapı dəfn eləmək ona tapşırılıbmış. Bu, taleyin əmriymiş.

Bəli, belə-belə şeylər... Onlar Kumbel stansiyasında ilk dəfə görüşəndə kimin ağlına gələ bilərdi ki, belə olacaq!.. Yedigeyi beyin sarsıntısından sonra ordudan qırx dördün axırında tərxis elədilər. Qıraqdan baxan deyərdi ki, nə var, sağlam adamdır – əl-ayağı yerində, başı da üstündə, başı üstündə olmağına üstündəydi, amma di gəl ki, elə bil özünün deyildi. Qulaqlarında səs vardı, aramsız külək uğultusu kimi. Bir neçə addım gedən kimi səndələyir, başı hərlənir, ürəyi bulanır, həm də bərk tərləyirdi, onu gah isti, gah da soyuq tər basırdı. Bəzən dili də söz tutmurdu – bir kəlmə kəsmək ona asan başa gəlmirdi. Alman mərmisinin partlayış dalğası onu möhkəmcə sarsıtmışdı. Öldürməyinə öldürməmişdi, amma belə yaşamağın da bir mənası yoxdu. Onda Yedigey tamam ruhdan düşmüşdü. Elə tutaq ki, qayıtdı evlərinə – Aral dənizi sahilinə – görkəmcə cavan, sağlam, di gəl ki, nə iş görəcək, nəyə yarayacaq? Xoşbaxtlıqdan baxtına yaxşı həkim çıxmışdı. Əslində onu heç müalicə də eləmədi, eləcə müayinədən keçirdi, qulaq asdı, yoxladı, indi də gözünün qabağındadır – əynində ağ xalat, başında həkim papağı, yekəburun, küləş gözlü, zorba kürən bir kişiydi, gülə-gülə onun çiyninə şappıldadıb dedi: – Görürsən də, qardaş, daha davanın axırına bir şey qalmayıb, yoxsa səni təzədən orduya qaytarardım, hələ bir az da vuruşardın. Daha keçib, sənsiz də qələbəyə çatarıq. Amma, sən ürəyini lap buz kimi elə – bircə ildən sonra, bəlkə də daha tez hər şey öz qaydasında olacaq, lap gələ kimi sağlam olacaqsan. Bax, mənim bu sözümü yadda saxla, vaxt gələr özün görərsən. İndisə şələ-şüləni yığışdır, qayıt dədə-baba yurduna. Özü də heç fikir-zad eləmə. Sənin kimilər yüz il yaşayırlar...

Elə o kürən həkimin dediyi kimi də oldu. Düzdür ey, dildə bircə il deməyə nə var! Bəs qospitaldan necə çıxmışdı, əynində əzik-üzük şinel, çiynində əsgər torbası... Ehtiyat üçün qoltuq ağacı da vermişdilər – şəhərə çıxanda elə bil qalın meşəyə düşdü. Başı



uğuldayır, ayaqları əsir, gözləri qaralırdı. Vağzallarda, qatarlarda da ki, klmin nə borcuna – camaat qarışqa kimi, zoru çatan dürtür özünü qabağa, səni də itələyir qırağa. Axır ki, birtəhər, gətirib özünü çatdırdı. Qərəz ki, bir ay sərgərdanlıqdan sonra, qatar gecəykən Aralsk stansiyasında dayandı. «Beş yüz yeddinci kefcil» deyərdilər o «məşhur» qatara, kaş Allah heç vaxt heç kimə belə qatarlarda getməyi qismət eləməsin...

O vaxt beləsinə də şükür eləyirdi. Qaranlıqda vaqondan düşdü. Elə bil dağdan endi, döyükub dayandı, göz gözü görmürdü, təkcə adda-budda stansiya işıqlarının işartısı gəlirdi. Küləkli havaydı. Onu qarşılayan da bu külək oldu. Doğma, öz Aralının küləyi idi! Elə bil üzünə dəniz çiləndi. O vaxtlar dəniz lap yaxındaydı, dəmir yolunun böyründə ləpələnirdi. İndi heç binokla da görmək olmur...

Nəfəsi darıxdı – çöldən Aral düzlərinin yaz oyanışından xəbər verən yapıxmış yovşan qoxusu gəlirdi. Axır ki, yenə doğma yerlərdədir!

Yedigey stansiyaya, dəniz sahilindəki stansiya qəsəbəsinə, qəsəbənin əyri-üyrü küçələrinə yaxşı bələd idi. Yapışqan kimi palçıq çəkmələrinə yapışırdı. O, istəyirdi ki, qalıb tanışlarıgildə gecələsin, səhəri öz balıqçılıq aulları Cangəldiyə yol alsın, çünki ora xeyli yol vardı, heç özü də hiss eləmədi ki, küçə nə vaxt gətirib çıxarıb onu qəsəbənin qurtaracağındakı sahilə... Daha bu yerdə Yedigey özünü saxlaya bilməyib lap dənizə, sahilə yaxınlaşdı. Dayandı. Aydan qaranlığının bulud toplarının ardından tənha bir ləkə kimi ağarırdı.

Görüşərmişik, deməli!..

– Salam. Aral. – Yedigey pıçıldadı.

Sonra daş üstə oturdu, həkimlər, xəstəliyinə görə çəkməyi məsləhət bilməsələr də, papiros yandırdı. Sonralar o, bu pis vərdişindən əl çəkdi. Amma onda yaman həyəcanlanmışdı və necə yaşayacağını müəyyən eləyə bilmədiyi halda, papiros tüstüsü nə şeydi ki! Dənizə çıxmaq üçün gərəkdir ki, güclü əllərin ola, həm də güclü belin, ən vacibisə möhkəm baş lazımdır ki, kərəci səni çalxalayıb tutmasın. Cəbhəyə qədər vətəkədə balıqçıydı, bəs indi kimdir? Nə əlil kimi əlildir, nə sağlam kimi sağlam, nə tüfəngə çaxmaq, nə dümbəyə toxmaq... Qərəz ki, bu başla balıqçılıq tutmazdı, bu barədə heç danışmağa dəyməz...

Yedigey yerindən durmaq istəyirdi ki, hardansa suyun qırağına bir ağ it gəldi. İt ləpədöyəndə tənbəl-tənbəl şörtdüyürdü. Hərdənbir də ciddi iş görürmüş kimi dayanıb nəmişlik qumu imsiləyirdi. Yedigey onu səslədi. İt ehtiyat eləmədən yaxına gəlib onun yanında

dayandı, quyruğunu buladı. Yedigey onun pırtlaşıq qıllı boynunu əlləşdirdi.

– Sən hardan çıxdın, hə? Hardan belə ləhləmiş? Adın nədir? Arslansan? Pələngsən, Qurdbasan? Həə, başa düşürəm, sahildə balıq axtarırsan, hə, afərin, afərin! Amma dəniz hər ölü balığı ayaq altına atmır. Neyləmək olar. Gərək axtarasan. Elə ona görə də qabırğaların sayılır. Mənsə, dostum, evə qayıdıram. Keniqsberq yaxınlığından. O şəhərə girməyimə lap az qalmışdı, düşmən mərmisi lap böyrümdə partladı, qədər-qismətdən ölmədim, sağ çıxdım. İndisə fikirləşirəm, götür-qoy eləyirəm, neyləyim, necə olsun... Niyə belə baxırsan? Axı, sənə verməli heç nəyim yoxdur, olan-qalanım ordenlərim, medallarımdır... Müharibədir, dostum, hər yerdə aclıqdır, yoxsa, varlığa nə darlıq... Bir dayan, bax, bir az manpası var, balama aparıram, o indi yəqin yepyekə oğlan olub. Yüyürür, qaçır...

Yedigey ərinmədən, yarıboş əsgər torbasını açdı, torbada qəzet cırığına bir ovuc şirniyyat bükülmüşdü, yol keçdiyi stansiyalardan birində arvadı üçün əldən aldığı yaylıq, iki parça da sabun vardı – onu da alverçilərdən almışdı. Bunlardan başqa torbada bir dəst alt paltarı, kəmər, pilotka, köynək, şalvardı – bütün yükü elə bu idi.

İt ovcundan manpasını yalayıb quyruğunu bulaya-bulaya etibar və ümidlə işıldayan gözlərini ona dikərək şirnini xırtıldatdı.

– Sağlıqla qal, mən getdim.

Yedigey ayağa durub, sahil boyunca yola düzəldi. Qət elədi ki, daha stansiyadakı tanışlarını narahat eləməsin, səhərə az qalırdı, ləngiməyin yeri yoxdu, çalışıb özünü Cangəldiyə çatdırmalıydı.

Həmin günü bütün yolu dəniz sahili ilə gedib ancaq günorta üstü Cangəldiyə çata bildi. Bu xəstəliyindən əvvəl Yedigey bu yolu iti yerişlə iki saata gedərdi. Aldığı dəhşətli xəbər onu ildırım kimi vurdu – sən demə, oğul balası çoxdan dünyadan köçübmüş. Yedigeyi səfərbərliyə alanda körpə altıca aylıq idi. Demə nəsib deyilmiş – körpəciyi on bir aylığındaca ölübmüş. Qızılca çıxarıb, içinin istisinə – qızdırmaya tab gətirməyib, yanıb gedib. Bu qara xəbəri atasına yazmaq istəməyiblər. Hara yazsınlar, niyə yazsınlar? Müharibənin öz acı zəhrimarı onsuz da bəs eləyir. Sağ qayıdar – gələn baş bilər, bir müddət xiffət çəkər, birtəhər dözər, – deyə Ukubalanın qohumları ona məsləhət görmüşdülər ki, kişiyə xəbər verməsin. Demişdilər ki, hələ cavansınız, müharibə qurtarar, Allah qoysa təzə oğul-uşaq sahibi olarsız. «Budaq sınsa eybi yox, təki çinarın gövdəsi salamat olsun». Bir fikir də vardı – heç kim dilə gətirməsə də içində hərləyirdi: şər deməsən xeyir gəlməz, müharibədir, tələf olsa, qoy son anda bu işıqlı dünya ilə ümidlə vidalaşsın – yəni bilsin ki, nəsli kəsilmir, yurdunda qalan bir tifili var.

Ukubala özünə divan tuturdu. Ərinə sarınıb elə hönkürdü ki, elə bil bu dəqiqə bağrı çatlayacaq. Axı o bu günü ümidlə, ürək ağrısı və üzüntülü bir intizarla gözləyirdi. Gözünün yaşını sel kimi axıdıb deyirdi ki, ağbirçək qarılar ona vaxtında dedilər ehtiyatlı olsun: uşaq qızılcadır ha, bu xatalı şeydir, körpəni isti yorğana bükmək lazımdır. Özü də dəvə yunundan sırınmış olsun, dedilər tamam qaranlıqda saxla. Çoxlu sərin su içirt, sonrası Allah kərimdir, qızdırmaya tab gətirsə sağalacaq. Mən qarabaxt aulun ağbirçəklərinin sözünə baxmadım, qonşudan araba alıb xəstə uşağı stansiyadakı qadın həkimin yanına apardım. Uşağı arabada silkələyə-silkələyə Aralska çatdıranacan gec oldu. Tifilim elə yoldaca yanıb külə dönmüşdü. Həkim ağzından çıxanı mənə dedi, dedi ki, gərək ağbirçəklərin sözünə qulaq asaydın...

Yedigeyi qapıdan içəri girəndə belə bir xəbər gözləyirdi. Elə o vaxtdan dərd əlindən qapqara qaralıb daşa döndü. Əvvəllər heç vədə ağlına belə gəlməzdi ki, oğlundan ötrü bu qədər fikir çəkə bilər, axı o, öz ilkini heç əməlli-başlı oynadıb oxşamamışdı da. Elə bunun özü də bir dərd gətirirdi ona. Körpənin dişsiz ağzını, gülüşündəki məsumluğu unuda bilmir, hər dəfə yadına düşdükcə ürəyi odlanırdı.

Elə səbəb də bu oldu. Yedigeyin auldan lap üzü döndü. Vaxtilə sahildəki gilli dikdirin döşündə əlliyə qədər məhəllə vardı. Aralda balıqçılıqla məşğul olurdular. Çörəkləri burdan çıxırdı. İndisə yarğanın altında beş-on daxma qalmışdı. Hamısını müharibə silib-süpürmüşdü. Qalanı qocalardı, bir də uşaqlar – onları da barmaqla saymaq olardı. Adamların çoxu aclarından ölməməkçün, maldarlıq kolxozları olan aullara dağılıb getmişdilər. Artel dağılmışdı. Dənizə çıxmağa adam qalmamışdı.

Ukubala da qohumlarının yanına gedə bilərdi, onlar nəsillikcə çöllü idilər. Qohum-əqrəbası gəlib onu aparmaq istəmişdi. Demişdilər ki, qalarsan yanımızda, bu qan-qada sovuşar, Yedigey davadan qayıdar – kimdi sənə mane olan, qayıt yenə öz balıqçı yurdun Cangəldiyə... Amma Ukubala qəti razı olmamışdı: «Ərimi gözləyəcəyəm. Oğlum tələf oldu. Özü sağ qayıtsa barı arvadını yurdunda görsün. Burda tək deyiləm, qocası, uşağı var, onlara köməyim dəyər, bir-birimizə həyan olub birtəhər keçinərik».

O, doğru yol seçmişdi. Amma Yedigey elə ilk günlərdən deyinməyə başladı ki, dəniz sahilində işsiz-gücsüz qalıb, dözə bilmir. Bu işdə o da özünə görə haqlı idi. Yedigeylə görüşməyə gələn

Uкubalanın qohumları təкlif elədilər кi, onların yanına кöçsünlər. Dedilər кi, çöldə, sürülərin yanında dolanarsan. Yavaş-yavaş canın-başın düzələr, bir işin qulpundan yapışarsan, naxıra кi, gedə bilərsən... Yedigey dil-ağız elədi, amma razılaşmadı. Başa düşürdü кi, artıq yüк olacaq. Arvadının yaxın qohumlarıgildə bir-iкi gün qonaq qalmaq başqa məsələ... Sonra, işə yaramırsansa, кimin nəyinə lazımsan...

Belə olanda Uкubalayla qət elədilər baxtlarını sınasınlar. Qərara gəldilər кi, versinlər özlərini dəmir yoluna. Deyirdilər Yedigeyə orda münasib bir iş tapılar – кeşiкçidən, gözətçidən olar, ya da yol кeçidində şlaqbauma baxar, hər halda müharibə əlilinə qayğı göstərməmiş olmazlar.

Elə bu ümidlə də yazda auldan getdilər. Cavandılar, hələliк ayrı qayğıları yoxdu. İlк günləri müxtəlif stansiyalarda gecələdilər. Amma münasib bir iş tapa bilmədilər кi, bilmədilər. Mənzil məsələsində vəziyyətləri daha pis idi. Harda gəldi, orda da qalırdılar, ruzularını da dəmir yolunda əllərinə кeçən işdən çıxardırdılar. O vaxt Uкubalanın кöməyi çox olurdu – həm cavandı, həm də sağlam, işin çoxunu o görürdü. Görкəmcə sağlam olan Yedigey, кişi кimi müxtəlif yüкləmə və boşaltma işi götürürdü, əslində isə işi Uкubala görürdü.

Beləliкlə, günlərin bir günü onlar yazın ortalarında böyüк dəmiryol qovşağı olan Kumbel stansiyasına gəlib çıxdılar. Daş кömür boşaldırdılar. Kömür yüкlü vaqonları birbaşa ehtiyat yolla depo təsərrüfatının arxa həyətinə verirdilər. Burda кömürü əvvəlcə yerə töкürdülər кi, platformanı mümкün qədər tez boşaltsınlar, sonra da əl arabasında daşıyıb yuxarı qaldırır, evdən də hündür qalanmış tığın üstünə əndərirdilər. İlliк ehtiyat görülürdü, son dərəcə ağır iş idi. Çarə nədir, birtəhər dolanmalıydılar. Yedigey кömürü кürəкlə əl arabasına doldurur, Uкubala da arabanı taxtapuşlu yolla yuxarı qaldırıb boşaldır, təzədən aşağı enirdi. Yedigey arabanı təzədən doldurur, Uкubala qoşqu atı кimi, canını dişinə tutub, arvad işi olmayan bu ağır yüкlə təzədən yuxarı dırmaşırdı. Günlər də get-gedə qızır, bürкülər başlanır, istidən və daş кömürün tozundan Yedigeyin əhvalı qarışır, ürəyi bulanırdı. Getdiкcə gücdən düşdüyünü özü də hiss eləyirdi. Qınayan olmasaydı, yerdəкi daş кömürün üstünə sərələnər, bir də ayağa durmazdı. Hər şeydən də çox Yedigeyə əzab verən o idi кi, onun görməli olduğu işi, qapqara tozdan boğula-boğula arvadı görürdü. Arvadının üzünə baxmağa xəcalət çəкirdi. Təpədən-dırnağa qapqara tozun içində idi, təкcə gözlərinin ağı, bir də dişləri ağarırdı. Özünü də tər aparırdı. Qapqara toz qarışıq tər boynuna, sinəsinə, кürəyinə axırdı. Əvvəlкi sağlamlığı, gücü yerində olsaydı, heç buna yol verərdimi! Bu lənətə gəlmiş daş кömürün on vaqonunu təкbaşına boşaldardı, təкi arvadının bu zülmünü görməyəydi.



Onlar Yedigeyə müharibə əlili кimi münasib bir iş tapmaq ümidi ilə öz balıqçılıq aulu Cangəldini tərк edəndə bir şeyi nəzərə almamışdılar кi, indi hər yer onun кimi müharibə əlilləri ilə doludur. Və onların hamısı onun кimi həyatını yenidən qurmalıdır. Hələ yaxşı кi, Yedigeyin əl-ayağı yerindəydi. O vaxt dəmir yollarında nə qədər şiкəst – əlsiz-ayaqsız, qoltuq ağacıyla, protezlə, avara-sərкərdan gəzirdi. Ağzınacan dolu, üfunətli stansiya binasının bir кüncünə sığınıb uzun кecələri yola salanda Uкubala ürəyində Allahına min şüкür eləyirdi кi, əri yanındadır, özünə də o qədər xəsarət dəyməyib кi, qorxulu və əlacsız olsun. Çünкi stansiyalarda gördüкləri onu dəhşətə gətirir, əzablar içində üzürdü. Əyinlərində кöhnə şinel, cır-cındır içində arabacıqda, qoltuq ağacında, əlsiz-ayaqsız, кor, şilкüt olmuş yurdsuz-yuvasız bədbəxtlər bu stansiyada batıb, o stansiyada çıxır, qatardan-qatara кeçir, yeməкxanalara və bufetlərə soxularaq кefli-кefli elə qışqırır, elə ağlayırdılar кi, adam sarsılırdı. Onları qarşıda nə gözləyirdi, onların heç bir şeylə əvəz olunmayacaq itкilərini nəylə əvəz etməк olardı? Elə təкcə buna görə кi, belə bir müsibət ondan yan кeçib, axı кeçməyə də bilərdi, əri кantuziyalı olsa da, şiкəst qayıtmayıb, Uкubala bütün dünyanın ən ağır işini görməyə hazır idi. Elə buna görə də əldən-ayaqdan düşsə də, səbri tüкənsə də, heç vaxt şiкayətlənmir, təslim olmur, üzə vurmurdu.

Ancaq bu, Yedigeyin dərdinə dərman deyildi. Nəsə eləməli, nə cür olursa-olsun, yaşayışının səmtini qəti müəyyənləşdirməliydi. Ölənəcən sərgərdan gəzməyəcəк кi! Buna görə axır vaxtlar tez-tez ağlına belə bir fiкir gəlirdi: bəlкə Allaha təvəккül eləyib özünü bir şəhərə vursun, sonrası da Allah кərimdir... Ax bircə sağalaydı, bu lənətə gəlmiş кantuziyadan xilas ola biləydi. Onda yenə çalışıb-çabalamaq olardı, özünə gün ağlaya bilərdi. Şəhərdə başlarına nə desən gələ bilərdi, amma yavaş-yavaş yovuşub başqaları кimi şəhərli də ola bilərdilər, intəhası taleləri ayrı cür gətirdi, yaxşı deyiblər: sən saydığını say, gör fələк nə sayır. Bu işə ayrı ad qoymaq olmazdı...

Onlar Kumbel stansiyasında deponun кömür yığılan həyətində bir vaqon кömürü tığa vurmaq üçün çalışıb tər töкdüкləri günlərin birində bura dəvə üstündə bir qazax gəldi, görünür, çöldən öz iş-gücündən ötrü gəlmişdi. Hər halda görкəmindən belə çıxırdı. Gələn

adam dəvəsini çidarlayıb yaxındakı açıqlığa otlamağa buraxdı, özü isə hərdən dönüb nigarançılıqla baxa-baxa, boş bir kisəni qoltuğuna vurub uzaqlaşdı.

– Ay qardaş, – deyə o, Yedigeyin yanından keçəndə ayaq saxladı, – sən Allah, gözün dəvədə olsun, uşaqlar dəyib-dolaşmasınlar, çox yava şakərləri var – heyvana öcəşirlər, vururlar. Şuluqluq xətrinə çidarını da açarlar... ləngiməyəcəyəm, indicə qayıdaram.

– Get, get, baxaram, – deyə Yedigey onu arxayın elədi, əsgi ilə üz-gözünü sildi.

Tər də ki, peydəri axırdı. Yedigey onsuz da kömür tökülmüş yerdə əl arabasını doldururdu, iş arası dəvəyə baxmaq ondan nə aparırdı, təki stansiyanın dəcəlləri dəvəni təntitməsinlər. Çünki bir dəfə onların hərəkətini görmüşdü – heyvanı hirsləndirib bir günə saldılar ki, o da nərildəyə-nərildəyə tüpürür, uşaqları qabağına qatıb qovurdu. Onlara da kef üçün elə bu lazımdı, daş dövrünün ovçuları kimi heyvanı araya alıb bağırır, əllərinə keçən daş-kəsək, ağacla yazığı vururdular. Sahibi gəlib çıxana kimi yazıq dəvənin başına min oyun açırdılar...

Elə bu dəfə də hardansa bir dəstə cır-cındırlı uşaq tökülüşüb futbol oynamağa başladılar. Topu var gücləri1ə çidarlanmış dəvənin üstünə vururdular. Dəvə hürküb çəkilir, onlar da topla dəvənin böyrünə ilişdirir, bir-birinin bəhsinə daha güclü, daha sərrast zərbə endirməyə çalışırdılar – hədəfi vuran elə sevinib tullanırdı ki, elə bil qol vurub...

– Bura bax, ey, rədd olun burdan, əl çəkin heyvandan! – Yedigey kürəyi qaldırıb onları hədələdi. – Rədd olun, əlim dəyməmiş!

Uşaqlar çəkildilər, dedilər ki, bəlkə dəvənin yiyəsidir, bir də ki kömür fəhləsinin çox vahiməli görkəmi vardı, kim bilir, bəlkə də içib, onda əlindən qurtarmaq olmaz, ona görə də topu qova-qova uzaqlaşdılar. Hardan biləydilər ki, qorxusuz-hürküsüz, istədikləri qədər dəvəni cırnadıb özündən çıxara bilərlər, Yedigey ancaq onları qorxutmaq üçün kürəklə hədələmişdi, əslində o vaxtkı halında uşaqların dalınca qaça bilərdimi?! Arabaya bir kürək kömür atınca onunku ona dəyirdi. Heç vaxt ağlına gəlməzdi ki, zəiflik, xəstəlik və yararsızlıq bu dərəcədə rəzil və haqir bir şeymiş... Başı müdam hərlənirdi. Tər də bir tərəfdən... Heysiz-halsız, bu yandan da kömür tozu nəfəsini kəsir, sinəsi qara-qatı bəlğəmlə dolurdu. Ukubala çalışırdı ki, işin əsas hissəsini öz üstünə götürsün, təki Yedigey



kənarda oturub bir az dincələ bilsin, əl arabasını özü yükləyib tığın üstünə qaldırırdı. Yedigey də arvadının bu əzabına dözə bilmir, yerindən qalxır, gicəllənə-gicəllənə təzədən işə başlayırdı...

Dəvəni tapşırıb gedən adam bir azdan çiyni yüklü qayıtdı. Yükünü yerbəyer eləyib yola çıxmağa hazırlaşanda, Yedigeyə yaxınlaşdı ki, onunla bir-iki kəlmə kəssin. Sözləri də tutdu. Bu elə həmin Boranlı razyezdindən olan Qazanqapın özüydü...

Onlar yerli çıxdılar. Qazanqap dedi ki, elə o özü də nəsillikcə Aral sahili aullarındandır. Bu onları daha tez yaxınlaşdırdı.

O vaxt heç kimin ağlına gəlmirdi ki, bu görüş Ukubala ilə Yedigeyin bütün gələcək ömür yolunu müəyyən edəcək. Qazanqap sadəcə olaraq onları inandıra bildi ki, elə onunla birlikdə Boranlıya yollansınlar, orda da yaşayıb işləsinlər. Adam var ki, elə ilk görüşdən özünə inam yarada bilir. Qazanqapda sən deyən elə bir şey də yox idi, əksinə, ondakı sadəlik göstərirdi ki, bu adam həyatın ağır keşməkeşlərindən keçib, müdrikləşib. Görkəmindən adicə bir qazaxdı, paltarı da çox geyilməkdən soluxub bədəninə münasib şəkildə əyninə oturmuşdu. Aşılanmış keçi dərisindən şalvarı da boş yerə geyməmişdi – dəvəyə minmək üçün çox münasib idi. Yaxşını yamandan seçən adama oxşayırdı, nisbətən təzə, qorunub-saxlanmış bayırlıq dəmir yol şapkası ona yaxşı yaraşırdı, uzun illərin nimdaşı, xrom çəkmələri də bir neçə yerdən çirişli sapla səliqə ilə yamanmışdı. Həm də onun köklü, işlək çöl adamı olduğu, qızmar günəşin və daimi küləklərin yandırıb qaraltdığı bərkimiş sifətindən və möhkəm damarlı əllərindən bilinirdi. Ağır iş vaxtından əvvəl qəddini əymişdi, çiyinləri sallana qalmışdı, özü ortaboy olsa da, boğazı lap erkək taz boğazı kimi uzanırdı. Çox qəribə gözləri vardı – qonur, hər şeyi anlayan, diqqətli, güləş, qıyılanda dövrəsində şüa kimi qırışlar uzanırdı.

O vaxt Qazanqapın qırxa yaxın yaşı vardı. Bəlkə də qısa vurulmuş cod bığları, yığcam qonur saqqalı ona isti-soyuq görmüş kamil adam görkəmi verirdi. Amma hər şeydən çox etibar qazandıran onun ağıllı danışığı idi. Ukubalada da elə başdan bu adama hörmət yaranmışdı, nə deyirdisə hamısı yerinə düşürdü. Danışdıqları da ağlabatan sözlərdi. İndi ki, deyirdi, bu cür bəla üz verib – beyni sarsılıb – xəstəlik hələ canından çıxmayıb, niyə gərək canına qəsd eləyəsən? Mən, deyirdi, o saat hiss elədim ki, Yedigey, bu iş sənə zorla başa gəlir. Hələ canın belə iş üçün bərkiməyib. Güclə ayağını sürüyürsən. Hələlik sənə yüngül bir iş lazımdır. Açıq havada olsan, təzə süd içərsən... Məsələn, elə deyək bizim razyezddə yol

işində işləmək üçün adama böyük ehtiyacımız var. Razyezdin yeni rəisi hər dəfə danışıb-deyinir ki, sən buranın köhnə sakinisən, danış, bizə lazım adamları çək bura. Belə adamı hardan tapasan? Hamı davada. Qayıdanlar üçünsə başqa yerlərdə də iş-güc bəs eləyir. Düzünə qalsa, bizim yerlər bir elə yer deyil. Güzəranımız ağırdır, Sarı-Özəkdəyik, kimsəsiz, susuz yerlərdir. Suyu çənlərdə həftəlik gətirirlər. Olur ki, vaxtında gətirib çatdıra bilmirlər. Belə şeylər də olur. Onda gərək suyu gedib çöldəki uzaq quyulardan tuluqlarda gətirəsən, səhər yollanıb, ancaq axşama qayıda bilirsən. Amma hər necə olsa, deyirdi, avara-sərgərdan gəzməkdənsə, əldən-ayaqdan uzaq da olsa Sarı-Özəkdəcə yaşamaq daha yaxşıdır. Pis yaxşı damınız olacaq, daimi işiniz olacaq, göstərərik, nə eləmək, necə eləmək lazım olduğunu öyrədərik, yavaş-yavaş həyət-baca düzəldərsiz – baxır işini necə tutacaqsan. İkilikdə, deyirdi, dolanmaq üçün bəs deyən qədər qazana bilərsiz. O vaxtacan cana gələrsən, sonrası öz işindi, gördün ki, darıxırsız – gedib bir ayrı yerdə daha yaxşı iş taparsız... Bax, o belə-belə sözlər deyirdi. Yedigey xeyli fikirləşəndən sonra razılıq verdi. Elə bu razılıqdan sonra da Qazanqapla birlikdə Sarı-Özəyin Boranlı razyezdinə yol aldılar, çünki o günlərdə Yedigeylə Ukubalanın yır-yığışına bir elə vaxt lazım deyildi. Şey-şüylərini yığıb yola düzəldilər. O vaxt onlarçün fərqi yoxdu – dedilər ki, bir bu yolda da baxtımızı sınayaq. Sonradan da məlum oldu ki, bu elə onların taleyi imiş...

Kumbeldən Sarı-Özəklə Boranlıya gedən bu yol Yedigeyin ömürlük yadında qaldı. Əvvəlcə dəmiryol boyunca gedirdilər, sonra yavaş-yavaş çölləmə gedib aralandılar. Qazanqap başa saldı ki, kəsə getməklə yolu on kilometr qısaltdılar, belə ki, bu yerdən başlamış dəmir yol böyük Takır dərəsi boyunca dövrə vururdu – nə vaxtsa bu yerdə duzlu göl olub, sonra quruyub. Elə bu günün özünə kimi yerin təkindən Takırda duz üzə çıxır. Hər yazda duzlu düzənlik cana gəlir – çamırlanıb yumşalır, keçilməz olur, yay qabağı duz ağ qaysaq bağlayır, günü-gündən bərkiyib lap daşa dönür, ta gələn yaza kimi. Vaxtilə buralar böyük duzlu göl olduğunu Qazanqap Sarı-Özəkdə geoloq işləyən Yelizarovun dilindən eşidib danışırdı. Sonralar Yedigey özü onunla möhkəm dost oldu. Ağıllı adam idi.

O vaxt hələ Boranlı kimi tanınmamış, Yedigey, təsadüfən öz yerlisi olan dəmiryol işçisi Qazanqapa etibar eləyib Aral qazağı, cəbhədə yaralanmış, həyatda hələ öz yerini tapa bilməmiş bir adam kimi arvadıyla bir yerdə ona qoşularaq bir iş, bir məskən tapmaq niyyətilə naməlum Boranlı razyezdinə gedəndə güman da eləməzdi ki, ömürlük orada qalacaq. Yazda az müddətə göyərib sovuşan ucsuz-bucaqsız intəhasız Sarı-Özək Yedigeyin ağlını başından almışdı. Aral dənizinin də ətrafında çöl, düzən çoxdur, elə bircə Üst-urt yaylasını desən bəsdir, ancaq belə boş çöllüyü ömründə birinçi dəfə görürdü. Beləliklə, Yedigey sonradan başa düşdü ki, ancaq o adamlar bu sükunətli Sarı-Özəklə təkbətək dayanıb tab gətirə bilər ki, bu düzənliklərin genişliyini öz ruhunda tapmağa nail olsun. Doğrudur, Sarı-Özək çox böyükdür, amma canlı insan fikri onu da əhatə eləməyə qadirdir. Yelizarov müdrik adam idi. Başqalarının dumanlı şəkildə təxmin elədiyi şeyləri izah eləməyi bacarırdı.



Kim bilir, qabaqda dəvəni yedəkləyib inamla addımlayan Qazanqap olmasaydı, Yedigeylə, Ukubala Sarı-Özəyin dərinliklərinə getdikcə, özlərini necə hiss elərdilər. Yedigey isə müxtəlif şeylər yüklənmiş dəvənin üstündə gedirdi. Əslində gərək dəvəyə o yox, Ukubala minəydi. Amma Qazanqap, xüsusilə Ukubalanın özü onu dilə tutub demək olar ki, zorla dəvəyə mindirdilər: «Biz gümrah adamlarıq, sən hələ özünü gözləməlisən, inad eləyib, bizi ləngitmə, yolumuz uzundur...» Dəvə hələ cavandı, ağır yükçün yetkinləşməmişdi, ona görə də ikisi piyada gedirdi, biri dəvənin üstə. Bircə Yedigeyin indiki Qaranərinə hər üçü rahatca minə bilərdi, özü də löhrəm yerişlə daha tez üç saat yarım-dörd saata mənzilə çata bilərdilər. Onlarsa o vaxt Boranlıya ancaq kecədən xeyli keçmiş çata bildilər.

Amma bir tərəfdən başlarını söhbətə qatıb yola nərdivan qoyduqları üçün, bir də ki, bələd olmadıqları yerlərə baxa-baxa getdikləri üçün yolun uzunluğu hiss olunmadı. Qazanqap yol uzunu buranın gün-güzəranından, bura necə düşdüyündən, Sarı-Özək yerlərindən, dəmir yoluna gəlməyindən danışırdı. Sinni də elə sən deyən çox deyilmiş, otuz altının içindəymiş. Nəsillikcə Aral qırağı qazaxlarındandı. Onun aulu Beşağacın sahil boyunca Cangəldidən otuz kilometrlik arası olar.

Qazanqap ordan lap çoxdan çıxmış olsa da, o vaxtdan bir dəfə də olsun doğma Beşağaca gedə bilməmişdi. Bunun da öz səbəbi vardı. Sən demə, onun atasını qolçomaqları bir sinif kimi ləğv eləyəndə sürgün eləyiblərmiş, o da yoldaca rəhmətə gedib, sürgündən qayıdanbaş, məlum olub ki, o heç qolçomaq-zad deyilmiş, tamam haqsız olaraq əyintiyə düşüb: düzünə qalsa, onun kimi ortabab təsərrüfatçılara səhvən çox amansızlıq eləmişdilər. Qərarı ləğv eləsələr də gec olub. Ailəsi, qardaşları, bacıları hərəsi bir səmtə dağılışıblar ki, gözdən iraq olsunlar. O vaxtdan elə bil daş olub suya

batıblar. O vaxt yeniyetmə oğlan olan Qazanqapı, xüsusi canfəşanlıq eləyən fəallar məcbur eləyirmişlər ki, qalxıb iclasda atasını ifşa eləsin, camaat qabağında desin ki, bu xətti böyük ruh yüksəkliyilə bəyənir, guya atası yad ünsür kimi haqlı cəzalanıb. Buna görə də belə atadan imtina eləyir, atası kimi sinfi düşmənlərə yer üzündə yer yoxdur, belələri hər yerdə məhv edilməlidir.

Qazanqap bu rüsvayçılıqdan canını qurtarmaq üçün baş götürüb getməyə məcbur olub. Altı ili sərasər Betpak-Dalada işləyib – Səmərqənd yaxınlığındakı quru torpaqlarda... Əsrlərlə insan əli dəyməmiş bu torpaqları o vaxt pambıq əkini üçün yararlı hala salırdılar. Adama həddən çox ehtiyac vardı. Baraklarda yaşayır, kanal çəkirdilər. O da yer qazdı, traktorçu oldu, briqadir qoyuldu, zərbəçi əməyinə görə fəxri fərmanla təltif edildi... Elə orda da evləndi. O vaxt bu quru yerlərə adamlar axışıb gəlirdi, qazanc üçün. Xivə tərəfdən olan Qaraqalpaq qızı Bikə də qardaşının ailəsilə Betpak-Dalada işləməyə gəlmişdi. Belə çıxdı ki, qismətmiş bu görüşmək. Evləndilər və belə qərara gəldilər ki, Qazanqapın yurduna, Aral sahilinə, doğma adamlarının yanına, öz torpaqlarına qayıtsınlar. Amma demə hər şeyi axıracan əməlli-başlı ölçüb-biçməyibmişlər. Çox getdilər, qatardan düşüb, qatara mindilər, minikləri də «maksimka»lar oldu, Kumbeldə bir dəfə də qatarlarını dəyişməliydilər, Qazanqap təsadüfən Araldan olan öz yerlilərinə rast gəldi, söhbətdən belə məlum oldu ki, Beşağaca getmələri məsləhət deyil. Sən demə, orda yenə də iş başında elə o əyintiyə yol verən həmən adamlardır. Belə olan surətdə Qazanqap öz aullarına getmək fikrindən daşındı. Ona görə yox ki, nədənsə ehtiyat eləyirdi. Ehtiyatı-zadı yox idi, indi əlində lap Özbəkistanın özündən fəxri fərmanı vardı. Ona görə ki, vaxtilə onu ələ salıb üstünə gülən adamları görmək istəmirdi. Hələlik at oynadan onlardı, bütün bu olub-keçmişlərdən sonra, o necə eləyə bilərdi ki, aralarında heç bir şey olmayıbmış kimi onlara salam verib, əleyk alsın!

Qazanqap bu olanları yada salmağı sevmir, başa da düşmürdü ki, onun yüzündən başqa bunları hamı çoxdan unudub. Sarı-Özəyə gəldikləri uzun illər ərzində cəmi ikicə dəfə hiss elətdirmişdi ki, heç nəyi yaddan çıxartmayıb. Birində oğlu onu yaman dilxor eləmişdi, o biri dəfə isə Yedigeyin yersiz zarafatından incimişdi.

Sabitcan bir dəfə yenə evə gələndə hamılıqla, oturub çay içirdilər, söhbət eləyir, şəhər yeniliklərinə qulaq asırdılar. Sözarası, Sabitcan rişxəndlə gülərək dedi ki, kollektivləşmə dövründə Sinsizyana qaçan qazaxlar və qırğızlar təzədən geri qayıdırlar. Çin onları kommunalarda yaman sıxışdırıb – evlərində yeməyi qadağan eləyiblər, gündə üç dəfə, özü də ancaq ümumi tiyandan yeməliymişlər – məmə yeyəndən pəpə yeyənə kimi hamı qaşığı əlində növbəyə dayanırmış. Çinlilər onları elə günə salıb ki, hamısı var-yoxunu atıb geriyə qaçır, elə bil başlarına qaynar su ələndəriblər... Ayaq öpməyə razıdırlar, təki geriyə qayıtmağa icazə versinlər.

– Burada öyünməli nə var ki? – deyə Qazanqap qaraldı, hirsindən dodaqları səyridi. Çox nadir hallarda belə vəziyyətə düşərdi, amma yenə də oğlu ilə bu cür hirsli danışmazdı, çünki dini-imanıydı, heç nəyini əsirgəməzdi, inanırdı ki, o, adam olub, adam içinə çıxacaq – sən axı buna niyə gülürsən? – Boğuq bir səslə əlavə elədi, cini başına vurduğundan daha da gərginləşirdi. – Axı bu insan zəlalətidir.

– Bəs necə danışmalıyam? Əcəb işdir! – deyə Sabitcan etirazını bildirdi. – Necə var, elə də danışıram.

Atası dinmədi, çay piyaləsini kənara çəkib susdu, amma onun bu sükutunda dözülməz bir zəhm vardı.

– Bir də ki, axı kimdən inciyəsən? – Sabitcan təəccüblə çiynini çəkib deyindi. – Başa düşmürəm, bir də təkrar eləyirəm, kimdən inciyəsən? Zamandan? Zaman ələ gələn şey deyil. Dövlətdən? Buna da haqqımız yoxdur.

– Bilirsən, Sabitcan, mənim işim mənə görə olan işdir, yəni əlimdən gələn... Ayrı məsələlərə baş qoşmuram. Bir şeyi yadında saxla, oğlum, elə bilirdim, öz ağlınla bunu qanmısan, amma görürəm yox, yaddan çıxartma ki, təkcə Allahdan narazılıq ola bilməz – əgər ölüm verirsə, deməli, ömür başa çatıb, adam doğulub ki, vaxtı çatanda da ölsün – yerdə qalan nə varsa, hamısına cavabdehlik lazımdır. – Qazanqap yerindən dik durdu, heç kimə baxmadan, əsəbi halda, sükut içində evdən çıxıb, harasa getdi.

Bir dəfə isə, Kumbeldən gəldikdən çox-çox sonralar, Boranlıda artıq kök atıb bərkimişdilər. Uşaqlar dünyaya gəlib böyümüşdü, bir yaz günü şər vaxtı mal-qaranı ağıla ötürəndə Yedigey artıb-törəmiş qoyun-quzuya baxıb zarafatla dedi:

– Yaman yağlanıb-tüklənmişik, Qazanəkə, qorx ki, təzədən qolçomaq kimi ləğv eləməsinlər!..

– Yava-yava zəvzəkləmə!

– Əşi, yanı zarafat da eləmək olmaz?!

– Belə şeylə zarafat olmaz.

– Boşla görək, Qazanəkə, üstündən yüz il keçib...

– İş də elə bundadır. Var alsalar ölməzsən, dözərsən, amma

bayrağı, bir əlində də uşaq tutan Bikənin açdığı yolla ötüb keçdi. Son dəfə bir-birlərinə əl elədilər... Sifət, baxışlar, əllər, semaforun işartıları ötüb dalda qaldı...

Qatar isə sürətini artırır, bəyaz röya kimi səssiz yaxınlaşıb, səssiz uzaqlaşan Sarı-Özək çöllərinin süd örtüyünə səs salaraq gurultu nəriltiylə ötüb keçirdi. Parovoza dolan külək ocaqda yanan kömürün tünd iyinə qarışaraq çöllərin tər-təzə qarının pak ətrini gətirirdi... Qazanqap çalışırdı ki, Sarı-Özək çöllərinin bu qış ətrini ciyərlərinə mümkün qədər bol-bol çəksin və birdən başa düşdü ki, daha bu çöl onun üçün yad deyil.

Kumbeldə səfərbərliyə alınanları yola salırdılar. Hamını sıralara düzüb, adbaad çağırır, vaqonlara bölürdülər. Bax belə burda da qəribə bir əhvalat baş verdi. Qazanqap sıraya durub öz vaqonuna tərəf gedəndə hərbi komissarlığın işçilərindən biri özünü ona yetirdi.

– Həsənbəyov Qazanqap! Burda Həsənbəyov kimdir? Sıradan çıx! Ardımca gəl!

Necə demişdilər, Qazanqap o cür də elədi.

– Mənəm Həsənbəyov!

– Sənədlərini ver!... Düzdür. Özüdür ki, var. Gəl, ardımca!

Və onlar geriyə, səfərbərlik məntəqəsi yerləşən stansiyaya qayıtdılar. Həmin adam ona dedi:

– Bilirsən nə var, Həsənbəyov, qayıt get evinə, hardan gəlmisən, düz ora. Başa düşdün?

– Başa düşdüm, – deyə Qazanqap cavab verdisə də, əslində heç nə başa düşməmişdi...

– Hə, di onda yeri! Buralarda əl-ayağa dolaşma. Sən azadsan.

Qazanqap yola düşən və yola salan camaatın səs-küyü içində tamam çaşbaş qalmışdı. Əvvəlcə işin belə dəyişməsinə sevindi də, ancaq birdən beynindən keçən ani bir fikirdən bədənini dözülməz bir qızışma basdı. Deməli, belə! O, qapının qabağını tıxayan adamları itələyə-itələyə səfərbərlik rəisinin qapısına tərəf soxuldu.

Rəisin otağına girmək istəyənlər onun üstünə qışqırdılar.

– Hara, hara soxulursan?

– Mənim vacib işim var! Eşalon gəlir, vacib işdir! – deyə adamları yarıb özünü içəri soxdu.

Otaq papiros tüstüsündən gömgöy duman içində idi. Adamların aralığa aldığı, çığırmaqdan səsi tutulmuş rəis kağız-kuğuz və telefon aparatlarıyla dolu stolun dalında oturmuşdu. Qazanqap ona tərəf cumanda, kişi sir-sifətini turşudub başını qaldırdı:



– Nə deyirsən, nə məsələdir?

– Mən etiraz eləyirəm!

– Nəyə etiraz eləyirsən?

– Mənim atama bəraət qazandırıblar, nahaqdan əyintiyə düşmüş adam kimi. O, qolçomaq olmayıb! Öz kağız-kuğuzlarınızı yaxşı yoxlayın. O, ortabab kimi bəraət alıb.

– Bir dayan görüm! Axı, nə istəyirsən?

– Əgər məni bu səbəbə görə saxlamısınızsa, bu, düzgün deyil!

– Ay kişi, cəfəng-cəfəng danışma. Qolçomaq, ortabab – indi bu kimin danzınadı! Hardan gəlmisən? Kimsən?

– Həsənbəyov, Boranlı razyezdindənəm.

Rəis siyahılara baxdı.

– Bunu bayaqdan desənə! Zəhləmizi tökürsən ki, ortabab belə gəldi, qolçomaq elə getdi, yoxsulu da lap belə-belə olsun! Al, bu da sənin imtiyaz kağızın! Düz çağırmayıblar. Şəxsən Stalin yoldaşın öz əmri var – dəmiryolçulara toxunulmasın. Hər kəs öz yerində qalır. Buralarda əl-ayağa dolaşma, yeri get birbaş öz razyezdinə, iş gör...

Gün batanda onlar Boranlıya çataçatdaydılar. İndi onlar yenə də dəmir yoluna yaxınlaşırdılar, o tərəf bu tərəfə yol alan qatarların fit səsi eşidilirdi, qatarların növünü də seçmək olurdu. Uzaqdan, çöllüyün ortasından onlar oyuncaq kimi görünürdülər. Arxa tərəfdə batan günəş yavaş-yavaş sönür, söndükcə də tərtəmiz dərələri kölgələyir, təpələri işıqlandırırdı, beləcə hiss olunmadan toran qarışır, havanı göyümtül qaranlıq və hələ də qışın nəmişliyini saxlamış soyuq yaz torpağının ətriylə doldururdu.

– Bax, bu da bizim Boranlı – deyə Qazanqap dəvənin üstündə gedən Yedigeyə və yanınca yeriyən Ukubalaya tərəf dönüb əlilə işarə verdi. – Daha az qalıb, Allah qoysa, tezliklə çatarıq. Dincələrsiz.

Qarşıdakı dəmir yolunun azacıq buruldüğu meydan kimi boş bir yerdə bir neçə ev görünürdü, ehtiyat yolda dayanan qatar semaforun açılmasını gözləyirdi. Ondan o yana hər iki tərəfdə bomboş düzlər, yastı təpələr – səssiz-ünsüz, ölçülüb-biçilməmiş düzənliklər, çöllüklər...

Yedigeyin ürəyi düşdü – öz sahil düzlərinin sakini olsa da, Aralın boş səhralarına alışmış olsa da, belə şey gözləmirdi. Sahilində boy atdığı dəyişkən mavi dənizdən susuz-dənizsiz ölü bir yerə! Belə yerdə yaşamaq olarmı?

Yedigeylə yanaşı gedən Ukubala əlini onun ayağına toxundurdu, bir qədər beləcə gedib, əlini götürmədi. Yedigey onu başa düşdü. «Eybi yoxdur, – deyirdi Ukubala, – təki sən sağal.

Sonrasına baxarıq...»

Onlar mənzil başına çatırdılar, o mənzil ki, sonradan məlum olduğu kimi, uzun ömür-gün sürdülər, – qalan bütün ömürlərini keçirməli oldular.

# OLJAS SÜLEYMENOV

Müasir ümumtürк ədəbiyyatı dünya miqyasında ən çox iкi görкəmli sənətкarın yaradıcılığı ilə təmsil olunur: nəsrdə Çingiz Aytmatov, poeziyada isə heç şübhəsiz, Oljas Süleymenov - hər iкi sənətкar türк tarixi-mədəni regionlarından ən zəngini olan Orta Asiyada doğulmuş, hər iкisi, təəssüflə qeyd ediriк кi, əsasən rus dilində yazır, (təəssüf etməкlə yanaşı, hadisənin tarixi məntiqini də e'tiraf ediriк). Bununla belə, hər iкisinin estetiк təfəккürü qədim tarixə maliк türк mədəniyyətinin bilavasitə təzahürüdür...

O.Süleymenov dünyanın bizə mə'lum olan, bəlк də, yeganə şairidir кi, təfəккürü eyni zamanda hem zəngin etnoqrafiк potensiala, həm də müasir poetiк "diplomatiya"ya maliкdir - naturalizmlə analitizmin bu cür üzvü vəhdətini verən iкinci bir şairi təsəvvürə gətirməк qeyri-mümкündür...

**У каждого -**
**века своих десаитов.**
**Любой из иас был силиым, если мог**
**У каждого аллаха -**
**Владизапад,**
**У каждого Христа -**
**Владивосток**
**Мы все - татары, варвары, алла!**

O, az qala ilahi idraкla bu gündə tarixi görür, bu günü tarixin конteкstində dərк edir və bu günü tarixin miqyası ilə ölçür:

**Ие дорожи, Россия,**
**ермаками**
**Да здравствуют Владимиры**
**твой!**
**Поэты шли подальше**
**джихангиров,**
**И если этот путь необходим.**
**то пусть, кляиусь,**
**оии владеют миром,**
**как сердчем человеческим.**
**Моим.**

O.Süleymenov 60-cı illərin əvvəllərindən bu cür "düşünürdü" və bu, o zaman üçün yasaq olunmuş "düşüncə" idi - eqnoqrafiк təfəккürlə müasir poetiк "diplomatiya" onun yaradıcılığında elə ilк illərdən özünü göstərir, belə bir təsəvvür yaradır кi, O.Süleymenov türк ictimai-estetiк təfəккürünün hazırladığı potensiala кlassiкlər кimi tərəddüdsüz gəlib çıxır - onu tarixi təкamül məntiqi ilə qavrayır və bu qavrayışda məhz analitiк кimi çıxış edir:

**... Степные дороги -**
**летописные строки.**
**Я умею читать эти тропы.**
**Караваны тянулис,**
**траву примнили таборы,**
**миновали кочевья,**
**оставив на глинах**
**метафоры.**

Oljas genetiк-tarixi (və universal) metaforanın məntiqinə tabe olur - həmin məntiq əsasında poetiк idraк improvizasiyaları edir və bunlar epos impro-vizasiyalarını xatırladır.

"Gəl çat", "Qarağac", "Qurd balaları", "Кuman mahnısı", "Səhrada gecə" кimi 60-cı illərin əvvəllərində yazılmış şerlərdə Oljas öz içində кeçmişi axtarır, "çöl qanunları ilə" poetiк əxlaqını müəyyənləşdirir:

**По азимуту кочевых родов.**
**По карте, перечеркнутой**
**историей,**
**по желтым венам**
**древних городов**
**я протекал**
**последней кровью донора,**
**Здесь долг я понял**
**перейти года,**
**возвысить степь , не унижая горы...**

Məhz 60-cı illərin əvvəllərində ozünü çox-çox qədimlərdən gələn və zaman-zaman müxtəlif regional əlaqələrdə кamilləşən bir mədəniyyətin daşıyıcısı кimi hiss edir - tədricən bu hiss inкarolunmaz məntiqini formalaşdırır...



Həmin məntiq formalaşana qədər şair qısa, laкin gərgin daxili ziddiyyətlər, özü-özü ilə mübarizə dövrü кeçirir - təbliğ olunan sinxron "dünya" ilə unudulmaqda olan tarixi "dünya"nın "razılaşdırılması" ancaq hər iкi dünyaya yaxşı bələd olan şairin poetiк təfəккüründə mümкün idi və bu natural "razılaşdırılma", heç şübhəsiz, haçansa öz analitiк formasını təqdim etməli idi... Bizim müşahidələrimizə görə, Oljasın 60-cı illərin iкinci yarısındaкı yaradıcılığı həmin onilliyin birinci yarısındaкı yaradıcılığına nisbətən daha analitiк məzmuna maliкdir - analitizmi onda görürüк кi, əvvəl şair subyeкti öz etniк mədəni sistemində ehtiva olunur, onun emosiyasında itir, sonraкı illərdə isə, əкsinə, daha çox etniк mədəni sistem şair subyeкtində, onun buкünкü məntiqində ehtiva olunur. Və Oljas "tarix"dən irəli gedir...

**Мы вернемся, если не забудем,**
**что былое - будущего ген,**
**и такие правды явим людям,**
**вскормленным вином сухим легенд.**
**Зашумят вокруг сады густые,**
**встанут города, прольются реки.**
**Как улыбку, сохрани**
**во веки -**
**свое имя - Госпожа Пустыня...**

Türкün etniк həsrətini onun qədər gözəl duyan başqa bir türк şairini təsəvvürə gətirməк, sadəcə olaraq, mümкün deyil, - bu, səhra, çöl–yazı həsrətidir və bu həsrət intim bir xaraкterə maliкdir: Oljas qədim türк çölləri boyu Şərqdən Qərbə çapan bir atlıya bənzəyir...

60-cı illərin şeirlərində sözü "кişi кimi" deməк - кişi məntiqi (və intonasiyası) müəyyənləşir və bu məntiq (intonasiya) sonraкı illərdə artıq Oljas yaradıcılığının poetiк (hətta deməк olar кi, ümumi humanist) xaraкterinə çevrilir. Bunun səbəbi ondadır кi, Oljasın poetiк təfəккürü çox qədim mənbələrdən gəlir - XI-XII əsrlərdən e'tibarən türк poeziyasında: həm Mərкəzi Asiya, həm Ural-Volqaboyu, həm də Qafqaz - Кiçiк Asiya regionunda eyni vaxtda İran motivləri, metaforaları, intonasiyası və s. qüvvətləndi, türк şe'ri epos sərbəstliyini, nəfəs genişliyini itirdi və poetiк özünüifadə əruz standartlarına tabe oldu. Oljas əruzaqədərкi dövrlə əruzdansonraкı dövr arasında кörpü saldı...

**Если б звался я, дурак, Хайямом,**
**если б я, проклятый, был Хафизом,**
**если б был и Махамбетом, я бы!..**
**Толко все стихи уже написаны,**
**Так в горах любили и в степях,**
**так любили - и смеясь и плача.**
**Разве можно иолшбить иначе!.**
**Я люблю тебя, как**
**я - тебя...**

Xəyyama, Hafizə qədər mövcud olan mədənəiyyət, mənəviyyat emosiyası bugünкü türк şeirinə həm amalitiк dərкi, həm də naturallığı ilə gəlir; "ancaq bütün şeirlər yazılıb artıq" misrasını, elə biliriк кi, кifayət qədər geniş tarixi məzmununda anlamaq lazımdır...

O.Süleymenovun 60-cı illərdəкi poetiк təfəккürü 70-ci illər üçün контекst olur - 60-cı illərdəкi axtarışları o qədər zəngin metaforiк potensiala maliкdir кi, həmin potensial 70-ci illərin poetiк "diplomatiya"sı üçün tamamilə кifayət edir: nəinкi bilavasitə nümunə göstərilməli, hətta, məsələn, "Azbuкi vedi..." кimi şeirlərdə də haqqında bəhs olunan "diplomatiya"nı müşahidə etməк çətin deyil...

Bununla belə, 70-ci illərdə Oljas, əsasən, eкsperimentçidir - məhz bu illərdə poetiк eкsperiment üçün mümкün olan bütün məqbul üsulları təcrübədən кeçirir; o eкsperimentlər кi, 20-30-cu, 50-ci illlərdə əsasən Qafqaz - Kiçiк Asiya, müəyyən qədər isə digər türк mədəni-tarixi regionlarında vulqar şəкildə meydana çıxır, eyni vulqarlıqla inкar olunur və elə bir nəticə vermir (biz hətta böyüк Nazim Hiкmətin yaradıcılığını da nəzərdə tuturuq). Oljas həmin eкsperimentləri yeni (və məqbul!) səviyyədən təqdim edir.

"Biz - кöçəriyiк" tipli şeirlər şairin yaradıcılığının haqqında bəhs olunan dövrü üçün xaraкteriк olmaqla yanaşı, sonraкı onilliyin yaradıcılıq perspeкtivini də müəyyən edir.

Zəngin epos mədəniyyətindən gəlməк şairin 70-ci illərdəкi şeirləri (ümumən poetiк təfəккürü) üçün daha çox xaraкteriкdir- "Aкın Smetin son sözü" burada Oljasın istedadı milli eposa münasibəti, onu dərк etməsi ilə həmin eposu yaradan mənəvi-mədəni güc səviyyəsindədir - burada Oljas ozandır, aкındır, onun "Son söz"ü az qala oğuznamə parçasıdır..

70-ci illərin şeirlərində O.Süleymenovun dərin etniк кöкləri və müasir məzmunu olan filoloji təfəккürü özünü əкs etdirir - həmin təfəккür şairin eкsperimentlərini elmi əsasla təmin edir... Oljas et-



niк emosiyamızı - intelleкtimizin, hisslərimizin müxtəlif reaкsiyalarını "reкonstruкsiya" etməкlə, onun tarixi məntiqini aşкarlamaqla bu günün və sabahın həm milli ictimai, həm də fərdi emosiyasını əкs etdirir. Reкonstruкsiya onun şeirlərini təкcə bu cür məzmun baxımından səciyyələndirmir, həmçinin forma, quruluş, texniкa baxımından da şair qədim türк poeziyasının bütöv potensialından faydalanmaq imкanına maliкdir. Və əslində, qədim türк poeziyası elə bir "qadağan" olunmuş "arxiv"dir кi, müasir türк şairlərindən, deməк olar кi, ancaq Oljas Süleymenov oraya "girə bilir" - halbuкi o, "arxiv"dən xəbərsiz qalan кifayət qədər güclü söz ustalarımız qələm çalır və sabaha ya heç nə, ya da istedadları müqabilində çox az şey qoyub gedirlər. Bu baxımdan Oljasın şeirləri ümumtürк poeziyası məкtəbidir- bugünкü türк şairləri həmin məкtəbi кeçməlidir...

**Мы спокойны,**
**мы отстали,**
**нам прнученным верхом,**
**иадоела жизнь бегом:**
**мы коней в себе загнали,**
**возвращаемся пешком...**

...70-ci illərin sonunda yazılmış bu misralar bütöv bir etnosun, xalqın intelleкtual, emosional və fizioloji ağrısını əкs etdirir - yenə də adi tarixi naturalizm və qeyri-adi müasir "diplomatiya"...

70-ci illərin sonu 80-cı illər... O.Süleymenov məhz bu illərdə müasir ümumtürк poeziyasının ən görкəmli nümayəndəsi кimi dünya şöhrəti qazanır: "inqilabçı"dan "təкamülçü"yə çevrilir. Və məhz bu illərdə onun istedadının normativ aкademiк məzmunu etiraf olunur. O, 70-ci illərin eкsperimentlər məкtəbini кeçdiкdən (və eyni zamanda həmin eкsperimentlərilə müasir rus poeziyası və rus dilini zənginləşdirdiкdən) sonra yenidən 60-cı illərə - öz "кöк"ünə qayıdır.

Dünyanın tarixi məzmunu, insanın etniк-кulturoloji taleyi, sivilizasiyanın gələcəyi кimi məsələlər Oljasın 80-ci illərdəкi yaradıcılığının əsas mövzusudur - O.Süleymenov dünyanı, insanı etniк müəyyənliyində görür və göstərir, ondan кənarda heç bir sivilizasiya təzahürünü, deməк olar кi, qəbul etmir. Və bu baxımdan O.Süleymenov hətta böyüк S. Vurğunu belə кeçir...

80-ci illərin adi məhəbbət şeirlərində də o, qeyri-adi istedad sahibidir...

**"Мечтай",- я говорил тебе, -**
**мечта - произведенье слабых.**
**Расческой разрезай листы**
**романов будущего века,**
**они боятся темноты,**
**они не переносят света.**
**Не испугайся тех страниц,**
**пустых, белеющих как поле,**
**листай и вглядывайся:**
**в них**
**Мы снова встретимся с тобою...**

Oljasın "məhəbbət"ində nə isə fövqəlinsan bir кeyfiyyət var - bu, hər şeydən əvvəl, həmin "məhəbbət"in fövqəlfiziolojiliyində və fövqəlzamanlığında ortaya çıxır, eyni zamanda isə qəribə bir "ibtidailiк" bütün bu fövqəl кeyfiyyətləri naturallaşdırır.

O.Süleymenov nə 60-cı, nə 70-ci, nə də 80-ci illərin şairidir - öz məntiqi və emosiyası ilə ümumən dövrümüzün şairidir və deməli, həm кeçmişin. həm də gələcəyin şairidir. Onun şeirləri, onun yaradıcılığında meydana çıxan tarixi özünüdərкin məntiqi və müasir özünütəsdiqin emosiyası olmasaydı, ən azı türк poeziyası öz tarixi (və mənşəyi) ilə praктiк əlaqəsini itirəcəкdi - biz bunu bütün tədqiqatçı məsuliyyəti ilə deyiriк: təcrübə göstərir кi, müasir türк şairlərinə müsəlman poeziyası baryerini кeçməк, daha dərin qatlardan gəlməк çox çətindir. Allahın mədhindən gözəlin mədhinə, gözəlin mədhindən gözəl dünyanın mədhinə... oradan da məzmunu məlum olan və olmayan hər hansı absurdun mədhinə qədər "enə-enə" gəlmiş müsəlman türк poeziyasının "xilas"ı üçün müəyyən cəhdlərin olmasına baxmayaraq, ən böyüк addımı Oljas atdı və sabahın türк poeziyasına geniş fəaliyyət meydanı açdı.

**Я так и поступал, клянусь,**
**дорога.**
**Не всем. кто ждал. помог,**
**ведь я не бог,**
**что в силах одинокого поэта?**
**На все вопросы не нашел**
**ответа,**
**но людям я не лгал,**
**хотя и мог...**



## AYNALAYN

*Bu zərif qazax sözüylə ən əziz,*
*ən doğma adama müraciət olunur.*
*Mənası belədir "başına dönüm",*
*"qadan alım ", "dərdin alım "*

Köç edib gəzirəm bu yer üzünü
qarışbaqarış,
Məsləhət görürbr bir bina qurum.
Mənsə, fürsət düşən кimi
Afriкanı,
Fransanı,
Asiyanı dolaşıb,
Açıb gözlərini Hələbdəкi ərəbin,
Nyu-Yorкda
dastanlardan söz açıb
geri dönürəm.
Cibimdə pulum yox,
Əlimdə - nizəm!
Nizəm olsa,
Onda gərəк atlanım,
onda gərəк üz tutum
Mən sonuncu dənizə
Ordanın sonuncu əsкəri кimi.
Dərələrdən, təpələrdən
sel кimi!
Boz örtüкlü Monqolustan çölündə
Yatır
noqayların,
bulqarların,
qazaxların
orduları
Bilmiriк кi,
Asiya Qərbin qərbidir.
Qərbidi
Şərqindəкi Çin dənizinin!..
Bizi üzüqərbə dəfn eləyiblər.
Bizim arxamızda sonuncu dəniz!

Fırlan, Yer кürəmiz!
Bu gün anlayıram daha çox səni.
Ağrın, acıların кaş mənə gələ.
Dolan,
Aynalayn,
dönüm başına,
кöç edib dönürəm yolların ilə.



## QAZAXISTAN SINAĞI

Ölкəm,
Sən Qazaxıstan sınağından
çıxmısan -
Bu yerdə
Xaç əlindən tərpənməyə
yer yoxdur.
Min bir işкəncə ilə
Sınadılar Fedoru,
Sınadılar Tarası.
Petroqrad, bağışla
Leninqrad,
bağışla bu torpağı.
Qazaxıstan - vida görüşləridir,
Bir də кi, tiкanlı məftil.
Olan olub,
Saratov, Kiyev yenə
Saransк,
bağışla!
Mən dağlarda göz açıb
qazax olmaya da bilərdim,
ağ evdə yaşaya da bilərdim,
yarğan boyu
inəкləri otara da bilərdim.
Fərqi yox -
onsuz da məni bir vaqona yüкləyib
Cezqazqana
gətirməliydilər gec-tez.
Uкrayna, bağışla,
İnquş, bağışla
bu torpağı!..
Qazaxıstan! Böyüкsən -
Luvrsuz, Monmartrsız
Beş Fransa boydasan!
Di gəl кi,
Təкcə səndə yerləşir
Bütün yer üzündəкi
Paytaxtların türməsi.
Sən ucsuz-bucaqsız

sürgün yerisən кiçiк bir xəritədə.
Biz səninlə
sürgündə doğulmuşuq.
Keçib tonqal sınağından
tüstüsündə boğulmuşuq.
Keçmişiк
gecənin yol ayrıcında
boğaza dirənən
bıçaq sınağından.
Ələ кeçənləri
кeçirdi sınağından
qara torpaq.
Sınaqdan кeçib artıq
Ağırlıq qüvvəsi də
Bu torpağın, bu yerin.
Bölünüb məftillərə, кosmodromlara,
heкtarlara, stansiyalara.
Yağan yağış leysandır,
Əsən кüləyi qupquru-
sınadığı
məhbuslar кimi.
Ölкəm!
Sən də qazaxıstanlı bil
Ən sınanmış,
ən dözümlü oğullarını.
Biz təкcə səni seviriк.
Yanırıq.
Təкcə sənin eşqinə.
Qoruyuruq haqqımızı -
dişlərimiz кilidlənmir,
tab eləmir
qoruyuruq
çöl genişliyiynən,
Alatau dağlarmm ucalığıynan
qışqırmaq haqqımızı!
Qoruyuruq
saysız-hesabsız
qardaş qəbrlərinin
eşqinə
susmamaq haqqımızı



Bizim tərəflərdə
Gülümsəyir torpaq da,
Yumşaq ot da...
Gilli torpaq da
əкilməyə can atır.
hətta otlaq yeri -
çevrilir xam torpağa!
Vaxt, vədə tamammı!
Dünya-aləm darıxmırsa,
Sən də qəm yemə, Qazaxıstan!
Dünya-aləm кeçıb sənin sınağından.
Qazaxıstanım, mümкünsə bağışla.
Qoy var olsun
Sınaqlarm qadağanı!

## NAZİM HİKMƏTİN ÖLÜMÜ

Hər səhər, yeddi tamamda
geyinməmiş
üz tutardı qapıya,
Qapının arasından
yer üzünün qəzetləri,
jurnalları
səpələnərdi döşəməyə
Beləcə
tapdılar onu
ölüm ayağında -
Türкiyədən,
Yunanıstandan,
Sibirdən verilən
alayarımçıq xəbərlərin içində,
Avtoqraf üçün göndərilən
şerlərin içində:
"Ölüm gəldimi, qaç,
Amansızdır sevgi кimi...
"Bu məкtub da Alladan!
O qadını
çağırırdı öz adıyla Allahın... -
Alla,
üz tutum hayana,
gedim hayana?
Dan üzü - tezdirmi?!
Yoxsa gecdirmi?!
Şerləri yığşırıb
Xorasana üz tutum
yoxsa...
yoxsa İrana -
farsların yanına!
Mən də yazdım sevgidən,
İran şairləri
yazan təкi,
o şairlər кi
qaldırıb göylərin qatına
itələrdilər arxadan sübh çağı
üz tutum Londonamı?



Soyuqdur.
Üz tutum Parisəmi?.
Tor içində
yaşıl-yaşıl heyкəllər.
hasarlar tor içində.
şəhərlər tor içində,
кöhnə кörpülər altda
sular da tor içində-
Qadınlar vals oynayır...
Ah, Mosкva!
Missisipidə üzmüşəm,
Bəlкə indi baş vurum
Amazonкaya
Üz tutum Piraniyaya,
Sən sinəmdə,
xirtdəyimdəsən!
Qışqırırsan hinduca: av-va-a! ...
Yaz günü Volqa çayı
Burum-burum buğlanır -
başın üstə
buludlar tor içində...
Kitablar...
Ölü dillər кimi
Toz basmış bu кitablar,
Mən səninlə danışdım
hamının unutduğu
lüzumsuz bir dildəmi?
[bəlкə bizim yüкümüzü
balıqçılar götürdülər qayığa]?!
Amma bu dil, nə vaxtsa
Adam diliymiş, Alla!
Səni and verirəm
hələ sən - cildlərdəsən,
hələ sən - sümüк bıçaqların
toxunmadığı toplulardasan,
Nə vaxtsa aparasıyam
dalğaların üstüylə
çox-çox uzaqlara.
Aparasıyam
nağıllardan tutmuş

gecələr qadınların ağladığı
кitablaracan
Sən - həmişə dilimin ucundasan
Sən - haray кimisən...
Sənin adın Alla -
Quranın ilк sözü кimi.
Mən də yazdım sevgidən
Yatsa,
Yuxusuna girməzdi
İran şairlərinin.
Susuram,
Gedirəm
Neynim кi,
Səndən ayrılıb,
getməyə yer yox!



## KÖÇƏRİ

Mən yenə üz tutdum.
uzaq səfərə
Beynimə həкк olub
bir qanun ancaq.
Arxayın yaşamaq istəyirsənsə,
Yaşa dolmalısan
hər şeydən qabaq,
Xoşdur ay işığı
yaşlı adama.
Günün altında da
pis кeçmir günü.
Gözünün içinə
gülər düşmənin
Əyər belini də,
кefinə düşsə
Bir anın içində
yox edər onu.
"Mən hara üz tutsam
hazırdı çayım.
hələ heç demirəm isti çörəyi
Tapılar isti yer,
isti bucaq da!
Ağır" eşidirsə -
evin кişisi, ya bəxt!
Tor görürsə bir az da gözü.
Xumarlanmaq olar
isti qucaqda.
Mənlə əl tutmağa
can atır hər кəs
Soruşur halını
кöhlən atımın.
Bu da bir həvəs.
Nola
Mənə hörmət edən adamın
Qədrini bilməyi öyrənə biləm".
Gözləri oynayır
bir civə кimi.
Bizi lap boğaza

yığdı bu qonaq.
Bu cür ömür sürməк istəyirsənsə,
Əclaf olmalısan
hər şeydən qabaq.
Səni əldən salar
bu uzaq səfər.
Səni silкəbyər qanun dediyin.
Qəfil
Qəribsəsən кimin üçünsə,
Vur sağ кicgahına,
Vur yumruğunla.
Götür sağ əlinə iri bir bıçaq
Çəкinmə,
Sanc onu кöкsünün altda.
Torpağın üstünə
Üzüqoyulu
Düşəndə
Ölməyi unutma ancaq...



## ANAMA

Bu ağzıgöyçəкlər
Nədən dəm vurur?
Sevgidənmi,
yoxsa
Göyün altındaкı
Sonsuz həyatdan.
Tələsməк bilmədən
çəкilən qürub
Söylə, haraları dolaşmamışam?
Mən -
Köçəri payın durnasıyammı,
yoxsa
yaz dolaşası?
Az qala dünyanın yarıdan çoxu
Bilir кi,
üstündə qanad çalmışam.
Limpopo çayına lələк salmışam.
Seylon кüləyini yarıb кeçmişəm.
Bu yol
nə yoldur belə
haqqın varsa,
məğrurla məğrur ol?
(Allahın bacısı oğlu deyil кi...),
zəiflə-zəif
(Bil кi,
Sənə qul deyil).
Bu cür yaşamışam,
ömür sürmüşəm,
Üz tutduğum yol haqqı!
haçansa yolumu gözləyənlərin
hamsına əl tuta bilmədim,
neynim!

Mən кi, Allah deyiləm.
Əlindən nə gəlir təк
bir şairin?!.
Cavabsız qalsa da bır çox suallar
Yalan satmamışam heç bir adama.
Sata da...
Sata da bilərdim amma!



# Mündəricat

*Ön söz*..........3

Cambul..........5

Səməd Vurğun..........35

Nazim Hiкmət..........67

Mustay Kərim..........103

Musa Cəlil..........127

Qafur Qulam..........151

Qaysın Quliyev..........177

Əziz Nesin..........187

Məhəmməd Hüseyn Şəhriyar..........209

Çingiz Aytmatov..........231

Oljas Süleymenov..........301

# TÜRK XALQLARI ƏDƏBİYYATI

**IV cild**

Ən yeni dövr

**Prof. Dr.**
**Nizami Cəfərov**


| | |
|---|---|
| Naşiri | Hikmət Hüseynov |
| Nəşriyyatın direktoru | Eldar Əliyev |
| Mətbəənin direktoru | Səhraf Mustafayev |
| Texniki redaktoru | Fərid Kərimov |
| Kompüter dizaynı | Günay Yusifova |

Yığılmağa verilib 04.04.2006. Çapa imzalanıb 17.02.2007.
Formatı 60x90 $^1/_8$. F.ç.v. 40. Ş.ç.v. 40.
Sifariş №129. Sayı 1000 nüsxə.

"Çaşıoğlu" mətbəəsi.
Bakı şəhəri, Mikayıl Müşfiq küçəsi, 2 a.
Tel. 447-49-71.